ISSN 2409-0859

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 25
(II HİSSƏ)

BAKI – 2020

ISSN 2409-0859

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

Ünvan: 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812,
tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 25. Bakı: 2020. – 270 s.

Redaksiya heyəti

Rəbiyyət Nurullah qızı Aslanova, fəlsəfə elmləri doktoru, professor, BDU
Əziz Bəşir oğlu Məmmədov, fəlsəfə elmləri doktoru, professor, BDU
İzzət Əşrəf oğlu Rüstəmov, fəlsəfə elmləri doktoru, professor, BDU
Rəna Fuad qızı İbrahimbəyova, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
Zeynəddin Camal oğlu Hacıyev, fəlsəfə elmləri doktoru, professor, BDU
Bəxtiyar Həmzə oğlu Əliyev, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, BDU
Kamilə Ramiz qızı Əliyeva, psixologiya elmləri doktoru, professor, BDU
Tatyana İvanovna Bilenko, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
Sergey Nikolayeviç Volkov, fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
Ləzifə Nağı qızı Qasımova, pedaqogika elmləri doktoru, professor, BDU
Hikmət Əbdul oğlu Əlizadə, pedaqogika elmləri doktoru, professor, BDU
Fikrət Məmməd oğlu Əfəndiyev, fəlsəfə üzrə elmlər doktoru, professor, BDU
Qəmər Cəfər qızı Mürşüdlü, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
Kəmalə Həsən qızı Pənahova, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
Qızılgül Yasin qızı Abbasova, fəlsəfə elmləri doktoru, professor,baş redaktor, BDU
Daxil Cahangir oğlu Vəliyev, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
Vüsalə Kərəm qızı Musayeva, buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

HUMANİTAR ELMLƏR

PSİXOLOGİYA

İNTERNETDƏN ASILI TƏLƏBƏLƏRİN İDRAK PROSESLƏRİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

dos. Aydan Səməndərova
Bakı Dövlət Universiteti, psixologiya kafedrası
a.sudan77@mail.ru

Açar sözlər: internet, internet asılılığı, tələbələr, idrak fəaliyyəti, əqli qabiliyyətlər, intellektual inkişaf
Ключевые слова: интернет, интернет зависимость, познавательная деятельность, студенты, умственные способности, интеллектуальное развитие
Key words: internet, internet addiction, cognitive activity, students, mental abilities, intellectual development.

Müasir şəraitdə milyonlarla insanın həyatının ayrılmaz bir hissəsinə çevrilmiş internet şəbəkəsindən təhsil sahəsində də geniş istifadə edilir. Kütləvi kommunikasiyanın spesifik interaktiv vasitəsi olan qlobal internet şəbəkəsinə bu cür diqqətin olması ilk növbədə müxtəlif elm sahələrinə dair istənilən informasiyanı qısa müddət ərzində əldə etmək, kitabxanaya getmədən tələbələri maraqlandıran kitabların elektron variantlarından istifadə etmək, hətta online kurslarda iştirak etmək, distant təhsil almaq imkanından irəli gəlir. İnternet şəbəkəsinin sosial tərəfi onun müsair inkişaf vektorunu müəyyən etməyə, insanların fəaliyyətinin motivasiya əsaslarını, müəyyən etməyə imkan verir [1,səh.102].

Lakin internet şəbəkəsinin bir sıra müsbət tərəfləri olduğu kimi mənfi tərəfləri də var. Belə ki, müasir texnologiyaların tələbə-gənclərə ünsiyyət qurmaq və informasiya əldə etmək üçün böyük imkanlar verməsi, bir çox sferalarda tələbələrin həyatını yüngülləşdirməsi ilə yanaşı, şəbəkədən aşırı istifadə müəyyən hallarda psixoloji asılılığın təzahürünə səbəb olur, tələbə-gənclərin idrak proseslərinə özünəməxsus təsir edərək, onlarda dalğınlığa və iş məhsuldarlığının zəifləməsinə, səthi düşüncəyə səbəb olur, idrak fəallığını ləngidir [2, səh.95].

İnternetdən asılı tələblərdə idrak proseslərinin xüsusiyyətlərini öyrənmək məqsədi ilə tərəfimizdən BDU-nin Sosial elmlər və psixoloiya fakültəsinin IV kurs tələbələri ilə eksperimental-psixoloji tədqiqat keçirilmişdir. Tədqiqatda 74 nəfər tələbə iştirak etmişdir.

Tədqiqatda belə bir fərziyyə əsas götürülmüşdür ki, internet asılılığı tələblərin bir sıra idrak proseslərinə neqativ təsir göstərərək, onlarda diqqətin yayınmasına, hafizə pozuntusuna səbəb olur ki, bu da tələbələrin idrak fəallığını zəiflədir.

Tədqiqat zamanı Çenin "İnternet asılılığı" testindən [5, səh.9], Myunsterberqin "Diqqətin seçiciliyi" metodikasından, diqqətin keçirilməsinin qiymətləndirməsi üçün Qorbov cədvəlindən, qısamüddətli görmə hafizəsini, onun həcmini və dəqiqliyi öyrənmək üçün "Rəqəmləri yadda saxla" metodikasından, nəhayət tələbələrdə təsnifetmə və təhlil qabiliyyətini tədqiq etmək üçün "Anlayışların istisna edilməsi" metodikasından istifadə edilmişdir [4, səh.13].

Çenin "İnternetdən asılılıq" metodikasının nəticələrinin təhlili nəticəsində tədqiqatda iştirak edən 75 nəfər tələbədən 45-də (60 %-də) internetdən asılılığın olduğu, 30-da (40 %-də) isə asılılığın olmadığı müəyyən olunmuşdur.



Şəkil 1. İnternetdən asılılığı olan və olmayan tələbələrin göstəriciləri

Bununla yanaşı, internet asılılığının aşkar olunduğu 45 nəfərdən 21-də (47%-də) internetdən asıllığın yuxarı səviyyəsi, 19-da (42 %-də) isə internetdən asılılığın orta səviyyəsi və 5-də (11%-də) internetdən asılığın aşağı səviyyəsi müəyyən olunmuşdur.



Şəkil 2. Tələbələrdə internetdən asılılığın göstəriciləri

Həmçinin rəyi soruşulan tədqiq olunanların internetdən hansı məqsədlərlə istifadə etməsini aydınlaşdıran zaman müəyyən edilmişdir ki, onların 30%-i ünsiyyətə girməklə, 28%-i əyləncə, 42%-i təhsillə bağlı internetdən istifadə edirlər.

Cədvəl 1

Tələbələrin internetdən istifadə etməsinin məqsədinə dair

Internetdən istifadənin məqsədi	Tədqiq olunanlarin cavablar (%)-lə
Ünsiyyətə girmək	30%
Əylənmək	28%
Təhsillə bağlı	42%

Eyni zamanda müəyyənləşdirilmişdir ki, rəyi soruşulan tələbələrin 25%-i internetə hər gün, 10%-i 3 gündən bir, 7%-i həftədə bir dəfə, 4%-i isə ayda bir dəfə istifadə edirlər. Tələbələrin 54%-i internetdə planlaşdırdıqlarından artıq vaxt keçirir.

İnternetdə nə qədər uzun müddət keçirmələrinə gəldikdə isə rəyi soruşulan tədqiq olunanların 45%-i orta hesabla həftədə 10-20 saat, 36%-i 5-10 saat, 14%-i 2-5 saat, 5%-i isə 2 saatdan az vaxt keçirir.

Tədqiq olunanların 44%-i tez-tez əsas işlərini internetə girdikləri üçün təxirə saldıqlarını bildirir. Bu da belə ehtimal irəli sürmək imkanı verir ki, tələbələrin böyük əksəriyyəti internetdən istifadə zamanı ev işləri, dərs, əhəmiyyətli şəxsi və işgüzar görüşləri haqda unutmağa meyllidirlər. Bununla yanaşı, tədqiq olunanların 45%-i ətrafdakıların onların virtual həyatlarından narazı olduğunu bildirmişdir.

Tədqiqatın sonrakı mərhələsində tələbə-gənclərin diqqətinin seçiciliyi öyrənmək məqsədilə Myusterberq metodikasından istifadə edilmişdir. Nəticələrin təhlili belə qənaətə gəlmək imkanı vermişdir ki, eskperimental qrupdan (internetdən asılı tələbələr) olan tələbələrin diqqətinin seçiciliyi nəzarət qrupuna daxil olan tələbələrdən kifayət qədər aşağıdır. Bu da onunla izah oluna bilər ki, internet şəbəkəsində çox vaxt keçirən tələbə-gənclərdə görmə pisləşir, yorğunluq müşahidə edilir. Bu da öz növbəsində diqqətin seçiciliyinə təsir edərək onun pisləşməsinə səbəb olur. İnternetdən asılı tələbələrdə ayrıca götürülmüş obyetklər üzərində diqqətin mərkəzləşməsi qabiliyyəti də zəifləyir. Bəzi komputer oyunlarından asılı olan tələblərdə isə davamlı olaraq məhdud sayda komputer düymələrinə başmaq yeknəsəkliyin (monotonluğun) inkişafına gətirir ki, bu şüurun nəzarətinin zəifləməsi, diqqət və hafizənin pisləşməsi ilə səciyyələnir ki, bu da öz növbəsində diqqətin seçicilik xüsusiyyətinin pisləşməsinə səbəb olur.

İnternetdən asılı tələbə-gənclərdə diqqətin keçirilməsi xüsusiyyətini öyrənmək məqsədilə Qorbovun metodikasından istifadə edilmiş və aşağıdakı nəticələr əldə olunmuşdur:

Cədvəl 2

Tələbə-gənclərdə diqqətin keçirilməsinin göstəriciləri

Düzgün deyilmiş hərflər cütünün sayı	Aşağı səviyyə (1-8 cüt)	Orta səviyyə (9-4 cüt)	Yüksək səviyyə (15-9 cüt)	Çox yüksək səviyyə (20-25 cüt)
Internetdən asılı tələbələr	65 %	30 %	5 %	0
İnternetdən asılı olmayan tələbələr	40 %	40 %	20 %	0

Cədvəldən göründüyü kimi, diqqətin keçirilmə xüsusiyyəti də internedən asılı tələbələrdə aşağıdır. Bu da onunla bağlıdır ki, internetdən, xüsusilə də şəbəkə oyunlarından asılı tələbələr oyun məkanındakı məhdud sayda obyektlərdə diqqətlərini mərkəzləşdirirlər. Nəticədə isə onlarda bir fəaliyyət növündən digərinə ixtiyari olaraq keçmək çətinləşir. Onlar tam virtual aləmə köklənirlər və tez bir zamandan reallığa qayıda bilmirlər.

Tədqiqat zamanı diqqəti çəkən məqamlardan biri isə internedən asılı tələbələrdə asılı olmayanlarla müqayisədə görmə hafizəsinin həcminin daha çox olmasının müəyyən edilməsi ilə bağlı idi. Cədvələ diqqət edək:

Cədvəl 3

Tələbə-gənclərdə görmə hafizəsinin göstəriciləri

Düzgün yada salınmış rəqəmlərin sayı	Norma və daha yüksək (7 bal və daha yuxarı)	Normadan aşağı (7 baldan aşağı)
Internetdən asılı tələbələr	55%	45%
İnternetdən asılı olmayan tələbələr	30%	70%

Nəticələrin belə olması onunla izah edilə bilər ki, bir çox hallarda şəbəkə oyunları oyunçudan çox sayda elementləri və simvolları yadda saxlamağı tələb edir. Virtual dünya öz qanunları olan bir aləmdir. Bu reallığa daxil olmaq üçün, virtual oyundakı tapşırıqları səmərəli həll edərək daha yüksək səviyyəvə keçmək üçün bu simvolların hamısının mənasını başa düşmək vacib deyil, lakin onların yadda saxlamaq lazımdır. Çünki oyunun nəticəsi məhz bundan asılıdır. Bu baxımdan, şəbəkə oyunlarında əsas vurğu görmə

hafizəsinə edilir. Nəticədə tələbə-gənclər bu yolla görmə hafizəsini məşq etdirmiş və daha da yaxşılaşdırmış olurlar.

Nəhayət, internetdən asılı tələbə-gənclərdə təsnifetmə və təhlil xüsusiyyətlərini tədqiq etmək məqsədilə "Anlayışların istisna edilməsi" metodikasından istifadə edilmişdir. Bu zaman əldə edilən nəticələr aşağıdakı cədvəldə öz əksini tapmışdır:

Cədvəl 4

Tələbə-gənclərin "Anlayışların istisna edilməsi" metodikası üzrə nəticələri

	Aşağı səviyyə (1-3 bal)	Orta səviyyə (4-6 bal)	Yüksək səviyyə (7-9 bal)
Internetdən asılı tələbələr	10%	35%	55%
İnternetdən asılı olmayan tələbələr	0	5%	95%

Cədvəldən göründüyü kimi, internetdən asılı tələbələrdə təfəkkürün təsnifetmə və təhlil kimi proseslərinin yüksək inkişaf səviyyəsi bu tələbələrin 55% də, aşağı səviyyəsi isə 10% də müşahidə olunduğu halda, asılı olmayanlar qrupunda bu göstərici 95% dir. Bu isə belə qənaətə gəlmək imkanı verir ki, internetdən asılı olmayan tələbə-gənclərdə təfəkkürün təsnifetmə və təhlil kimi prosesləri internetdən asılı olanlarla müqayisədə daha yüksək inkişaf etmişdir. Bu da onunla izah olunur ki, şəbəkə oyunlarında bütün obyektlər əvvəlcədən təqdim edilir və dəqiq müəyyən edilir. Şəbəkə oyunları gənclərdən təfəkkürün sürətini və oyun strategiyasına riayət etməyi tələb etdiyi üçün onlara həmin obyektləri təsnif etməyə və dəqiq təhlil etməyə ehtiyac qalmır.

ƏDƏBİYYAT

1. Бабаева Ю.Д., Войскунский А.Е., Смыслова О.В. Интернет: воздействие на личность. Москва: Изд-во Можайск, 2000, 431 с.
2. Войскунский А.Е. Актуальные проблемы психологии зависимости от Интернета. // Психологический журнал. 2004, № 1. С. 90-100.
3. Носов Н. А. Виртуальная психология. М.: Аграф, 2000, 433 с.
4. Психологические тесты / Под ред. А.А.Карелина. М.; Валдос, 2001
5. Chen S.H., Weng L.C., SU Y.J. et al. Development of Chinese İnternet Addictions Scale and its psychometric study.Chin Psychol., 2003

ОСОБЕННОСТИ ВЛИЯНИЯ ИНТЕРНЕТ ЗАВИСИМОСТИ НА ПОЗНАВАТЕЛЬНЫЕ ПРОЦЕССЫ СТУДЕНТОВ

АННОТАЦИЯ

В статье рассматривается проблема влияния интернет-аддикции на познавательные процессы студентов. Анализируются результаты проведенного исследования, раскрывается влияние игровой зависимости студентов на их зрительную память, переключаемость внимания, а также на способность к классификации и анализу.

FEATURES OF THE INFLUENCE OF THE INTERNET DEPENDENCE ON THE STUDENT'S EDUCATIONAL PROCESSES

SUMMARY

The article considers the problem of the influence of Internet addiction on the cognitive processes of students. The results of the study are analyzed, the influence of students' game addiction on their visual memory, attention switching, as well as the ability to classify and analyze is revealed.

NƏSİLLƏRARASI FƏRQLƏRİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ

dos.Gülnarə Hüseynova
BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi
Afət Cəlilova
BDU-nun II kurs magistrantı
celilova.afet.96@gmail.com

Açar sözlər: yaşlı nəsil, gənc nəsil, nəsillərarası fərqlər, postfiqurativ mədəniyyət, kofiqurativ mədəniyyət, prefiqurativ mədəniyyət
Ключевые слова: старшее поколение, молодое поколение различия между поколениями, постфигуративная культура, кофигуративная культура, префигуративная культура
Keywords: older generation, younger generation differences across generations, postfigurative culture, cofigurative culture, prefigurative culture.

"Mən çox şeyi müəllimlərimdən öyrəndim, daha çox şeyi yoldaşlarımdan, bundan da çox şeyi şagirdlərimdən öyrəndim".

Konfutsi Dahi Konfutsinin bu fikri Marqaret Midin nəzəriyyəsini sanki təsdiq edir. Görkəmli antropoloq və etnoqraf Marqaret Mid bəşəriyyət tarixini nəsillər arasında təcrübə mübadiləsinin xarakteri baxımmından 3 növə bölür:

1. Gənc nəslin yaşlıların təcrübəsindən istifadə etməsinə əsaslanan postfiqurativ mədəniyyət;
2. Uşaqların təkcə böyüklərdən deyil, həm də öz yaşıdlarından öyrəndiyi kofiqurativ mədəniyyət;
3. Uşaqların təkcə valideynlərindən deyil, valideynlərin də uşaqlarından öyrəndiyi prefiqurativ mədəniyyət (3).

Ənənəvi mədəniyyət postfiqurativdir. O, yavaş və hissolunmayacaq dərəcədə dəyişir. Nəvələr babalar ilə eyni şəraitdə yaşayırlar. Yetkinlərin keçmişi hər bir yeni nəslin gələcəyi olur, yaşadıqları, uşaqlar üçün gələcək bir sxemdir. Belə mədəniyyət üç nəslin birləşməsi şəraitində qorunub saxlanılır. Yaşlı insanlar təkcə liderlər və müəllimlər kimi deyil, həm də həyat modellərinin daşıyıcıları kimi davranırlar. Nəsillərarası münasibətlərdə konfliktlər qaçılmazdır. Bəzi postfiqurativ cəmiyyətlərdə hər bir gənc nəslin yaşlılara qarşı üsyan etməsi gözlənilir. Amma hakimiyyəti ələ keçirərək yeni nəsil cəmiyyətin həyat tərzini dəyişdirmir və uşaqlıqda öyrənilən davranış standartlarına riayət etməyə davam edir. Eyni həyati proseslərin nəsildən nəsilə təkrarlanması və dövr eləməsi müvəqqətilik hissi yaradır. Bütün postfiqurativ mədəniyyət sistemi həmişə "burada, indi" mövcuddur. Mədəniyyət normalarının yalnız kiçik bir hissəsi həyata keçirilir. Şüursuzluq, avtomatiklik, şübhə olmaması postfiqurativ bir mədəniyyətin uzunmüddətli, sabit şəkildə mövcudluğunu təmin edən əsas şərtlərdir.

Hərçənd postfiqurativ mədəniyyətlər əsrlərlə eyni ərazilərdə yaşayan cəmiyyətlərdə mövcud olur, onlara köçəri xalqlar arasında, diasporlarda (məsələn erməni və ya yəhudi) və ya az sayda insanlardan ibarət olan və kəndlərə səpələnib başqa qəbilələrlə birlikdə yaşayan hind qəbilələri arasında da rast gəlmək olar. Bu mədəniyyətlərdə aristokratlar və ya cəmiyyəti təkzib edən qruplar da tapıla bilər.

Kofiqurativ mədəniyyət – müasirlər tərəfindən təyin olunan davranış nümunələrinin üstünlük təşkil etdiyi bir mədəniyyətdir. O, dəyişikliklər baş verən cəmiyyətdə mövcuddur, hansı ki, keçmiş nəsillərin təcrübəsini yararsız edir. Belə bir vəziyyətdə həm yaşlılar, həm də gənclər yeni vəziyyətə uyğunlaşmalı, əvvəlki həyat tərzindən və iş fəaliyyətindən fərqli olaraq öz təcrübələrində digərlərini inkişaf etdirməlidirlər. İnsanlar bir-biri ilə yaşamağı, yaşıdları tərəfindən qazanılan uğurların yollarını tapmağı və səhvlərdən çəkinməyi öyrənirlər (6). Təcrübəsi müvəffəqiyyətli olan şəxslər öz nəsillərinin digər üzvləri üçün nümunə olurlar.

Kofiqurativ vəziyyətdə müxtəlif nəsillərin davranışları qeyri-bərabər olur və bu nəsillər arasında münaqişələrin yaranmasına səbəb olur. Bu münaqişələr xüsusilə uşaqların yeni şəraitdə yetişdirilməsi zamanı yetkin insanların yeni həyat normalarını qəbul etməmələri zamanı daha da ağırlaşır. Onlar düşünürlər ki, uşaq ataya uyğun olmalıdır.

Kofiqurativ mədəniyyətdə yaşlı nəslin təhsil prosesində aparıcı rol oynamağına baxmayaraq bu gənclər üçün ideal deyil. Ən sadə formada kofiqurativ mədəniyyyət babaların nəslinə ehtiyac duymur. Postfiqurativ mədəniyyətə xas olan böyük patriarxal ailələrdən fərqli olaraq, bu mədəniyyət növü valideynlərdən və uşaqlardan ibarət nüvə ailəsi ilə xarakterizə olunur. Ailə, məktəb, təlim və təhsildə mühüm rol oynayır. Gənclər, valideynlərinin babalarının yaşadıqları şəkildə yaşamadığını və özlərinin atalarının və analarının həyatlarından fərqli yaşayacaqlarını bilirlər. Ən yaxşı və ən nüfuzlu müəllim olaraq uşaqlar çox vaxt valideynlərini deyil, həmyaşıdlarını və biraz daha yaşlı olanları görürlər.

Postfiqurativ sistem böhrana məruz qalanda kofiqurativ mədəniyyət üçün meydan yaranır. Buna həmçinin ağsaqqallar digər əxlaq və ideallara üstünlük verə bilmədikdə, yeni dil öyrənməyi, gənclərə yeni davranışlar aşılayan inqilabi dəyişiklikləri və texnologiyaları qəbul edə bilmədikdə də rast gəlinir. Belə hallarda növbəti nəslin davranışları əvvəlki davranışlardan fərqlənir. Müasir dünyada immiqrantlara başqa bir ölkəyə uyğunlaşmaq və həyatlarına orada davam etmək, oranın insanlarının adət-ənənələrinə, milli-mənəvi dəyərlər sisteminə uyğunlaşmaqda çətinlik çəkirlər. Lakin immiqrantların uşaqları valideynlərinə nisbətən daha sürətli yeni mədəni mühitə uyğunlaşırlar.

Kofiqurativ mədəniyyət iqtisadi cəhətdən geridə qalan ölkələrdə sosial-siyasi, iqtisadi və texniki dəyişikliklər zamanı formalaşır. Hindistan, Pakistan və ya Afrikanın yeni əyalətlərində uşaqların yeni həyat tərzinə uyğunlaşma məsələləri üzrə mütəxəssislər olur. Belə olan halda valideynlər övladlarının davranışlarını qiymətləndirmək və onlar üzərində rəhbərlik etmək hüququnu itirirlər. Sosialist sistemdən müasir bazar iqtisadiyyatına keçid dövründə ölkəmizdə buna oxşar hallar müşahidə olunmuşdur.

Kofiqurativ mədəniyyət dinamikdir, o, normaları və standartları sürətli bir şəkildə yenidən qurur, sosial dəyişiklik şəraitində yaşayan cəmiyyətin ehtiyaclarını və elmi-texnoloji inkişafı sürətləndirir. Bu mədəniyyət XX əsrdə sənayeləşmiş ölkələrdə lider mövqe tutmuşdur. Belə ki, nuklear ailələr yaranmağa başladı ki, bu ailələrdə yaşlı nəslin nümayəndələri – nənə və babalar ilə nəvələrin əlaqələri getdikcə azalmağa başladı. Ailə təkcə valideyn və övladlarından ibarət oldu. Azərbaycanda bu proses demək olar ki, müstəqillik illərindən sora özünü göstərməyə başladı.

Artıq ənənəvi Azərbaycan ailələri, böyük ailələr öz aktuallığını itirməyə başlayıb. Övladlar daha çox valideynlərdən ayrı yaşamağa, müstəqil ailə sahibi olmağa can atırlar. Bu tip ailələrdə uşaqların tərbiyəsinə valideynlərin təsiri bir o qədər də hiss olunmur. Əvəzində bu funksiyanı kütləvi informasiya vasitələri, məktəblər, cəmiyyətdə mövcud sosial qruplar və s. yerinə yetirir. Bu da təbii ki, nəsillərarası konfliktlərə, mədəniyyətdə varislik prinsipinin pozulmasına gətirib çıxarır.

M. Midin sözlərinə görə, müasir cəmiyyətin inkişaf templəri belədir ki, keçmiş təcrübələr heç də həmişə qeyri-kafi deyildir. Hətta bəzən bu təcrübələr yeni şəraitdə yaradıcı yanaşmağa mane olur. Nəsillərin təcrübə fərqlərinin kəskinləşməsi yeni mədəni formanı – prefiqurasiyanı yaradır. Burada böyüklər kiçiklərdən öyrənir.

M. Mid XX əsrdə yaşamış nəsillərin təsnifatını vermişdir. Müasir Azərbaycan nəsillərinə nəzər salsaq görərik ki, hələ də nəsillər arasında ziddiyyətlər, yaşlı nəslin cavan nəsli bəyənməməsi, cavan nəslin fikirlərinin yaşlı nəsillə üst-üstə düşməməsi halları vardır. Dünyanın gedişatı belədir. Cavan nəsil özü ilə yeni əhval-ruhiyyə, dünyagörüşü, ideyalar, bir sözlə, yeni həyat tərzi gətirir (1). Nəticədə nəsillər arasında fikir fərqliliyi yaranır. Atalar və oğullar, analar və qızlar problemi də məhz bundan qaynaqlanır. İllər ötdükcə nəsillər dəyişir və bu dəyişiklik zamanı təbii ki, dövrünə, zəmanəsinə, yaşadığı cəmiyyətə uyğun olaraq gənclərin həyata baxışı,

düşüncələri də dəyişir. Nəsillər arasında fikir müxtəlifliyinin səbəbi təfəkkür və düşüncə tərzi ilə də bağlıdır. Bu günün gənci artıq bir çox ölkəni gəzir, dünya xalqlarının mədəniyyəti ilə tanışdır və müasir gənc hər şeyi daha praktik üsullarla əldə etməyə üstünlük verir.

Elmdə, ixtiralarda daha praktik yollarla nailiyyət əldə etmək də hazırkı gəncin əsas streotiplərindəndir (8). Təbii ki, yeni dünyanın, inkşaf etmiş həyatın da özünə uyğun çətinlikləri var. Bugünün gənci sürətlə inkşafda olan həyatla ayaqlaşmağa məhkumdur. Bundan irəli gələrək köhnə nəsillərlə indiki arasında anlaşılmazlıq yaranır. Azərbaycan reallığında ata və oğul bir-birini artıq başa düşmür, çünki valideyinlər yeni nəslin gənclərinin ehtiyaclarını ödəməkdə çətinlik çəkir. Nəsillər arasında ziddiyyətlərin yaranmasının digər bir səbəbi də dövrün, zəmanənin fərqli olması və texnologiyanın sürətlə inkişaf etməsidir.

Çox vaxt cavan nəsil yaşlı nəsli köhnə düşüncəli hesab edir. Ancaq burada bir həqiqət var. Çünki cəmiyyət, texnologiya inkişaf edib, amma yaşlı insanlar buna asanlıqla uyğunlaşa bilmir. Gənclər də bunu geridəqalmışlıq hesab edirlər. İndiki gənclər əvvəlkilərə baxanda daha informasiyalıdır, texnoloji vasitələrə daha tez uyğunlaşırlar. Ən kiçik yaşlarından yeni texnologiyalara bələd olan bir nəsil formalaşmaqdadır: "Kosmos əsrinin yetirmələri olan indiki gənclər bu gün bütün işlərini oturduqları yerdən - internet üzərindən həll edərək öz bizneslərini belə, bu vasitə ilə qura bilirlərsə, bütün bunlar onların yaşlı nəsillərə nisbətən əldə etdikləri uğurlardandır. Həmçinin təhsil sahəsində əldə edilən nailiyyətləri də qeyd etmək olar ki, bugünün gənci daha böyük nəticələr əldə etmək üçün daim axtarışdadır, elm, bilik öyrənməyə daha həvəslidir, nəinki, orta və yaşlı nəsillərin nümayəndələri. Dünya universitetlərində təhsilə meyilli olan bugünün gənci daha çox karyera qurmağa meyillidirsə, bunun özü də bir uğurdur. Yaşlı nəslin nümayəndələri Sovet dövründə həyat tərzinin fərqli olduğunu söyləyirlər. İndi isə yeni nəsil dünyada baş verən hadisələrdən xəbərdardır, hər şeyi yaşlı nəsildən daha tez və asanlıqla öyrənə bilir.

Müasir cəmiyyətlərdə böyüklər yeni texniki nailiyyətlərlə anlaşa bilmirlər. Böyüklərin kiçiklərə ötürdüyü ənənəvi tərbiyə üsulları yeni formalaşmış cəmiyyətdə özünü doğrulda bilmir. Lakin, kiçiklərin də yeni mühitlə ayaqlaşa bilməyən valideynlərinin tərbiyə üsullarından imtina etməsi təqdirə layiq deyil. Çünki, belə olan halda, cəmiyyət əxlaq normalarından çox uzaqlaşır. Yeni nəsil öz milli əxlaq xüsusiyyətlərini, milli kimliyini bəzən unudur. Bu da cəmiyyətdə aqressiyaya yol açır. Son zamanlar criminal statistika cinayətərin daha çox ailə-məişət zəminində baş verdiyini, övladların valideynə xəsarət yetirmələri, valideynlərin övladlarına qarşı cinayət törətmələri faktlarını qeyd edir. Bütün bunlara səbəb nəsillərarası balansın pozulmasıdır.

Yenilənmə və dəyişmə kainatın qaçınılmaz qaydasıdır. Hər nəslin özünəməxsus xarakterik xüsusiyyətləri, dəyərləri və davranışlarının olması sosioloji bir həqiqətdir. Ancaq hər nəslin hər bir xüsusiyyətini hər kəsin daşıdığını demək düzgün olmaz. Böyüklər və kiçiklər bir araya gəldiyi zaman çox vaxt nənə və babalarımızdan "Eh! Hardadır köhnə günlər…", " Hardadır o vaxtkı bayramlar?" və ya "O vaxt belə deyildi. İndiki cavanlar qəribə olublar. Biz sizin yaşınızda olanda belə edirdik… O telefondan (kompüterdən) əl çək, bizimlə danış" şəklində şikayətlər eşidirik. Bu sözlər nəsillərarası böyük fərqlərin və həyata baxış müxtəlifliyinin ən bariz nümunəsidir. Böyüklərin sözləri bizə qəribə gəldiyi kimi bizim sözlərimiz də kiçiklərimizə qəribə gələcək.

Kainatda hər şey kimi nəsillər də dəyişir, inkişaf edir və bir-birini əvəz edir. Nəsil dəyişəndə əvvəlkilərlə mövcud nəsil arasında hər zaman bir qarşılıqlı anlaşılmazlıq az və ya çox olmuşdur. Çox vaxt qalib gələn yenilər olmuşdur.

1990-cı illərdə populyar "Nəsillər nəzəriyyəsi"nin amerikalı müəllifləri olan Villiam Ştraus və Neil Xov belə fikir irəli sürmüşdülər ki, müəyyən bir yaş qrupuna aid insanlar eyni tarixi şəraitdə böyüdükləri kimi müəyyən bir yaş qrupu insanlarının fikirləri, münasibətləri, dəyərləri və davranışları da oxşarlıq təşkil edir (4). Marketinq və şəxsi məsləhətləşmənin timsalında "Nəsil nəzəriyyəsi" bu gün bütün dünyanın tendensiyalarına uyğunlaşdırılıb. Hər bir nəslin həyatının ilk

12 ilində əldə etdiyi ümumi bir dəyər mənbəyinə malik olduğu var sayılıb ki, bu da insanın bütün həyatı boyu onu təqib edir.

Ölkəmizdə nəsillərarası münasibətlərə, onlar arasında olan ziddiyyət və oxşar cəhətlərə ümumiyyətlə nəsil mövzusuna müraciət yetərincə olmadığına görə tədqiqatımızı bu istiqamətdə aparmışıq. Tədqiqat işi müxtəlif yaş qruplarında - X, Y, Z nəsillərində şəxsiyyət dəyərlərinin, əsas tələbatların, sosial frustrasiya səviyyəsinin və aqresiyanın göstəricilərinin öyrənilməsinə yönəlmişdir. Bu istiqamətdə "Şvarts" metodikası, "Əsas tələbatların ödənilməsi dərəcəsinin diaqnostik metodikası", L.İ.Vassermanın "Sosial frustrasiya səviyyəsinin diaqnostik metodikası" (V.V.Boykonun modifikasiyası) və A.Bass və A.Darkinin "Aqressiyanın göstəriciləri və formalarının diaqnostikası" metodikasını (A.K.Osnitski tərəfindən uyğunlaşdırılmışdır) keçirmişik. Müxtəlif məqamlarda nəsillərarası ziddiyyətlərə rast gəlsək də eyni zamanda oxşar cəhətlər də müşahidə olundu. Belə ki, universallıq hər üç nəsildə bir-birinə yaxın faizlərlə müşahidə olunur. X nəslində bu göstərici 74,07%, Y nəslində 73,68%, Z nəslində isə 86,96% olmuşdur. Konformluq X nəslində 44,44%, Y nəslində 55,26%, Z nəslində isə 69,57% təşkil edir.

Əsas tələbatların ödənilmə dərəcəsini ölçərkən maraqlı bir faktla qarşılaşdıq. Aparılan sorğu nəticəsində məlum oldu ki, hər üç nəsildə tələbatlar qismən ödənilmişdir. Bu vəziyyəti həm müsbət, həm də mənfi qiymətləndirmək olar. Müsbət ona görə ki, ümumilikdə nəsil olaraq götürüldükdə heç bir nəsildə tələbatların ödənilməsində narazılıq müşahidə olunmamışdır. Həmçinin heç bir nəsildə tələbatların tam şəkildə ödənilməməsi mənfi hal kimi dəyərləndirilir. Əsas tələbatlar dedikdə maddi tələbatlar, təhlükəsizliyə olan tələbatlar, sosial (şəxslərarası) tələbatlar, tanınmağa olan tələbatlar və özünüifadəyə olan tələbatlar nəzərdə tutulur.

Sosial frustrasiyanın ölçülməsi zamanı heç bir nəsildə frustrasiyanın tamamilə olmamasına rast gəlinmədi. Hər bir nəsildə bu və ya digər faiz göstəricilərilə frustrasiya halına rast gəlindi. Sevindirici hal ondan ibarətdir ki, frustrasiyanın yüksək və çox yüksək səviyyəsi müşahidə olunmadı. X nəslində sosial frustrasiyanın ən yüksək göstəricisi 68,5% qeydə alınmışdır. Bu da frustrasiyanın orta səviyyəsinə (65%-75%) uyğun gəlir. Ən aşağı göstərici isə 31,5%-dir. Bu isə frustrasiyanın çox aşağı səviyyəsinə (10%-35%) uyğun gəlir. Y nəslində frustrasiyanın ən yüksək faiz göstəricisi 60% olmuşdur ki, bu da frustrasiyanın qeyri-müəyyən səviyyəsi (50%-65%) kimi dəyərləndirilir. Ən aşağı göstərici olan 26,5% isə çox aşağı səviyyəyə uyğun gəlir. Z nəslində ən yüksək göstərici X nəslindəkindən 0,75% az olub, 67,75% təşkil edir. Bu frustrasiyanın orta səviyyəsidir. Z nəslinin ən aşağı göstəricisi isə 37,75% olub, frustrasiyanın aşağı səviyyəsinə (35%-50%) uyğun gəlir. Yekun olaraq onu qeyd edək ki, sosial frustrasiya X xə Z nəsillərində yüksək , Y nəslində isə qənaətbəxşdir.

Nəsillər arasında aqressiyanın göstəriciləri və formalarının diaqnostikası zamanı ən yüksək göstərici Y nəslində qeydə alınmışdır. Belə ki, təqsirkarlıq hissi ümumi nəsil üzrə 44,52 bal təşkil edir. Həmçinin bu nəsildə fiziki aqressiya 22 balla qiymətləndirilib. X və Z nəsillərində təqsirkarlıq hissi demək olar ki, eyni – X nəslində 11bal, Z nəslində 9 bal təşkil edir. X nəslində fiziki aqressiya 7,33 bal, Z nəslində isə 2 balla qiymətləndirilib. Verbal aqressiya da hər nəsildə özünü müxtəlif cür biruzə verir. X nəslində 15,11 balla, Y nəslində 11,05 balla, Z nəslində isə - 6,55 balla özünü göstərir. Alınan nəticələrə nəzər salsaq görərik ki, Z nəslində həm fiziki, həm verbal aqressiya digər nəsillərə nisbətən azlıq təşkil edir. Bu metod vasitəsilə nəsillərdə neqativizm halı da ölçüldü. Burada da ən yüksək göstərici (18,1 bal) Y nəslində qeydə alındı. X və Z nəsillərində yenə də oxşarlıq müşahidə olundu. X nəsli 5,19 bal, Z nəsli 7,27 bal.

Sonda nəticələrə əsasən deyə bilərik ki, ayrı-ayrı nəsillərin nümayəndələrinin verdikləri cavablar onların aid olduqları nəsillə əlaqəli olduğu qədər, insanların fərdi psixoloji xüsusiyyətlərindən də aslıdır. Həmçinin nəsillərarası fərqlər də insanların aid olduqları nəsillə yanaşı, onların düşüncə tərzlərindən, dünyaya baxış bucaqlarından da aslıdır. Bunu onunla sübut edə bilərik ki, eyni sorğuda bir nəslin nümayəndələri arasında fərqli göstəricilər olduğu halda, digər nəslin nümayəndələri ilə oxşar cəhətlər müşahidə olunmuşdur.

Nəsillər arasındakı fərqlərdən şikayət etmək əvəzinə bu nəsillərin bir-birinə verə biləcəyi təcrübələrdən və məlumatlardan istifadə etmək daha doğru olar. Ən doğru yanaşma inkişaf edən çağa adaptasiya olmaq və nəsillərin yaxşı tərəflərinin bir-birinə ötürülməsidir.

ƏDƏBİYYAT

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı, 2008, s. 192-287.
2. Bünyadov T. Azərbaycan etnoqrafiyası II cild. Bakı, 2007, s. 331-341.
3. Делицын Л.Л. Префигуративный тип культуры: как преодолеть цифровой разрыв?, Россия: тенденции и перспективы развития. Ежегодник, 2011, Вып. 6, ч. 2.
4. Kohli M. Public Solidarity between Generations: Historical and Comparative Elements: Research report. Free University of Berlin [Text] / Institute of Sociology, 1993.
5. Marias J. Generations. A Historical Method [Text] / Alabama, 1970, P. 160-161.
6. https://studme.org/kulturologiya/mid_postfigurativnaya_kofigurativnaya_prefigurativnaya_kultury
7. http://realfakt.az/index./ailənin formalaşmasında mədəniyyətin rolu
8. http://tehsildekoucluq.az/nəsillərarası fərqlər

NƏSİLLƏRARASI FƏRQLƏRİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ

XÜLASƏ

Bu məqalə müasir cəmiyyətdə nəsillərarası fərqlərdən bəhs edir. Məqalədə məşhur antropoloq Marqarit Midin mədəniyyətlərin kofiqurasiyasına aid nəzəriyyəsinə geniş yer verilmişdir. Eyni zamanda müasir dövr Azərbaycan nəsillərinin spesifikliyi də müqayisəli təsvir olunmuşdur. Bununla yanaşı, nəsillərarası əlaqə və ziddiyyətləri öyrənmək üçün keçirdiyimiz tədqiqatın ilkin nəticələri də təsvir edilmişdir.

СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ РАЗЛИЧИЙ МЕЖДУ ПОКОЛЕНИЯМИ

АННОТАЦИЯ

Статья посвящена межпоколенным различиям в современном обществе. Большое место уделяется теории известного антрополога Маргарет Мид о конфигурации культур. Наряду с этим, приводится сравнительное описание специфики различных поколений в современном Азербайджане. Кроме того, описаны первичные результаты проведенного нами исследования, направленного на изучение межпоколенных связей и противоречий.

SOCİAL-PSYCHOLOGİCAL ANALYSİS OF İNTERGENERATİONAL DİFFERENCES

SUMMARY

This article discusses intergenerational differences in modern society. The article covers the theory of the famous anthropologist Margaret Mead on the configuration of cultures. At the same time, the specificity of modern Azerbaijani generations is comparatively described. In addition, the preliminary results of our study of intergenerational relationships and contradictions are described.

YENİYETMƏLƏRDƏ TƏLİM FƏALİYYƏTİ VƏ İDRAK PROSESLƏRİNİN İNKİŞAFI

dos. Rövşən Cavadov
BDU-nun Gender və tətbiqi psixologiya kafedrasının müəllimi
Mehriban Ağabalayeva
BDU-nun II kurs magistrantı
magabalayeva@gmail.com

Açar sözlər: yeniyetmə, idrak, fəaliyyət,inkişaf,təlim,xarakter
Ключевые слова: подросток, когнитивный, действие, развитие, обучение, характер
Keywords: adolescent, cognitive, action, development, training, character

Hər keçid dövründə olduğu kimi, yeniyetməlik də çətin bir keçidin yaşandığı mərhələdir. Yeniyetməlik uşaqlıqla böyüklük arasındakı ruhi inkişaf və həyata hazırlıq dövrüdür. Yeniyetmə dövrü həm də keçid dövrüdür. Çünki yeniyetmə nə uşaq, nə də böyükdür. Bu yaşda fiziki inkişafda da mürəkkəb dəyişikliklər baş verir, orqanizmdə lazımi möhkəmlik gedir, əsəb sistemi, əzələ-damar sistemi sürətlə inkişaf edir. Bunların hamısı yeniyetmənin psixologiyasına təsir edir. Keçid dövrü olan bu mərhələdə gəncdə fizioloji, bioloji və psixoloji sahələrdə olduqca sürətli dəyişikliklər yaranır. Bu sürətli dəyişikliklərlə əlaqəli olaraq yeniyetmənin ruhi və emosional dünyası da bəzi dəyişikliklərə məruz qalır və buna öyrəşməyə çalışan yeniyetmə də təbii olaraq çətinliklər keçirir.

Yeniyetməlik dövrü 11-21 yaşlar arasında dalğalanmaların çox göründüyü çətin bir dövrdür. Bu mərhələ həm də fırtına-gərginlik dövrü adlanır. Yeniyetməlik dövrü həm yeniyetmə üçün, həm də yeniyetmənin ailəsi üçün çətin bir mərhələdir.Ailəyeniyetməni başa düşməkdə çətinlik çəkirsə, yeniyetmə ətrafındakıların onu başa düşmədiyini düşünür. Valideyn bu dövrdə uşağını nə qədər tanıyarsa və bu mərhələnin xüsusiyyətlərini nə qədər dərindən bilərsə, valideyn – yeniyetmə münasibətləri bir o qədər mülayim olar. Yeniyetmə bu mərhələdə fiziki, cinsi, sosial və hissi sahələrdə fərqli bir dövrə girmişdir. Bu inkişaf dövründə yaşadığı hadisələr səbəbi ilə yeniyetmə özünü fərqli hiss edir və çox zaman özünü ifadə etməkdə çətinlik çəkir. Bu dövrdə emosionallıq, fəallıq, oyanıqlıq daha çox üstünlük təşkil edir.

Yeniyetmələr çox həssas və müstəqil olmağa çalışırlar. Lakin bunlara baxmayaraq, sadəlövh, "ürəyiaçıq" olurlar. Onların psixoloji əhvalruhiyyələri münasibətlərə görə dəyişkəndir. Nitqləri, xarici davranışları cəlbedici və oyanıqdır. Onlar özlərində qətiyyətlilik, cəsarətlilik və möhkəmlik kimi xüsusiyyətləri büruzə verməyə çalışırlar. Yeniyetmənin şəxsiyyətinin formalaşmasında təqlidetmə müəyyən üstünlüyə malik olur. Belə ki, onlar böyük şəxsiyyət kimi, möhkəm xarakterli şəxslər kimi özlərini göstərməyə çalışırlar. Yaş dövrləri nöqteyi nəzərindən gedən fizioloji və psixoloji inkişaf sonralar yuxarı sinif yaşlarında özünəməxsus keyfiyyətləri əks etdirir.

Təlim fəaliyyətinin təsiri altında yeniyetmələrin idrak proseslərinin inkişafında da dəyişiklik baş verir. Təlim fəaliyyəti yeniyetmələrin qavrayışına əsaslı təsir göstərir və onların inkişafını sürətləndirir. Bu dövrdə şagirdlərin qavrayışı geniş əhatəli olmaqla ardıcıl və seçici xarakter daşıyır. Onların qavrayışı ən çox maraqlandıqları cisim və hadisələrlə bağlı olur. Yeniyetmələrdə zaman, məkan, hərəkət qavrayışı da xeyli inkişaf edir. Yeniyetməlik dövründə hafizə də xeyli inkişaf edir. Məntiqi hafizə fəal şəkildə inkişaf etməyə başlayır.Yeniyetmələr məntiqi, eləcə də ixtiyari hafizədən istifadə etməyə üstünlük verirlər. Bunun sayəsində mexaniki hafizənin inkişafı ləngiyir. Yeniyetmələrdə yaddasaxlamanı yaxşılaşdırmaq yollarına maraq artır. Kiçikyaşlı məktəblilərdən fərqli olaraq, yeniyetmələr maraqlı materialı ümumiləşdirməyə və sistemləşdirməyə daha çox yer verməyə çalışırlar. Tədricən yeniyetmələr belə bir qənaətə gəlirlər ki, mənalı yaddasaxlama və yadasalma daha üstün əhəmiyyətə malikdir. Şübhəsiz, hələ elə

materiallar da olur ki, onları hərfən yadda saxlamaq və yada salmaq lazım gəlir (tərifləri, teoremləri və s.). Bu kimi hallarda mexaniki yadda saxlamağa ehtiyac hiss olunur.

Lakin bu zaman mexaniki yaddasaxlama müəyyən dərəcədə məna əlaqəsilə şərtlənir. Məsələn, tarixi günləri yaxşı yadda saxlamaq üçün şagirdlər onları müəyyən hadisələrlə əlaqələndirirlər. Təlim fəaliyyətinin təsiri altında məntiqi hafizə fəal bir şəkildə inkişaf etməyə başlayır. Yeniyetmələr müəllimin köməyi əsasında yadda saxlamanın səmərəli yollarından istifadə etməyə başlayırlar. Yeniyetmələk dövründə diqqətin inkişafında da özünəməxsus xüsusiyyətlər müşahidə olunur.Bu dövrdə diqqətin tez-tez yayınması halları özünü göstərir. Uşağın təlim fəaliyyətindəki əsaslı dəyişikliklər tələbat və maraq dairəsini dəyişməsi, şagirdin ayrı-ayrı fənlərə, müəllimlərə münasibəti, keçirdiyi psixi hallar, yeni və rəngarəng təəssürat bolluğu, cinsi yetişmənin başlanması ilə əlaqədar güclü təəssüratlar, yaşlılıq hissi ilə bağlı problemlər və s. diqqətin təzahür və inkişafına, burada mənfi halların özünü göstərməsinə səbəb ola bilir.

Təlim və tərbiyənin təsiri altında yeniyetmələrdə sabit-ixtiyari diqqət inkişaf etməyə başlayır. Yeniyetmələk dövründə təxəyyülün inkişafında xeyli irəliləyiş baş verir. Bərpaedici təxəyyül yüksək inkişaf səviyyəsinə çatır. Romantik, fantastik surətlərin yaradılmasına meyil yüksək olur. Yaş artdıqca yeniyetmələrin təxəyyülü dəyişir. 14-15 yaşlarda təxəyyül surətləri daha real və daha tənqidi xarakter daşımağa başlayır. Bununla yanaşı olaraq, həmin dövrdə də yeniyetmələr romantik surətlərdən tam yaxa qurtara bilmirlər. Yeniyetmələrdə yaradıcı təxəyyül xeyli inkişaf etmiş olur. Yeniyetmələrin təxəyyülünün inkişafı təlim materialını daha səmərəli və yaradıcı şəkildə mənimsəmələrinə imkan verir. Yeniyetmələr əldə etdikləri bilikləri yeni sahəyə tətbiq etməyə başlayırlar. Yeniyetmələrdə təfəkkürün inkişafında xüsusilə irəliləyiş baş verir. Onların təfəkkürü kiçikyaşlı məktəblilərin təfəkküründən əsaslı şəkildə fərqlənir. Bu dövrdə təfəkkür daha ümumiləşmiş, daha dərin və mücərrəd xarakter daşıyır. Adətən kiçikyaşlı məktəblilər əsasən konkret cisimləri müqayisə edir, fərdi hökmlərin ifadəsinə üstünlük verir. Başlıca olaraq ümumi təsəvvürlərə və məişət anlayışlarına əsaslanırlar. Yeniyetmələr isə elmi anlayışları mənimsəyir və onlara istinad edirlər. Daha çox ümumi hökmlərdən istifadə edir, onların təfəkkürü ən çox mücərrəd xarakter daşımağa başlayır. Bu dövr mücərrəd təfəkkürün inkişafı üçün sensitiv dövr hesab olunur. Konkret və əyani obrazlı təfəkkür öz yerini mücərrəd nəzəri təfəkkürə verir. Yeniyetmələrin təfəkkürü geniş ümumiləşdirməyə cəhd göstərməklə səciyyələnir. Hansı davranış formasını seçməsindən asılı olmayaraq, yeniyetmələrdə təfəkkürün müstəqilliyi və tənqidiliyi özünü göstərir.

Kiçik məktəblinin bilik sahələrinə marağı, yeniyetmənin xüsusi fəallığı və meyllərin genişliyi, böyük məktəblinin özünü şüurlu surətdə tənzimləmək meyli- bunların hamısı bu və ya digər yaş dövrünün səciyyəvi xüsusiyyətləri kimi qabiliyyətlərin formalaşmasına mühüm təsir göstərir. Bu xüsusiyyətləri nəzərə almadan qabiliyyətlərin inkişaf xüsusiyyətlərini düzgün qiymətləndirmək olmaz. A.N.Leontyevin aşağıdakı fikri əqli qabiliyyətlərin inkişafı prosesini bu baxımdan təhlil etmək imkanı verir: "uşağın əqli inkişafını bütövlükdə onun psixi inkişaf səviyyəsindən, mənəvi simasını müəyyən edən maraqlarının, hisslərinin və başqa əlamətlərinin zənginliyindən ayrılıqda nəzərdən keçirmək olmaz." Ayrı-ayrı yaşdövrlərində psixi inkişafın sürətlənməsi və ya ləngiməsi, gözlənilmədən yüksəlməsi və ya geriləməsi müşahidə olunur, başqa sözlə, eyni yaşlı uşaqların psixi inkişafı bir variantda deyil, müxtəlif variantlarda özünü göstərir. Senzitiv (latınca "sensus" – "hiss, duyğu" deməkdir) dövr uşağın ontogenetik inkişafının mühüm mərhələsini təşkil edir. Bu zaman inkişaf edən uşaq ətraf mühitin müəyyən təsirlərinə xüsusilə həssas olur, psixikanın bu və ya digər istiqamətdə inkişafı üçün əlverişli şərait yaranır. Aydın məsələdir ki, senzitiv yaş dövrü hələ öz-özlüyündə qabiliyyətlərin inkişaf səviyyəsini müəyyən etmir. Bunun üçün məktəbəqədər və ya kiçik məktəbli yaşı dövründə müvafiq qabilıiyyətin inkişafı üçün əlverişli pedaqoji şərait yaradılmalıdır. Unutmaq olmaz ki, uşaq inkişaf etdikcə onun yaradıcı fəaliyyəti də mürəkkəbləşir və yeni keyfiyyətlər kəsb edir. Uşağın yaradıcı fəaliyyətinin inkişafı həm də onun bir sənətkar kimi formalaşması prosesidir. Tərbiyə prosesində bu cəhəti unutmaq, uşağı bir sənətkar kimi

fərqləndirən, yaş dövrünün imkan və hüdudlarına sığmayan fərdi xüsusiyyətləri nəzərə almamaq ciddi səhv olardı. Buna görə də uşaqlarda öz yaradıcılıqlarına tənqidi münasibətin yaradılması onlarda nəinki meylin, həm də fəaliyyət və qabiliyyətlərin inkişafı üçün xüsusi əhəmiyyətə malikdir. Çalışmaq lazımdır ki, uşaq öz nailiyyətlərini düzgün qiymətləndirə bilsin, səhvlərini görməyi bacarsın. Bu, uşaqda tənqidi təfəkkürün inkişaf etdirilməsini tələb edir. Ağılın tənqidiliyi insanın:

- dərk olunan fikirləri, faktları, fərziyyələri, eləcə də öz fikir və mülahizələrini yoxlamasında, qiymətləndirməsində
- idrak obyektlərindəki səhv və uyğunsuzluqları axtarıb tapmasında, onların meydana çıxmasının səbəb və şəraitini araşdırmaqda, aşkar etməkdə, səhvləri düzəltməkdə ifadə olunur.

Tənqidi ağıla malik olan adam başqa şəxslərin təsiri altına düşmür, hər şeyi şəxsi düşüncəsinin süzgəcindən keçirməyə, onların doğru olubolmadığını yoxlamağa can atır. Belə şəxslər öz fikirlərini də dönə-dönə yoxlayır, onlara tənqidi surətdə yanaşırlar

Biz məktəbdə yeniyetməlik yaşı dövründə özünün əqli qabiliyyətlərinin inkişafı etibarilə həmyaşıdlarından fərqlənən xeyli şagirdlərlə qarşılaşırıq. Belə şagirdlərin iki tipi diqqəti daha çox cəlb edir: onların bir qismi maraqları və ətrafdakı adamlara münasibəti etibarilə daha çox kiçik məktəbliyə bənzəyir. Dərsi asanlıqla başa düşür, məsələni daha asan yolla həll edir, lakin özünü sadəlövh aparır, aşağı qiymət alanda ağlayır, bütün fənnlərlə eyni dərəcədə maraqlanır; digər qismi isə özünü əslində böyük məktəbli kimi aparır: müəllimlərin bir çox məsləhətlərinə əməl etmir, dərsdə bəzən kənar işlərlə məşğul olur, ancaq maraqlandığı fənnə xüsusi diqqət yetirir, həmin fənnə aid əlavə ədəbiyyat oxuyur, xüsusi dəftər tərtib edir.

Yeniyetmələrdə təlim fəaliyyətindən asılı olaraq idrak prosseslərinin inkişafına gördüyümüz kimi müxtəlif amillər təsir edir. Hansı ki, bu amillər vasitəsi ilə idrak prosesləri şəxsə bilavasitə təsir göstərərkən onun xarakterini ortaya qoyur. Təlim fəaliyyətinə gəldikdə isə ilk növbədə yeniyetmələrə məktəb,təlim və təhsil ocaqları təsir edir. Təfəkkürün inkişafı, təxəyyül proseslərini genişlənməsi onların təhsilində fəaliyyəti ilə olan münasibətindən irəli gəlir. Bu zaman bu fəaliyyət onların ümumininkişafına və idrak prosseslərinin inkişafına yönəlmiş olmalıdır.

ƏDƏBİYYAT

1. Ə.Ə.Əlizadə.“Uşaqlarda yaradıcı fəaliyyətin psixologiyası”. B.,1968.
2. Ş.S.Ağayev.“Əmək, tərbiyə və inkişaf”. B.,1967.
3. Ə.S.Bayramov. “Uşaqlada əxlaqi hisslərin tərbiyəsi”. B., 1963
4. И.Ю.Килашна, В.Н.Колюцкий. Возростная психология, 2001
5. Piaget, J. (1972). The moral judgement of the child (M.Gabain, Çev.).
6. Miller, P.H. (1997). Theories of Developmental Psychology. (3 rded.). NewYork: W.H.Freeman and Company.

YENİYETMƏLƏRDƏ TƏLİM FƏALİYYƏTİ VƏ İDRAK PROSESLƏRİNİN İNKİŞAFI

XÜLASƏ

Yeniyyetməlik dövrü bir tərəfdən fizioloji inkişafvə cinsəl yetişkinlik, digərtərəfdən uşaqlıqdan yetişkinliyə keçidin bərabərində gətirdiyi sosial,zehni və duyğusal halların ortaya çıxdığı xronik izləmə normal bir inkişaf və dəyişim mərhələsidir. Yeniyetmələrin təlim fəaliyyəti zamanı idrak prosseslərinin inkişafına təsir edən amillər. Bu amillərin yeniyetmənin xarekterinə təzahürü. Təlim fəalliyətində istifadə olunan metodlar haaqında yazılmışdır. Yeniyetməlik yaş dövründə əqli qabiliyyətlərin inkişafının mərhələləri və təlim fəaliyyətində təşkil olunan prosseslər hansı formada,necə olmalıdır deyə sual ortaya çıxarır. İdrak prosseslərinin keçid yaş dövürndə

mürəkkəbləşməsi şəxsin zehni inkişafının artmasına səbəb olur. Yeniyetmələrin davranışlarında, həyatda mövqe tutmasında özünü göstərir.

РАЗВИТИЕ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ И КОГНИТИВНЫХ ПРОЦЕССОВ У ПОДРОСТКОВ

АННОТАЦИЯ

Подростковый возраст является нормальной стадией развития и изменения, с одной стороны, физиологического развития и половой зрелости, с другой стороны, хронических социальных, психических и эмоциональных состояний, сопровождающих переход от детства к взрослой жизни. Факторы, влияющие на развитие познавательных процессов в учебной деятельности подростков. Проявление этих факторов в характере подростка. Написано о методах, используемых в учебной деятельности. Стадии развития умственных способностей в подростковом возрасте и процессы, организованные в процессе обучения, ставят вопрос о том, в какой форме и как это должно быть. Осложнение когнитивных процессов в переходный период приводит к увеличению психического развития человека, что проявляется в поведении подростков, их положении в жизни.

DEVELOPMENT OF LEARNİNG ACTİVİTİES AND COGNİTİVE PROCESSES İN ADOLESCENTS

SUMMARY

Adolescence is a normal developmental stage in which the individual starts to changein terms of physiological, emotional and cognitive processes and proceeds to both sexual and physiological maturity. Factors influencing the development of cognitive processes in the learning activities of adolescents. Manifestation of these factors in the character of the adolescent. It is written about the methods used in the training activity. The complication of cognitive processes in the transition period leads to an increase in a person's mental development. It manifests itself in the behavior of adolescents, in their position in life.

PSİXİ İNKİŞAFI LƏNGİMİŞ UŞAQLARIN NİTQİNİN NEYROPSİXOLOJİ MÜŞAYİƏTİ

prof. Elnarə Şəfiyeva
BDU-nun Psixologiya kafedrasının müəllimi
Çinarə İskəndərli
BDU-nun II kurs magistrantı
iskenderlicinare@gmail.com

Açar sözlər:ləngimə, psixi inkişaf, nitq, korreksiya, neyropsixoloji müşayiət
Ключевые слова:задержка,психическое развитие, речь, коррекция, нейропсихологическое сопровождение
Key words: delay, mental development, speech, correction, neuropsychological support.

Müasir dövrdənitq pozuntularını psixi inkişafın digər sapmalarını daözündə birləşdirən kompleks qüsur problemi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, əqli fəaliyyəti kifayət qədər formalaşmayan uşaqlarda, xüsusilə də psixi inkişafıləngimiş uşaqlarda nitqin pozulması və onun korreksiyası aktual problemlərdən biridir.

Uşaqlarda nitqin kifayət qədər inkişaf etməməsi sistemli qüsurdur və nəinki nitqə, həmçinin digər psixi proseslərə də təsir edir.Psixoloji səviyyədə nitq fəaliyyətinin inkişafdan qalması uşağın alipsixi funksiyalarının, ixtiyari tənzimlənməsinin formalaşmamasına, ümumilikdə, təhsil prosesində və sosial mühitdə müvəffəqiyyətsizliyə gətirib çıxaracaqdır.

Bu baxımdan diqqət əksər məktəbəqədər və kiçikyaşlışagirdlər üçün nitq diaqnostikasının və korreksiyasının ənənəvi metodlarının əvvəlkindən daha az effektiv olmasına yönəlmişdir. Məhz buna görə də uşağın psixi fəaliyyətin motor, qavrayış, koqnitiv, verbal və digər sahələrində əlaqəli patofenomenlərin öyrənilməsi və aradan qaldırılması metodlarını özündə cəmləşdirən nitq fəaliyyətinin öyrənilməsi və korreksiyasıüçün səmərəli,kompleks korreksiyametodlarınaehtiyac aktual olaraq qalır.

Neyropsixoloji müşayiətlə korreksiya inkişaf qüsurlarınındiaqnostikası və korreksiyası üçün ən təsirli, sistemli, səmərəli, müasir kompleks korreksiya üsuludur.Neyropsixoloji korreksiya pozulmuş beyin funksiyalarının yenidən qurulmasına və uşağın daha da müstəqil şəkildə öyrənə və davranışlarını idarə edə bilməsi üçün kompensasiya vasitələrinin yaradılmasına yönəldilmiş xüsusi psixoloji üsullar toplusudur[1, 2].

Psixi inkişafı ləngimiş (psixogen mənşəli) uşaqların nitqinin neyropsixoloji müşayiətlə korreksiyasının səmərəli, sistemli, kompleks, müasir korreksiya proqramı olmasını araşdırmaq məqsədi ilə tərəfimizdən Müasir Psixologiya Mərkəzində eksperimental-psixoloji tədqiqat keçirilmişdir.

Tədqiqatda L.S. Tsvetkovanın "Uşaqların neyropsixoloji diaqnostika metodikası" kitabından istifadə edilmişdir və əsas 4 sahə üzrə diaqnostika aparılmışdır:

- davranış;
- emosional;
- nitq;
- intellektual fəaliyyət.

Davranış sahəsində əl praksisi, dinamik praksis, konstruktiv praksis, simvolik praksis, emosional sahədəemosional məzmunu qavrayışı və qiymətləndirilməsi, emosional vəziyyətlərin mimika ilə əlaqəsi və emosiyaların qavrayışı, nitq sahəsində ekspressiv nitq– spontan, dialoji, avtomatik, aktiv, nomitaniv nitq və nitqin təkrarlanması, impressiv nitq – verbal təlimatları anlama və yerinə yetirmə, müraciəti anlama, söhbət, əşyaları sözlərdən anlaması vəadlandırılmış əşyaların göstərilməsi, ifadələri anlaması, qrammatik quruluşları anlaması, intellektual fəaliyyətdə əyani-

obrazlı təfəkkür –əşyaların quraşdırılması, eyni tapşırığın sözlü adlandırmaya əsaslanaraq yerinə yetirilməsi, əşyaların differensiasiyası, süjet şəkillərin seriyasının məzmununu anlaması və seriyada ardıcıllığın müəyyən edilməsi, məntiqi təfəkkür –əks anlayışların seçilməsi, təsnifat üzrə diaqnostika qiymətləndirmə aparılmışdır. Əldə olunan nəticələr yerinə yetirilən tapşırığın mürəkkəblik dərəcəsindən asılı olaraq 3 ballıq şkala üzrə qiymətləndirilmişdir.

Tədqiqat prosesində korreksiya üçün Kolqanova, Kolqanov, Pivovarovun "Uşaqlarla neyropsixoloji məşğələlər" və A.V. Semenoviçin "Uşaq yaşlarında neyropsixoloji korreksiya. Ontogenezin əvəzedilməsi metodu" kitablarında verilmiş metodlardan istifadə edilmişdir.

Psixi inkişafı ləngimiş (psixogen mənşəli) məktəbəqədər yaşlı uşaqlarlaL.S.Tsvetkovanın"Uşaqların neyropsixoloji diaqnostika metodikası" kitabından [3]istifadə etməklə aparılan diaqnostika üzrə əldə olunan göstəricilər şəkil 1-də verilmişdir.



Şəkil 1. Psixi inkişafı ləngimiş (psixogen mənşəli) uşaqlarda aparılan diaqnostikanın göstəriciləri.

Davranış sahəsində aparılan diaqnostik nəticələr göstərir ki, uşaqların əksəriyyətinin kiçik motorikası zəif inkişaf etmişdir. Ən çox problem əl praksisində və dinamik praksisdə müşahidə olunur. Bu uşaqlar verbal təlimat üzrə yox, nümunə üzrə pozanı yerinə yetirə bilirdilər, hərəkət keçidlərinin təşkilində isəilişmələr qeyd olunurdu. Konstruktiv praksis üzrə əksəriyyəti sadə konstruksiyaları təkrarlaya bilirdilər, mürəkkəb konstruksiyaların yerinə yetirilməsində çətinlik çəkirdilər. Ən yaxşı göstəricilər isə simvolik praksisin diaqnostikasında qeyd olunmuşdur, uşaqların əksəriyyəti simvolik hərəkətləri həm nümunə, həmdə sözlü təlimat üzrə həyata keçirə bilirdilər.

Emosional sahədə aparılan diaqnostik metodlardan alınan nəticələr çox aşağıdır.Uşaqların yalnız az bir qismi ancaq bəsit səviyyədə olan emosiyaları (ağlamaq və gülmək emosiyalarını) tanıyırdılar, digər emosiyaları isə ümumiyyətlə tanımırdılar. Buna görə də hər hansı emosional məzmunlu şəkil üzrə müəyyən fikir yürütmələri, demək olar ki, qeyri-mümkün idi.

Ekspressiv nitqdə əldə olunan diaqnostik nəticələr göstərir ki, uşaqların spontan və dialoji nitqi çox zəifdir,ancaq sual-cavab şəklində ünsiyyətə girirdilər və 1-2 sözlü cavablarla kifayətlənirdilər. Bəzi uşaqlar isə suallara cavab vermək yerinə verilən sualları təkrarlayırdılar. Avtomatik nitq və aktiv nitq çox az uşaqda qeyd olunmuşdur. Nominativ nitq üzrə uşaqlarınəksəriyyəti bədən üzvlərini zəif də (əsasən, burun, baş, göz qulaq, ağız) olsa bilirdilər, nitqin təkrarlanması üzrə olan tapşırıqda isə uşaqların az bir qismində "r, d, l" səslərinin tələffüzündə qüsurlar müşahidə olunmuşdur.

İmpressiv nitqdə əldə edilmiş göstəricilər ekspressiv nitqin göstəriciləri ilə nisbətdə çox aşağıdır. Bu uşaqların əksəriyyəti verbal təlimat üzrə verilənləri qisməndə olsa, yerinə yetirə bilirdilər,müraciəti anlama, söhbətmetodunda isə uşaqların bir qismində verilmiş sualların çox az hissəsinə qısa cavabları qeyd olunmuşdur. Bu uşaqların söz ehtiyatı az olduğundan əşyaları sözlərdən anlaması və adlandırılmış əşyaların göstərilməsi metodu üzrə uşaqlar ancaq 1-2 əşyanı (ancaq söz ehtiyatlarında olanı) göstərə bilirdilər, soruşulan əşyalarınsayı artdıqca isə uşaqlarda çaşqınlıq müşahidə olunurdu. İfadələrin anlaması metodu üzrə əldə olunmuş nəticələrdə isə uşaqların yarısı ifadəyə uyğun şəklin seçilməsində çətinlik çəkirdilər, ancaq özlərinə tanış olan situasiyanı müəyyən edə bilirdilər. Qrammatik quruluşları anlaması metodunda uşaqların yalnız 38%-i zəifdə olsa, tapşırığı yerinə yetirə bilmişdir.

Əyani-obrazlı təfəkkür üzrə əldə olunan diaqnostik nəticələr göstərir ki, uşaqların əksəriyyəti əşyalarınquraşdırılması üzrə tapşırıqda iki hissəli əşyaları həm sərbəst, həm də sözlə adlandırmağa əsaslanaraq quraşdıra bilmişdilər. Əşyaların differensiasiyasıüzrə tapşırığı isə uşaqların yarısı yerinə yetirmişdir. Süjetli şəkillərin seriyasının məzmununu anlaması və seriyada ardıcıllığın müəyyən edilməsi üzrə sadə olan tapşırığı uşaqlardan ancaq 4 nəfəri psixoloqun köməyi ilə yerinə yetirə bilmişdir.

Məntiqi təfəkkürdə əks anlayışların seçilməsi üzrə olan tapşırığı uşaqlardan yalnız 1 nəfər, təsnifat üzrə isə 5 nəfər yerinə yetirə bilmişdir.

Psixi inkişafı ləngimiş uşaqlarla 5 ay müddətində korreksiya prosesi həyata keçirilmişdir[4]. İndisə 5 aylıq korreksiya prosesindən sonra əldə olunan nəticələrlə tanış olaq.



Şəkil 2. Psixi inkişafı ləngimiş uşaqlarda (psixogen mənşəli) korreksiya prosesindən sonra əldə olunan diaqnostik göstəricilər.

Əldə olunmuş nəticələrə əsasən uşaqlarda daha yaxşı simvolik praksis və konstruktiv praksis inkişaf etmişdir. Əl praksisi və dinamik praksis üzrə inkişaf üçün əldə olunmuş göstəricilər digərlərinə nisbətən aşağıdır. Verbal təlimat üzrə verilən tapşırıqlarda səhvə yol verirlər, lakin nümunə üzrə həyata keçirilən tapşırığı rahat yerinə yetirirlər. Dinamik praksis metodundan əldə olunan göstəricilər əsasən ikili hərəkətlərin təşkiliniasanlıqla həyata keçirirlər, 3-lü hərəkətlərdə bəzən səhvlər, ilişmələr müşahidə olunur.

Emosional vəziyyətlərin mimika ilə əlaqəsi, emosiyaların qavrayışı üzrə inkişaf göstəricisi daha yaxşıdır və bu uşaqların yarısı məzmunla bağlı müəyyən fikir yürüdə bilirdi, digər yarısı isə qısa cümlələrdən ibarət 1-2 fikir söyləyə bilirdi.

Bu uşaqlarda ekspressiv nitq üzrə ən yaxşı inkişaf edən nominativ nitqdir. Əksəriyyətində həm spontan, həmdə dialoji nitqi yaxşı inkişaf edib, onların cavabları əvvəl 1-2 sözdən ibarət idisə, artıq 3-4 sözdən və daha geniş cümlələrdən ibarət cavablar verə bilirlər. Bu uşaqlardan yalnız 1-də avtomatik nitq inkişaf etməmişdir, qalan uşaqlarda isə həm avtomatlaşdırılmış, həm də dezavtomatlaşdırılmış nitq yaxşı inkişaf etmişdir. Aktiv nitqlər üzrə göstəriciləri də yaxşıdır, şəklinməzmunu üzrə qısa hekayə qura bilirlər.

İmpressiv nitqdə verbal təlimatları anlama və yerinə yetirmə çox yaxşı inkişaf etmişdir. Müraciəti anlama, söhbət metodu üzrə verilən sualların çoxuna cavab verə bilirlər. Əşyaların ardıcılgöstərilməsində də caşqınlıqlar qeyd olunmur. Bu uşaqlarda qrammatik quruluşları anlama, məkanda bələdləşmə, böyük-kiçik anlayışların fərqləndirmə yaxşı səviyyədədir.

Əyani-obrazlı təfəkkür üzrəpsixi inkişafı ləngimiş uşaqlar isə artıq 3 və 4 hissəli əşyaları sərbəst şəkildə yığa bilirdilər, daha çox hissəli əşyalarınquraşdırılmasını isə sözlü təlimatla yerinə yetirirdilər.Əşyaların differensiasiyasını uşaqların əksəriyyəti yaxşı yerinə yetirirdi. Süjetli şəkillər seriyasının məzmununu anlaması və seriyada şəkil ardıcıllığının müəyyən edilməsi tapşırığını uşaqların 14%-i yaxşı, 40%-i orta səviyyədə, 40%-i zəif həll etmişdir.

Məntiqi təfəkkür üzrəəks mənalı anlayışların seçilməsi tapşırığını uşaqların 67%-i orta, 19%-i aşağısəviyyədə, 14%-i ümumiyyətlə yerinə yetirə bilməmişdir.Təsnifat üzrə olan tapşırığı isə uşaqların 67%-i orta, 24%-i uşaq aşağısəviyyədə, 9% isə ümumiyyətlə yerinə yetirə bilməmişdir.

Ümumilikdə, ilkin diaqnostika və korreksiya prosesindən sonrakı diaqnostik göstəricilər arasındakı fərqlər aşağıdakı şəkildədir (şəkil 3).



Şəkil 3. Psixi inkişafı ləngimiş uşaqların ilkin və korreksiya prosesindən sonrakı diaqnostikadan əldə olunan göstəricilər.

Beləliklə, tərəfimizdən aparılan eksperimental-psixoloji tədqiqat nəticəsində əldə olunan göstəricilərdə göstərir ki, psixi inkişafı ləngimişuşaqların nitqinin neyropsixoloji müşayiətlə korreksiyası ən səmərəli, kompleks, müasir iş üsuludur. Nitq pozuntularında neyropsixoloji müşayiətlə korreksiyasının tətbiqi nitq pozuntularının aradan qaldırılması ilə bərabər, həm idrakınvə tənzimləyici funksiyaların inkişafında nəticə əldə etməyə imkan verir, həm də uşaqların emosional, şəxsi və kommunikativ inkişafına kömək edir.

ƏDƏBİYYAT

1. А.В.Семенович. Введение в нейропсихологию детского возраста: Учебное пособие. — М.: Генезис, 2005, 319 с.

2. А.В.Семенович. Нейропсихологическая коррекция в детском возрасте. Метод замещающего онтогенеза: Учебное пособие. — М.: Генезис, 2007, 474 с.
3. Л.С. Цветкова. Методика нейропсихологической диагностики детей. Изд 4-е. исправленное и дополненное. М.: Педагогическое общество России, 2002. 96 с.
4. Колганова, Колганов, Пивоварова. Нейропсихологические занятия с детьми. Часть 2, М.; АЙРИС-пресс, 2018, 144с.
5. Ю.В. Микадзе. Нейропсихология детского возраста: Учебное пособие. — СПб.: Питер, 2008, 288 с.

PSİXİ İNKİŞAFI LƏNGİMİŞ UŞAQLARIN NİTQİNİN NEYROPSİXOLOJİ MÜŞAYİƏTİ

XÜLASƏ

Bu məqalədə psixi inkişafın digər qüsurları ilə müşayiət olunankompleksnitq pozuntularında müasir metod və texnologiyaların istifadəsinə baxılır. Bu üsullar neyropsixoloqlar tərəfindən (A. V. Semenoviç, L. S. Tsvetkova, Privarova və s.) işlənib hazırlanmışdır və psixi fəaliyyətin beyin mexanizmlərinin inkişaf qanunauyğunluqlarına əsaslanır.

НЕЙРОПСИХОЛОГИЧЕСКОЕ СОПРОВОЖДЕНИЕ РЕЧИ ДЕТЕЙ С ЗАДЕРЖКОЙ ПСИХИЧЕСКОГО РАЗВИТИЯ

АННОТАЦИЯ

В данной статье рассматривается использование современных методов и технологий при комплексных нарушениях речи, сопровождающихся другими дефектами психического развития. Эти методы были разработаны нейропсихологами (А. В. Семенович, Л. С. Цветкова, Приварова и др.) и основаны на закономерностях развития мозговых механизмов психической деятельности.

NEUROPSYCHOLOGICAL SUPPORT OF SPEECH OF CHILDREN WITH MENTAL RETARDATION

SUMMARY

This article discusses the use of modern methods and technologies for complex speech disorders accompanied by other defects of mental development. These methods were developed by neuropsychologists (A.V. Semyonovich, L. S. Tsvetkova, Privarova, etc.) and are based on the laws of development of brain mechanisms of mental activity.

MƏNİMSƏMƏ PROSESİNDƏ ƏQLİ FƏALİYYƏTİN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

Elnurə Abdullazadə
ADU-nun II kurs magistrantı
elnure.abdullazade@mail.ru

Açar sözlər: mənimsəmə, anlayış, hissi idrak, məntiqi idrak, nəzəri təfəkkür, praktiki təfəkkür, maraq, emosionallıq, generalizasiya.
Ключевые слова: усвоение, понятие, чувственное познание, логическое познание, теоретическое мышление, практическое мышление, интерес, эмоциональность, генерализация.
Key words: assimilation, concept, sensory knowledge, logical knowledge, theoretical thinking, practical thinking, interest, emotionality, generalization.

Müasir dövrdə elmi-texniki tərəqqi nəticəsində informasiyaların kəmiyyət və keyfiyyət baxımından sürətli dərəcədə dəyişməsi şagird və tələbələr tərəfindən faydalı informasiyaların mənimsənilməsi prosesini mürəkkəbləşdirmişdir. İnsanların öyrənmə prosesində fiziki, yəni bədənin müxtəlif hərəkətləri və psixoloji, yəni qavrayış, təfəkkür, diqqət, hafizə və s. amillər mühüm rol oynayır. Öyrənmə insanın xarici-fiziki və daxili-psixi aləmində baş verən məqsədəuyğun dəyişmələrin nəticəsidir. Ancaq demək olmaz ki, insanın hər cür hərəkəti öyrənmə ilə nəticələnir. *Məsələn, insan işıqlı küçədən qaranlıq otağa keçdikdə, əvvəl ətrafda olan əşyaları görmür. O, bir qədərdən sonra əşyaları sezməyə başlayır.* Bu hal öyrənmə ilə deyil, gözün həssaslığının artması nəticəsində qaranlığa alışma hadisəsi ilə əlaqədardır [2, 40].

Effektiv mənimsəmə prosesini təmin edən əsas psixoloji komponentlərdən biri *şagirdlərin təlimə müsbət münasibətidir*. Psixoloji tədqiqatlar göstərir ki, şagirdlərin təlim prosesinə müsbət münasibəti bir sıra cəhətləri formalaşdırmağa yeni yollar açır. Təlimə müsbət münasibətin yaranmasına isə təlim materialının elmi məzmunluluğu, onun praktika ilə əlaqəsi, şagirdlərin idrak - axtarış fəaliyyətinin təşkili, yeni idrak maraqları, anlamanın emosional xarakteri və s. də təsir göstərir.

Mənimsəmə fəaliyyətində vacib psixoloji proseslrdən biri də *diqqətdir*. Çünki məktəblilərə təsir edən informasiya axını içərisindən tələb edilən bilik və məlumatları müəyyənləşdirmək, seçmək diqqətin bilavasitə iştirakı olmadan mümkün deyildir. *K. D. Uşinski qeyd edirdi: "Diqqət şüurumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey mütləq buradan keçir..."* [4, 183].

Mənimsəmə prosesinə təsir edən faktorlardan biri də *materialla bilavasitə hissi tanışlıqdır.* Buraya təsvirçilik, əşyavilik və sözlü əyanilik daxildir. Materiallarla bilavasitə hissi tanışlıq təlimin optimallaşdırılmasına hərtətfli təsir göstərir. Çünki bu zaman idrak proseslərinin, xüsusilə hissi idrak mərhələlərinin birgə fəaliyyəti materialların daha adekvat mənimsənilməsinə kömək edə bilir.

Mənimsəməyə təsir edən amillərdən biri də *materialın cazibədarlığı və emosionallığıdır.* Materialın məktəblidə müəyyən emosional hal yarada bilən xüsusiyyətləri mənimsəmə prosesində müəyyən rol oynayır. Adətən, qüvvətli müsbət hissi hal yaradan material yaxşı yadda saxlanılır. Bir-birindən az fərqlənən ünsürlərdən ibarət olan şablon material pis mənimsənilir. Mənfi emosional təsirə malik olan material bəzən pis, bəzən də yeknəsəq materiala nisbətən yaxşı yadda saxlanılır. Əgər materialın emosional təsiri informasiyaların yadda saxlanılmasına yönəldilmişsə, mənimsəmə səmərəli, informasiyaların dərk edilməsinə yönəldil-mişsə, yeknəsəq materiala nisbətən zəif nəticələr verir. *Məsələn, qorxu, yaxud heyrət törədən məzmun yeknəsəq materiala nisbətən yaxşı yadda qalır. Əgər materialda formulaların mürəkkəbliyi üzündən qorxu hissi yaransa mənimsəmə səmərəli nəticə vermir* [2, 80].

İdrak tələbatlarının emosional təzahürü olan maraqlar da şagirdlərdə dərsə müsbət münasibətin formalaşmasında faydalı rol oynayır. Maraq emosional təsirə malik olur, dərin və mənalı hisslərlə əlaqədar fəaliyyətə keçir. Bu zaman təlim maraqları seçici xarakter daşıyır. Yalnız kiçik yaşlı məktəblilərdə təlimə ümumi maraq nəzərə çarpır. İbtidai məktəb yaşının axırlarında bu və ya digər fənnə maraq qüvvətlənir. Yuxarı sinif şagirdlərində isə təlimə seçici maraq daha qabarıq şəkildə ifadə olunur. Təlim materialının mənimsənilməsində öyrənilən materialın şagird şəxsiyyətinin formalaşması üçün böyük əhəmiyyətə malik olması, materialın şagirdlərin başa düşə biləcəkləri tərzdə şərh edilməsi, təlim metodlarının rəngarəngliyi mühüm rol oynayır. Şagirdlərdə təlim maraqlarını inkişaf etdirməklə, müəllim dərsi əyləncə şəklinə salmamalıdır. Çalışmaq lazımdır ki, şagirdlər mənimsədikləri materialın məzmun və siyasi mahiyyətini dərindən başa düşsünlər, həmin məlumatları mənimsəmənin insanın həyat və fəaliyyəti üçün zəruri olduğuna inansınlar. Hər yeni material köhnə ilə əlaqədar tədris edildikdə də şagirdlərin təlimə marağı artır. Məhz bu kimi hallar məktəblilərdə səmərəli təlim maraqlarının formalaşmasına və inkişafına imkan yaradır.

Əqli fəaliyyət zamanı mənimsəməyə təsir edən əsas amillərdən biri də təfəkkürdür. Belə ki, *təfəkkür prosesinin materialın fəal işlənməsi prosesi kimi nəzərdən keçirilməsi* çox vacibdir. Bu zaman təfəkkür anlama prosesi kimi nəzərdən keçirilir. Çünki tanış olmayan materialın artıq tanış olan materialla assosiasiya olunması mənimsəmənin nəticəsinə müsbət təsir edir. Həm də təfəkkür suallara cavabın axtarılması prosesidir. Ona görə də mənimsəmə prosesində yaranan suallar və bu suallara uyğun cavabların axtarılması həm yaddasaxlamaya, həm də ki, yeni materialların mənimsənilməsinə keyfiyyətcə müsbət təsir göstərir. Çünki təfəkkür təlim materialının mahiyyətinin dərk edilməsinə və şüurlu surətdə mənimsənilməsinə imkan verir. Təfəkkür məktəblilərin qarşısına çətinlik çıxdıqda, məktəbli problematik situasiyaya düşdükdə, fikri məsələni həll etmək lazım gəldikdə qabarıq şəkildə özünü göstərir. O, anlama ilə sıx surətdə əlaqədardır. Anlama təfəkkürə daha intensiv surətdə cərəyan etmək imkanı verir. Məktəblilərdə təfəkkürün inkişaf səviyyəsi müxtəlif olduğundan, anlama dərəcəsi də müxtəlifdir. Anlamanın dərəcəsi materialın əsas cəhətlərinin nə səviyyədə dərk edilməsi və əlaqələndirilməsi ilə ifadə olunur. Tədqiqatlar göstərir ki, məktəbli təfəkkürünün inkişafında anlayışların səmərəli mənimsədilməsi müsbət əhəmiyyətə malikdir. Xüsusilə xarici dillərin mənimsənilməsi prosesində bu məsələlərə diqqət yetirilməlidir. Yeni dili öyrənmə dövründə bu nisbət çox aşağıdır və yalniz tədricən həmin dili mənimsəyərək qavrayışın seçiciliyi bu həddə yaxınlaşır. Başqa sözlə xarıcı dili mənimsəmə həmin dilin vasitələri ilə tərcüməsiz təfəkkürü mümkün edir. Bu hal bilinqvizmdə müşahidə olunur [3, 216].

Qavranılmış və artıq işlənmiş informasiyaların yaddasaxlanılması və möhkəmləndirilməsi prosesi məqsədyönlü fəaliyyətdir. Unutmaq olmaz ki, dərk olunmuş təlim materiallarının yaddasaxlanılması nəinki zəruridir, həm də mexaniki effektivliyə malikdir.

Əqli fəaliyyət prosesində mənimsəmənin diqqət ayrılacaq əsas nəticələrindən biri də şagirdlərdə elmi-praktik anlayışların formalaşdırılmasıdır. Bunun üçün ilkin şərt kimi analitik-sintetik fəaliyyəti əsas hesab edirlər. Bu zaman təlimin ilkin mərhələlərində analiz qeyri-dəqiq, tamamlanmamış, səthi və hadisələrin mahiyyətindən uzaq şəkildə həyata keçirilir. Bunun nəticəsində isə ümumiləşdirmə generalizasiyaya səbəb olur. *Generalizasiya* yanlış və ya səhv ümumiləşdirməyə deyilir. Bu cür səhv ümumiləşdirmələrin qarşısı vaxtında alınmadıqda şagirdin əldə etdiyi bilik və bacarıqlar nöqsanlı olur.

Tədqiqatlar və müşahidələr göstərir ki, səhv ümumiləşdirmələrin qarşısının alınması üçün ilk növbədə onu doğuran əsas səbəbləri bilmək və təlim fəaliyyətində bu cür hadisənin baş verməməsi üçün müvafiq iş aparmaq lazımdır.

Mənimsəmənin nəticəsi bilik, bacarıq və vərdişlərin qazanılması ilə ölçülür. Bilik təlimin məzmununda onun nüvəsini təşkil edir. Biliklərin əsasında şagirdlərdə bacarıqlar və vərdişlər formalaşır, əqli və praktik hərəkətlər təşəkkül tapır, biliklər şagirdlərin dünyagörüşü, inamları və estetik baxışlarının əsasını qoyur [5, 211].

Ancaq biliklərin mənimsənilməsindən danışmazdan əvvəl hansı biliklərin bilavasitə bilik kimi səciyyələndiyini, hansı biliklərin şagirdlər üçün zəruri olduğunu bilmək lazımdır. Bilik anlayışı çox məzmunludur və birmənalı tərifə müəssər deyil. O həm şüurun bir hissəsi kimi həm predmet və hadisələrin müxtəlif səpkidə inikası, idrakın məhsul və nəticəsi kimi, həm də dərk olunan obyektin şüurda canlandırılması kimi səciyyələndirilir. Biliklərin obyektiv və mükəmməl olması çox vacibdir. Mütəxəssislər hesab edir ki,: ***"yarımçıq bilik heç bilməməkdən daha pisdir".*** Ona görə də biliyin keyfiyyəti şagirdlərin idrak fəaliyyətindən asılıdır. İdrak fəaliyyəti zamanı şagirdlərin bilikdən aldığı sevinc hissi, özünəinam hissi, özünəinam idrak fəallığının motivinə çevrilməlidir. Ciddi qiymətləndirmə müəllimin şəxsi nəzarəti ilə idarə olunan təlim prosesi şagirdi bu biliyə olan sevinc hissiniyaratmağa imkan vermir, özünəinam-müəllimin inamına çevrilərək şagird üçün idarə olunan səviyyəsinə keçir.

Şagirdlərin bilikləri mənimsəməsilə yanaşı, həm də onları özü üçün dərk etməsi və "özününkü" etməsi vacibdir. Bunun üçün nəyi necə öyrətmək məsələsi həll edilməlidir. Yəni idrak proseslərinin inkişaf etdirilməsi ilə yanaşı, diqqət əsasən şəxsiyyətin formalaşmasına və öyrənmənin daha optimal modelinin seçilməsinə yönəldilməlidir. Təlim yalnız biliklərin öyrənilməsi, mənimsənilməsi, yaddda saxlanılması və icra edilməsi naminə həyata keçirilməməlidir. Təlim həm də şagirdlərdə idraki maraqların və motivlərin formalaşdırılması qayğısına qalmalıdır. Çünki təlim prosesində əsas situasiya şagidlərin həvəsindən, marağından asılı olaraq onlara müstəqil informasiya verilməsidir. Bu halda əgər informasiya müstəqil həyata keçirsə, şagird informasiyanın selektoru, qurulan generatoru kimi çıxış edir. Adətən bu zaman şagird fəaliyyətinin motivləşməsinin obyektini - məqsədini özü seçir [2, 86].

Təlim prosesində şagirdlərin dərketmə qabiliyyətinin yüksəldilməsi yaradıcı emosional ton vasitəsi ilə həyata keçirilməli, onların öz potensiallarının dərk edib aktuallaşdırılması və gerçəkləşdirilməsi yolu ilə reallaşdırılmalıdır. Şagirdlərlə iş prosesinin optimallığını qısa zaman intervalında həyata keçirmək üçün kiçik qruplar yaradılmalı, daha çox koperativ və konstruktiv öyrənməyə üstünlük verilməlidir. Təlimin başlıca prinsiplərini şəxsiyyətyönümlü və dərketməyönümlü model üzərində qurulmasına çalışmalı, bu prinsiplərdən irəli gələn vəzifələr dərsin yaradıcı təşkilinə və münasibətlərin humanistləşdirilməsinə yönəldilməlidir.

ƏDƏBİYYAT

1. Məmmədov A. U. Təlimin psixoloji əsasları. Bakı, Maarif, 1993, 296 s.
2. Zeynaloğlu C. Təlim fəaliyyətinin psixoloji prosesi. Bakı, Print-S nəşriyyatı – 2017, 144 s.
3. İbrahimbəyov F. Ə. Seçilmiş elmi əsərləri. Bakı, Mütərcim, 2017, 512 s.
4. Uşinski K. D. Seçilmiş pedaqoji əsərləri. Bakı, Azərnəşr, 1953, səh. 183.
5. Зимняя И.А. Педагогическая психология.Москва, Логос, 2000, 384 с.

ПСИХОЛОГИЧЕСКИЕ ВОПРОСЫ УМСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ В ПРОЦЕССЕ УСВОЕНИЯ

АННОТАЦИЯ

В представленной статье в обширной форме пояснены психологические аспекты качественных показателей умственной деятельности, влияющие на процесс усвоения. Так, здесь показано влияние совместной деятельности чувственного и логического познания на усвоение с широким анализом взаимной работы познавательных процессов, оказывающих влияние на деятельность по усвоению. Одновременно, в статье всесторонне отмечено положительное влияние, оказываемое эмоциональностью и вниманием на работу усвоения.

PSYCHOLOGİCAL İSSUES OF MENTAL ACTİVİTY İN THE PROCESS OF LEARNİNG

SUMMARY

The article provides an extensive explanation of the psychological aspects of quality mental activity that affect learning. Thus, it shows the impact of the joint activities of sensual and logical knowledge on learning with a broad analysis of the mutual work of cognitive processes that influence learning activities. At the same time, in article the positive impact which had by an emotsionalknost and attention to assimilation work is comprehensively noted.

QADINLARIN KRİMİNAL MOTİVASİYASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA

Aytac Aşurova
BDU-nun I kurs magistrantı
ashurova.aytaj.25@gmail.com

Açar sözlər: kriminal davranış, qadın cinayətkarlar, motivasiya, kriminal motivasiya, tamahkarlıq, residiv, aqressivlik, natamamlıq, frustrasiya, günahkarlıq hissi, impulsivlik
Ключевые слова: криминальное поведение, женщины преступницы, мотивация, криминальная мотивация, корысть, рецидив, неполноценность, фрустрация, чувство вины, импульсивность
Keywords: criminal behavior, female offenders, motivation, criminal motivation, self-interest, recidivism, inferiority,sence of guilt, frustration, guilt, impulsivity.

Müasir dövrdə qadınların kriminal davranışının strukturuna bir sıra davamlı neqativ meyllər daxildir. Bu meyllərə misal olaraq qadınların törətdiyi ağır və xüsusilə ağır cinayətlərin sayı, onların residiv cinayətlərinin artıması və qadın cinayətkarlığının cavanlaşması göstərilə bilər.

Qadınlar onların davranışına təsir göstərən və bioloji strukturları ilə bağlı olan bir sıra fərqli psixoloji xüsusiyyətlərə malikdirlər. Qadınların kriminal davranışının səbəblərini onların şəxsi keyfiyyətlərini, daxili dünyasını, həyəcanlarını, psixoloji və bioloji xüsusiyyətlərini aydınlaşdırdıqdan sonra müəyyən etmək olar.

Qadın cinayətkarlığını psixoloji baxımından nəzərdən keçirərkən görə bilərik ki, bir çox müasir tədqiqatçılar qadınları yüksək emosionallıq, sinir sisteminin labilliyi kimi xüsusiyyətlərinə görə fərqləndirirlər ki, bunlar da kriminal motivasiyanın formalaşmasına əsaslı təsir göstərir. Qadınların kriminal davranışı öz növbəsində emosional partlayış, aqressivlik və implusivliklə xarakterizə olunur. Bu qeyd olunanlar parlaq emosional səciyyə daşıyır.

Müəlliflərdən L.A.Melikişvili keçirdiyi tədqiqatlar nəticəsində qeyd edir ki, qadınların şəxsi keyfiyyətləri onlarda müxtəlif davranış motivlərinin formalaşmasına yüksək dərəcədə təsir göstərir [1, s.137].

Əsas psixoloji xüsusiyyətlərə və aparıcı motivlərə görə zorakı cinayətlər törətmiş qadınların şəxsiyyətinin 2 tipi qeyd edilir.

1.Müdafiə olunan tip - bu tip üçün xarakterik cəhət ondan ibarətdir ki, onlar qətl və bədənə ağır xəsarət yetirmə kimi cinayətlərin motivi kimi ətrafdakıların reallıqda mövcud olmayan aqressiyasındanözlərini qorumaq çıxış edir.Bu tip cinayətkarqadınlar həmişə və ya çox vaxt ətrafdakıların düşmənçiliyini hiss edirlər və onların cinayət əməllərinin subyektiv mənasını ətraf mühitdən qorunma təşkil edir.

Natamamlıq və nədənsə çəkinmək hissi qısqanclıq, qisas, xuliqanlıq niyyəti ilə törədilmiş cinayətlərin motivi ola bilər. Cinayətin əsas motivi kimi isə "Mən"in və sosial-bioloji statusun müdafiəsi irəli çıxır.

Qadınlar sosial statuslarını aşağı salmaq niyyəti daşıyan hər cür hədə-qorxuya, real olan və düşünülən təhdidlərə qarşı çox həssas olurlar. Onlar qorxaqdırlar, tez və asan həyəcanlanırlar.

Qadınların özlərini və yaxınlarını fiziki təhlükədən qorumaq istəyi onların zorakı cinayətlər törətməsinə səbəb olur. Başqa insanlara həsəd aparmaq, öz mövqelərinə əmin olmamaq, maddi təminatlarından narazılıq qadınların tamah məqsədi ilə cinayət törətməyinə yol açır.

2. Asılı tip - bu tipin nümayəndələri aşağı səviyyədə özünü qiymətləndirmə, özünə inamsızlıq, kişilərdən sosial-psixoloji asılılıq ilə xarakterizə olunur. Yaxın adamını itirmək, tənhalıq qorxusunun, həmçinin başqa bir insandan psixoloji asılılığın aradan qaldırılması bu tipin əsasını təşkil edir.

Şəxsiyyət əleyhinə zorakı cinayətlər törədən qadın cinayətkarlara xas olan rigidlik (çox zaman affekt dərəcəsinə gətirilən psixotravmatik həyəcanın tormozlanması və möhkəmlənməsi), həmçinin yüksək implusivlik, yaranan həyati çətinlikləri adekvat formada qavraya və qiymətləndirə bilməmək onları frustrasiya halında düşünülməmiş və qeyri-mütəşəkkil kriminal əməllərə təhrik edir.

Qanunsuz əməllər törətdikdən sonra əksər qadınlar günahkarlıq, öz gələcəklərinə görə narahatlıq hissi keçirirlər. Bu narahatlıq islah müəssisələrində cəza çəkmə müddəti zamanı daha da artır. Bu səbəbdən məhkum qadınlar narazı olduqları mövcud vəziyyətlərini sosial yöndə vəmüsbət istiqamətdə dəyişməyə can atırlar. Onlarda narahatlıq və emosional zəiflik daha yüksək səviyyədə özünü göstərir.

Zorakı cinayət törətmiş qadınlar tamah məqsədi ilə cinayət törətmiş qadınlara nisbətən daha fəal və daha həyəcanlı olurlar. Bu da implusivliklə yanaşı, qadınların qanunazidd, təcavüzkar davranışlarının xüsusiyyətlərini müəyyən edir [4,s.85].

Müəlliflərdən T.N.Volkova hesab edir ki, qadınların törətdiyi zorakı cinayətlərin motivi əksər hallarda uzunmüddətli davam edən ailə-məişət münaqişələrindən irəli gəlir və burada əsas motivlər kimi kin, narazılıq, qısqanclıq özünü göstərir.

Tamahkar cinayətlər törədən qadınların kriminal motivasiyası özünəməxsus xüsusiyyətlərə malikdir. Tamahkar cinayət əməllərinə görə məhkum olunmuş qadınların asosial baxışları və yönəlişləri zorakı cinayət törətmiş qadınlara nisbətən daha qabarıq xarakter daşıyır. Onlar implusivdirlər və onlarda peşmanlıq hissi ümumiyyətlə yoxdur. Həmin qadınlar daha yüksək intellektə malikdirlər və davranışlarında daha inadkardırlar.

Müəlliflərdən T.A.Şmayeva qeyd edir ki, şəxsi əmlakı talamaqda, dövlət və ictimai əmlakı mənimsəməkdə təqsirləndirilən qadınların cinayət törətmələrinə səbəb olan ən geniş yayılmış motivləri bunlardır: digər insanlardan daha yaxşı yaşamaq, öz həyatlarını istədikləri kimi keçirmək istəyi, özlərini və yaxınlarını lazım olan hər şeylə təmin etmək tələbatı. Oğurluqla ittiham olunanlar üçün göstərilən motivlərə əlavə olaraq, əks cinsə(məşuqə) kömək etmək, qisas almaq və qısqanclıq kimi motivlər də aid edilə bilər [4, s.123].

Dilənçilik və səfil həyatı keçirməklə məşğul olan məhkum qadınlarda başqasının hesabına yaşamaq istəyi, içki üçün pul tapmaq ehtiyacı üstünlük təşkil edir. Bir qayda olaraq onların yaxınları və uşaqları ilə əlaqələri tamolaraq kəsilmiş, praktik olaraq bütün münasibətləri, mənəvi dəyərləri və iş vərdişləri yoxa çıxmışdır.

L.A.Melikişvili oğurluq edən qadınları kriminal motivasiyalarının meyarına görə 3 tipə bölmüşdür: özünü təsdiqləyən, asılı və intiqam alan tip [1,s.138-140].

Törədilmiş cinayətlərin motivlərinin və cinayi davranışın digər səbəblərinin öyrənilməsi islah müəssisələrinin işçilərinə bu şəxs haqqında ümumi bir fikir formalaşdırmağa və onun həbsxanada etdiyi hərəkətlərin səbəblərini aydınlaşdırmağa kömək edir. Çünki cəzaçəkmə müəssisələrində kriminal motivasiyanın təzahürü əvvəl törədilmiş cinayətin ağırlıq dərəcəsindən çox onun sabitlik dərəcəsindən, yenidən cinayət törətmək meylindən, kriminal "yoluxmasından" asılıdır[3, s.153].

İslah müəssisələrində praktik psixoloqların əsas vəzifələrindən biri məhkum olunmuş qadınların özlərini anlamasına kömək etmək və onların hüquqazidd hərəkətlərinin əsas mexanizmlərini öyrənməkdən ibarətdir.

Törədilmiş cinayət əməlinin əsas motivlərini bilmək, məhkum edilmiş qadının öz üzərində işləməsinin və cinayətkar niyyətintəsirinin aradan qaldırılmasının, normal həyata ilk addımın başlanğıcı ola bilər.

Göründüyü kimi, islah müəssisələrində cəza çəkən qadınların kriminal motivasiyası müasir zamanda praktik əhəmiyyətə malik vacib psixoloji problemdir. Belə ki, məhkum qadınların kriminal motivasiyasının öyrənilməsi praktik işçilərə cinayətkar davranış mexanizmini "neytrallaşdırmaq", onun kriminal fəaliyyətini dayandırmaq, əlaqələrini kəsmək, bununla da həm

cəzaçəkmə müəssisələrində, həm də azadlığa çıxdıqdan sonra yeni cinayətlərin törədilməsinin qarşısını almaq imkanı verir.

ƏDƏBİYYAT

1. Меликишвили Л.А. Типологические модели женщин-преступниц. // Современная преступность: новые исследования. Москва, 1993

2. Середа Е.В. Применение наказания в виде лишения свободы в отношении женщин: история и современность: Монография. М.: ВНИИ МВД России, 1999

3. Ушатиков А.И., Казак Б.Б. Основы пенитенциарной психологии: Учебник / Под ред. С.Н. Пономарева. Рязань: Узорочье, 2002

4. Шмаева Т.А. Некоторые особенности мотивации преступного поведения женщин, осужденных по статьям 209, 144, 89 УК РСФСР // Актуальные проблемы исправительно-трудового права (теория и практика): Сб. науч. тр. Рязань, 1989

5. Щербакова Л.М. Некоторые аспекты криминальной агрессии женщин // Российский криминологический взгляд. 2005. N 1

О ПСИХОЛОГИЧЕСКИХ ОСОБЕННОСТЯХ КРИМИНАЛЬНОЙ МОТИВАЦИИ ЖЕНЩИН

АННОТАЦИЯ

В статье рассматриваются предпосылки формирования и психологические особенности криминальной мотивации женщин преступниц. Анализируются класссификация осужденных женщин по типам криминальной мотивации и степени их криминальной зараженности. Отмечаются роль факторов микросреды, которые влияют на формирование данной мотивации.

ABOUT PSYCHOLOGICAL FEATURES OF CRIMINAL MOTIVATION OF WOMEN SUMMARY

The article discusses the prerequisites for the formation and psychological characteristics of the criminal motivation of women criminals. The classification of convicted women by the types of criminal motivation and the degree of their criminal infection is analyzed.The role of microenvironment factors that affect the formation of this motivation is noted.

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARA SAHİB AİLƏLƏRİN ÖMÜR BOYU ÖYRƏNMƏLİ OLDUĞU BİLİKLƏR

Banu Hajızada
Bartın Üniversitesi Eğitim Bilimleri Enstitüsü Eğitim Bilimleri Anabilim Dalı Hayat Boyu Öğrenme Ve Yetişkin Eğitimi Bilim Dalı Magistrant banuesk27@gmail.com
Dr. Öğr. Üyesi Sema Sulak
semasulak@bartin.edu.tr

Açar sözlər: həyat boyu öyrənmə, öyrənmə, xüsusi qayğıya ehtiyacı olan insanlar, ailə, reablitasiya
Ключевые слова: обучениепротяжении всей жизни, обучение, людинуждающихся в особой заботе, семья, реабилитация
Keywords: lifelong learning, learning, people with special needs, family, rehabilitation.

Həyat boyu öyrənmə fərdlərin bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə ömür boyu məşğul olduqları fəaliyyətlər zənciridir (11,səh.29). Müasir dövrümüzdə "həyat boyu öyrənmə" anlayışı sürətlə inkişaf edən texnologiya və elmin paralel şəkildə hərəkət etməsini məqsədə uyğun görür. İnsanlar da bu dəyişimə uyğunlaşa bilmək üçün davamlı olaraq yeni bilik və bacarıqlara yiyələnməlidirlər (1, səh. 61).

Həyat boyu öyrənmədə təlim prosesindəki ən böyük dəyişiklik "öyrətmə" anlayışından "öyrənmə" anlayışına keçilməsidir (4,səh. 128). Təhsil-öyrətmə-öyrənmə anlayışları bir-biri ilə qarışmış anlayışlar kimi görünsələr də əslində bir-birindən kəskin fərqlənirlər.

Təhsil anlayışı öyrətmə anlayışına nəzərən daha geniş məcranı əhatə edir. Öyrətmək isə öyrənmənin gerçəkləşməyi üçün fərdlərə ayrılan zaman olaraq ifadə olunur. Məktəblərdə insanlara müəyyən bilik və bacarıqları mənimsətmək üçün istifadə edilən bütün üsulları öyrətmə kimi qəbul etmək olar. Öyrətməni öyrənmə prosesindən ayıran ən təməl fərq isə öyrənmə prosesi zamanı fərdə kənardan heç bir müdaxilə, yönəldilmə və s. olmamasıdır. Öyrənmə prosesinin məktəb müddətində keçən bir hissəsinə öyrətmə deyilir. Çünki, bu dövrdə insan kiminsə nəzarəti altında olur və yönəldilir. Bütün bunları nəzərə alaraq deyə bilərik ki , öyrənmə təhsil və öyrətmədən daha geniş bir anlayışdır. Buna səbəb isə öyrənmə prosesinin ömür boyu , zaman və məkan anlayışlarından asılı olmayaraq hər şəraitdə davam etməsidir (10).

Həyat boyu öyrənmə insanın məktəb həyatından sonra da elmin müxtəlif sahələrindən faydalana bilməsidir. Məktəb təhsilindən sonra təhsil imkanı əldə edə bilmək isə yetkin təhsili sisteminin vəzifəsidir (12, səh. 58). Taha Yazar böyüklər üçün təhsilin asudə vaxtlarını təşkil etməyə, əlavə təhsil fəaliyyətlərindən vətəndaşlıq tərbiyəsinə qədər; Siyasi təhsildən tutmuş yaşlılar üçün təhsilə qədər ictimai həyatda çox geniş bir sahəni əhatə etdiyini bildirir (13, səh. 22). Həyat boyu öyrənmədə heç bir məhdudlaşdırıcı amil yoxdur və öyrəniləcək mövzu insanın maraq və ehtiyaclarından asılı olaraq dəyişə bilər. Həyat Boyu Təhsil və ya Qeyri-Formal Təhsil İxtisas Komissiyası Hesabatı (5), valideynlərin ən böyük məşğuliyyətinin onların övladları olduğu vurğulanır. Bütün valideynlər ilə birlikdə xüsusi qayğıya ehtiyacı olan uşaqları olan valideynlər də övladlarına daha yaxşı rəhbərlik etmək, bilik və bacarıqlarını yeniləmək üçün ömürlük təhsil prosesində iştirak edirlər.

Xüsusi qayğıya ehtiyacı olan insanlar müxtəlif səbəblərə görə fərdi xüsusiyyətləri və təhsil qabiliyyəti baxımından həmyaşıdlarından əhəmiyyətli dərəcədə fərqlənirlər. Uşaqların Xüsusi Qayğıya Ehtiyaclar Hesabatında (2) xüsusi ehtiyac ' Sağlamlıq, təhsil, reabilitasiya, cihaz, ortoz, protez, ekoloji qaydalar və digər sosial və s. iqtisadi hüquqlara və xidmətlərə ehtiyacının olması ' şəklində təyin . Xüsusi qayğıya ehtiyacı olan şəxslər Təhsil Nazirliyi, Xüsusi Təhsil Xidmətləri Təminatında (9) "xüsusi təhsiəl ehtiyacı olan şəxs" adı ilə "fərdi və inkişaf xüsusiyyətləri və təhsil

qabiliyyətləri baxımından həmyaşıdlarından əhəmiyyətli dərəcədə fərqlənən şəxslər" olaraq təyin olunur.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlara təhsil və hissiyyat pozuntuları olan uşaqlar, habelə zehni qabiliyyətli və ya xüsusi istedadlı uşaqlar daxildir (14, səh. 255). Bu uşaqlara verilən təhsilin əsas məqsədi bu şəxslərin müstəqil yaşamalarına və həyatlarının məsuliyyətini götürmələrinə yardım etməkdir (7, səh. 310).

Xüsusi qayğıya ehtiyacı olan insanlara gündəlik həyatda müstəqill yaşaya bilmələri üçün ehtiyacları olan bacarıqlar mənimsədilir . Xüsusi qayğıya ehtiyacı olan şəxslərin cəmiyyətlə birləşmək və cəmiyyətdə məhsuldar fərd olmaq qabiliyyəti təklif olunan təhsil imkanlarından asılıdır. Əlillərin Cəmiyyətə inteqrasiyası başlığı altında Avropa Birliyinin Əsas Hüquqlar Bəyannaməsinin (15) 26-cı maddəsində; "Birlik əlillərin müstəqilliyini, sosial və peşə həyatına inteqrasiyasını və cəmiyyət həyatında iştirakını təmin etmək üçün faydalanmaq hüququnu tanıyır və hörmət edir." deyilməkdədir. Xüsusi qayğıya ehtiyacı olan şəxslərin cəmiyyətə inteqrasiyası , təhsil imkanlarından və xüsusi qayğıya ehtiyacı olan şəxslərin ailələrinin mövzu ilə bağlı məlumatlı və şüurlu olmalarından asılıdır. Lakin Türkiyədə fərqli inkişaf göstərən uşaqlara sahib ailələrə sistematik bir təhsil və məlumatlandırma prosesi yoxdur. Buna görə, ailələr fərqli inkişafa sahib olan uşaqları olduqda hansı yolu keçəcəklərini, qanuni əsaslarının nə olduğunu və hansı təhsil sistemindən keçdiklərini bilmir və bunun narahatlığını yaşayırlar (8, səh.86).

Bu araşdırmada xüsusi qayğıya ehtiyacı olan uşağa sahib valideynlərin, uşaqlarının həyata gəlməsi ilə öyrənməli olduqları biliklərə fokslanmışlardır və bu na bağlı olaraq;

Xüsusi qayğıya ehtiyacı olan uşaqları olan ailələrin ömrü boyu öyrənmə ehtiyacları,

a) Əlilliyin növü

b) Ailənin təhsil səviyyəsi

c) Uşaqların sayı

Dəyişənlərinə görə necə dəyişdiyini müəyyənləşdirməyə çalışılmışdır.

Tədqiqat metodu

Bu iş təsviri tədqiqat tipindədir. Tədqiqat qrupu, müvafiq seçmə metodu ilə müəyyən edilmiş xüsusi qayğıya ehtiyacları olan uşaqları olan valideynlərdən ibarətdir.

İşçi Qrup

Bu iş Bartın Xüsusi İlk Dəyişiklik Xüsusi Təhsil və Reabilitasiya Mərkəzi Kozcağız şöbəsində 2018-2019 illəri arasında təhsil alan xüsusi qayğıya ehtiyacı olan 30 şagirdin valideynləri ilə həyata keçirilmişdir.

Məlumat toplusu

Məlumat toplama vasitəsi, Bartın Şəxsi İlk Dəyişiklik Xüsusi Təhsil və Reabilitasiya Mərkəzi Kozcağız şöbəsində təhsil alan uşaqların valideynləri ilə lazımi icazələri alaraq tətbiq edildi. Məlumat toplama vasitəsi təşkilat daxilində üzbəüz doldurulduru.

Ailələr üçün təhsil ehtiyaclarını müəyyənləşdirmə forması

Hale Dere Çiftçi (2015) tərəfindən hazırlanan Ailə Ehtiyaclarını Müəyyənləşdirmə Formasını istifadə etməzdən əvvəl lazımi icazə alındı. Ölçmə vasitəsi iki kateqoriyalı (Bəli-Xeyr) 30 maddəlik bir vasitədir.

Məlumatların təhlili

Ölçmə vasitələrindən əldə olunan balları müəyyən etmək üçün cədvəldə təsviri statistika, tezlik, faiz və diametr tətbiq edildi və fərqləri yoxlamaq üçün ki-kvadrat analizi istifadə edildi.

Nəticələr və şərhlər

Birinci alt problemə aid nəticələr

Cədvəl 1. Sağlamlıq məhdudluğunun növü ilə bağlı təsviri statistika

		F	%
	Əqligerilik	17	56,7
	Autizm	6	20,0

	Fiziki əlillik	5	16,7
	Əqliəfizikiəlillik	2	6,7
	Total	30	100,0

Xüsusi qayğıya ehtiyacı olan uşaqları olan valideynlərin əlilliyin növünə görə ömürlük təhsil ehtiyacları ilə bağlı fikirlərinin fərqliliyini müəyyən etmək üçün ki-kvadrat təhlili aparılmışdır. Təhlil nəticəsində; "Sosial mənbələrdən ən yaxşı şəkildə necə istifadə edə bilərəm?" sualına verilən cavablar əlilliyin növünə görə fərqlənir.Müəyyən edilmişdir ki, əqli qüsurlu uşaqları olan ailələr digər əlillik növlərinə nisbətən bu maddəyə daha çox ehtiyac duyurlar.

"Zehni qüsurlu uşağımla normal inkişaf edən bacı-qardaşları arasında yaxşı əlaqə yaratmalarını necə təmin edə bilərəm?" sualına verilən cavablar əlilliyin növünə görə müxtəliflik göstərmişdir.

"Bacı- qardaş qısqanclığı hallarında nə etməliyəm?" sualına vürilən cavabların əlilliyin növünə görə fərqli olduğu təsbit edildi. Zehni qüsurlu uşaqları olan ailələr daha çox dəstəyə ehtiyac duydular.

İkinci alt problemə aid nəticələr

Cədvəl 2. Valideynin təhsil səviyyəsi ilə bağlı təsviri statistika

		F	%
	ibtidai sinif təhsilli	15	50,0
	orta məktəb təhsilli	9	30,0
	Tam məktəbtəhsilli	3	10,0
	məktəbə getmədi	3	10,0
	Total	30	100,0

Ailənin təhsil səviyyəsinə görə ölçmə alətindəki maddələrin heç birində ciddi fərq yox idi.

Üçüncü alt problemlə əlaqəli nəticələr

Uşaqları xüsusi qayğıya ehtiyac duyan valideynlərin uşaqların sayına görə edilən təhlillərə görə, "zehni qüsurlu uşağımla normal inkişaf edən bacılarım arasında yaxşı bir ünsiyyət qurmağını necə təmin edə bilərəm?" bəndinə verilən cavablar bir-birindən fərqləndi.Bu fərq 3 uşaqlı ailələrdə müşahidə edildi .. 3 uşaqlı ailələrdə 1, 2 və 4 uşaqlı ailələrə nisbətən daha çox təlim tələb olunurdu.

Nəticə və Tövsiyələr

Tədqiqata əsasən əldə edilən nəticələr aşağıdakılardır:

1) Bu işdə ailələrin ölçmə vasitələrində yer alan;

" Uşağın sosial bacarıqlarını necə dəstəkləyə bilərəm?"

" Uşağımda istənməyən davranışlar qarşısında nə etməliyəm?"

" Uşağımın cinsi tərbiyəsini necə verə bilərəm?"mövzularında daha çox təlimlərə ehtiyac duyduqları təyin olunmuşdur . Yuxarıda verilən bu maddələrin dərininə araşdırılması və ailələrin ən çox hansı təlimlərə ehtiyac duyduqları mövzusunda araşdırma edilməsi təklif edilir.

2) Əlillik növünə görə , edilən analiz nəticələrinə baxıldığında;

" İctimai qaynaqlardan necə ən yaxşı şəkildə yararlana bilərəm?"

" Əqli geriliyii olan uşağım və normal inkişaf göstərən qardaş- bacıları arasında yaxşı bir ünsiyyət qurmalarını necə təmin edə?"

" Bacı- qardaş qısqanclığı hallarında nə etməliyəm?"

maddələrinə verilən cavabların əlillik növünə görə fərqlilik göstərdiyi görülmüş və bu maddələrə əqli geriliyi olan uşağı olan ailələrin digər əlillik növündəki ailələrə görə daha çox ehtiyac duyduğu təyin olunmuşdur.

3) Valideynlərin təhsil səviyyəsinə bağlı nəticələrə baxanda , önəmli bir fərqlilik təsbit edilə bilməmişdir.

4) Valideynlərin uşaq sayına bağlı nəticələrə baxıldığında

"Əqli geriliyi olan uşağım və normal inkişaf göstərən qardaşları arasında yaxşı bir ünsiyyət qurmalarını necə təmin edə?"

Uşaqların sayının bu mövzuda fərq yaratdığı müşahidə edildi. Xüsusilə 3 uşağı olan ailələrin uşaqlar arasında ünsiyyətdə daha çox dəstəyə ehtiyacı olduğu müəyyən edilmişdir. Bu məsələnin xüsusilə ailələrə veriləcək təlimlərdə nəzərə alınması və hətta bütün ailə üzvlərinə ünsiyyət üçün dəstək verilməsi təklif oluna bilər .

ƏDƏBİYYAT

1. Adil Türkoğlu, Senem Uça, Türkiye'de Halk Eğitimi: Tarihsel Gelişimi, Sorunları ve Çözüm Önerileri, Adnan Menderes Üniversitesi Eğitim Fakültesi Eğitim Bilimleri Dergisi, Aralık 2011, 2 (2), Sayfa 48-62

2. Aile, Çalışma ve Sosyal Hizmetler Bakanlığı ile Sağlık Bakanlığı, Çocuklar için özel gereksinim değerlendirmesi hakkında yönetmelik, Resmî Gazete , Sayı : 3069220, Şubat 2019

3. Ahmet Nohutçu, Bilgi toplumunda yükseköğretim kurumlarının yeniden yapılandırılması ve yönetimi: başlıca eğilimler, gelişmeler ve bologna süreci, Bilgi Ekonomisi ve Yönetimi Dergisi, 2006, Sayfa 50-66

4. Hakan Genç, Özel gereksinimli çocuğa sahip ailelerin hayat boyu öğrenme gereksinimleri, Açıköğretim Uygulamaları ve Araştırmaları Dergisi, 2017, Cilt 3, Sayı 2, Sayfa 125-139

5. Hayatboyu eğitim ve ya örgün olmayan eğitim özel ihtisas komisyonu raporu, Ankara 2001

6. İsmail Güleç, Seda Çelik, Buket Demirhan, Yaşam Boyu Öğrenme Nedir? KavramveKapsamiÜzerineBirDeğerlendirme, Sakarya University Journal of Education, 2/3 (Aralık /December 2012), Sayfa 34-48.

7. Müzeyyen Eldeniz Çetin, Özel Gereksinimli Bireylerin Tercihlerinin Değerlendirilmesi, Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Özel Eğitim Dergisi Yıl: 2017, Cilt: 18, Sayı: 2, Sayfa 309-328

8. Mehtap Kot, Serdar Sönmez, Emine Ertay, Özel gereksinimli bireylere sahip ailelerin yaşadıkları zorluklar, Atatürk Üniversitesi Kazım Karabekir Eğitim Fakültesi Dergisi Sayı. 37 Yıl. 2018, Sayfa 85-96

9. Millî Eğitim Bakanlığı, Özel eğitim hizmetleri yönetmeliği,Resmî Gazete, 7 Temmuz 2018 , Sayı : 30471

10. Nur Akkuş, Yaşam Boyu Öğrenme Becerilerinin Göstergesi Olarak 2006 Pisa Sonuçlarının Türkiye Açısından Değerlendirilmesi, Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2008

11. Özcan Demirel, Öğretme sanatı öğretim ilke ve yöntemleri, Ankara, 2001, Sayfa 6-305

12. Rıfat Miser, "Küreselleşen" dünyada yetişkin eğtimi, Ankara Universeti, Eğtim bilimleri fakültesi dergisi, , 2020, cild:35, say 1- 2, Sayfa 55-60

13. Taha Yazar , Yetiskin egitiminde hedef kitle, Dicle Universitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2012, Sayfa 21-30

14. Taner Altun, Aysun Gülben, Okulöncesinde özel gereksinim duyan çocuklarin eğitimindeki uygulamalar ve karşilaşilan sorunlarin öğretmen görüşleri açisindan değerlendirilmesi,Selçuk Üniversitesi Ahmet Keleşoğlu Eğitim Fakültesi Dergisi, 2009, sayı: 28, Sayfa: 253-272

15. https://www.avrupa.info.tr/tr/avrupa-birligi-temel-haklar-bildirgesi-708 (Avropa Birliyi temel haklar delegasyonu)

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARA SAHİB AİLƏLƏRİN ÖMÜR BOYU ÖYRƏNMƏLİ OLDUĞU BİLİKLƏR

XÜLASƏ

Bu araşdırmanın əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqların ailələrinin öyrənməli olduğu bilik və bacarıqları müəyyən etməkdir. Araşdırma 2018-2019 - cu illər arasında bir uşaq inkişaf və reabilitasiya mərkəzində təhsil alan uşaqların ailələri arasında keçirilib. Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailələrinin hansı biliklərə yiyələnməli olduğu, uşaqda olan əngəlin növü, ailənin təhsil səviyyəsi və ailədəki uşaq sayı kimi amillər nəzərə alınaraq müəyyənləşdirilməyə çalışılmışdır. Bunun üçün tədqiqatçılar ki-kvadrat analizi aparmışlardır. Analizin nəticəsində məlum olmuşdur ki, bu uşaqların ailələrinin öyrənməli olduğu biliklər əngəlin növünə və ailədəki uşaq sayına görə kəskin fəqlənsə də ailənin təhsil səviyyəsi burada fərqləndirici amil olmamışdır.

ЗНАНИЯ, КОТОРЫЕ ДОЛЖНЫ ПОЛУЧАТЬ НА ПРОТЯЖЕНИИ ЖИЗНИ СЕМЬИ, ВОСПИТЫВАЮЩИЕ ДЕТЕЙ, НУЖДАЮЩИХСЯ В ОСОБОЙ ЗАБОТЕ

АННОТАЦИЯ

Основная цель данного исследования - выявить знания и навыки, которые необходимо освоить семьям детей с особыми потребностями. Исследование проводилось среди семей детей, обучающихся в центре развития и реабилитации детей в период с 2018 по 2019 годы. Предпринимались попытки определить, какие знания должны получать семьи детей с особыми потребностями, принимая во внимание такие факторы, как тип инвалидности у ребенка, уровень образования в семье и количество детей в семье. Для этого исследователи провели квадратичный анализ. В результате анализа было установлено, что, хотя знания о том, что семьям этих детей следует учиться, резко различаются в зависимости от типа барьера и количества детей в семье, уровень образования семьи не является отличительным фактором.

KNOWLEDGE THAT FAMILIES WITH LIVING CHILDREN WHO NEED SPECIAL CARE SHOULD LEARN FOR A LIFETIME

SUMMARY

The main purpose of this study is to identify the knowledge and skills that families of children with special needs need to learn. The study was conducted among the families of children studying in a child development and rehabilitation center between 2018-2019. Attempts were made to determine what knowledge families of children with special needs should acquire, taking into account factors such as the type of disability in the child, the family's level of education and the number of children in the family. To do this, researchers conducted a quadratic analysis. As a result of the analysis, it was found that although the knowledge that these children's families should learn differed sharply according to the type of barrier and the number of children in the family, the family's level of education was not a distinguishing factor.

YENİYETMƏLƏRDƏ TƏŞVİŞ POZUNTUSUNUN DİAQNOSTİKASI VƏ ONLARA YARDIMIN TƏŞKİLİ

Hakan Seyhan
BDU-nun I kurs magistrantı
Elmi rəhbər dos. Sevinc Allahyarova
hknsyhnnn@gmail.com

Açar sözlər: yeniyetmələr, təşviş, təşviş pozğunluğu, farmakoterapiya, psixoterapiya.
Ключевые слова: подростки, тревожность, тревожные состояния, фармакотерапия, психотерапия.
Key words: adolescents, anxiety, anxiety disorders, pharmacotherapy, psychotherapy.

"Yeniyetməlik"sözü, latınca "böyümək" və ya "yetkinləşmək" mənasını verən *"adolescere"* sözündən qaynaqlanır. Yeniyetməlik, insan həyatının sonrakı inkişafına əhəmiyyətli dərəcədə təsir edən ən vacib dövrlərdən biridir. Uşaqlıq və yeniyetməlik dövrü arasında "körpü" rolunu oynayır. Əksər müəlliflər yeniyetməlik dövrünücinsi yetkinliyin başlaması ilə əlaqələndirirlər ki, bu da əksər uşaqlarda 10 ilə 13 yaş arasında baş verir və bu, yeniyetməlik dövrünün ən erkən sərhədi hesab olunur. Üst sərhədi o qədər də müəyyənləşdirilməyib: orta hesabla 16-18 yaş arasıdır. Bununla belə, göstərilən dövrlər kifayət qədər şərtidir və hər bir insan üçün individualdır.

Yeniyetməlik dövrü yalnız uşaqlıq və yetkinlik arasında bir "körpü" rolunu oynamır; həyatın bu mərhələsi emosional və vegetativ sferanın vəziyyətinə təsir göstərən, xüsusən təşviş-qorxu radikalının üstünlük təşkil etdiyi müxtəlif nevrotik pozğunluqlara təhrik edən özünəməxsus bioloji və sosial xüsusiyyətlərə malikdir. Əksər elmi rəylərdə təşviş pozuntuları uşaqlıq və yeniyetməlik çağının ən geniş yayılmış psixi pozğunluq sinfi kimi qiymətləndirir.Təxminən 4-8% yeniyetmələrdə klinik olaraq təzahür edən təşviş pozuntularına rast gəlinir.

İntensiv yaşanan təşviş və həyəcan psixi fəaliyyətin pozulmasına gətirib çıxarır və həyat keyfiyyətini əhəmiyyətli dərəcədə pozur. Normaldan patoloji hala çevrilərək, tələş və həyəcan təşviş pozuntusunun yaranması üçün əsas rolunu oynayır.

Təşviş pozuntuları qrupuna ümumi bir simptomla – israrlı xarakterə malik, hər hansı müəyyən vəziyyətlə (sabit və ya qeyri-sabit, fərdi və situativ) məhdudlaşa bilən və ya məhdudlaşa bilməyən yüksək səviyyəli tələş və həyəcanla əlaqəli bir neçə xəstəlik daxildir. Klinik olaraq, tələş pozuntusu, mühüm fərqləndirici xüsusiyyəti çoxsistemlilik olan psixi və somatik (vegetativ) simptomlarla özünü göstərir. Təşviş simptomları üç əlaqəli reaksiya sisteminin qarşılıqlı təsiri hesabına yaranır: fiziki (vegetativ) sistem, idrak sistemi və davranış sistemi [1,s.111].

Yeniyetməlik çağında təşvişin yaranmasının öz xüsusiyyətləri var:

Obsesif-fobik pozulmaların yayılması.

Tələşın daha aydın təzahür edən somatizasiyası.

Özünü göstərən davranış pozuntuları: əlaqələrin məhdudluğu, əsəbilik, hərəkət narahatlığı, aqressivlik, hiperkompensasiya reaksiyaları.

Özünə inamsızlıq, özünü dəyərləndirmənin aşağı olması.

Böyüklərin dəstəyinə daim ehtiyac duyulması.

Həm böyüklər üçün xarakterik, həm də uşaqlar üçün spesifik olan təşviş pozuntularının inkişaf ehtimalı.

Oğlan və qızlarda təşviş hisslərinin intensivliyi, təşviş səviyyəsi fərqlidir və bu fərqlər yaşla daha da kəskinləşir. Qızlar daha çox tələş və həyəcanlarını digər adamlarla (dostlar, qohumlar, müəllimlər) əlaqələndirirlər, təhlükəli sayılan adamlardan (sərxoşlar, xuliqanlar, quldurlar) qorxurlar. Oğlanlar isə fiziki travmalardan, bədbəxt hadisələrdən, habelə valideynlərindən və ya

ailədən kənarda olan şəxslərdən (müəllimlərdən, məktəb direktorundan) gələcək cəzalardan çəkinir və qorxurlar.

Təşviş pozuntusu nevrotik şəxsiyyətin nevrotik əlamətlərinin formalaşmasına və ya güclənməsinə səbəb olur: özünə inamsızlığa, həyat təhdid və təhlükələrlədolu görünən haldabəslənən pessimist baxışlara. Qeyri-müəyyənlik narahatlıq və qərarsızlıq doğurur və onlar da öz növbəsində müvafiq xarakteri formalaşdırırlar. Qeyri-müəyyən, həyəcanlı bir uşaq və ya yeniyetmə həmişə nədənsə şübhə edir və şübhə başqalarına inamsızlıq yaradır. Belə bir uşaq başqalarından qorxur, hücum, istehza, inciklik gözləyir. Ona həvalə olunan işin öhdəsindən gəlmir. Bu, öz növbəsində həm özünə, həm də başqalarına yönəlmiş təcavüz şəklində qoruyucu bir reaksiyanın meydana gəlməsinə kömək edir [1,s.117].

Yeniyetməlik çağında təşvişin yaranması və təzahür spesifikası öz "mən"in dəyişilməsi, imtinası və itirilmə təhlükəsinə verilən reaksiyada özü olmamaq qorxusu ilə izah edilir.

Yeniyetməlik çağınınuşaqlıq və yetkinlik dövrü arasındakı aralıq mövqeyi ilə əlaqədar olaraq yeniyetmələrdə uşaqlıq dövrü üçünspesifik bəzi formaların əlavə olunduğu təşviş pozuntusunun bütün "yetişkin" variantlarına rast gəlmək mümkündür.

Obsesiv-kompulsivpozuntuya 2-3% yeniyetmələrdə və uşaqlarda daha çox rast gəlinir. Və çox vaxt vəsvəsəli hərəkətlərin və ritualların (məcburiyyətlərin) yaranmasına səbəb olan vəsvəsələri özündə ehtiva edir. Obsesiv-kompulsiv pozuntuları olan 10-11 yaş aralıqlı uşaqlar, davamlı olaraq başlarında yaranan şeirləri və ya mahnıları "eşitdiklərindən" şikayət edə və ya təhlükəli bir xəstəlikdən (məsələn, xərçəng kimi) öləcəklərindən qorxa və ya hansısa bir caninin onlara hücum edəcəyindən qorxu hissi keçirə bilərlər. Uşaqlarda və yeniyetmələrdə ən çox yayılmış vəsvəsələr infeksiya və yoluxma qorxusu, özünə və ya başqalarına zərər vermək qorxusu, həmçinin cinsi, somatik və dini narahatlıqlar ilə əlaqədardır. Bu və digər vəsvəsələr xeyli həyəcan və təlaş yaratdığı və əzab verdiyi üçün, obsesif-kompulsif pozuntuları olan uşaqlar, məcburiyyət adlananvəsvəsəli hərəkətlərin köməyi ilə onları zərərsizləşdirməyə çalışaraq böyük səy göstərirlər.

Ümumiləşdirilmiş təşviş pozuntusu ümumiləşdirilmiş və israrlı xarakter daşıyan təşviş ilə xarakterizə olunur ki,bu da hər hansı konkret ətraf mühit şəraiti ilə məhdudlaşmır və hətta bu şəraitdə bariz üstünlüklə ortaya çıxmır (yəni, "qeyri-sabit") [3,s.127].

Diaqnozun qoyulması üçün xəstədə ilkin təşviş simptomları ən azı 6 həftə müddətində mövcud olmalıdır. Ən çox bu qismdə çıxış edən simptomlar aşağıdakılardır [2,s.32]:

1) narahatlıq, əsəbilik və ya səbirsizlik;
2) sürətli keyləşmə;
3) diqqət və yaddaş konsentrasiyasının pozulması;
4) qıcıqlanma;
5) əzələ gərginliyi;
6) yuxu pozulması.

Ümumiləşdirilmiş təşviş pozuntusu3-6% uşaqlarda və yeniyetmələrdə yaranır. Uşaqlar üçün spesifik olan və yeniyetməlik dövründə də ortaya çıxa bilən təşviş pozuntusu ayrılıqla bağlı olan təşviş pozuntusudur. Belə uşaqlarda müstəqil davranış bacarıqları formalaşmır və ayrılıq qorxusu ***hipertrofik ölçülər*** əldə edir.

Ümumiləşdirilmiş təşviş pozuntusuüçün diaqnostik meyarlar digər təşviş pozuntusu variantlarına nisbətən daha az dəqiqdir və daha çox istisna edilmə prinsipi üzrə qurulur.

Yeniyetmə dövründəonların davranış və şəxsiyyət reaksiyalarında əks olunan, uşaqlıq çağında təşvişin sabitləşməsinə gətirib çıxaran hadisə və yaşantılar, emosional-davranış reaktivliyinin konkret şəxsi tərziniəvvəlcədən müəyyənləşdirir, lakin yeniyetmələrin müalicə olunmamış təşviş pozuntuları yetkinlik çağındakı psixi adaptasiya pozulmaları ilə mürəkkəbləşir.

Panik hücumlar (vahimə pozuntusu) tez-tez ***aqorafobiya*** ilə müşayiət olunur. Panik hücumlara yeniyetmə uşaqlarda daha çox rast gəlinir. Bu kateqoriyaya aid 35-65% yeniyetmə uşaqlardaböyüyəndə pis görünmək kimi düşüncələr formalaşır, bununla belə bu tip təşviş

pozuntusuna daha az rast gəlinir və 1–5% yeniyetmələrdə ortaya çıxır. Yeniyetmələrdə müşahidə olunan bu tip təşviş pozuntusunun simptomları böyüklər üçün xarakterik olan simptomlardan bir elə fərqlənmir, lakin yeniyetmələr tərəfindən hər hansı bir stressli situasiyanı yaşamaq üçün xas olan katastrofizasiya, çarəsizlik və köməksizlik hissi və təzahür edən həssaslığa meyllilik ilə bağlı olaraq həddindən artıq ağır çəkilir [5,s.107].

Travma sonrası stress pozuntusu çərçivəsində stressdən sonrakı təşviş həyati təhlükəli vəziyyətlərdən və ya hər hansı katastrofdan (hərbi əməliyyatlar, AES-lərdəki qəzalar, avtomobil qəzası, yanğın, sel, təcavüz və s.) sonra inkişaf edir. Uzun sürən ağrılı xatirələr, artan həyəcan, qıcıqlanma və qəzəb, yuxu pozulmaları və kabuslar, o cümlədən, yaşanan vəziyyətin görüntüsü, təklik və özünə inamsızlıq hissi, baş verən hadisələri xatırladacaq istənilən növünsiyyət fəaliyyətindən yayınma kimi xüsusiyyətlər bu kimi təşviş pozuntusu üçün xarakterikdir. Uşaqlar və yeniyetmələr üçün yaddaşlarda travmatik hadisəni canlandıran,hər gecə təkrarlanan kabuslar təkrarlanan canlı görüntülərdən daha xarakterikdir.

Qarışıq təşviş **və** ***depressiya pozuntusu***o halda diaqnoz edilir ki, xəstədə həm təşviş, həm də depressiya simptomlarımövcud olmuş olsun, lakin bunların heç biri ayrı-ayrılıqda dominantlıq təşkil etmir [5,s.109].

Uşaqlarda təşviş pozuntusu olduğunu düşündükdə psixoloq yardımına müraciət etmək daha məqsədəuyğundur. Bununla belə, uşaqlara dəstək ola bilmək üçün bu kimi köməklikləri də göstərmək olar:

- ✓ onlara həyəcan yaşamanın çox adamda rast gəlinən bir şey olduğunu başa salmaq, bu onlara özlərini tək hiss etməməsinə kömək olacaqdır.
- ✓ onların duyğu və düşüncələrini dinləmək üçün zaman ayırmaq.
- ✓ öz qorxularınızla necə baş etdiyinizi onlara başa salmaqla örnək olmaq.
- ✓ uşaqlarla birlikdə strategiya formalaşdırmaq: həyəcanlanan zaman tez-tez nəfəs aldığınızı, ya da qorxduğunuzda nəfəsinizi tutduğunuzu başa salmaq, yavaş və dərin nəfəslər aldığınızda sakitləşdiyinizi uşağınızla birlikdə yoxlamaq. Həyəcanlanarkən onlara yaxşı təsir edəcək şeylər haqqında düşünməsini izah edə bilərsiniz.

Psixofarmakoterapiya təşviş pozuntusunun müalicəsində xüsusi rol oynayır. Təşviş pozuntusunun müalicəsi üçün tövsiyə olunan preparatların geniş spektrinə baxmayaraq, xeyli dərəcədə tezlik və yan təsirlərin təzahürü ilə əlaqədar olaraq yeniyetmələrdə bu nadir hallarda istifadə olunur [4,s.36].

Bununla əlaqədar olaraq, təşviş pozuntusu olan yeniyetmələrin müalicə metodlarının strukturunda, monoterapiya qaydasına riayət etməklə, minimal yan təsirləri olan, polivalent təsirli dərmanlara üstünlük verilməlidir.

Uşaqlarda və yeniyetmələrdə təşviş pozuntusunu müalicə etmək üçün geniş istifadə olunan bitki mənşəli, homeopatik metabolik və bəzi yumşaq hərəkət edən sintetik preparatlar belə xüsusiyyətlərə malikdir.

Təşviş pozuntusu üçün mürəkkəb terapevtik kompleksdə əsas metodlardan biri ***psixoterapiyadır***. Hal-hazırda, psixoterapevtin sərəncamında simptomatik yaxşılaşdırma məsələlərini həll edən sadədən tutmuş pasientin daxili konfliktlərini həll etməyə yönəlmiş mürəkkəb vasitələrə qədər geniş alətlər arsenalı var. Əksər psixoterapiya sxemləri, təşvişin təhdidə şişirdilmiş yanaşma və ya özününartan aktivasiya vəziyyətini düzgün şərh etməməsinin səbəb olması fərziyyəsinə əsaslanır. Belə olan halda, ya xarici təhlükə həddən artıq qiymətləndirilir, ya da onun öhdəsindən gəlmək üçün pasiyentin öz qabiliyyəti qiymətləndirilmir. Təşviş qorxuları və köməksizlik hissi də var ki, bunlarda əsas diqqət pasiyentin öz daxili vəziyyətinə yönəlir. Artan gərginlik diqqətin daralmasına və konsentrasiyanın azalmasına, habelə özünü idarəetmənin və düzgün reaksiyanın pozulmasına gətirib çıxarır [4,s.42].

Yuxarıda göstərilən metodların hamısı təşviş pozuntusunun müxtəlif variantlarında eyni dərəcədə effektivdir, lakin qeyd etmək lazımdır ki, buradakı texnikalar təşviş pozuntularının

konkret formaları üçün spesifik olaraq nəzərdə tutulub. Uşaqlarda və yeniyetmələrdə təşviş pozuntusunun müalicəsində ən effektiv metodlar pasiyentdə təşvişə səbəb olan vəziyyətlər, obyektlər və ya hadisələrlə qarşılaşma texnikasından istifadə edir. Təşviş pozuntusunun müalicəsində ailənin iştirakı yalnızca uşağın müalicəsinə yönəlmiş terapiya ilə müqayisədə daha güclü və uzunmüddətli effekt verə bilər.

Sosial, iqtisadi, demoqrafik, ekoloji problemlər yeniyetmə nəsli təmsil edən nümayəndənin şəxsiyyətinin formalaşmasında mənfi tendensiyaların artmasına gətirib çıxarır. Bunların arasında təşvişpozuntuları xüsusi yer tutur. Pozuntu adətən yeniyetmələrdə inkişaf edir. Yayılma tezliyi 3-4%-dir.Oğlanlarda qızlara nisbətən daha çox yayılmışdır. Davranış pozuntuları olan yeniyetmələr tez-tez uşaq müdafiə xidmətlərinə yönəldilir. Müalicə ambulator şəraitdə həyata keçirilir; xəstəxanada yardım epizodları adətən qısa olur.Yeniyetmələrin psixiatrik dərmanlarla müalicəsində tənzimləmə məsləhət görülür. Yeniyetmələrin psixiatrik dərmanlarla müalicəsi yeniyetmə psixiatriyasında mütəxəssis, digər psixiatr və ya yeniyetmələrin psixiatrik dərmanla müalicəsi üzrə təcrübəsi olan həkim tərəfindən başlanmalıdır. Psixoterapevtik müayinə yeniyetmələr üçün adətən vacibdir. Buna baxmayaraq onların psixoterapevtik müalicəyə ehtiyacı qısamüddətlidir. Daha kəskin pozuntular müalicə olunarkən dərman müalicəsinin psixoterapiya ilə kombinasiyası tez-tez lazımdır.

Təşviş pozuntusunun müalicəsi bu gün psixoterapiya, psixofarmakoterapiya, ailə psixoterapiyası və sosial-ətraf mühit təsirini birləşdirən inteqrativ yanaşma əsasında aparılır.

ƏDƏBİYYAT

1.Астапов В.Н. Функциональный подход к изучению состояния тревоги. Психологический журнал, 1992, 5: 111-117. /Astapov VN. Functional approach to anxiety disorders research. Psikhologicheskiy Zhurnal, 1992, 5: 111-117.

2.Бобров А.Е. Тревожные расстройства: их систематика, диагностика и фармакотерапия. РМЖ, 2006, 4: 328-32. /Bobrov AE. Anxiety disorders: systematics, diagnosis and pharmacotherapy. RMJ, 2006, 4: 328-32.

3.Вербицкий Е.В. Психофизиология тревожности. Ростов н/Д: Изд-во Рост. ун-та, 2003. /Verbitsky EV. Psychophysiology of anxiety. Rostov n/D: Rostov University Publishing House. 2003.

4.Корабельникова Е.А., Будик А.М. Клинико-патогенетические и терапевтические аспекты тревожных расстройств. Лечащий врач, 2009, 9: 36-42/ Korabelnikova EA, Budik AM. Clinical, pathogenetic and therapeutic aspects of anxiety disorders. Lechashchy Vrach, 2009, 9: 36-42.

5.Прихожан А.М. Тревожность у детей и подростков: психологическая природа и возрастная динамика. М.: Питер, 2007. 192 с. /Prikhozhan AM. Anxiety in children and adolescents: psychological nature and developmental dynamics. M.: Piter, 2007. 192 p.

6.Филип Райс. Психология Подросткового и Юношеского Возраста. Питер. 2000.

7.Klein RG, Pine DS. Anxiety Disorders. In: Rutter M, Taylor E. (Eds). Child and Adolescent Psychiatry, 4th edition. Oxford: Blackwell Science, 2005: 486-509.

8.Van der Bergh B. Antenatal maternal anxiety and stress and the neurobehavioural development of the fetus and child: links and possible mechanisms. A review. Neurosci Biobehav Rev, 2005, 29(2): 237-258.

YENİYETMƏLƏRDƏ TƏŞVİŞ POZUNTUSUNUN DİAQNOSTİKASI VƏ ONLARA YARDIMIN TƏŞKİLİ

XÜLASƏ

Təşviş pozğunluqları yeniyetməlik dövrünün ən geniş yayılmış psixi pozğunluqlarına aid edilir. Təşviş, yeniyetmənin sağlamlığını, ailədəki və cəmiyyətdəki münasibətlərini nəzərəçarpacaq dərəcədə pisləşdirərək və onun məktəbdəki fəaliyyətini aşağı salaraq həyatının bütün sahələrinə mənfi təsir göstərir.

Məqalədə etiopatogenez, təsnifat, klinik xüsusiyyətlər baxımından yetkinlik yaşındakı təşviş pozğunluqlarının ümumi səciyyəsi təqdim olunur. Yeniyetmələrdə təşviş pozğunluğunun müalicəsinə tam hüquqlu farmakoterapiya ilə yanaşı, geniş psixoterapevtik, fizioterapevtik və sosial reabilitasiya tədbirlərini də əhatə edən kompleks yanaşmanın zəruriliyi əsaslandırılmışdır.

ДИАГНОСТИКА РАССТРОЙСТВА ТРЕВОЖНОСТИ У ПОДРОСТКОВ И ОРГАНИЗАЦИЯ ОКАЗАНИЯ ИМ ПОМОЩИ

АННОТАЦИЯ

Тревожные расстройства являются одним из наиболее распространенных психических расстройств в подростковом возрасте. Тревожность негативно влияет на все жизненно важные сферы подростка, значительно ухудшает здоровье, семейные и общественные отношения, снижает школьную успеваемость.

В статье предоставлены общие характеристики клинических особенностей подростковых тревожных расстройств, этиопатогенез и классификация расстройств. Необходим комплексный подход к лечению тревожных расстройств у подростков, включая полноценную фармакотерапию, а также широкий спектр психотерапевтических, физиотерапевтических и социальных реабилитационных мероприятий.

DIAGNOSIS OF ANXIETY DISORDER IN ADOLESCENTS AND ORGANIZATION OF ASSISTANCE TO THEM

SUMMARY

Anxiety disorders are one of the most common mental disorders in adolescence. Anxiety negatively affects all vital areas of the teenager, significantly impairs health, family and social relations, reduces school performance.

The paper provides general characteristics of clinical features of adolescent anxiety disorders, etiopathogenesis and classification of disorders. A comprehensive approach to the treatment of anxiety disorders in adolescents is needed, including full pharmacotherapy, as well as a wide range of psychotherapeutic, physiotherapeutic and social rehabilitation activities.

ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ PEŞƏ SEÇİMİNDƏ APARICI AMIL KİMİ

dos. Elnarə Piriyeva
BDU-nun Sosial və pedaqoi psixologiya kafedrasının müəllimi
Fatimə Qəhrəmanova
BDU-nun II kurs magistrantı
fatime9898@gmail.com

Açar sözlər: peşə, peşə seçimi, özünüqiymətəndirmə**,** adekvat özünüqiymətləndirmə, qeyri-adekvat (yüksək və ya aşağı) özünüqiymətləndirmə.
Ключевые слова: профессия, выбор профессии, самооценка, адекватная самооценка, неадекватная (завышенная или заниженная) самооценка.
Key words: profession, profession choice, self-esteem, adequate self-esteem, inadequate (high or low) self-esteem.

Peşə seçimi zamanı özünüqiymətləndirmə böyük əhəmiyyət kəsb edir. E.A.Klimovun qeyd etdiyi kimi, insanın öz peşəsini təyin etmək üçün daxili, psixoloji xüsusiyyətlərinin ixtisasın tələbləri ilə düzgün, adekvat əlaqəsi və peşə niyyətinin, peşə yararlılığının özünüqiymətləndirmə ilə uzlaşması vacib amildir [6].

Özünüqiymətləndirmə şəxsiyyətin özünü, öz imkanlarını, keyfiyyətlərini, qabiliyyətlərini, özünün başqa adamlarla münasibətlər sistemindəki yerini qiymətləndirməsindən ibarətdir [2, s.189]. Psixoloji və pedaqoji ədəbiyyatlar (Y.M. Zabrodin, A.V.Karpov, E.A.Klimov, İ.V.Kuzneçevoy, M.V.Retivıx, V.D.Şadrikov və b.) və dövri nəşrlərdəki məlumatlar empirik tədqiqat üçün çox vacib olan bir mövzunu müəyyənləşdirməyə imkan verdi: Özünüqiymətləndirmə gənc yaşlarda peşə seçimini müəyyənləşdirən fərdi-psixoloji xüsusiyyət kimi.

İnsanın sosial, emosional həyatına və təlim fəaliyyətinə əhəmiyətli dərəcədə təsir edən bir anlayış kimi özünüqiymətləndirmə insanın bütün ömrü boyu həyatının müxtəlif sahələrini əhatə edir və insanın müvəffəqiyyətinə təsir göstərir. Özünüqiymətləndirmə insanın cəmiyyətin fəal üzvü kimi formalaşmasında vacib rol oynayır. Belə ki, fərdin sosial münasibətlərə daxil olması, müxtəlif situasiyalarda davranış və rəftarı, öz uğur və uğursuzluqlarına münasibəti özünüqiymətləndirmədən asılıdır. Bir sözlə, insanın fəaliyyətinin səmərəliliyində, şəxsiyət kimi formalaşmasında özünüqiymətləndirmə böyük rol oynayır. Peşə seçimi prosesində isə, özünüqiymətləndirmə insanın öz maraqları, qabiliyyətləri, peşənin xüsusiyyətlərinə uyğun olub-olmaması ilə bağlı düşüncələrində təzahür edir. Tədqiqatlar göstərir ki, digər yaş dövrlərindən fərqli olaraq, böyük məktəblilər daha çox öz qabiliyyətlərini dərk edərək özlərinə uyğun fəaliyyət növü seçməyə çalışırlar [4, s.323].

Psixoloji tədqiqatlar özünüqiymətləndirmənin üç səviyyəsini müəyyənləşdirməyə imkan vermişdir: 1) Adekvatözünüqiymətləndirmə. Bu cür özünüqiymətləndirmə zamanı insan özünün bütün keyfiyyətlərini olduğu kimi, imkanlarına uyğun qeyd etməklə özünü düzgün qiymətləndirir. 2) Qeyri – real yüksək özünüqiymətləndirmə. Bu cür özünüqiymətləndirmə zamanı insan özünü onda olan keyfiyyətlərdən, imkanlardan yüksək qiymətləndirir. Adətən bu cür özünüqiymətləndirmə şişirdilmiş xarakter daşıyır və çox vaxtişin sonunda insanınməyusluğu ilə nəticələnir. Bu cür adamlar başqaları tərəfindən rəğbətlə qarşılanmırlar. 3) Qeyri-real aşağı özünüqiymətləndirmə. Bu cür özünüqiymətləndirmə zamanı insan özünün keyfiyyətlərini, imkanlarını layiq olduğundanaşağı qiymətləndirir [2, s.189]. Aşağı özünüqiymətləndirmə özünü fəaliyyətlə eyniləşdirə bilməmək və öz potensialına pessimist yanaşmanı bildirir.

Müsbət və mənfi özünüqiymətləndirmə peşə qərarlarına təsir göstərir. Məsələn, özünə inanan insan, inkişaf üçün daha çox fürsət tapır. Aşağı özünüqiymətləndirmə isə, daim insanı

potensialının məhdud olduğunu düşünməyə sövq edir. Başqa sözlə desək, insan karyerasında inkişafa nail ola biləcəyinə inanmırsa, fürsətlərdən məhrum olur. Bu isə, insanın bir çox fürsəti əldən verdiyini və özü öz inkişafına maneə olduğunu göstərir [8].

Özünüqiymətləndirmənin peşə seçiminə təsiri təlim prosesindən başlayaraq özünü göstərir. Öz uğurlarından razı qalan, özünü yüksək qiymətləndirən şagirdlərin özünüqiymətləndirməsi aşağı olan şagirdlərə nisbətən təlimdə daha çox müvəffəqiyyət əldə etdiyi müşahidə olunur. Təlimdə çətinlik çəkən şagirdlərin böyük bir qismində özünüqiymətləndirmə aşağı səviyyədə olur. Bu səbəbdən, müəllimlərin təlim prosesində məlumat vermə, öyrətmə vəzifələri ilə yanaşı şagirdlərin özünü tanımasına və düzgün qiymətləndirməsinə yönələn işlərə də yer vermələri vacibdir.

Qeyri-real yüksək və qeyri – real aşağı özünüqiymətləndirmə eyni dərəcədə ziyanlıdır. Məsələn, öz imkanlarını qeyri-real yüksək qiymətləndirən şagird və ya tələbələrdə çox vaxt özünəarxayınçılıq hissi yaranır.Belə şagirdlər elə bir peşə seçə bilər ki, bacarıq və qabiliyyətləri həmin sahə üçün kifayət etməsin. Nəticədə nəzərdə tutduğu məqsədinə nail ola bilmir və peşə seçimi prosesi məyusluqla nəticələnir. Öz imkanlarını qeyri-real aşağı qiymətləndirən şagird və ya tələbələrdə isə mümkün olacaq nailiyyətə çatmaq hissi və cəhdi olmur, nəticədə onlar mövcud imkanlarını təzahür etdirə bilmirlər. Özünüqiymətləndirmənin aşağı olması ilə əlaqədar yaranan cəsarətsizlik, məsuliyyət götürməkdən qorxmaq, stress, fikrini düzgün ifadə edə bilməmək, ünsiyyət çətinlikləri kimi amillər peşə seçimində də öz təsirini göstərir. Ona görə də ən cüzi nailiyyətlə kifayətlənməli olurlar [2, s.190]. Bu baxımdan ən əlverişlisi, adekvat özünüqiymətləndirmə və özünə müsbət münasibətin birləşməsidir. Belə uşaqlar isə, daha fəal olur maraqları müxtəlifdir, özlərinə qarşı tənqidi yanaşmağı bacarır və başqalarına qarşı tolerant olur. Öyrənmə fəaliyyətlərində uğur qazana biləcəklərinə əmindirlər. Bu isə, öz gücünə inanma və qabiliyyətlərini düzgün qiymətləndirməyə əsaslanır. Təəssüf ki, bu halla o qədər də tez-tez rastlaşılmır.

Özünüqiymətləndirmə ilk növbədəhələ kiçik yaşlardan digər insanların verdiyi qiymətlərin təsiri altında, özünümüşahidə və özüntəhlil vasitəsiləyaranır. İkincisi, özünüqiymətləndirmə real "mən" obrazının (insanın həqiqətən kim olduğu) ideal "mən" obrazı (insanın özünü necə görmək istədiyi) ilə müqayisə edilməsi nəticəsində formalaşır.Onlar bir-birilə uzlaşdıqdan insan özünü yüksək qiymətləndirir. Əksinə, aralarında kəskin fərq olduqda insanın özünü qiymətləndirməsi aşağı düşür. Peşə seçimində özünüqiymətləndirmə səviyyəsini, onun adekvatlığını nəzərə almaq lazımdır. Nəzərə almaq lazımdır ki, yüksək və aşağı özünəqiymətləndirmə çox vaxt xoşagəlməz nəticələrə səbəb olur, bu, peşə niyyətlərinin həyata keçirilməsini çətinləşdirə bilər. Özünəqiymətləndirmənin adekvatlığı şəxsin fərdi tipoloji xüsusiyyətlərindən dəasılıdır. Məlumdur ki, xolerik və sanqvinik tipə mənsub olan insanlar öz imkanlarını normadan yüksək qiymətləndirə bilər, melanxoliklər isə, adətən, özünü aşağı qiymətləndirir. Özünü adekvat qiymətləndirməyə daha çox fleqmatiklərdə rast gəlinir. Aşağı özünüqiymətləndirmə şəxsiyyətin daxili dünyasını deformasiya edir, motivasiya və emosional sferanı təhrif edir və bununla da şəxsiyyətin hərtərəfli inkişafına mane olur.

Məşhur uşaq psixoloqu V. Satir şəxsiyyətin inkişafı və tərbiyə prosesində uğur və uğursuzluqları müəyyən edən amillər arasında özünüqiymətləndirməni birinci yerə qoyur: "Özünü yüksək qiymətləndirən insan özünü vacib və zəruri hiss edir, özünə güvənir, ancaq çətin anlarda başqalarından kömək istəməyi də bacarır. Həmişə müstəqil qərarlar qəbul etmək iqtidarındadır. Hisslərinə və fikirlərinə zidd olan qaydalara qarşı çıxır. Beləliəri seçim etmək bacarığına malikdir və bu zaman ona ancaq öz ağlı kömək edir" [5, s.112].

Özünüqiymətləndirmə iddia səviyyəsi ilə sıx bağlıdır. İddia səviyyəsi insanın özü üçün qoyduğu vəzifələrin çətinlik dərəcəsi ilə müəyyən edilir. Şəxsi və ümumi iddia səviyyələrini ayırd etmək olar. Şəxsi iddia səviyyəsi müəyyən fəaliyyət sahələrində (musiqi, idman və s.) və ya insan münasibətlərində (komandada, dostluq, ailə və ya sənaye münasibətlərində və s.) əldə

edilən nailiyyətlərə aiddir. İddia səviyyəsi daha ümumi ola bilər, yəni, bir insanın həyat və fəaliyyətinin bir çox sahəsinə və hər şeydən əvvəl onun intellektual və mənəvi keyfiyyətlərinin təzahür etdiyi sahələrə aid edilə bilər. İddia səviyyəsi məktəbi bitirdikdən sonrakı ən vacib problemin həllində - gələcəkdə kim olacağını, hansı peşəni seçəcəyini müəyyənləşdimək baxımından böyük əhəmiyyət daşıyır. Bu prosesdə özünü obyektiv qiymətləndirə bilmək vacibdir. Bu, məktəblinin güclü cəhətlərini müxtəlif çətinliklərlə və başqalarının tələbləri ilə əlaqələndirməyə imkan verir. İnsan bir qayda olaraq, özünü adekvat qiymətləndirməyə çalışsa da çətinliklərlə qarşılaşdıqda özünüqiymətləndirmə azalır, müəyyən bir nəticəyə nail olmaq isə özünüqiymətləndirmənin artmasına kömək edir [7].

Özünüqiymətləndirmənin formalaşma mexanizmi özünü digər insanlarla müqayisə etməklə, birinin imkanlarını, nailiyyətlərini tanımaqla və ətrafdakıların uğurları və uğursuzluqları ilə müqayisə etmək yolu ilə formalaşmasından ibarətdir. Dünyanı və özünü tanımağın əsası müqayisə prosesidir. Özü ilə bağlı məlumatlı olmadan öz peşə planını düzgün tərtib etmək çətindir, buna görə də bu proses insanın özü ilə bağlı marağının yarandığı, öz xüsusiyyətləri barədə düşüncələrinin formalaşdığı yeniyetməlik dövründən etibarən aktualdır [4, s.323].

Peşə seçiminin çoxluğu özünüqiymətləndirməsi aşağı olan insanı çaşdıra bilər. Belə insanlar müxtəlif situasiyalara uyğunlaşmaq üçün çevik düşünmə bacarığına sahib olmurlar. Yeni bir variant əvvəl verilmiş qərardan imtina etməyi tələb edə bilər. Bu yeni bir qeyri-müəyyən vəziyyət deməkdir. Lakin, özünə inamsız insanlar yalnız dəqiq bildikləri, məlumatlı olduqları, onlara müəyyən olan hallarda rahat ola bilirlər. Bu cür şəxsiyyət xüsusiyyətlərinə malik olan insanlar özləri və ya imkanları ilə bağlı həqiqəti axtarmırlar. Özünü adekvat qiymətləndirən insanlar araşdırma nəticəsində əldə edəcəyi yeni məlumatların seçimlərinə müsbət töhfə verəcəyinə inanır və bu yolda təşəbbüslər göstərirlər. Bunlardan ən əsası, özünü tanımaqla bağlı göstərilən səylərdir.

Özünü tanıyan, imkanlarının hüdudlarını və həqiqi istəyinin nə olduğunu bilən gənc qarşısındakı seçimləri bu meyarlar baxımından qiymətləndirir və başqa variantların olub-olmadığını araşdırır. Əksinə, özü haqda bəzi faktlarla qarşılaşmaqdan çəkinən və ya özündə üstün keyfiyyətləri gördüyünə görə daha yüksək səviyyəli hədəflərə yönələn insanlardigərvariantlarıaraşdırmaqdan qaçır və əsassız bəhanələrlə təklif olunan variantları rədd edir. Beləliklə deyə bilərik ki, özünü və qarşısındakı seçimləri araşdırma meyli insanın özünü düzgün qiymətləndirməsi nəticəsində yeni məlumatlara açıq olmaq meylinin təzahürüdür [3, s.7].

İnsanın öz xüsusiyyətlərini dərk etməsi və özünü düzgün qiymətləndirməsi heç də asan deyil. Bu, xüsusilə, təcrübəsi az olan və özünü başqalarına sübut etməyə səy göstərən gənclər üçün daha da çətindir. İnsanların özlərini tanımalarına mane olan ən vacib amil başqaları tərəfindən bəyənilib qəbul edilmək istəyidir. Özünü başqalarının meyarlarına görə qiymətləndirən insan, çox güman ki, gerçəklikdən uzaqlaşacaq və özünü düzgün qiymətləndirə bilməyəcəkdir. Düzgün özünüqiymətləndirmə üçün əsas şərt başqalarının gözləntilərinə və qiymətləndirmələrinə qarşı həddən artıq həssas olmamaqdır. Daxili müstəqilliyini inkişaf etdirən insan özünü təhlil edərək öz xüsusiyyətlərini tanıya bilər.

Özünü tanımaq istəyən şəxsin edəcəyi şey müxtəlif şəraitlərdə nə yaşadıqlarını və müxtəlif vəziyyət və hadisələr qarşısında özünü necə hiss etdiyini nəzərdən keçirmək və bunlara ad qoymaqdır. Başqaların yüksək qiymətləndirdiyi xüsusiyyətlərə malik olduğuna özünü inandırmağa çalışan və başqalarının əhəmiyyət vermədiyi xüsusiyyətlərini gizlətməyə çalışan insan, öz təbiətindən uzaqlaşmağa və gücündən istifadə edə bilməməsi nəticəsində adaptasiya problemi yaşamağa namizəddir [3, s.8].

ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı - 2003
2. Seyidov S.İ. Həmzəyev M.Ə. Psixologiya. Bakı-2007
3. Kuzgun Y. Meslek Seçiminde Bilinmesi Gerekenler
4. Ноговицына Н. М., Константинов М. Н. Роль самооценки впрофессиональном самоопределении учащихся старших классов. Научно-методический электронный журнал «Концепт». – 2015.
5. СатирВ.Как строить себя и свою семью. М.: 1992
6. ХАКИМОВАМ.Б. РОЛЬ САМООЦЕНКИ В ПРОФЕССИОНАЛЬНОМ САМООПРЕДЕЛЕНИИ ПОДРОСТКОВ
7. https://sch2-smorgon.by/2016/10/29/самооценка-и-выбор-профессий/
8. https://work.chron.com/selfconcept-affect-career-23438.html

ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ PEŞƏ SEÇİMİNDƏ APARICI AMIL KİMİ

XÜLASƏ

Məqalədə peşə seçiminin özünüqiymətləndirmədən asılılığı probleminə diqqət çəkilmişdir. Adekvat özünüqiymətləndirmə insanın özünü tanıyaraq düzgün peşə seçimi etməsinə kömək etdiyi halda, qeyri-adekvat yüksək və aşağı özünüqiymətləndirmə peşə seçiminə mənfi təsir göstərir. Qeyri-adekvat yüksək özünüqiymətləndirmə şagirdlərin öz imkanlarından daha yüksək qərarlar verməsinə, qeydi-adekvat aşağı özünüqiymətləndirmə isə, potensialının məhdud olduğunu düşünməyə sövq edir.

САМООЦЕНКА КАК ВЕДУЩИЙ ФАКТОР ВЫБОРА ПРОФЕССИИ

АННОТАЦИЯ

В статье подчеркивается проблеме взаимосвязи между профессиональным выбором и самооценкой. Адекватная самооценка может помочь человеку сделать правильный выбор профессии, неадекватная завышенная или заниженнаясамооценка негативно влияет на выбор профессии. Неадекватно завышенная самооценка побуждает студентов принимать решения не по средствам, а неадекватно заниженная самооценка побуждает студентов думать, что их потенциал ограничен.

SELF-ESTEEM AS A LEADING FACTOR IN CHOOSING A PROFESSION

SUMMARY

The article highlights the problem of relationship between professional choice and self-esteem. While inadequate self-esteem can help a person make the right career choice, inadequate high and low self-esteem has a negative effect on career choices. Inadequate high self-esteem encourages students to make decisions beyond their potential, inadequate low self-esteem encourages students to think that their potential is limited.

REKLAMLARDA İSTİFADƏ OLUNAN MANİPULYASİYA VASİTƏLƏRİNİN ŞƏXSİYYƏTƏ TƏSİRİ

Gülər Dadaşova
BDU-nun II kurs magistrantı
gulerdadashova@yandex.com

Açar sözlər: Manipulyasiya, izləyici , təsir vasitələri, inandırma, məhsul.
Ключевые слова: Манипуляция, зритель, средства воздействия, убедительность, продукт
Key words: Manipulation, viewer, means of influence, persuasion,product.

Manipulyasiya qədim dövrlərdən bəri insan həyatında mövcud olan bir anlayışdır. İnsanlar həyatlarını davam etdirmək, ictimailəşmək və digər insanlarla əlaqələrini gücləndirmək üçün həmişə buna ehtiyac duyurdular. Bu vəziyyət manipulyasiya ilə bağlı tədqiqatlar aparmaq üçün zəmin yaratdı. İlk istifadəsi Qədim Yunan dövrünə təsadüf edən manipulyasiya anlayışı Aristotel və Platon kimi mütəfəkkirlər tərəfindən işlənmiş və bu günə qədər öz aktuallığını qoruyub saxlamışdır.

Müasir dövrdə sosial həyatı istiqamətləndirən ən vacib elementlərdən biri kütləvi informasiya vasitələri ilə kütlələrə çatan reklamlardır. Reklamda zaman, məhsul, dil, insanlar və vasitələr dəyişsə də, məqsəd həmişə inandırmaq, təsir göstərmək olub. Aristotelə görə inandırma "mövzudan asılı olmayaraq başqalarını inandırmaq üçün bütün inandırıcı vasitələrdən istifadə olunmasıdır". Aristotelin bu tərifinə baxsaq görərik ki, onun düşüncəsi bu gün reklamların əsas məqsədidir.

Reklamlarda istifadə olunan 3 əsas təsir (inandırma) texnikası mövcuddur.Bunlar ethos, pathos və logosdur. Bir çox mütəfəkkir bu üç manipulyasiya texnikası üzərində araşdırma aparmış və müəyyən nəticələrə gəlmişlər. Meyer bu texnikaları aşağıdakı kimi xarakterizə edir: Ethos dinləyiciyə xitab edir və bir sual üzərinə diqqəti cəlb etməyi hədəfləyir. O, düşünürdü ki,bu texnikalar vasitəsilə dinləyicilərin bədənlərinə və qəlblərinə xitab etmək lazımdır və mümkünsə onların hiss və duyğuları, həyəcanları hədəf alınmalıdır (4).

Aristotel insana təsir haqqında yazan mütəfəkkirlər sırasına daxil olsa da, Platon da bu mövzuda bir çox araşdırmalar aparmışdır. Platon manipulyasiya mövzusunun daha çox fəlsəfi tərəflərini tədqiq etmişdir. Aristotel isə bu anlayışı gündəlik həyatla, daha real vəziyyətlərlə əlaqələndirərək izah edirdi. Ethos ,pathos və loqos anlayışları da Aristotel tərəfindən irəli sürülmüşdür.

“Ethos” qədim yunan sözü olub “xarakter” mənasına gəlir və “etik” sözündən törəmişdir.Ethos cəmiyyət qarşısında natiqlərin inandırıcılıq, dürüstlük və kafilik qabiliyyətini önə çıxaran xarakterdir. “Ethos” daha çox müzakirə edilən ifadələrdə ön plana çıxır. Natiq qismindəki fərdin inandırıcılıq səviyyəsini artırması bunun başlıca səbəbidir.Bilgi və qabiliyyətlərlə birlikdə natiqlik edən fərdin davranışlarının həlledici olması “ethos” üçün fərqləndirici xüsusiyyət kimi qeyd olunur. Bu xüsusiyyətlərdən əlavə olaraq natiqin həssas,məsuliyyətli,əxlaqlı,müdrik,dürüst və ədalətli və s. xüsusiyyətlərə malik olması da zəruridir.

Bariz şəkildə “ethos” natiqin nitqi ilə olan uyğunluğu və şəxsi xarakteridir.Bu da “ethos”un inandırma baxımından nə qədər böyük rola malik olduğunu göstərir. Şəxsi xüsusiyyətlər arasında yer alan “mən” anlayışı, ləyaqət, şəxsiyyət,şəxsi seçim və məqsəd kimi ünsürlərin varlığı bu ifadələri dəstəkləyir.”Ethos” un tərkibində yer alan bu xüsusiyyətlərin inandırmanın (insana təsirin) ilk mərhələsi olduğunu deyə bilərik.

Ethos və reklam arasındakı əlaqə kontekstində qiymətləndirilən reklamlar məşhur, etibarlı və hörmət edilən şəxslərin iştirak etdiyi reklamlardır. Ethos prinsipinə əsaslanan bir reklam

istehlakçıları firmanın etibarlı, dürüst və nüfuzlu olduğuna inandırmağa çalışır. Burada söhbət məşhur və ya hansısa sahədə mütəxəssis olan şəxslərin reklamlarda iştirak etməsindən gedir. Məsələn, hansısa idmançının hər hansı bir idman məhsulunu reklam etməsi bura aid edilə bilər.

İstehlakçının tanıdığı, bəyəndiyi və sevdiyi məşhur şəxslərin reklamlarda iştirakı həmin reklamların inandırıcılıq səviyyəsini artırır.Məşhur personajların reklam olunan məhsuldan istifadəsi istehlakçının özünü həmin məşhur şəxslə eyniləşdirməsinə səbəb olur və məhsulu almağa sövq edir (2).

Bundan başqa, bəzi reklamlarda öz sahəsində mütəxəssis olan insanlar reklam olunan məhsul barədə fikirlərini bildirirlər. Məhsulun faydalarını və onu digər məhsullardan fərqləndirən məqamları həmin mövzuda mütəxəssis olan bir insanın dilə gətirməsi reklamın inandırıcılıq səviyyəsini artırır və məhsula maraq oyadır.Məsələn, diş məcunu reklamlarında dünyaca məşhur həkimlərin məhsulu tərifləməsi və digər məhsullardan fərqlənən cəhətlərini sadalaması insanlarda həmin firmanın məhsuluna qarşı inam hissi oyadır və məhsulu almağa vadar edir.Göstərilən misallarda ”ethos” kifayət qədər öz əksini tapmışdır.

Manipulyasiyanın ikinci vasitəsi olan “ pathos" izləyicilərin diqqətini cəlb etmək, inandırmaq və ya təsir altına salmağıhədəfləyir. Bu səbəbdən, “Pathos”insana təsir, inandırma anlayışlarının mərkəzində yer alır. Çünki manipulyasiya vasitəsilə əldə edilmək istənən nöqtə “pathos” ünsürünü ifadə edir. Əslində, bunların hamısı “Pathos”un fərqləndirici xüsusiyyətlərindəndir. “Pathos”da manipulyator insan ruhunu təhlil edə bilməlidir. O,dinləyicilərin, yəni təsir göstərməyə,inandırmağa çalışdığı şəxslərin hisslərinədiqqət yetirməli bunu göz ardı etməməli və onun bütün fəaliyyəti bununla bağlı olmalıdır.“Pathos” duyğuların psixologiyası ilə birbaşa əlaqəlidir. Patos yalnız fərqli duyğu və hisslərin aktivləşdirilməsi ilə bağlı deyil.Eyni zamanda müzakirə edilən mövzu ilə bağlı dinləyicinin emosional vəziyyətini tənzimləmək “pathos” un əsasını təşkil edir. Beləliklə, “pathos” izləyicilərin duyğularına xitab edir və məhsulu almağa sövq edir.

“Pathos” prinsipindənmanipulyasiya vasitəsi kimi istifadə edən bir reklam istehlakçının hisslərinə xitab etməyi və onda müəyyən bir emosional reaksiya yaratmağı hədəfləyir. Bu duyğu xoşbəxtlik və ya həyəcan kimi müsbət duyğular ola bilər. “Coca Cola” şirkətinin sevgini və xoşbəxtliyi önə çıxaran reklamları misal göstərmək olar. Bununla yanaşı, "yanlış" məhsuldan istifadə zamanı yaranan mənfi emosiyalardan istifadə edilə bilər. Məsələn, X yatağını seçmədiyiniz üçün kürəyinizin ağrısından danışan, bu ağrını təsvir edən reklam bura aid edilə bilər. Reklamın ssenarisinə və məqsədinə görə istənilən emosional reaksiyanı və ya istanilən duyğunu yaratmaq hədəf alına bilər.

Corc Vaşinqton Universitetindəsənaye psixoloqu olaraq çalışan Ceyms Bailey qeyd edirdi ki, izləyicilər reklamlarda verilən müsbət mesajları qəbul edərək özlərinə köçürürlər.Bu da“ Pathos”un aktivləşdiyini göstərir. Bailey, "Müğənni Beyonsu “Loreal” reklamında gördükdə, beyin MRT-si çəkilərsə dopamin kimi müsbət duyğulara səbəb olan hormonların artmasını müşahidə etmək mümkündür!" demişdir (1).

Bəzi reklamlarda "Ən yaxşıya ümid et", "Güclü ol", "Dostluğu kəşf et", "Öz işığını kəşf et" kimi şüarlar verilir. Reklamda iştirak edən şəxsin müvəffəqiyyət hekayəsi şüarlarla uyğunluq təşkil edirsə izləyicilərəmanipulyativ təsir göstərir.İzləyicilər reklam olunan məhsulu satın aldıqda, eyni uğuru və özünəinamı qazanacaqlarını hiss edirlər və buna inanırlar. Burada “pathos” haqqında danışmaq mümkündür. Çünki izləyicilərin hissləri ilə əlaqəlidir və onlara birbaşa təsir göstərir.

Bir sözlə, “pathos” və reklam arasındakı əlaqə istehlakçı ilə məhsul arasındakı empatiyadır. Bu çərçivədə Pathos emosional intellekti təmsil edir. İstehlakçının özünü necə hiss etdiyini, ehtiyaclarını, hadisələri necə gördüyünü və onu başa düşdüyümüzü ona hiss etdirdiyimiz zaman “pathos” sözün əsl mənasında gerçəkləşir.

“Loqos” məntiqin daha çox rol oynadığımanipulyasiya vasitəsi kimi izah olunur. Onun bu xüsusiyyəti inandırma baxımından son dərəcə önəmlidir. Hər hansı bir şəxsə təsir göstərmək üçün, onun inandırılması üçün zəruri olan elementlərin hər biri təsir vasitəsi olan “loqos”un tərkibinə daxildir. Təsir vasitələrinin üçüncü elementi olan “loqos” - natiq qismində olan şəxsin manipulyasiya etmək üçün istifadə etdiyi məntiqlə əlaqəli bütün arqumentləri ifadə edir. Bu element vacibdir, çünki o, danışan(natiq) və dinləyicinin sahib olduğu düşüncələrin ötürülməsində vasitəçi rolunu oynayır. Bu xüsusiyyət “loqos”un əsas fərqləndirici atributları arasında yer alır kimi qiymətləndirmək yanlış olmaz. “Loqos” ilə reklam arasında əlaqə qurularsa, onun istehlakçının zəkası və məntiqi ilə səsləşən xüsusiyyətləri ön plana çıxır. “Loqos” da istehlakçıya konkret məlumatlar verilir.

Belə reklamlarda statistika , sübutlar və s.kimi məhsulun təsirini əyani şəkildə ortaya qoyan amillərdən istifadə olunur. Bir stəkan X markalı südün gündəlik kalsiyum ehtiyacının 30% -ni ödədiyini bildirən reklamlar bu qrupa daxildir.Bundan başqa, belə reklamlarda müqayisələrə çox yer verilir. Məsələn, X reklamında"Şok! Bundan ucuzu yoxdur!" şüarından istifadə edilmişdir.Reklamda bu şüarı dəstəkləyən və sübut edən statistik göstəricilər, qiymətlər və digər markalarla müqayisə var. Belə bir reklam əlində müqayisə edə biləcəyi konkret məlumatları olan istehlakçının markaya inamını artırır və onu məhsulu almağa sövq edir. Bir sözlə, “loqos”da digər manipulyasiya vasitələri kimi reklamlarda geniş istifadə olunur (3).

Bunlardan əlavə, reklamlarda istifadə olunan bir çox təsir vasitələri mövcuddur. Məsələn, reklamlarda musiqi istifadəsi.Reklamlarda musiqilərdən istifadə olunması geniş yayılmış təsir strategiyalarından biridir. Bu yaradıcı strategiyanın əsas məqsədi reklam olunan məhsulun markası və xüsusiyyətlərinin musiqi notları vasitəsilə vasitəsilə hədəf kütləyə çatdırılır. Belə ki, xüsusilə reklam çarxları üçün yazılmış həmin musiqilər və ya musiqili şüarlar dildə “ilişib” qalır. Nəticədə, yaddaşa həkk olunur.

Başqa bir təsir vasitəsi reklamlarda istifadə olunan “şahid” strategiyasıdır. Şahidlik reklam edilən məhsuldan istifadə edən sıradan insanların məhsulun üstün cəhətləri və fərqli xüsusiyyətləri barədə öz fikirlərini bildirməsindən ibarət manipulyasiya vasitəsidir. Məhsuldan dəfələrlə istifadə edən və başqa insanlara tövsiyə edən şəxslərin verdiyi inam doğuran məlumatlar istehlakçının məhsulu almaq və istifadə etmək barədə qərarsızlığını aradan qaldırır.

Reklamlarda istifadə olunan insana təsir vasitələrindən biri real həyata dair nümunələr göstərilməsidir. Bu strategiya vasitəsilə reklamda gündəlik həyatdan bir səhnə canlandırılır. Reklam edilən məhsul və ya markadan istifadənin istehlakçı üçün yaratdığı rahatlıqdan bəhs olunur. Real həyatdan götürülən nümunələrlə, məhsulun istifadəsi zamanı həyatımızda olan problemlərin necə həll olunduğu istehlakçıya çatdırılır (5).

21-ci əsrdə manipulyasiya anlayışı reklam fəaliyyətlərinin profesionallaşması ilə əlaqədar daha güclü məna kəsb etməyə başladı. Hətta 21-ci əsr "reklam əsri" adlandırıldı və reklamdan "gizli manipulyasiya" kimi bəhs olunmağa başlanılmışdır. Geniş kütlələrə xitab edən kütləvi informasiya vasitələri reklam üçün mühüm manipulyasiya vasitəsi olmuşdur.

Keçmişdən bu günə qədər bir çox sahələrdə istifadə edilən manipulyativ ünsiyyətin reklamlarda istifadə olunması ilə o, fərqli bir məna qazandı. Bununla yanaşı, tarix boyu bu təsir vasitələrinin istifadə olunduğu sahələr dəyişsə də, məqsəd həmişə inandırmaq və təsir göstərmək olub. Eyni zamanda, Aristotel yuxarıda qeyd olunan manipulyasiya metodlarını 4-cü əsrdə qələmə alsa da, ünsiyyətdə məqsəd eyni olaraq qalır və həmin metodların müasir dövrdə reklam çarxlarında istifadə olunması bu gün də öz effektivliyini qoruduğunun sübutudur.

ƏDƏBİYYAT

1. Məmmədov A.T, Marketinqin əsasları. Bakı. 2007.
2.İmanov Ə, Biznes və reklam. Bakı. 2013
3.МокшанцевР.И, Психология рекламы. Москва, 2009
4.Cialdini Robert.B, İnfluence: The Psychology of Persuasion, 2014
5.Atıf.A, Suher.K , Reklam teorileri. The kitap, 2017

REKLAMLARDA İSTİFADƏ OLUNAN MANİPULYASİYA VASİTƏLƏRİNİN ŞƏXSİYYƏTƏ TƏSİRİ

XÜLASƏ

Son illərdə sənayenin, texnologiyanın və rabitə vasitələrinin inkişafı ilə əlaqədar yaranan rəqabət mühitində reklamların effektivliyini artırmaq üçün səy göstərilir. Bu vəziyyət reklamın əsas məqsədini təşkil edən və keçmişdə insan münasibətləri, siyasət və hüquq kimi bir çox sahədə istifadə olunan manipulyasiya anlayışını gündəmə gətirdi. Qədim yunan filosofu Aristotelin qələmə aldığı və müasir reklamlarda istifadə olunan manipulyasiya texnikaları məqalənin əsasını təşkil edir.

ВЛИЯНИЕ НА ЧЕЛОВЕКА МАНИПУЛЯЦИОННЫХСРЕДСТВ , ПРИМЕНЯЕМЫХ В РЕКЛАМАХ

АННОТАЦИЯ

В последние годы предпринимаются попытки усиления ефективности реклам в условиях конкуренции, возникшей в связи с развитием промыщленности, технологий и средств связи. Ето обстоятельство актуализировало понятие манипуляции, использовавшуюся в прошлом в таких областях, как политика и право и,составляющую главную цель рекламы. Основу статьи составляют описанные древнегреческим философом Аристотелем и применяемые в современных рекламах манипуляционные техники.

THE INFLUENCE OF MANIPULATION METHODS THAT ARE USED IN ADVERTISEMENTS ON PEOPLE

SUMMARY

In recent years, efforts that improve the effectiveness of advertising have begun in the competitive environment that created by the development of technology, industry and communication tools. This situation has brought to agenda that the concept of rhetoric (persuasion), which constitutes the main purpose of advertising and has been used effectively in many fields such as human relations, politics, law in the past. This study examines the use of the "persuasion theories" of Aristotle in the Ancient Greek era in contemporary advertising.

CƏMİYYƏTDƏ GENDER ROLLARI HAQQINDA TƏSƏVVÜRLƏRİN YARANMASI VƏ MÖHKƏMLƏNMƏSİNƏ TƏSİR EDƏN AMİLLƏR

Gülnarə Həsənova
BDU- nun II kurs magistrantı
gulnara.qva@gmail.com

Açar sözlər: gender rolları, ailə, media, gender stereotipləri, gender bərabərliyi, ictimai fikir.
Key words: gender roles, family, media, gender stereotypes, gender equality, public opinion.
Ключевые слова: гендерные роли, семья, медиа, гендерные стереотипы, гендерные равенство, общественое мнение.

Cəmiyyətdə gender rolları ilə bağlı təsəvvürlərin yaranma və möhkəmlənməsinə bir çox amillər təsir göstərir. Bu amillərə ailədə mövcud olan tərbiyə prosesini(valideyn və ya qohum əhatəsində), təhsil sistemini, mövcud mədəniyyət formasını və kütləvi informasiya vasitələrini aid edə bilərik. Bütün bunlarşüura təsir göstərir və insandagender rollarını formlaşdırmaqla yanaşı bu haqda təsəvvürlərin möhkəmlənməsinə də şərait yaradır [1, s. 302].

Gender rollarının formalaşması və möhkəmlənməsində ailənin rolu olduqca böyükdür. Hər bir ailə cəmiyyətin bir parçasıdır. Ailənin təməli isə valideynlər tərəfindən qoyulur. Gender rolları ilə bağlı təsəvvürlər isə kiçik yaşlardan etibarən valideynlər və yaxın ətraf tərəfindən formalaşdırılır. Ana bətnində cinsiyyətin müəyyən edildiyi gündən etibarən müəyyən cinsiyyət rolları valideynlər tərəfindən üzərimizdə inşa edilməyə başlanmışdır. "Qızım olduğu zaman anası qədər incə, zərif, gözəl olacaq", "Oğlum olduğu zaman atası kimi cəsarətli, möhkəm, qorxmaz olacaq" və s. Buna əsasən deyə bilərik ki, dünyaya gəldiyimiz andan etibarən ətraf mühit tərəfindən müəyyən rol gözləntiləri mövcud olur. Cinsiyyət rollarının uşaq tərəfindən tam dərk edilməsi məktəbə qədər yaş dövründən artıq başlanır. Bu dövrlərdə özünü tapmağa çalışan uşaq müəyyən etik normalara uyğun olmayan bir sıra hərəkətlər sərgiləyə bilir. Bu zaman isə qızların və oğlanların valideynlər tərəfindən eşitdiyi standart reaksiya əsasən belədir: "özünü qız (kişi) kimi apar". Bu anlayışın altında tam olaraq bizim üzərində dayanmaq istədiyimiz cinsiyyət rolları dayanır. "Özünü qız (kişi) kimi apar" deyildiyi zaman nə nəzərdə tutulurdu? Cəmiyyətdə qadından incə və nəzakətli davranmaq tələb olunur. Sanki bu yalnız qadın davranışında öz əksini tapmalıdır. Bəlkə də elə uşaqlıqdan bu davranış formaları əksər oğlan uşaqlarından tələb olunsa idi hal - hazırda qadın zorakılığı bu səviyyəyə çatmazdı [3, s.320].

Ailə tərbiyəsi bir çox hallarda ya tamamilə əks qütblərəayırma, yaxud da bu fərqlərə tamamilə biganə yanaşma əsasında qurulur. Ya oğlanın qız ilə və ya eksinə qızın oğlanla birgə fəaliyyəti qadağan olunur. Əks cins haqqında qarşı tərəfdə düşmən obrazı yaradılır, yaxud da oğlan qız təbiətli, qız isə oğlan təbiətli böyüdülür. Bu hallar hər cins üçün sosiallaşma baxımından eyni dərəcədəzərərlidir. Birinci halda həyatına hazırlıq, qarşılıqlı güzəşt, hörmət yox olur, ikinci halda hər iki cinsin özünəməxsusluğu itir. Oğlan və qızların sosial mühitdə lazımı şəkildə uyğunlaması üçün onların cinsi tərbiyəsində ailənin, daha dəqiq desək valideynlərin onlara münasibətləri vacib şərtlərdəndir.

Bağça yaş dövründən etibarən uşaqlar yeni kiçik sosial əhatə qazanmağa başlayır. Oğlan uşaqları qız uşaqları ilə dostluq etməyə başladıqda "oğlum kişidir bax necə qızlarla dostluq edir" deyildiyi halda, qız uşaqları oğlanlarla dostluq etdikdə "ayıbdır, get qızlarla oyna" kimi reaksiyalar ilə üzləşirlər. Bütün bu kimi hallar da uşaqlıqdan gender rolları ilə bağlı təsəvvürlərin formalaşmasında mühüm rol oynayır. Qızlar kuklalar ilə oynamağa yönləndirilən zaman, oğlanlar maşınlarla oynamağa yönləndirilirlər [2, s. 227].

Dünyaya gəldiyimiz andan etibarən ana-ata obrazları uşaq üçün ilk cinsiyyət rol modelləridir. Sosial öyrənmə nəzəriyyəsinə görə atanın cinsiyyət roluna münasibəti həm qız,

həm də oğlan uşağına yüksək dərəcədə təsir göstərir. Ədəbiyyatlarda ataların analara nisbətən daha ənənəvi gender rollarına sahib olduqları və uşaqlarına qarşı bu ənənəvi münasibətə uyğun olaraq davrandıqları müəyyən edilməkdədir. Atalar ənənəvi münasibət əsasında oğlan uşaqlarına bağımsızlığı və müstəqilliyi öyrədir, qız uşaqlarına isə anlayışlı, yumuşaq və yardımsevər olmağı izah edirlər. Analar qız uşaqlarının başqalarının ehtiyaclarına qarşı həssas olmağı və yaxşı bir ailə həyatı qurmaqlarını arzu edirlər. Omlar oğlan uşaqlarını qız uşaqlarına nisbətən daha bağımsız hərəkət edən, duyğularını idarə edə bilən, məsuliyyət alma hissi ilə bağlı mövzularda daha çox təşviq edirlər. Bu səbəb ilə valideynlər ənənəvi münasibəti mənimsəyir və bunun əsasında uşaqlarına rol model olarlarsa, uşaqlarının cinsiyyət rolu ilə bağlı münasibətləri də ənənəvi formada şəkil alacaqdır [3, s.268].

Gender rolları ilə bağlı münasibətlərin formalaşmasına təsir göstərən faktorlardan digəri isə bacı-qardaş və dost qruplarıdır. Ədəbiyyatlarda böyük uşaqların kiçiklər üçün rol model olduqları müəyyən edilmişdir. Öz cinsiyyətindən olan böyük bacı və ya qardaşının davranışları uşaqda cinsiyyətinə uyğun davranışları qazanma prosesini sürətləndirməkdədir. Dost qrupları da gender rollarının formalaşmasına təsir göstərən amillərdəndir. Qızlar qızlarla, oğlanlar oğlanlarla oynayırlar. Oyun daxilində "qız oyunu" və "oğlan oyunu" deyə fərqlər qoyulmaqdadır. Məsələn, oğlan qız oyunu oynayarsa digər oğlanlar onu qruplarına almaq istəmirlər.

Gender rolları ilə bağlı danışarkən üzərində dayanmalı olduğumuz digər bir məsələ isə evlilik həyatında qadın və kişi arasında mövcud olan münasibətlərdir. Hazırda cəmiyyətdə evlilik həyatına addım atan hər iki tərəfdən bir tərəfli tələblər gözlənilir. Bu tələblərdən biri odur ki, oğlanın normal maaşlı işi olmalı, qız isə tərbiyəli, namuslu ailə qızı olmalıdır. Bu tələblər heç də qeyri- adi tələblər deyildir. Məsələ burasındadır ki, mövcud olan bu tələblərə bir tərəfli yanaşılır. Sanki yüksək maaşlı iş yalnız oğlan və namuslu, qeyrətli olmaq isə yalnız qız üçün əsas şərtdir.

Hal- hazırda nişanlı cütlüklərə diqqət yetirsək görürük ki, şəhərdə asudə vaxtlarını keçirən zaman, məsələn, bir kafedə oturan zaman hesabı yalnız oğlan ödəməli imiş kimi bir təəssürat mövcuddur. Həm qız, həm oğlan işləsə belə bir qayda olaraq hesabı ödəmək oğlanın öhdəliyinə düşür. Və yaxud filmə baxmaq üçün bileti oğlan alır. Bütün bu kimi hallar bir başa gender rolları ilə əlaqəlidir. Mövcud rolları hər iki tərəf öz üzərinə götürməyi bacardığı halda daha ədalətli, daha sağlam gələcək formalaşacaqdır [1, s.338].

Cinsi mənsubiyyət uşağın öz "Mən"i dərk etdiyi ilk kateqoriyadır. Məktəbəqədər yaş dövrünün başlanğıcından, yəni 3 yaşından uşaq özünü kişi yaxud qadın cinsinə aid edir (gender identifikasiyası). Sonrakı yaş dövrlərindən etibarən artıq cinsi-rol identifikasiyasının məzmunu da dəyişməyə başlayır [4, s.160].

1. İki yaşlı uşaq öz cinsini bilir, ancaq hələ bu atribusiyanı əsaslandırmağı bacarmır;
2. 3-4 yaşlarında artıq ətrafındakıların cinsini müəyyən edə bilir, ancaq çox vaxt xarici əlamətlərlə, məsələn, geyimlə, saçla eyniləşdirir;
3. 6-7 yaşlarında cinsi mənsubiyyətin dəyişməzliyini tam olaraq dərk edir və davranışında cinsi differensiasiya ilə öz əksini tapır;
4. Yeniyetməlik dövründə gender rolları ilə bağlı təsəvvürlər dəqiqləşir və möhkəmlənir.

Cinsiyyət rollarının formalaşması ilə bağlı iki mühüm fikir irəli sürülmüşdür [7, s. 503]. Bunlardan birincisi öyrənməni , digəri isə koqnitiv mexanizmləri əsas götürür. Alman sosioloqu Ralf Dahrendorf gender rollarının sosiologiya və psixologiyanın sərhəddində dayandığını iddia edirdi. O qeyd edirdi ki, gender rollarının öyrənilməsi sosializasiya və ya internalizasiya yolu ilə həyata keçir. Öyrənməni əsas götürən bu nəzəriyyəyə görə gender rolları hər hansı bir şeyi necə öyrəniriksə o qaydada öyrənilir. Burada iki əsas mexanizm vardır. İlkin olaraq uşaqlar cinslərinə uyğun davranışlara görə ana-ataları və cəmiyyət tərəfindən dəstəklənirlər, cinslərinə uyğun olmayan davranışlar üçün cəzalandırılırlar. Buna misal olaraq bir oğlan uşağının oynadığı oyuncaqları misal göstərə bilərik. Həmin uşaq oyuncaq maşın ilə oynadıqda ana-ata onu

dəstəklədiyi halda, oyuncaq kukla ilə oynadıqda ana-ata onu dəstəkləməz və bəzi hallarda cəzalandırar.

Təqlid də həmçinin gender rollarının öyrənilməsində mühüm rol oynayır. Xüsusən, uşaqlarda başqa insanları təqlid etmə istiqamətində güclü bir meyl vardır. Ancaq bu təqlid heç də təsadüfi deyildir. Uşaqlar güclü, mühüm insanları zəif və önəmsiz insanlardan daha çox təqlid etməyə meyillidirlər. Öyrənmə nəzəriyyəsinə əsasən uşaqlar özləri ilə eyni cinsdə ana-atanı daha uyğun model olaraq görürlər. Ancaq qeyd etmək lazımdır ki, uşaqların ana-atalarından başqa təqlid edəcəkləri başqa modellər də vardır.

Koqnitiv mexanizmlərə əsaslanan nəzəriyyədə isə qeyd olunur ki, gender rollarının formalaşması insanın müəyyən bir koqnitiv inkişaf səviyyəsinə çatması ilə mümkün olur. İnsan ilk öncə öz cinsi kimliyini, daha sonra isə başqalarının cinsi kimliklərini mənimsəyir. Bundan sonra öz cinsi ilə əlaqəli olan qəlibləşmiş davranış və münasibətləri dərk edib, buna uyğun olaraq hərəkət etməyə başlayırlar.

Gender rollarını şəkilləndirən mühüm ünsürlərdən biri kütləvi informasiya vasitələridir [8]. Bütün dünyada olduğu kimi Azərbaycanda da KİV-in müasir mədəniyyətin formalaşmasında böyük gücü vardır. Sosioloqlara görə KİV mədəniyyəti əks etdirdiyi və yaratdığı üçün cəmiyyətdə mədəniyyətin ötürücüsü rolunu oynayır. Televiziya müxtəlif sosial təbəqələrin zövqünü oxşayır. Çeşidli proqramların olması onu bütün yaş qrupları üçün maraqlı edir. İnternet və televiziyanın rolu daha çox aktual olsa da, jurnal və qəzetlər də mədəniyyətin inkişafına əhəmiyətli təsir göstərir. Bu bir həqiqətdir ki, KİV gender rollarına hər zaman hiss ediləcək dərəcədə təsir edir və gender sosializasiyasına təkan verir. Medyanın sosial münasibətləri, problemləri həll etmə və fərqindəlilik yaratmaq kimi müsbət təsirləri olmaqla yanaşı, kütlələri səhv yönləndirmə, emosional bağ yaratmaqla mənəvi dəyərləri korlamaq kimi mühüm təsirləri vardır [6, s.83].

Münasibətlərin idarə olunması. Emosional şüur, başqaları ilə yaxşı işləmək, digər insanların yaşadıqlarını tanımaq və anlamaq bacarığınızla başlayan bir prosesdir. Emosional şüuru oyatdıqdan sonra münasibətlərinizi daha təsirli, məhsuldar və yerinə yetirə biləcək əlavə sosial, emosional bacarıqlar inkişaf etdirə bilərsiniz. Qeyri-adi ünsiyyətdən nə dərəcədə səmərəli istifadə etdiyinizdən xəbərdar olmalısınız.

Düşündüyünüz və hiss etdiyiniz şeylər barədə başqalarına qeyri-şifahi mesajlar göndərməyin qarşısını almaq mümkün deyil. Üzündəki çox sayda əzələ, xüsusən də göz, burun, ağız və alın ətrafındakılar, öz duyğularınızı sözsüz ifadə etməyə və digərlərinin emosional niyyətlərini oxumağa kömək edir. Başqalarına göndərdiyiniz qeyri-şifahi mesajları tanımaq münasibətlərinizin yaxşılaşmasında böyük rol oynaya bilər.Stresi aradan qaldırmaq üçün yumor və oyundan istifadə edə bilərsiniz. Yumor, qəhqəhə və oyun stresə qarşı təbii antidotlardır. Onlar yüklərinizi azalda və hər şeyi perspektivdə saxlamağa kömək edirlər. Gülüş sinir sisteminizi tarazlığa gətirir, stressi azaldır, sizi sakitləşdirir, fikrinizi kəskinləşdirir və daha empatik edir.Münaqişəni başqalarına yaxınlaşmaq üçün bir fürsət olaraq görməyi öyrənin.

İnsan münasibətlərində münaqişə və fikir ayrılıqları qaçılmazdır. İki nəfərin hər zaman eyni ehtiyacları, fikirləri və gözləntiləri ola bilməz. Ancaq pis bir şey olmamalıdır. Münaqişəni sağlam, konstruktiv yolla həll etmək insanlararasında etimadı gücləndirə bilər. Münaqişə təhdid və ya cəza kimi qəbul edilmədikdə, münasibətlərdə azadlıq, yaradıcılıq və təhlükəsizliyin yaranmasına kömək edir.

ƏDƏBİYYAT

1. Daniel Goleman Emotional intelligence. 1995
2. https://www.mindtools.com/pages/article/newCDV_59.htm
3. https://www.helpguide.org/articles/mental-health/emotional-intelligence-eq.htm
4. https://www.simplilearn.com/emotional-intelligence-what-why-and-how-article
5. https://www.sciencedirect.com/search/advanced?qs=emotional%20intelligence%20

МЕТОДЫ РАЗВИТИЯ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА

АННОТАЦИЯ

Хотя «регулярный» интеллект необходим для успеха в жизни, эмоциональный интеллект - это ключ к построению хороших отношений с другими и достижению ваших целей. Эмоциональный интеллект - это знание ваших действий и чувств и того, как вы влияете на окружающих. Это также показывает, что вы цените других, прислушиваетесь к их потребностям и желаниям и способны общаться с ними или узнавать их на разных уровнях.

Возможно, не каждый сможет стать психотерапевтом. Но у вас может быть свой терапевт. Все начинается с того, как научиться слушать свои чувства. Хотя это не всегда легко, развитие способности адаптироваться к своим эмоциям является первым и, возможно, самым важным шагом.

EMOTIONAL INTELLIGENCE DEVELOPMENT METHODS

SUMMARY

Although regular intelligence is important for success in life, it is an emotional intelligence to build good relationships with others and achieve your goals is the key. How emotional intelligence affects your actions and feelings and the people around you is to know what you are doing. It is also about respecting others, listening to their needs and working with them at many different levels. means you can customize or recognize.

Perhaps not everyone can become a psychotherapist. But your therapist may be. How it all feels starts with learning to listen. Although this is not always easy, on your own. Developing the ability to adapt to your emotions is the first and, perhaps, the most important step.

ВЛИЯНИЕ БЛАГОПРИЯТНОЙ СЕМЕЙНОЙ ОБСТАНОВКИ НА УСПЕВАЕМОСТЬ ШКОЛЬНИКА

доц. Гюльнара Гусейнова
Эмиль Ибрагимов
Магистрант 2-курса БГУ
emil.ibrahimov97@mail.ru

Ключевые слова: семья, родители, ученики, социальный институт, влияние, школьное обучение, успехи.
Açar sözlər:ailə, valideynlər, tələbələr, ictimaiqurum, təsir, məktəbtəhsili, uğur.
Key words: family, parents, students, social institution, influence, schooling, success.

Семья имеет огромное значение для развития личности ребёнка.Семья имеет структуру, определённую социальными ролями её членов. На их основе складываются межличностные отношения. Роли родителей всеобъемлющи и многогранны. Кроме заботы о детях, они распространяются и на формирование личности ребёнка, мира его мыслей, чувств, стремлений, на воспитание его собственного «Я». Гармоничное развитие личности ребёнка связано не только с присутствием и активной деятельностью в семье отца и матери, но и с согласованностью их воспитательных действий.Для ребёнка очень важны взаимоотношения между членами семьи. Но особенно — понимание того, как взрослые относятся к нему. Естественно, семья — основная социальная ячейка общества, играющая огромную роль в жизни и становлении личности.

Это первый коллектив, который дает растущему человеку представления о том, как нужно жить и вести себя, о жизненных целях и ценностях. В семье юный гражданин получает первые практические навыки общения с родителями и другими людьми, усваивает нормы, которые в дальнейшем будут регулировать его поведение в различных жизненных ситуациях [1]. Объяснения и поучения родителей, их пример, весь уклад в доме, семейная атмосфера вырабатывают у детей привычки поведения и критерии оценки добра и зла, допустимого и порицае-мого, справедливого и несправедливого. Влияние семьи на процесс воспитания личности ребенка осуще-ствляется прежде всего через родителей, их образ жизни и деятель-ности, нравственные устои, морально-психологический климат в доме: семейные устремления, взаимоотношения между членами семьи, доминирующие настроения, семейные традиции. Успех сознательной воспитательной деятельности взрослых зависит от многих обстоятельств. Она становится эффективной в том случае, если осуществляется не в отрыве от реальной жизни родителей, а находит свое подтверждение в ней.В современной начальной школе огромное внимание уделяется вопросу о воздействии семьи на процесс обучения младших школьников.

Существуют различные способы и пути формирования интереса к процессу обучения: в школе одни методы, дома другие. Поэтому для формирования устойчивых интересов у детей просто необходимо тесное сотрудничество семьи и школы.Воспитание интереса невозможно в отрыве от воспитания всей личности человека. Для формирования познавательного интереса у ребенка необходима «почва», которую и должны подготавливать родители с самого детства у своих детей.

Интерес к обучению надо специально воспитывать: вызывать положительное отношение к деятельности и предметам. Это возможно только при наличии у ребенка эмоционального отношения к делу. Родители, в свою очередь, должны постараться обеспечить развитие у ребенка того самого эмоционального отношения.Создание эмоциональной обстановки вызывает у ребенка желание узнать что-то новое, интересное,

стремление совершенствовать свою умственную деятельность [2]. В эмоциональной обстановке познавательный интерес выступает как отношение и мотив. Эмоциональная обстановка, «настраивающая» ребенка на познавательную деятельность, складывается из самых разнообразных моментов, имеющих отношение и к содержанию учебного материала, и к процессу деятельности, и к коллективу учащихся. Совокупность всех этих условий создает соответствующий эмоциональный тонус деятельности и в подкреплении познавательного интереса имеет чрезвычайно большое значение.

Следует иметь в виду, что создание положительного отношения к учению, к труду и к другим видам деятельности формируется в основном в школе; имеет громадное значение весь стиль работы школы, личности и мастерство учителя. Поэтому вся работа родителей по воспитанию предпосылок интереса, а также по формированию самого познавательного интереса должна идти в тесном контакте со школой, с учителем.

Родителей часто называют первыми и лучшими учителями, которые есть у ребенка. Исследования подтверждают эту идею и показывают, что влияние родителей на образование своих детей начинается еще в дошкольном возрасте. Влияние родителей также выходит за рамки взаимоотношений между родителями и детьми и включает в себя характеристики родителей, образование и доход, а также то, как родители взаимодействуют со своими детьми и школами своих детей.

Участие родителей в обучении детей положительно влияет на успеваемость, участие родителей необходимо для всех типов и возрастов учащихся, и чем интенсивнее это участие, тем лучше последствия. Надежды которые возлагают родители на своих детейоказывают наибольшее влияние на успеваемость учащихся.

Это совершенно очевидно, когда родители сочетают отзывчивость и тепло с высокими ожиданиями [3]. В этом есть потенциальное и постоянное преимущество, поскольку есть некоторые доказательства того, что это циклические отношения и что предыдущие достижения учащихся влияют на ожидания родителей. Чем больше образованны родители, тем больше влияние на успеваемость их детей, отчасти потому, что они предоставляют своим детям больше возможностей для получения образования вне школы.

Семья и ребёнок можно сказать зеркальное отражение друг друга. Поскольку семья оказывает значительное влияние на процесс и результат становления личности, то, естествен-но, именно ей должны уделять первостепенное значение общество и государство.

Родители составляют первую общественную среду ребёнка. Их личности играют существенную роль в жизни каждого. Не случайно к родителям, особенно к матери, мы обращаемся в тяжёлую минуту жизни. Вместе с тем чувства, окрашивающие отношения ребёнка и родителей, особые, отличные от других. Глубокий постоянный психологический контакт с ребёнком - это универсальное требование к воспитанию, которое в одинаковой степени может быть рекомендовано всем родителям. Ощущение и переживание контакта с родителями даёт ребёнку возможность почувствовать и осознать родительскую лю-бовь, привязанность и заботу.

Основа сохранения контакта - искренняя заинтересованность во всём, что происходит в жизни ребенка, любопытство к его детским проблемам, желание понимать, наблюдать за изменениями, которые происходят в его душе и сознании. Нарушение эмоционального контакта для ребёнка - сильный психотравмирующий фактор. Активная забота взрослых, чувство безопасности способствуют, с одной стороны, развитию у маленького человека так называемого базового доверия к миру, с другой - по-вышению у него конструктивной активности в освоении окружающего мира.

Сегодня и всегда главное в семье - теплота в отношениях, особый психологический климат, спокойствие и радость. А необдуманные действия родителей, педагогическая безграмотность, выяснение отношений на глазах у ребенка вызывают нарастание

внутреннего конфликта, что в конечном итоге сказывается и на их успеваемости [4]. В семье ребенок в первую очередь приобретает признание своего «Я», утверждается как личность, находит определенный круг людей, с которыми может поделиться собственными волнениями, а также для развития интеллекта ребенка, необходимо, чтобы в его окружении встретились оба типа мышления: мужской и женский. Из этого следует, что все функции и способности ребенка развиваются в полных благоприятных семьях, где отец и мать одинаково благоприятно влияют на ребенка.

С рождением ребенка мамы и папы автоматически становятся педагогами. Каждый родитель хочет, чтобы его ребёнок хорошо учился, с интересом и желанием занимался в школе. Но подчас и от родителей приходится с сожалением слышать: “не хочет учиться”, “мог бы прекрасно заниматься, а желания нет”. Возникают проблемы с успеваемостью. Зачастую это связано не с работоспособностью ребенка или его интеллектуальными возможностями, а с резким падением интереса к учению, снижением учебной мотивации. Как она возникает? Этот вопрос волнуют многих родителей. С приходом в школу начинается трудный период испытания ребенка не только необходимостью ходить в школу, быть дисциплинированным (правильно вести себя в классе, быть внимательным к ходу урока), но и необходимостью организации своего дня дома, в семье. Родители стараются организовать его правильное отношение к учебной деятельности. Учение для школьника — трудное занятие.

Одного лишь понимания того, что нужно учиться, далеко не достаточно. Всем известно, что школьника нельзя успешно учить, если он относится к учению и знаниям равнодушно, без интереса.Образ собственного «Я» у каждого человека выступает как установка по отношению к самому себе, образуя систему представлений о себе. По своей сути это есть самосознание. Оно складывается из сознания своих физических, интеллектуальных, нравственных качеств и их самооценки.

Ребенку необходимо иметь положительные представления о себе, что является непременным условием счастья, способности к адаптации в изменяющихся социальных условиях. Дети с отрицательной самооценкой склонны чуть ли не в каждом деле находить непреодолимые препятствия. Ситуация экзамена для таких детей оказывается просто непереносимой.

Роль родителей в создании условий и направлении развития определенных навыков, помогающих детям преуспевать в учении, чрезвычайно важна. Если ребенок происходит из семьи, в которой наблюдаются сложные взаимоотношения и авторитарно-диктаторский стиль поведения родителей велика вероятность того, что он будет плохо успевать в школе. Если мы посмотрим на родителей, дети которых отличаются успехами в школе, мы обнаружим такие стили родительского поведения, как демократический, пояснительный и содействующий.

Каждый ребенок обладает неограниченным потенциалом. Но есть группа определенных факторов, которые могут повлиять на то, соответствуют ли они в конечном итоге этому потенциалу [5]. Эксперты считают, что роль родителей в жизни ребенка имеет далеко идущие последствия. Участие родителей чрезвычайно важно для ребенка, чтобы преуспеть в школе.

Некоторые родители могут наивно полагать, что роль обучения принадлежит только учителям а не им. Но такая вера наносит вред и родителям, и детям. Дети не учатся только в течение школьного дня. Они всегда настроены на обучение, дома, с друзьями.

Для родителей важно быть рулевым колесом в процессе обучения, обеспечивающим руководство и информацию на протяжении всего пути, чтобы их дети успешно влились в школьный коллектив и не отвлекались и не отговаривали от достижения своего академического потенциала.

Важность участия родителей была хорошо задокументирована в течение некоторого времени. Исследования по-прежнему показывают, что роль родителей в обучении детей имеет решающее значение для их успеваемости.

Многие исследования также показывают, что наиболее важным моментом для вовлечения является тот период, когда дети находятся на начальном уровне обучения. Эти первые годы предоставляют родителям самое подходящее время для изучения мира со своими детьми с помощью разнообразных веселых и полезных учебных занятий. Изучение природы, совместное чтение книг, обучение детей основным задачам, таким как садоводство, приготовление пищи, строительство и т. д., - все эти значимые занятия, которые усиливают желание детей продолжать изучать новые вещи. По мере того, как дети становятся старше, родители должны продолжать участвовать в школьной работе своих детей и постоянно заниматься образованием своих детей.

Если родители, с самого раннего детства ребенка занимаются его образованием, то такие дети как правило обладают рядом преимуществ.

1) Родители и дети наслаждаются более глубоким взаимодействием

2) Дети, которые получили школьное образование дома, как правило, лучше по стандартным тестам

3) Дети демонстрируют повышенную самооценку и,повышенную уверенность и лучшее поведение

4) Дети выполняют домашнее задание легче и последовательнее

5) Дети получают лучшие оценки на тестах, посещаемость у таких школьников лучше

Родители лучше осведомлены о том, чему учат их дети, и могут определить ключевые области или предметы, в которых детям может понадобиться дополнительная помощь.

Участие родителей в жизни своих детей включает в себя обеспечение их вовлеченности и устранения проблем в образовательной среде, а также их поддержку в процессе обучения. Родители должны искать разные способы, при помощи которых они могут участвовать в образовании своего ребенка, включая чтение для детей младшего возраста, помощи им в выполнении домашних заданий и поиск способов обучения вне школьного дня. Также важно, чтобы дети получали удовольствие от учебного процесса.

ЛИТЕРАТУРА

1. «Особенности воздействия семьи на процесс обучения младших школьников». Скарга Виктория Анатольевна. http://urok.1sept.ruB8/663939/

2. Christine Jax. Parental influence on student education. https://living.thebump.com/parental-influence-student-education-7088.html

3. «Влияние особенностей воспитания в семье на уровень успехов ребенка в школе». https://studbooks.net/1641164/psihologiya/vliyanie_semeynyh_vzaimootnosheniy_razvitie_lichnosti_rebenka_kachestvo_uspevaemosti_rebenka_shkole

4. «Why a Parent’s Role Is Essential to Student Success»https://www.learningliftoff.com/why-a-parents-role-is-essential-to-student-success/ Mar 6, 2017.

5. «Семья и школа - союз и партнерство». http: //gymn 1. bobruisk. edu. by/ru/ main. aspx?guid=3221

АННОТАЦИЯ

В данной статье рассматривается семья, и ее основные функции как первого и важного социального института в жизни того или иного ребенка. Семья к важнейшим общественным ценностям. Речь идет о том, что семья и ее члены, вносят неоценимый вклад

в развитие ребенка и непосредственно влияют на академические успехи школьника. При этом роль родителей в процессе социализации, и получении образования занимает первостепенное значение.

XÜLASƏ

Bu məqalədə ailənin və uşağın həyatındakı ilk və ən vacib sosial qurum kimi əsas vəzifələrindən bəhs olunur. Ailənin ən əhəmiyyətli ictimai dəyərləri. Məsələ burasındadır ki, ailə və onun üzvləri uşağın inkişafına əvəzsiz töhfə verir və məktəblinin akademik uğurlarına birbaşa təsir edir. Eyni zamanda, ictimailəşmə və təhsil prosesində valideynlərin rolu mühüm əhəmiyyət kəsb edir.

SUMMARY

This article deals with the family and its basic functions as the first and most important social institution in a child's life. The family to the most important social values. The point is that the family and its members make an invaluable contribution to the development of the child and directly affect the academic success of the schoolboy. At the same time, the role of parents in the process of socialization and education is of paramount importance.

AİLƏDƏ VALİDEYN MÜNASİBƏTLƏRİNİN YENİYETMƏNİN ŞƏXSİYYƏT VƏ "MƏN"İNİN İNKİŞAFINDAKI ROLU

p.ü.f.d. Müşfiq Mustafayev
BDU-nun Sosial və pedaqoi psixologiya kafedrasının müəllimi
Nayim Səmədzadə
BDU-nun II kurs magistrantı
naim.semedzade@icloud.com

Açar sözlər: yeniyetmə, ailə, valideyn, təlim, tərbiyə, özünəhörmət, "Mən konsepsiyası", şəxsiyyət.
Ключевые слова:подростковый, семья, родитель, обучение, воспитание**,** самооценка, концепция "Я", личность.
Key words:adolescence, family, parent, training, upbringing**,** self-esteem, self concept, personality.

Doğulduğu gündən etibarən uşağın şəxsiyyəti, öncə ailəsi sonra məktəbi və yaşadığı mühitdəki insanlar tərəfindən formalaşdırılır. Şəxsiyyətin bünövrəsi ilk 5-6 ildə ailədə qoyulur. Bu baxımdan uşağın şəxsiyyətinin inkişafında ailə və ailədaxili münasibətlər mühüm rol oynayır. Uşaq, valideynini müşahidə edərək, onları təqlid edərək inkişaf edir.

Ailə, ana-ata və uşaqlardan ibarət olan və cəmiyyətin əsasını təşkil edən sosial qrupdur. Bədən hüceyrələr toplusu olduğu kimi, cəmiyyətdə ailələrdən ibarətdir. Ailə cəmiyyətin mühüm elementidir. Bu sistemin yaxşı işləməsi cəmiyyəti meydana gətirən ailələrlə bağlıdır. Ailələr nə qədər sağlamsa, o cəmiyyət də o dərəcə mükəmməldir.

Cəmiyyət öz funksiyalarını daha çox ailə vasitəsi ilə yerinə yetirir. Ailənin başlıca vəzifələrini aşağıdakı kimi sistemləşdirə bilərik:

1. Cəmiyyətiqorumaq və inkişaf etdirmək;
2. Cəmiyyətin əldə olunmuş mədəniyyətini yeni nəsillərə ötürmək;
4. Ailə fərdlərinin fizioloji, psixoloji və sosial ehtiyaclarını qarşılamaq;
5. Uşağın sosiallaşması və şəxsiyyətinin inkişafına kömək göstərmək.

Ailənin yuxarıdakı funksiyalarına başqalarıda əlavə oluna bilər. Ancaq, ailənin ən vacib vəzifəsinin, uşağın təlimi və şəxsiyyət inkişafı üzərindəki vəzifəsi olduğu açıqdır.

Şəxsiyyət, irsi xüsusiyyətlər ilə mühitin şəxsə qazandırdığı xüsusiyyətlərin toplusudur. Şəxsiyyət fərdin fiziki, zehni və psixi xüsusiyyətlərini əhatə edir. Şəxsiyyət insanın duyğu, münasibət və davranışlarının mütəşəkkilləşmiş, stereotipləşmiş bir formasıdır. Şəxsiyyət bir insanı başqalarından ayıran xüsusiyyətlərin hər birini, mühitə adaptasiya olunmaq üçün inkişaf etdirdiyi davranış formasını ifadə edir [7, s.71]. Bir başqa ifadə ilə şəxsiyyət, bir insanın bütün maraqlarının, münasibətlərinin, qabiliyyətlərinin, danışıq tərzinin, xarici görünüşünün və mühitə adaptasiya formasının xüsusiyyətlərini əhatə edən, davamlılıq göstərən özünə xas ahəngli bir toplusudur.

Qeyd edək ki, şəxsiyyətin subyektiv tərəfini və əsasını təşkil edən "Mən" isə, insanın öz şəxsiyyəti ilə əlaqəli fikirlərinin toplusu, insanın özünütanıma və dəyərləndirmə formasıdır. "Mən", insanın öz şəxsiyyətinin xüsusiyyətləri, məqsəd və gözləntiləri, qabiliyyətləri, dəyər mühakimələri və inanclarından formalaşır. İnsanın nə olmaq istədiyi və ətrafdakılar tərəfindən necə qarşılandığı ilə bağlı düşüncə və mühakimələrindən ibarətdir. "Mən" anlayışı, şəxsin müxtəlif xüsusiyyətləri haqqında müsbət ya da mənfi istiqamətdə inkişaf etdirdiyi özünə məxsus mühakimələridir. Öz şəxsiyyəti ilə əlaqəli fikirləri və özünə baxış tərzidir. Şəxsin daxilində özünü müşahidə edən, mühakimə edən, dəyərləndirən və davranışlarını nizama salıb onu idarə edən bir güc olan "Mən": "mən nəyəm?, mən nə edə bilərəm?, dəyər mühakimələrim nədir?, həyatda nə

istəyirəm?" kimi suallara cavab tapmaqdan ibarətdir. Şəxsin fiziki və sosial mühiti ilə olan qarşılıqlı təsirlərinin nəticəsi, sahib olduğu özünə aid hiss, dəyər və anlayışlar sistemidir [6, s. 15].

İnsan, kim olduğunu, məqsədinin nə olduğunu, nə edə biləcəyini, nələrə dəyər verib, inanıb bağlanacağı kimi suallarına cavab axtararaq "Mən"ini tanıyır.

İnsanın özünü və ətrafını qavrama forması olan "Mən" anlayışı, onun ümumi münasibət və davranışlarına böyük ölçüdə təsir göstərir. Çünki, insan ətrafını və özünü qavradığı formada reaksiya və davranış göstərir. Ümumi olaraq insan necə düşünürsə elə davranır. Hər kəs ətrafını öz baxış bucağına uyğun, özünə məxsus şəkildə qavrayır. Bu baxımdan, "Mən" anlayışı, şəxsin davranışlarının əsası və müəyyənedici amili rolunda çıxış edir.

"Mən" anlayışı ilə şəxsin psixi sağlamlığı arasında da yaxın əlaqə vardır. Pozitiv bir "Mən" formalaşdıran şəxsin psixi sağlamlığı da yerində olur.

"Mən" anlayışı uşağın özünü başqalarından ilk ayırmağa başladığı iki yaşında inkişaf etməyə başlayır. Yeniyetməlik yaş dövründə daha da aydın görünür, şəxsin həyatı boyunca, "Mən" inkişafına davam edir.

Kuli, Mid və Şerif kimi tədqiqatçılar, "Mən" anlayışına sosioloji baxımdan yanaşmışlar və "Mən"in fərdin sosiallaşma müddəti içərisində ortaya çıxdığını irəli sürmüşlərdir. Kuli, şəxsin cəmiyyət içindəki digər insanlarla qarşılıqlı təsirdə olarkən formalaşan "Mən"ini "ayna mən" anlayışı ilə izah etməyə çalışmışdır. Mid`ə görə uşaq, sosiallaşma müddəti içərisində yetkinlərin davranışlarını müşahidə edərək, onların münasibət və davranışlarını öz "Mən"inə əlavə edir. Yeniyetmə ilk öncə yaxın ətrafdakıların, yəni ana və atasının, sonra geniş insan qrupları ilə qarşılıqlı əlaqəyə girərək, özünə qarşı göstərdikləri münasibət və davranışlarını öz şəxsiyyətində internalize edər. Kuli və Mid kimi Şerif də "Mən"i, yeniyetmənin valideyni, müəllimləri və dostlarının davamlı təsirləri nəticəsində meydana gəlmiş bir sosial və psixoloji dəyərlər sistemi olaraq ifadə edir.

Horni, fərdin özünü gerçəkləştirməsinə mane olan mənfi mühit faktorlarının, yalnızlıq və aşağı özünüqiymətləndirməyə yol açdığını və fərdin öz gerçək "Mən"inə yadlaşmasına səbəb olduğunu qeyd etmişdir. İnsanlar uğursuzluq və dəyərsizlik duyğularını güzəştə getmək üçün, bir ideallaşdırılmış "Mən" obrazı formalaşdırır. İdeallaşdırılmış "Mən" obrazı ilə birlikdə fərd, öz gerçək "Mən"ini bir təhdid olaraq görməkdə və özünə-nifrət hissi inkişaf etdirərək öz "Mən"inə yadlaşmışdır. Utanc və alçaldılma hisslərinə səbəb olan vəziyyətlər qarşısında özünəhörməti qorumaq ehtiyacı böyük önəm kəsb etməkdədir. İntiqam alma, düşmənçilik, kindarlıq, unutma və inkar özünühörməti qoruma ehtiyacına xidmət edən üsullardır.

Rocersin fikirləri isə, özünü qəbul etməni formalaşdıran şərtlər üzərində cəmlənmişdir. Hər bir insan mühitlə qarşılıqlı təsir nəticəsi olaraq özü ilə əlaqədar bir "Mən" obrazı formalaşdırır. Bu obraz, həm xüsusi olaraq şəxsin daxilində böyüdüyü ailənin, həm də sosial mühitin mühakimələrini, seçimlərini, sərhədləndirmələrini əks etdirir. Rocers, fərdin yaxın ətrafının münasibətinin məmnun buraxan ya da məyusluğa düçar edən hadisələr nəticəsində özünə dəyər vermə hissinin inkişaf etdiyini bildirmişdir. Bu hiss, digər insanların özünü dəyərləndirməsinin nəticəsi olaraq və öyrənilərək inkişaf etdirilməkdədir.

Şəxsin inkişaf etdirdiyi "Mən" həm irsi, həm də ətraf mühitin əsəridir. Mən anlayışının formalaşmasında sosial mühitin, xüsusi olaraq uşaq üçün önəmli olan şəxslərin, valideynlərin təsiri böyükdür. Uşaq, özü ilə əlaqəli olaraq zehnində cızdığı öz görünüşü olan "Mən" obrazını, ilkin olaraq ana-ata, qardaş-bacı və dostlarından öyrənir. Bu öyrənmə müddəti körpəlikdən etibarən başlayır. Uşaq ilk "Mən"ini ailə daxilində formalaşdırır və burada uşaq üçün ilk model olan insanlar ana və atadır.

Yeniyetmə özünü valideyn, müəllim və dost kimi şəxlərin özünə olan təsirlərinə görə özünüqiymətləndirir. Sosial mühitdəki bu şəxslərin özünə aid olan fikirlərini şəxsiyyətinə qatır, gedərək özünü onların gördüyü kimi görməyə, qavramağa başlayır. Ətrafdakı şəxslər, misal üçün, valideyn, qardaş, dost və müəllimləri ona qarşı müsbət sifətlər yaraşdırarlarsa pozitiv bir "Mən"

obrazı, mənfi sifətlərlə müraciət edirlərsə onda mənfi bir "Mən" obrazı formalaşacaqdır. Mənfi "Mən" obrazı formalaşdıran yeniyetmədə, özünə qarşı güvənsizlik hissi formalaşır və özünə qarşı olan hörməti azalır. Yeniyetmə özünü mənfi dəyərləndirərək, özündən məmnun qala bilməz. Yeniyetmənin özünə qarşı pozitiv "Mən" formalaşdırması və özünəhörmətinin yüksək olması üçün onun daxil olduğu ailədə şəxsiyyətlərarası münasibətlərin güvən verən, hörmət, sevgi və çevik bir yanaşmada olması lazımdır [5, s. 117].

Uşaq, valideyni ilə müsbət əlaqələr qurabilmişsə qabiliyyətlərini qavrayar, inkişaf etdirər və özü haqqında müsbət qənaətə gələ bilər. Bu münasibət mənfi olarsa, uşaq davamlı qarşısına maneələr qoyulduğu üçün yetərli bir "Mən" formalaşmasına sahib olmayacağı nəticəsinə gələ bilər [4, s. 26].

"Mən" anlayışı üzərində aparılan tədqiqatlarda, valideyn münasibətini demokratik olaraq qavrayan yeniyetmələrin "Mən" obrazı səviyyələrinin; valideynini artıq dərəcədə qoruyucu, avtoritar və laqeyd qavrayanlara görə daha yükək olduğu görülməkdədir. Avtoritar münasibət və xüsusilə uşaqlara qarşı laqeyd münasibət uşağın mənfi bir "Mən" formalaşdırmasına səbəb olmaqdadır. Valideynlərin yeniyetməyə güvən, cəsarət, sevgi verib, onu tərifləyəcəyinə; onu rədd etməsi, davamlı tənqid etməsi onun özünəhörmətinin inkişaf etməsinə mane olur [3, s. 323]. Valideynin yeniyetməyə qarşı olan laqeyd münasibətləri onun özünü dəyərsiz hiss etməsinə yol açmaqdadır.

Yeniyetməlik dövrü, özünəhörmət baxımından riskli bir dövr olaraq qarşımıza çıxmaqdadır. Bu dövrə qədər müəyyən bir səviyyədə özünəhörməti inkişaf etdirən fərd, yeniyetməlik dövrü ilə birlikdə sahib olduğu dəyərləri yenidən gözdən keçirtməyə başlayır. Yeniyetməlik dövründə mücərrəd düşünmə qabiliyyətini qazanmış olan gənc, özünü ümumi xüsusiyyətləri baxımından düşünməyə başlayır [1, s. 54].

Bu dövrdə özünəhörmətə təsir göstərən ən önəmli faktorlar fiziki cazibədarlıq və dostlardır. Fiziki cazibədarlıq yeniyetmənin öz fiziki quruluşundan məmnun olub olmamasına təsir göstərmənin yanında, başqalarından gələcək müsbət və mənfi reaksiyaların təsir etməsi səbəbi ilə də özünəhörmət üzərində təsirli olacağı düşünülməkdədir. Fiziki olaraq özünü bəyənən yeniyetmələrdə pozitiv özünəhörmət inkişaf edir. Ancaq fiziki görünüş mövzusunda ümumilikdə mənfi inanclara sahib olunan bu dövrdə özünəhörmətin aşağı düşməsihalı baş verir. Yeniyetməlikdə dostlardan gələn müsbət fikirlər pozitiv özünəhörmət inkişafına köməklik göstərməkdədir. Əksinə həmyaşıdları tərəfindən qəbul olunmayan və qurban roluna gətirilən yeniyetmələrdə aşağı özünəhörmət görülür. Yeniyetməlik dövrünün sonlarına doğru yeniyetmələrin şəxsiyyətininformalaşmasının bitməsi ilə pozitiv özünəhörmətə doğru bir hərəkət meydana gəlməkdədir [2,s. 95].

Kupersmidt, özünəhörməti şəxsiyyətin vacib elementi və müsbət bir şəxsiyyət xüsusiyyəti olaraq qəbul edərkən, fərdin özünü qabiliyyətli, bacarıqlı, uğurlu və dəyərli qavraması dərəcəsi olaraq tanımaqda və özünəhörmətin dörd faktorunu sıralamaqdadır:

1. Fərdin həyatında vacib bir yerə sahib olan digər insanlardan gördüyü münasibət, qəbul edici və hörmətli rəftarın dərəcəsi;

2.Fərdin uğurları içərisində daxil olduğu pozisiya və sahib olduğu status;

3. Fərdin başqaları tərəfindən özü üçün edilən dəyərləndirmələrə necə qarşılıq verdiyi;

4. Fərdin başqaları tərəfindən özü üçün qoyulan və onun istədiyi məqsədlərə çatıb, çata bilməməsi.

ƏDƏBİYYAT

1. Hodges, L. and Wolf, L.J. (1997). Promoting Self-Esteem in a Caring Positive Classroom. Masters Action Research Project, IRI/Skylight: Saint Xavier University

2. Pişkin, M. (2003). Özsaygı Geliştirme Eğitimi. İçinde: Y. Kuzgun (Ed.), İlköğretimde Rehberlik. Ankara: Nobel Yayınları.
3. Clifford T. Morgan.(1984);Psikolojiye Giriş, Ankara.
4. Kurtman Ersanlı.(1991); Benliğin Gelişimi ve Görevleri, Samsun.
5. Adams J. F. (1968) “Understanding Adolescence” Allyn and Bacon Publisher; 1st Printing edition; ISBN-13: 978-0470869208;
6. Hasan Tan, (1970); "Akademik Psikolojide Ego ve Benlik (Self) Kavramı" Hacettepe Sosyal ve Beşeri Bilimler Dergisi, C:2/1, Ankara.
7. Atalay Yörükoğlu,(1986); Gençlik çağı. Ankara.

XÜLASƏ

Məqalədə müxtəlif dövrlərdə aktual problemlərdən biri olan yeniyetməlik yaş dövrü haqqında danışılır. Məqalə ailədə valideyn münasibətlərinin, yeniyetmənin şəxsiyyət və “Mən”inin inkişafındakı roluna həsr olunub. Valideynlərin yeniyetmənin “Mən”inin pozitiv və ya neqativ istiqamətdə inkişaf etməsində oynadığı rol, onun özünəhörmət səviyyəsinin müsbət və ya mənfi istiqamətdə inkişaf etməsi kimi problemlərə toxunulub.

Burada Ceyms, Rocers, Mid, Kupersmidt, Kuli kimi tədqiqatçıların, “Mən”in inkişafı ilə bağlı fikirləri, özünəhörmət səviyyəsinin formalaşmasında ailənin rolu ilə bağlı olan tədqiqatlarından istifadə olunmuşdur.

АННОТАЦИЯ

В статье рассказывается о подростковом возрасте, одной из самых актуальных проблем в разное время. Статья о родительских отношениях в семье, роли подростков в развитии личности и о себе. Была упомянута роль родителей в формировании позитивного или негативного отношения к подростковому возрасту, а также позитивного или негативного развития их самооценки.

Здесь используются такие исследователи, как Джеймс, Роджерс, Мид, Куперсмит, Кули, и исследования о роли семьи в формировании уровня самооценки «я».

SUMMARY

The article talks about the adolescent age, one of the most pressing problems at different times. The article is about parenting relationships in the family, the role of adolescents in the development of personality and self concept. The role played by parents, self concept in developing a positive or negative attitude toward adolescence, as well as the positive or negative development of their self-esteem, was mentioned.

Here are used by researchers like James, Rogers, Mead, Coopersmith, Cooley, and the research on the role of the family in shaping the level of self-esteem.

İNKLÜZİV TƏHSİL PEDAQOJİ REABİLİTASİYANIN FAKTORU KİMİ

dos. Sevinc Quliyeva
BDU-nun Psixologiya kafedrasının müəllimi
Elmin İsayev
BDU-nun II kurs magistrantı
elminisayev6@gmail.com

Açar sözlər: inklüziv təhsil, xüsusi qayğı, uşaqlar, autizm, daun sindromu, reabilitasiya
Ключевые слова: инклюзивное образование,особый уход, дети, аутизм, синдром дауна, реабилитация
Keywords: inclusive education, special care, children, autism, down syndrome, rehabilitation.

Ümumtəhsil məktəbində sağlamlıq imkanları məhdud uşaqların tipik uşaqların mühitinə daxi edilməsi və sonrakı sosıalizasiyası üçün, onların potensial imkanlarının üzə çıxarılması və inkişafı üçün bütün imkanlar yaradılmalıdır. Təhsilə sosial treninq kimi baxmaq olmaz, təhsilin əsas məsələsi hər bir şəxsiyyətin mənəvi həyat bütövlüyünü təmin etməkdir [1], [2].

Təhsil sisteminin sağlamlıq imkanları məhdud uşaqların sosial - psixoloji reabilitasiyası üçün böyük imkanları vardır. Reabilitasiya deyərkən dar mənada biz təkcə əmək,məişət, təhsil, sosial və b. vərdiş və bacarıqların bərpası prosesini nəsrimizdə tutmuruq. Burada biz reabilitasiyanın dəyər və məna aspektini daha çox vurğulayırıq, çünki inklüziyanın əsas mənası və prinsipi sağlamlıq imkanları məhdud uşaqların fərdiliyini qəbul edib onları məhz bu fərdiliyinə görə qiymətləndirmək və dəyərləndirməkdir. Belə başa düşülən və qəbul edilən pedaqoji reabilitasiya insanın daxilən dəyişməsinə, imkanlarının inkişafina - bir sözlə, onun şəxssiyyət kimi maksimal dərəcədə realizə olunmasına yönəlməlidir. Ümumiyyətlə, bəşəriyyətin inkişaf tarixi göstərir ki, reabilitasiya insanın psixi, fiziki, mədəni və sosial məhdudiyyətlərindən asılı olmayan qabiliyyətlərinin bərpası prosesidir. Son illərdə respublikada reabiitasiya mərkəzlərinin açılması göstərir, ki, reabilitasiya bir obyektiv ictimai fenomen kimi var və inkişaf edir [3], [4] ,[5].

Hazırda reabilitasiya yeni məna ilə zənginləşir, bu yenilik isə cəmiyyətin sağlamlıq imkanları məhdud insanlara münasibətinin dəyişməsilə bağlıdır. Sağlamlıq imkanları məhdud insanlar isə reabilitasiyanı həyatın keyfiyyətinin yaxşılaşdırılması kimi qəbul edirlər [4].

Pedaqoji reabilitasiya sağlamlıq imkanları məhdud uşaqların, xüsusən də yeniyetmələrin sosial inkişafina mühüm təsir göstərir. Reabilitasiya müasirliyin fenomeni kimi pedaqoji prosesə fəal müdaxilə edərək, həm tipik, həm də atipik uşaqları öz əhatəsinə alır. Reabilitasiya obyektiv qanunlara əsasəm pedaqoji prosesin ayrılmaz hissəsinə çevrilirsə pedaqoji prosesə təsir göstərir. Onun subyekti isə əsasən sağlamlıq imkanları məhdud uşaqlar olur [7],[9].

Müasir pedaqoji reabilitasiyanın metodoloji əsas antropodinamizm prinsipi təşkil edir. Bu prinsip antropoloji,aksioloji və kulturoloji yanaşmaların sistemli və kompleks vahidliyində irəli gəlir [7].

Antropoloji yanaşma inkişaf pozulmalarını insanın fiziki, psixi və mənəvi obrazının bir komponenti kimi qəbul edir və hər insanda təkmilləşmə üçün daxili resursların olmasını vurğulayır. Məhz buna görə də qüsur şəxsiyyətin formalaşması üçün manea sayılmır [9].

Antropoloji yanaşmadan ayrılmaz olan aksioloji yanaşma bütün insanları, həmçinin sağlamlıq imkanları məhdud insanları onların aktual və potensial imkanlarına görə deyil, onların mövcudluğuna görə qiymətləndirir və dəyərləndirir [6].

Cəmiyyətin sağlamlıq imkanları məhdud insanlara münasibəti mədəniyyətin inkişaf səviyyəsilə müəyyən edilir. Kulturoloji yanaşma reabilitasiyanın nəticəsini sağlamlıq imkanları məhdud insanların mədəni mühitə daxil olmasında görür [10].

Xolistik antropodinamizm prinsipi qüsura insanın mənəvi təşəkkülündə bir maneə kimi baxmır. Bu prinsipə əsasən insan bəşəriyyətin inkişafına töhfə verən böyük bir dəyərdir. Reabilitasiya isə dinamik xarakterli dəyişiklərə istiqamətlənməlidir. Sağlamlıq imkanları məhdud uşaqların pedaqoji müşayiəti yalnız inkişaf çatışmazlıqlarının korreksiyasına yönəlməməlidir, korreksiya həm də daima mənəvi - əxlaqi inkişafın yollarını axtarmalıdır [5],[4].

Xolistik antropodinamizm "reabilitasiya" anlayışını ümumi pedaqoji sahəyə daxil edir, çünki insanın ümumi inkişafına istiqamətlənmiş pedaqoji fəaliyyətdir. İnklüziv təhsili xolistik antropodinamizm prinsipi əsasında qurmaq üçün ümumtəhsil məktəbin işini və iş metodlarını dəyişmək lazımdır. İnklüziv məktəbin əsas məqsədi hər uşağın intellektual, sosial, şəxsiyyəti və mənəvi inkişafını təmin edən mühit yaratmaqdı. Qeyd edək ki, sağlamlıq imkanları məhdud uşaqın müvəffəqiyyətlə oxuması təlim - tərbiyə prosesinin effektivlyindən xəbər vermir. Təhsil vasitəsilə sosializasiyadan o zaman danışmaq olar ki, əgər sağlamlıq imkanları məhdud uşaq öz imkanlarını düzgün qiymətləndirir və daima ozunu təkmilləşdir [5], [6], [4], [7].

Təhsil sistemində 10 ildən artıqdır kı, inklüziv proseslər baş verir. İnklüziv təhsil hər uşaqa öz potensial imkanlarını üzə çıxarmaqa, inkişaf etməyə, cəmiyyətin bərabərhüquqlu üzvü olmaqa kömək edir. Sağlamlıq imkanları məhdud uşaqın ümumtəhsil mühitə daxil olması onun sosializasiyası üçün imkan yaradır, çünki bu proses ailənin və uşaqın imkanları ilə yanaşı ilk növbədə təhsil mühitinin imkanlarından asılıdır. İnklüziyaya cəlb olunmuş uşaqların şəxsiyyət kimi inkişaf etmələri üçün daha çox imkan var. Eyni zamanda qeyd etməliyik ki, inklüziv təhsil aşağıdakıları nəzədə tutur [34],[28],[49]:

- sağlamlıq imkanları məhdud uşaqın maraqlarının prioriteti
- sağlamlıq imkanları məhdud uşaqların müxtəlif ehtiyaclarının nəzərə alınması
- tipik uşaqlann da təhsil almaq hüququqnun gözlənilməsi
- inklüziv təhsildə varislik
- müxtəlif təlim və təhsil sistemlərinin (ümumtəhsil, xüsusi, inklüziv təhsil, sosial reabilitasiya və s.) sərhədlərinin şəffaflığı və açıqlıqı
- vahid metodoloji yanaşmaların yaradılması və s.

Xüsusi qayğıya ehtiyacı olan və tədrisdə çətinlik çəkən uşağın inklüziv siniflərdə oxuması ilə qərar verilərsə, seçim meyarları uşaqları seçmək üçün yox, onların müxtəlif inkişaf səviyyələrini müəyyən etmək üçün işlənməlidir. Xüsusi qayğıya ehtiyacı olan uşağın təhsildə uğuruna təsir göstərən başqa faktorlar da mövcuddur. Bunlar uşağın ailəsinin vəziyyəti, imkanları, dövlət tərəfindən verilən təminat, mütəxəssislər (loqoped, fizizoterapevt, əmək terapevti) və təhsil müəssisələrində tərbiyəçi-müəllimlə uşaq arasında yaranan münasibətləri əhatə edir. Hər hansı xüsusi qayğıya ehtiyacı olan uşağm təhsilə və cəmiyyətə uğurlu inteqrasiyasından söhbət açanda məhz bu faktorların əlaqəli olması və hər birinin lazımi səviyyədə vurğulanması zəruridir [4].

Məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsil barədə qərar verildikdə uşağm diaqnozunun "çətin" olub-olmamasına yox, inkişaf xüsusiyyətlərinə və onlara təsir göstərən faktorlara kompleks şəkildə baxılmalı və zəruri dəstək təmin edilməlidir. Əks halda bağça mühüti xüsusi qayğıya ehtiyacı olan uşağın emosional və psixoloji vəziyyətinin daha da ağırlaşmasına gətirib çıxara bilər [4].

Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin normativ hüquqi bazasının təkmilləşdirilmiş maddi- texniki təminatı istiqamətində Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı əsasında geniş tədbirlər həyata keçirilmişdir. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün, təhsilin idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurlannın inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir [11].

Azərbaycan Respublikasında təhsilin inkişafi üzrə Dövlət Strategiyasında nəzərdə tutulur ki, təhsil alanların istedadının aşkar olunması və inkişafi ilə bağlı xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasım ehtiva edir [2].

Maddi-texniki və metodoloji baza, tələb olunan səviyyədə kadr potensialı olmadığı halda, xüsusi təhsilin tam inteqrativləşməsindən söhbət aparmaq hələ tezdir. Mövcud olan xüsusi tipli təlim müəssisələrində, həm də ümumtəhsil müəssisələri daxilində inklüziv təhsil həyata keçirilir [4].

Sağlamlıq imkanları məhdud şəxslərə ictimaiyyətin münasibətini köklü surətdə dəyişmək, insanlarda bu şəxslərə dözümlülük, tolerantlıq tərbiyə etmək lazımdır. Cəmiyyət bu insanları özünün ayrılmaz bir hissəsi kimi qəbul etməli və onlara qayğı ilə yanaşmalıdır. Bu insanlar üçün iş yerləri açılmalı, onlar öz imkanlarına uyğun peşələrə yiyələnməlidirlər [4].

İnklüziv təhsillə bağlı ilk layihə 2004-2005-ci tədris ilindən başlayaraq Dünyaya Baxış təşkilatı "Xüsusi qayğıya ehtiyacı olan uşaqlar: mövqelər, təcrübələr və siyasət" pilot layihəsini həyata keçirib. Layihə çərçivəsində inklüziv təhsilə cəlb olunmuş təhsil işçiləri üçün müxtəlif treninq və seminarlar təşkil edilmiş və dünyada mövcud olan yeni təhsil texnologiyaları Azərbaycanda sınaqdan keçirilmişdir. Layihə çərçivəsində 164 xüsusi qayğıya ehtiyacı olan uşaq inklüziv təhsilə cəlb edilmişdir. Pilot layihə çərçivəsində 2004-2009 illər ərzində 500 nəfər ibtidai sinif müəllimi, məktəbəqədər təhsil müəssisələrininin tərbiyəçiləri, 20 nəfər məktəb direktoru və digər heyət üçün treninq, mini-seminarlar və digər tədbirlər keçirilmişdir.

Pilot layihənin icrası zamanı, həmçinin, valideynlər, inzibatçılar, universitet müəllimləri, sosial sahədə işləyən mütəxəssislər, psixoloqlar, həkimlər, defektoloq və loqopedlər üçün təlimlər də təşkil edilib. Layihənin məqsədlərinə uyğun olaraq müəllimlər, valideynlər, uşaqlar, xüsusi təhsil mütəxəssisləri, ali təhsil müəssisələrinin işçiləri, ictimaiyyət və layihəni icra edən mütəxəssislər üçün metodik vəsaitlər hazırlanmış, bir sıra xarici ədəbiyyatlar tərcümə olunaraq çap etdirilib. Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)7 çərçivəsində beynəlxalq və yerli qeyri-hökümət təşkilatların dəstəyi ilə 3 pilot layihə həyata keçirilib. İcra olunmuş layihələr çərçivəsində 2004-2005-ci tədris ilində ölkə üzrə 14 ümumtəhsil məktəbində, 13 məktəbəqədər təhsil müəssisəsində inklüziv təhsil tətbiq edilmişdir. Proqramın icra dövründə ümumilikdə 268 sağlamlıq imkanı məhdud uşaq inklüziv təhsilə cəlb olunub [1].

Uşaq hüquqları haqqında 2012-ci il tarixli Qanunun 35-ci maddəsində sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququna bir daha təminat verilir [2].

Ölkə Prezidentinin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" haqqında 2013-cü il tarixli Sərəncamının10 1.2.4-cü maddəsində "xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması" nəzərdə tutulub. Yenə həmin Sərəncamda təlim metodologiyasının yaradılması, sosial adaptasiyası üçün imkanların təmin edilməsi üçün optimal inklüziv təhsil modellərinin tətbiq edilməsi, məktəbəqədər və ümumi təhsil müəssisələri təhsilverənlərinin inklüziv təhsil üzrə məqsədli əlavə təhsilinin təmin edilməsi və. s kimi məsələlər əks olunub [3].

14 dekabr 2017-ci ildə qəbul olunmuş 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramında da demək olar ki, eyni məqsədlər yer alıb. Həmin məqsədlər aşağıdakılardır [4]:

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək məqsədi ilə normativ hüquqi aktların təkmilləşdirilməsi,

- təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi, - sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması,

- inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması, - sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ictimai maarifləndirmə işinin aparılması [12].

ƏDƏBİYYAT

1. Дульнев Г.М. Учебно-воспитательная работа во вспомогательной школе. – М.: Просвещение, 1981. – 176с.
2. Инклюзивное образование. Настольная книга педагога, работающего с детьми с ОВЗ [Текст]: метод. пособие / М.С. Староверова [и др.] ; под ред. М.С. Староверовой. М.: Владос, 2011 166с.
3. Неретина, Т.Г. Специальная педагогика и коррекционная психология [Текст]: учеб. - метод. комплекс / Т.Г. Неретина. М.: Флинта, 2010. 374с.
4. Сабельникова, С.И. Разработка и реализация индивидуальной образовательной программы для детей с ограниченными возможностями здоровья в начальной школе [Текст]: методические рекомендации для учителей начальной школы / С.И. Сабельникова; под. ред. Е.В. Самсоновой. М.: МГППУ, 2012. 84 с.
5. Хитрюк, В.В. Инклюзивная готовность как этап формирования инклюзивной культуры педагога: структурно-уровневый анализ. [Текст] / В.В. Хитрюк // Вестник Брянского государственного университета. 2012. №1: Общая педагогика. Профессиональная педагогика. Психология. Частные методики. С. 80-84.
6. Юхансон.И. Особое детство.- Москва: ЦЛП, 2001. - 166 с.
7. Власова Т.А., Певзнер М.С. Учителю о детях с отклонениями в развитии. - М.: Просвещение, 1973. - 173 с.
8. Инклюзивное образование. Настольная книга педагога, работающего с детьми с ОВЗ [Текст]: метод. пособие / М.С. Староверова [и др.] ; под ред. М.С. Староверовой. М.: Владос, 2011 166с.
9. Шумиловская, Ю.В. Подготовка будущего учителя к работе с учащимися в условиях инклюзивного образования: дис. ... канд. пед. наук: 13.00.08 / Ю.В. Шумиловская. — Шуя, 2011. — 175 с.
10. Bjork, R. A. (1994). Memory and metamemory considerations in the training of human beings. Metacognition: Knowing about knowing (pp. 185–205). Cambridge, MA: MIT Press
11. Deno E. N. Special Education as Developmental Capital // Exceptional Children. 1970. № 37. P. 229-237
12. https://azertag.az/xeber/2018_2024_cu_illerde_Azerbaycan_Respublikasinda_saglamliq_imkanlari_mehdud_sexsler_uchun_inkluziv_tehsilin_inkisafi_uzre_DOVLAT_PROQRAMI-1121083

XÜLASƏ

İnklüziv təhsil uşaqların müstəqil bir fərd olduğunu və təhsil zamanı onların hər birinin öz ehtiyacları olduğunu qəbul edən metodologiyaları inkişaf etdirməyə yönəlib. İnklüziv təhsil tədris zamanı müxtəlif ehtiyacların ödənilməsinə yönəlmiş yanaşmaların formalaşdırılmasına çalışır.

АННОТАЦИЯ

Инклюзивное образование направлено на развитие методологий принимающих независимую личность детей и потребности каждого из них во время образования.Инклюзивное образование старается формировать подходы направленные на удовлетворение различных потребностей во время обучения.

SUMMARY

Inclusive education is aimed to development of methodologies accepting children's independent personality and the needs of each of them during education. Inclusive education is trying to formulate approaches aimed to meet different needs during training.

CİZGİ FİLMLƏRİNİN MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN PSİXOLOJİ İNKİŞAFINDA ROL-MODEL ANLAYIŞI VƏ CİZGİ FİLMLƏRİN UŞAQ PSİXİKASINA TƏSİR XÜSUSİYYƏTLƏRİ

dos. Lalə Cabbarova
BDU-nun Sosial və pedaqoi psixologiya kafedrasının müəllimi
Ülfət Abbaszadə
BDU-nun II kurs magistrantı
ulfatabbaszada@gmail.com

Açar sözlər: psixoloji inkişaf, cizgi filmi, məktəbəqədər yaş, rol model, media.
Ключевые слова: психологическое развитие, мультфильм, дошкольный возраст, образец для подражания, медиа.
Keywords: psychological development, cartoon, preschool age, role model, media.

Bu danılmaz faktdır ki, məktəbəqədər uşaqların inkişafında cizgi filmlərinin əhəmiyyəti çox böyükdür. Amma cizgi filmləri də müxtəlif cür olmaqla yanaşı uşaqların psixologiyasına da təsiri müxtəlif olur. Bəzi cizgi filmləri uşaqlarda pozitiv emosiyalar yaradır: uşaqlara sevincli dəqiqələr bəxş edir, onlarda sevimli qəhrəmanlarına bənzəmək istəyi yaradır. Amma elə cizgi filmləri də var ki, uşaqlarda aqressivlik, neqativ emosiyalar yaradaraq ziyan vurur.

Əksər uşaqlar, o cümlədən məktəbəqədər yaşlı uşaqlar, daha çox cizgi filmlərinin məğlubedilməz və hökmran qəhrəmanlarına pərəstiş edən robotlaşmış uşaqlara çevrilirlər.

Onları cizgi filmi izləmədən təsəvvür etmək belə mümkün deyil. Günün əksər saatlarını onlar televizya qarşısında cizgi filmləri izləməklə keçirirlər. Həmin cizgi filmlərinin əksəriyyəti əcnəbi şirkətlərin istehsalı olduğundan burada çoxlu işğəncə, qorxu, şiddət və qəhrəmanların dilindən xoşagəlməyən ifadələr səslənir. Uşaqların hafizəsi daha iti olduğundan bu ifadələr onların yaddaşında qalır və öz yaşıdları ilə oynayarkən uşaqlar bu ifadələri işlədirlər [12].

Məşhur amerikalı psixoloq X.Bi hesab edir ki, cizgi filmləri uşaqların inkişafında çox vacib rol oynayır. Uşaqgördüyü, ona xoş gələn, bəyəndiyi obrazı özü üçün model olaraq görür. Davranışlarında ona bənzəmək, onun kimi olmaq istəyir. Məhz məktəbəqədər yaşlı uşaqlarda bu, əsasən, cizgi filmləri əsasında baş verir. Uşaqlar cizgi filmlərini izlədikdə gördükləri və sevdikləri personajlara bənzəməyə can atırlar. Cizgi filmlərindəki münasibətlər uşaqların hafizəsində həkk olunur, və onlar belə münasibətləri həyatda da görmək istəyirlər [6,s.52].

Məktəbəqədər yaşlı uşaqların formalaşmasında cizgi filmləri 2 istiqamətdə təsir edə bilər: uşaqlara müsbət və mənfi keyfiyyətləri aşılaya bilər.

Digər amerikalı psixoloqlar R.Temml, M.Dorki və V.Amen cizgi filmlərinin məktəbəqədər yaşlı uşaqlarda müsbət keyfiyyətlər formalaşdırdığını iddia edirdilər. Onlar hesab edirdilər ki, cizgi filmləri uşaqlarda mərhəmət hissi, dostcanlılıq, əməksevərlik hisslərini formalaşdıra bilər [9, s.22].

Cizgi filmləri uşaqlara mənfi təsirini isə 4 formada göstərə bilər [9, s.83]:

1. Zorakılığa istiqamətləndirmə: tədqiqatlara əsasən, qorxu, şiddət məzmunlu cizgi filmlərini izləyən məktəbəqədər yaşlı uşaqlar öz yaşıdları ilə müqayisədə daha çox dalaşqan, aqressiv olurlar. Onların fikrində ətrafdakılara zərər vermək istəyi üstünlük təşkil edir. Onuda qeyd edək ki, amerikalı alimlər 330 məktəbəqədər yaşlı uşaqların üzərində araşdırmalar aparmış [9, s.96], və belə nəticəyə gəlmişlər: şiddət mövzusunda cizgi filmləri izləyən uşaqlar yaşıdlarına görə 3 dəfə çox aqressiv olurlar. Bu çox qorxulu statistik göstəricidir.

2. Diqqətsizlik: əksər psixoloqların fikirlərinə görə, əgər uşaq gündə 4-5 saat cizgi filminə baxırsa, o uşaqda diqqətsizlik inkişaf edir.

3. Həqiqətdən uzaqlaşma: əgər valideynlərin diqqətindən kənar qalsa, uşağın izlədiyi cizgi filmləri hər gün bir az onun həyatına daxil olur. Artıq uşaq özünü cizgi filmlərinin personajlarına oxşadır, özünün onlardan biri olduğunu düşünür. Bu cür uşaqlar özləri üçün gerçək olmayan dünya qururlar, orada yaşayırlar və reallığa adaptasiya ola bilmirlər. Məsələn, Türkiyənin Mersin əyalətində yaşayan 4 yaşlı uşaq izlədiyi Pokemon cizgi filminin təsiri altında qalaraq özünü yeddinci mərtəbədən atmağa cəhd etmişdir. Ondan soruşanda ki, niyə belə etmisən, uşaq belə cavab verir: "Mən Pokemonam və Pokemon kimi uçmaq istədim". Bundan başqa, yenə də Türkiyədə "Hörümçək adam" cizgi filminin təsirindən uşaq evinin tavanına bağladığı iplə uçmaq istəyərkən ip boynuna dolaşıb və uşaq həyatını itirmişdir [3, s.20].

Oğlan uşaqları qızlarla müqayisədə gördüklərini daha tez tətbiq edirlər. Qızlar isə daha qapalı olduqları üçün filmlərdə gördüklərini həyatlarına tətbiq etmə imkanları oğlanlara nisbətən daha aşağı olur [11].

Son zamanlar çəkilən cizgi filmləri uşaqlar üçün nəzərdə tutulduğu halda böyüklərin də marağına səbəb olur. Əksər cizgi filmində kobudluq, vəhşilik, qəddarlıq səhnələri uşaqlarda aqressivlik hissini artırır. Bu isə uşaqların davranışlarında, oyunlarında açıq-aydın hiss olunur. Hətta aqressivlikdən çox uzaq olan uşaqlarda bir müddət belə animasiyalara baxdıqdan sonra amansız olurlar. Onlar gələcəkdə ünsiyyət qura bilmirlər, quranda da daha çox konflikt hallar yaradır.

Bu gün bütün telekanalları zəbt edən qanlı, döyüşlü, davalı cizgi filmləri məktəbəqədər yaşlı uşaqların psixologiyasına mənfi təsir göstərir. Bunun qarşısı alınmasa, yaranmış vəziyyət daha kəskinləşəcək.

Rusiya məktəbəqədər yaşlı uşaqlar üçün göstərilən ən zərərli cizgi filmlərinin adlarını açıqlayıb. Rusiyada uşaqların cizgi filmlərinin personajlarına oxşamaq istəkləri valideynləri çox narahat etmişdir. Keçirilən sorğu göstərib ki, uşaqlar daha çox "Şrek", "Maşa və ayı", "Süngər Bob" cizgi filmlərinin təsirindən çox aqressiv olublar. İş o yerə çatıb ki, 2 il əvvəl Dövlət Duması "Şrek" və "Süngər Bob" cizgi filmləri əsasında hazırlanan oyuncaqların satışına qadağa qoymuşdur [5, s.19]. Adı çəkilən cizgi filmlərdəki yersiz zarafatlar, qəddarlıq səhnələriuşaq psixologiyasına çox pis təsir edir. Məşhur "Telepuzik" cizgi filminin prodüseri Sara Qremin sözlərinə görə, valideynlər ekranda nümayiş olunan cizgi filmlərinin onların övladlarına mənfi təsir etməməsini istəyirlər. Bu baxımdan da onlar "Telepuzik"ın niyə ekranlarda görünməməsindən şikayət edirlər. Mütəxəssisin fikrincə, "Bembi", "Daşa-səyahətçi" cizgi filmləri valideynlər tərəfindən müsbət qiymətləndirilir [4, s.30].

Valideynlər öz uşaqlıq vaxtlarında baxdıqları cizgi filmlərini yada salıb müqayisə edirlər. "Heç vaxt filmlərdə qəddarlıq, qorxu, şiddət təbliğ edən kadrlar olmurdu",- deyirlər. Onlar hesab edir ki, məktəbəqədər yaşlı uşaqlar daha çox milli cizgi filmlərini izləməlidirlər, cizgi filmləri daha çox tərbiyəvi əhəmiyyətə malik olmalıdır [4,s.30]. Burada ən vacib məqam cizgi filmləri çəkilərkən uşaqların yaşının nəzərə alınmasıdır. Buna baxmayaraq, bu gün bu məsələyə ciddi yanaşılmadığı üçün bir sıra xoşagəlməz hadisələr yaşanır. Buna səbəb də uşaqları ailədən çox cizgi filmlərinin tərbiyə etməsidir.

Amma gəlin yaşı 30-35 olan insanlara nəzər salaq. Heç şübhəsiz, onlara təbiət, heyvanlar, sakitlik, sülh daha yaxşı təsir edir. Bu işdə onların uşaq vaxtı baxdıqları cizgi filmlərinin də təsiri az deyil. Bildiyimiz kimi, dünyada ən çox məşhur olan iki cizgi filmi vardı – "Nu poqodi" və "Tom və Jerry". Uşaqlığımızın ən baxımlı, ən sevilən cizgi filmi olan "Nu poqodi" 20 seriyadan ibarətdir və bu gün də bu cizgi filmi öz populyarlığını saxlayır [5, s.25].

Amerikalı alimlərin apardıqları tətdiqatlara əsasən, televizora maraq uşaqda 18 ayından başlayır [9, s.58]. 2 yaşdan etibarən isə uşaqlardacizgi filmlərinə maraq oyanır [8]. Bubaxımdan əksər psixoloqlar əminliklə söyləyirlər ki, rus cizgi filmləri məktəbəqədər yaşlı uşaqlara daha yaxşı təsir göstərə bilər [7, s.76]. Xarici cizgi filmləri isə, yuxarıda qeyd etdiyimiz kimi, uşaqların

psixologiyasında müxtəlif problemlər yaradır. Ona görə də daha yaxşı olar ki, milli cizgi filmlərinə və sovet dönəmində çəkilmiş cizgi filmlərə üstünlük verilsin.

Uşaq psixoloqu Aidə Nəbiyevanın sözlərinə görə [13], valideynlər çox vaxt özlərini müdafiə etmək üçün belə bir fikir irəli sürürlər ki, bizim milli cizgi filmlərimiz çox azdır və uşaqlar çoxdan onları izləyib. Milli cizgi filmlərimizin sayı 40-dan çoxdur: "Pıspısa xanım və siçan bəy"(1974), "Cücələrim" (1980), "Tülkü həccə gedir", "Meşəyə insan gəlir", "Sehrli ağac", "Dəcəl dovşan", "Sandıq", "Sehrli ləçək", "Qəribə əjdaha", "Təqib", "Tıq-tıq xanım", "Yatmaq vaxtıdır", "Balaca çoban", "Humayun yuxusu", "Xeyir və şər", "Cırtdan-Pəhləvan", "Cırtdan və div", "Uşaq və külək" və s [1, s.45].

Nəzərə almaq lazımdır ki, milli cizgi filmlərimiz nə satışda yoxdur, nə də bizim telekanallarımızda yayımlanmır. Məhz bu səbəbdən uşaqlar xarici cizgi filmlərini izləyirlər. Burada telekanalların üzərinə düşən iş o qədər də böyük deyil, sadəcə videotekaya müraciət etmək kifayətdir.

Hesab edirik ki, uşaqlar üçün nəzərdə tutulan xarici cizgi filmlərə diqqət yetirilməli vəən əsası, yerli cizgi filmləri yenidən istehsal olunmalıdır. Belə olsa, xarici cizgi filmlərinə də ehtiyac qalmaz. Təəssüf ki, bu gün gənc animatorlara ehtiyac böyükdür. Bu işə mütəxəssislər cəlb olunmalıdır.

Deməli, əgər valideynlər öz uşaqlarının inkişafında heç bir problemin yaranmasını, onların psixologiyasının qorxulu, şiddətli xarici cizgi filmlərinin təsirindən uzaq qalmalarını istəyirlərsə, onlar ən azından uşaqların cizgi filmlərinin seçiminə nəzarət etməli, əks halda belə cizgi filmləri mənfi tərbiyəçi rolunu oynayacaq.

Bunun qarşısını almaq üçün valideynlər birinci növbədə nəyə fikir verməlidirlər:

1. Cizgi filmi hansı yaş uşaqlar üçün nəzərdə tutulub?
2. Cizgi filmi uşaqların maraqlarını əhatə edirmi?

"Woman's day" jurnalı da yaranmış təhlükəli məsələyə münasibət bildirərək psixoloqların fikirlərinə yer ayırmışdır: "Cizgi filmləri uşaqları zorakılığa təhrik edə, onlarda dalaşqanlıq, üsyankarlıq xüsusiyyətlərini formalaşdıra bilər. Belə uşaqlar baxdıqları filmin təsirinə düşərək özlərini həmin qəhrəmana oxşatmağa çalışırlar və real olmayan dünyada yaşayırlar"[10].

Övladlarımızın real dünyada yaşamaq və düzgün tərbiyə olunmaq üçün təkcə valideynlərin nəzarəti kifayət olmur. Əlaqədar qurumlar da yaranmış təhlükəli vəziyyətə görə məsuliyyət daşıyırlar.

Yaxşı olardı ki, valideynlər uşaq cizgi filminə baxdıqdan sonra onunla söhbət etsin. Ona belə suallar ünvanlasın: "Filmdən nə başa düşdün?", "Yadında nə qaldı?" və s. Bu yaşda uşaqlarla söhbət etmək, onların düşüncələrini öyrənmək həm onların nitqinin inkişafında və gələcəkdə uşağın özünəgüvən məsələsində müsbət rol oynayacaq.

Məktəbəqədər yaşlı uşaqlar üçün cizgi filmlərinə baxmaq axırıncı planda olmalıdır. Onlar daha çox şəkil çəkməli, müxtəlif oyunlar oynamalıdırlar. Cəmiyyətə sağlam düşüncəli, sağlam ruhlu övladlar lazımdır. Çünki sağlam düşüncəli övlad yetişdirmək sağlam bir gələcəyin təməlini qoymaq deməkdir.

ƏDƏBİYYAT

1. Əliyeva, Ş. Məktəbəqədər pedagogika. Bakı, 2010, 86s.
2. Sadıqova, T., Cəmilzadə, S. Məktəbəqədər yaşlı uşaqların intellektual inkişafında medianın rolu. Azərbaycan Respublikası Təhsil İnstitutu. Elmi əsərlər, cild 85, №6, s.332
3. Cesur, S., Paker, O. (2007).Televizyon ve Çocuk: Çocukların TV Programlarına ilişkin Tercihleri, Elektronik Sosyal Bilimler Dergisi, ISSN:1304-0278 Kış,C.6 S.19.
4. Абраменкова, В., Богатырева А. Дети и телевизионный экран. «Воспитание детей дошкольного возраста», М.,2006, №6, с.28-31.

5. Аромаштам, М. Дети смотрят мультфильмы: психолого-педагогические заметки. М., Чистые пруды, 2006, с.32
6. Би, Х. Развитие ребенка. М., 2004, 768с.
7. Гришеева, Н.П. Социально-психологические аспекты влияния телевидения на дошкольника. // Начальная школа, М., 2001,с.75
8. Ожерельева, А. Обзор: детское телевидение в России и в США. Интернет-журнал (www.tv–digest.ru) от 22.10.2009г.
9. Тэммл, Р.,Дорки, М.,Амен, В. Тест тревожности. Диагностика эмоционально-нравственного воспитания.- СПб, 2002, 79с.
10. https://psyjournals.ru/en/psyedu/2011/n2/44293.shtml
11. https://www.scirp.org/html/17-1760575_59815.htm
12. www.gencaile.az
13. www.interview.az

XÜLASƏ

Məqalə bu gün cəmiyyətimizdə yaranmış çox ciddi problemə - məktəbəqədər yaşlı uşaqların izlədikləri xarici cizgi filmlərinin qəhrəmanlarına oxşamaq istəklərinin onların psixologiyasına vurduğu zərbədən söhbət açır. Məktəbəqədər yaşlı uşaqlar valideynlərin diqqətindən kənarda qalmamalıdırlar. Çünki diqqətsiz qalarsa, uşağın izlədiyi cizfi filmləri hər gün bir az onun həyatına daxil olur. Uşaq özünü cizgi filmindəki personajlardan biri olduğunu düşünür. Belə uşaqlar real olmayan dünyada yaşayırlar, və reallığa adaptasiya ola bilmirlər. Faciələr də elə burdan başlayır.

АННОТАЦИЯ

В статье говорится об очень серьезной проблеме нашего общества сегодня – об отрицательном влиянии иностранных мультфильмов на психологию дошкольников и их желании выглядеть как герои этих мультфильмов. Эти фильмы могут сделать детей биологически больными и даже привести к смерти. Дети дошкольного возраста не должны оставаться вне внимания родителей. Потому что, если родители оставят ребенка без внимания, то эти мультфильмы с каждым днем все больше и больше входить в его жизнь. Ребенок думает, что он один из персонажей мультфильма. Такие дети живут в нереальном мире и не могут приспособиться к реальности.

SUMMARY

The article talks about a very serious problem in our society today - the impact of the desire of preschool children to look like the heroes of foreign cartoons on their psychology. These films can make children biologically ill and even lead to death. Preschool children should not be left out of the attention of parents. Because if he is not paying attention, the cartoons that the child watches enter his life a little bit every day. The child thinks that he is one of the characters in the cartoon. Such children live in an unreal world, and cannot adapt to reality.

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN VALİDEYNLƏRİ İLƏ SOSİAL-PSİXOLOJİ İŞİN XÜSUSİYYƏTLƏRİ

dos. İranə Məmmədli
BDU-nun Sosial və pedaqoi psixologiya kafedrasının müəllimi
Reyhan Rüstəmova
BDU- nun II kurs magistrantı
rustamovareyhan@gmail.com

Açar sözlər: əlil uşaqların tərbiyəsi, ailədə inklüziv təhsil, valideynlərlə iş
Ключевы слова: воспитание детей-инвалидов, инклюзивное образование в семье, работа с родителями
Key words: upbringing of disabled children, inclusive education in the family, work with parents.

Makro sistem sosial-mədəni, sosial-iqtisadi və siyasi amilləri əhatə edir. Bu, geniş bir sosial mühitin ailə üzvlərinin uşağının əlilliyinə baxacağı nöqtənin formalaşmasına təsir edir. Bu, həm ailə ehtiyatlarının xarakteri, həm də səviyyəsidir. Əlilliyi olan insanların və onların ailələrinin xeyrinə qəbul edilən proqramların məzmununa və keyfiyyətinə təsir edən iqtisadiyyatın vəziyyəti, bölgənin və ya bütövlükdə ölkənin siyasi mühiti daxildir.

Əlilliyi olan bir uşağı ailədən təcrid etmək mümkün deyil və buna görə də "uşaq - ailə" (ana - ata, ana - uşaq - əlil, ana - sağlam uşaq, ata - uşaq) münasibətlərində hər cür rol və şəxsiyyətlərarası münasibətləri dərk etmək lazımdır. Bu mikrosistem digər mikrosistemlərlə (sosial müəllimlər, hüquqşünaslar, tibb işçiləri, qonşular və dostlar, müəllimlər, müəllimlər və s.) daimi qarşılıqlı əlaqədədir. Mikrosistem ekosistem kontekstində fəaliyyət göstərir - bunlar ailə, xüsusi reabilitasiya və ya təhsil proqramları ilə fəal qarşılıqlı fəaliyyət göstərən şəxslər, xidmətlər və təşkilatlardır. Əlil uşaqların ailələrinə dəstək qrupları tərəfindən əhəmiyyətli sosial, psixoloji və praktik yardım göstərilə bilər. Bu cür qruplar ailələrin hüquqlarını qoruya, sosial siyasətə təsir göstərə, güc strukturlarında konstruktiv təşəbbüslər tətbiq edə bilər.

Əlilliyi olan uşaqların valideynlərinin birlikləri ailənin dəstəklənməsində təkcə böyük əhəmiyyətə malik olmayıb, eyni zamanda getdikcə reabilitasiya işlərinin aparılması və uşaqlara kömək üçün yeni formalar, növlər və texnologiyalar hazırlayırlar. Ekosistem ailənin birbaşa cəlb oluna bilmədiyi, lakin dolayı olaraq ailəyə təsir göstərə biləcəyi institutları əhatə edir: media; səhiyyə sistemi; sosial təminat sistemi; təhsil sistemi və s [1].

Uşaq böyüdükcə problemlər kiçilmir, sosial rəng alır. Valideynlərin sorğuları göstərir ki, məktəbəqədər bir uşağın valideynlərinin narahatlıqları və problemləri onun davranışı, yuxu, gəzinti və ona ümumi qayğı göstərməklə əlaqədardırsa, deməli doğulmamış uşağın problemləri, peşə tərifi və başqaları ilə münasibətləri tam böyüyəcəkdir. Əlilliyi olan bir uşağın meydana gəlməsi ilə ailədəki vəziyyət maddi sifarişin çətinliyi ilə ağırlaşır: pullu qayğı, tibbi məsləhət, dərmanların alınması, əlavə qidalanma və reabilitasiya vasitələrinin alınmasına ehtiyac var. Yuxarıdakıları xülasə edərək, qüsur, uşağın inkişaf məhdudiyyətlərinin əlilliyi olan bir uşağı olan ailənin müəyyən vəzifələrinin həllinə uyğun olaraq həyata keçirilən iki səviyyəli kompensasiya olduğunu iddia etmək olar: yüksək - aktiv öhdəsindən gəlmək və aşağıya uyğunlaşmaqdan ibarət olan. Uşağın ilk strategiyaya uyğun tərbiyəsi, uşağın tanınması, müstəqilliyi üçün ehtiyaclarının ödənilməsini təmin edir, digər uşaqlar və böyüklər ilə ünsiyyət və qarşılıqlı əlaqədə məhdudlaşmır.

İkinci strategiya seçilərsə, uşağa müəyyən bir status aşılanır və bu, bütün ailə həyatının təşkili amilinə çevrilir. Xəstənin, əlilin rolu uşağın tanınmasına, sevgisinə, qayğısına ehtiyacını ödəyir, lakin müstəqilliyini, sosial uyğunlaşma qabiliyyətinin inkişafını əhəmiyyətli dərəcədə

məhdudlaşdırır. Bu baxımdan mütəxəssislər ailə tərbiyəsinin bir neçə xüsusi növünü müəyyənləşdirirlər. Çox vaxt əlilliyi olan uşaqların yaşadığı ailələrdə, xəstə uşağa həddindən artıq qayğı ilə özünü göstərən, uşağın eqosentrik münasibətinin formalaşmasına səbəb olan hiper qayğı kimi bir tərbiyə tərzi mövcuddur. , məsuliyyət və vəzifə hissləri. Başqaları ilə əlaqə pozulur, bu da uşağın cəmiyyətə sonrakı uyğunlaşmasına təsir göstərir. 50% hallarda, valideynlər öz qabiliyyətlərinə, təhsil imkanlarına qarşı etibarsızdırlar və uşağının istək və ehtiyaclarını həyata keçirirlər. Təəssüf ki, "hiper tutma öyrənilən çarəsizliyin ortaya çıxmasına səbəb olur" həqiqətini qəbul etməliyik [2].

Daha az tez-tez, ancaq xəstə bir uşağın emosional bir imtinası var. Mövcud vəziyyəti başa düşməyən valideynlər, uşağa olan mənfi və ya passiv münasibətlərini sağlamlıqlarına və maddi rifahlarına xüsusi qayğı ilə kompensasiya etməyə çalışırlar. Bu ailələrdə valideynlər və uşaqlar arasında sıx emosional əlaqə yoxdur. Çox vaxt valideynlər həkimləri uşaqda xəstəliyin meydana gəlməsində və sağalmazlığında günahlandırırlar.

Ailə tərbiyəsinin əlverişli növü "qəbul və sevgi" hesab olunur, burada valideynlər uşağa onun üçün vacib olan, təşviq edən, cəzalandıran və müstəqilliyini təsdiqləyən məsələlərdə kömək edirlər. Valideynlər uşağı başa düşmək və ona kömək etmək istəyirsə, o zaman bir tərəfdən uşağın yaşadığı və böyüdüyü mühit olduğunu, digər tərəfdən xəstəliyə qarşı mübarizədə uşağın formalaşmasında birbaşa iştirak etdiklərini tanımağı öyrənməlidirlər. Eyni zamanda, valideynlər, eləcə də əlil uşaqlarla işləyən mütəxəssislər uşağın təhlükəsiz qaldığı, yəni müəyyən dərəcədə mükəmməl və daha yaxşı inkişaf etdirilən funksiyalara etibar etməlidirlər. Aydındır ki, hər üç vəziyyətdə valideynlər ilə ciddi iş aparılmalıdır. Bu zaman səylərini daha optimal istiqamətə yönəltmək; ağır vəzifələrin düzgün dərk edilməsində tərbiyə etmək; ən azı psixoloji, pedaqoji, tibbi biliklərlə təchiz etmək və onlardan istifadə imkanlarını aşkar etmək lazımdır. Valideynlərə uşağının potensial eksklüzivliyini tanımasına kömək edin. Ailənin bu məsələlərdə aydınlığı yoxdursa, ailənin özü əlil uşağın inkişafına ciddi maneə olur [3].

Bütün xidmətlər uşaqlara və ailələrinə kömək etmək, fərdi və ailənin inkişafını dəstəkləmək və bütün ailə üzvlərinin hüquqlarını qorumaq üçün əlaqələndirilməlidir. Kömək uşağın təbii mühitində, yəni təcrid olunmuş bir müəssisədə deyil, yaşayış yerində, ailədə mümkün qədər təmin edilməlidir. Bu istiqamətdə işlər yalnız səhiyyə, təhsil və sosial müdafiə sistemlərinin mütəxəssislərini narahat etmir. Valideynlərin özləri, ictimai və qeyri-hökumət təşkilatları və birliklər cəmiyyətdə inkişaf əlilliyi olan bir uşağı olan ailələrə mənəvi dəstək olmaq istəyini aşılamalı, problemlərini daha yaxşı anlamaları üçün mümkün olan hər şeyi etməli, müvəffəqiyyətli sosial inkişafa, təhsilə, sosial uyğunlaşma və inteqrasiyaya mane olan bütün maneələrin aradan qaldırılmasına kömək etməlidirlər.

Tədqiqatlar göstərir ki, əlil uşağı böyüdən ailələr arasında əhəmiyyətli faiz tək valideynli ailələrdir. Valideynlərin 15% -i əlil uşaq doğulduğuna görə boşandı, ananın ikinci evliliyə ümidi yoxdur. Buna görə əlil uşağın ailəsinin problemlərinə natamam bir ailənin problemləri əlavə olunur. Sənəddə problemlərin psixoloji və tibbi-sosial qrupları təhlil edilir. Bununla yanaşı, Rusiyada həyata keçirilən demoqrafik siyasət və əlilliyi olan uşaqları olan ailələrə edilən yardım tədbirlərinin əksər hallarda təsirsiz olduğu qənaətindədir [6].

Valideynlər, eləcə də əlil uşaqlarla işləyən mütəxəssislər uşağın təhlükəsiz qaldığı, yəni müəyyən dərəcədə mükəmməl və daha yaxşı inkişaf etdirilən funksiyalara etibar etməlidirlər. Valideynlərlə iş aşağıdakıları əhatə edir: səylərini daha optimal istiqamətə yönəltmək; ağır vəzifələri düzgün başa düşməkdə tərbiyə etmək; ən azı psixoloji, pedaqoji, tibbi biliklərlə təchiz etmək və onlardan istifadə imkanlarını aşkar etmək; Valideynlərə uşağının potensial eksklüzivliyini tanımasına kömək edin. Ailənin bu məsələlərdə aydınlığı yoxdursa, ailənin özü əlil uşağın inkişafına ciddi maneə olur.

Valideynlər, təşkilatlar və dərnəklər cəmiyyətdə inkişaf əlilliyi olan bir uşağı olan ailələrə mənəvi dəstək olmaq arzusunu inkişaf etdirməli, problemlərini daha yaxşı anlamaları üçün

əllərindən gələni etməli, müvəffəqiyyətli sosial inkişafa, təhsilə, sosial uyğunlaşma və əlil uşağın cəmiyyətə inteqrasiyasına mane olan bütün maneələrin aradan qaldırılmasına kömək edir.

ƏDƏBİYYAT

1. Xüsusi bir uşaq və onun mühiti: tibbi, sosial və psixoloji aspektlər. Beynəlxalq konfransın materialları.
2. Дементьева Н.Ф., Багаева Г.Н., Исаева Т.Н. социальная работа с семьей ребенка-инвалида. М. 1996.
3. Лебедева С. С. Психологическая и социальная поддержка больных детей и детей-инвалидов. М. 2007.
4. Иващенко М., Ким Е. Об опыте социальной реабилитации детей с ограниченными возможностями в контактном клубе «Москва-1». Президентская программа "Дети России". М. 2005.
5. Михаэлис К. Т. Дети с нарушениями развития. Книга, которая поможет родителям. М. 1988.
6. Ткачева В.В. Вот некоторые из проблем, с которыми сталкиваются семьи, когда они растут с детьми с нарушениями развития. М. 1998

XÜLASƏ

Yazdığımız məqalədə günümüzün aktual problemlərindən biri olan sağlamlıq imkanları məhdud uşaqların ailədə tərbiyəsi və valideynlərin həmin uşaqlarla iş xüsusiyyətlərini araşdırdıq. Bundan əlavə məqalədə ailə tərbiyəsinin növləri, yeni strategiya və texnologiyalar nəzərdən keçirilmişdir.

АННОТАЦИЯ

В этой статье мы рассмотрели семейное воспитание детей с ограниченными возможностями, которое является одной из наиболее актуальных проблем современности, и особенности работы родителей с этими детьми. Кроме того, в статье рассматриваются виды семейного воспитания, новые стратегии и технологии.

SUMMARY

In this article, we examined the family upbringing of children with disabilities, which is one of the most pressing issues of today, and the characteristics of parents' work with these children. In addition, the article discusses the types of family upbringing, new strategies and technologies.

ZORAKI CİNAYƏTLƏR TÖRƏTMİŞ QADINLARIN TİPOLOGİYASI VƏ PSİXOLOJİ SƏCİYYƏSİ

Rəşidə Cavadova
BDU-nun I kurs magistrantı
reshide.cavadova@mail.ru

Açar sözlər: kriminal davranış, qadın cinayətkarlar, zorakı tip, ədavət, aqressiya, qəddarlıq, özünütəsdiq, affekt, müdafiə xarakterli aqressiya, instrumental xarakterli aqressiya
Ключевые слова: криминальное поведение, женщины преступницы, насильственный тип, враждебность, жестокость, самоутверждение, аффект, защитная агрессия, инструментальная агрессия
Keywords: criminal behavior, female offenders, hostility, cruelty, self-affirmation, affect, protective aggression, instrumental aggression.

Qadınlar tərəfindən törədilən cinayətlərin istintaqının səmərəliliyi əsasən onların şəxsi keyfiyyətlərinin nəzərə alınmasından və müvafiq olaraq onların sistemləşdirilməsindən asılıdır. Zorakı cinayətlər törətmiş qadınların şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin müəyyən edilməsi təkcə onların hüquqazidd əməllərin səbəbini aydınlaşdırılması, onlar tərəfindən törədilmiş cinayətlərin istintaqının səmərəli aparılması üçün yox, həm də qadın cinayətkarların effektiv islahının eləcə də həyata keçməsi üçün olduqca vacibdir.

Məlum olduğu kimi, qadınlar tərəfindən törədilən cinayətlər özünəməxsus psixoloji xüsusiyyətlərə malikdir. Məhz bu cəhətlər qadınlar tərəfindən törədilən cinayətlərin istintaq, istintaq versiyalarının qurulması və yoxlanılması, eləcə də istintaq hərəkətlərinin keçirilməsi, bir sözlə kriminalistik vəzifələrin həlli zamanı istifadə edilə biləcək qadın cinayətkarların tipologiyasının işlənilməsini tələb edir.

Kriminoloji aspektdən qadın cinayətkarları təsnif etmək üçün ilk cəhdləri XIX-XX əsrlərin sonlarında italyan həkim psixiatr C.Lombrozo etmişdir. Həmin dövrdə nəşr olunan "Qadın: Cinayətkar və Fahişə" adlı kitabında C.Lombrozo ilk dəfə olaraq müxtəlif növ qadın cinayətkarların tiplərini vermişdir: anadangəlmə cinayətkarlar; təsadüfi cinayətkarlar; ehtiraslı cinayətkarlar, özünə qəsd edən cinayətkarlar.

C.Lombrozo tərəfindən irəli sürülmüş bu tipologiya maraq doğurur. Belə ki, qadın cinayətkarların təklif edilən bu tipologiyası onların mənəvi-psixoloji keyfiyyətlərinə əsaslanır [4, səh.201]. Məhz bu mənəvi-psixoloji xüsusiyyətlərə malik qadınlar şəraitdən, əhatədən, motiv və məqsəddən asılı olaraq müxtəlif növ cinayətlər törədə bilərlər. Hər tipi qısaca nəzərdən keçirək:

1. Anadangəlmə cinayətkarlar - C.Lombrozoya görə, anadangəlmə cinayətkar qadın cinayətkarların ən təhlükəli tipidir. Çünki bu tipin şəxsiyyətində daha təhlükəli deformasiyalar baş verir.

2. Təsadüfi cinayətkarlar. Onlarda degenerativ əlamətlər müşahidə edilməsə də, hisslər aləmində müəyyən anomaliyalara təsadüf edilir. Bu kateqoriyaya aid qadın cinayətkarları iki qrupa ayırmaq olar: 1) təlqinin təsiri altında həyat və sağlamlıq əleyhinə cinayət törədən qadınlar. Bunlar daha çox cinayətkara yaxın tipdir.

2) daha çox normal qadınlara yaxın olan, lakin həyat şərtləri hesabına mənəvi sahənin deformasiyalarla səciyyələnən tip.

3. Ehtiraslı cinayətkarlar - gah anadangəlmə, gah da təsadüfi cinayətkarlara yaxınlaşırlar.Bu tip qadınların davranışında kişilərlə müqayisədə mənəvi pozğunluq mühüh rol oynayır. Onların əməlləri düşünülmüş olur və qəsdən törədilir. Bu qadınlar cinayəti cinsi həyatlarının aktiv mərhələsində törədir. Ehtiras bu tip qadınların törətdiyi cinayətin əsas motivi kimi çıxış edir. Bu

qadınlarda tez tez affektlərə təsadüf edilir. Eləcə də, gözəl geyimə, lüks həyata istəklə yanaşı, sevgi ehtirası da üstünlük təşkil edir.

4. Özünə qəsd (intihar) edən tip - intihar fenomeni qadınlarda kişilərə nisbətən dörd və hətta beş dəfə çox müşahidə olunur. Qadınların intiharının əsas səbəbləri kimi fiziki iztirab, yoxsulluq, sevgi çıxış edir.

Müasir kriminologiya, hüquq psixologiyası və kriminalistika elmində qadın cinayətkarların müxtəlif tiplərini fərqləndirmək cəhdləri edilir.

Müəlliflərdən L.A.Melikaşvili tamahkar cinayətlərin törədilmə motivinə görə qadın cinayətkarların aşağdakı tiplərini fərqləndirir: özünü təsdiqləyən, ailə tipi, asılı tip, alkoqol tip, oyunçu tip, intiqam alan tip [1,s.48].

Müəlliflərdən V.İ.Şian tamahkar qadın cinayətkarların tipologiyasını "narkotik" tiplə tamamlayır [7, səh.94]. Yuxarıda nəzərdən keçirdiyimiz tiplər mühüm kriminalistik əhəmiyyət kəsb edir.

Bu tiplərlə yanaşı, qətl cinayəti törətmiş qadınların şəxsiyyətinin tədqiqi onlarda 6 davranış tipini fərqləndirmək imkanı vermişdir: mazoxist, açıq ədavətli zorakı tip, gizli ədavətli zorakı tip, qeyri-adekvat tip, psixotik tip, əxlaqsız tip [2, səh.36].

Qətl cinayəti törətmiş qadın cinayətkarların qeyd edilən tiplərini ayrılıqda nəzərdən keçirək:

1. Mazoxistik tip. Bu tip qadınlar uzun illər ərzində öz ərləri tərəfindən təhqir olunduqları üçün ərlərini qətlə yetirir. Qətl cinayət ən cox qadının bilavasitə döyülməsi zamanı, qadın tərəfindən yaşanılan affekt halının fonunda baş verir. Bu zaman qətlin törədilməsi üsulu qadın tərəfindən əvvəlcədən düşünülmür.

2. Açıq ədavətli zorakı tip - bu cür qadınlar aqressivlik, emosional labilliklə, əvvəllər də zorakı əməllər törətməklə səciyyələnir. Bu tipə aid olan qadınları digər tiplərdən aşağı intellekt, davamlı olaraq spirtli içkilərdən istifadə və cinayəti məhz bu amillərin təsiri altında törətmək fərqləndirir.

3. Gizli ədavətli zorakı tip - bu qadınlar üçün kifayət qədər qəddar, amansız cinayətlərin törədilməsi səciyyəvidir. Onlar üçün daha çox uşaqların qətli xarakterikdir. Bu tip qadınların aqressiyası onlar üçün təhlükəsiz olan situasiyalarda qəzəb tutması və əsəbilik fonunda təzahür edir.

4. Qeyri-adekvat tip – bu tip qadın cinayətkarlar aşağı intellektləri ilə fərqlənir və onlara güclü təsir edən insanın göstərişi ilə cinayəti törədir.

5. Psixotik tip - bu qrupun nümayəndələri şizofreniya və s. müxtəlif psixiatrik diaqnozlara malikdirlər. Adətən onlar qətl cinayətini psixopatik vəziyyətdə, yaxud da qarşısıalınmayan təhriklərin təsiri altında törədir.

6. Əxlaqsız tip- bu tipə aid edilən qadın cinayətkarlar törədəcəkləri qətli əvvəlcədən planlaşdırır. Bir çox hallarda belə qətllər tamah motivi ilə törədilir. Bu tip qadınları digər tiplərdən daha yüksək intellekt fərqləndirir. Onlar cinayətin törədilmə üsulunu əvvəlcədən elə düşünürlər ki, sonradan cinayətə aidiyyatlarını gizlədə bilsinlər. Törətdikləri əməl haqqında nə yaxınlarına, nə də tanışlarına danışmırlar.

Fikrimizcə, nəzərdən keçirdiyimiz tipologiyalar qadın cinayətkarlar münasibətdə düzgün istintaq hərəkətlərinin seçilməsinə yardım edə bilər.

Müəlliflərdən İ.S.Fedotov qətl cinayəti törətmiş qadın cinayətkarların motivasiya sahəsinə əsasən aşağıdakı tipləri fərqləndirir [6, səh.43]:

1. Asosial (marginal) tip - bura asosial həyat tərzi sürən, davamlı yaşayış yeri olmayan, səfil həyat sürən, dilənçiliklə məşğul olan, alkoqoldan sui-istifadə edən, təsadüfi cinsi əlaqələrə girən qadın cinayətkarlar daxildir.

2. Yüngülfikirli(düşüncəsiz)-konform tip - zahirən onlar cinayətə meylli bir tip kimi qiymətləndirilmirlər. Bu tipə çox güclü, hədsiz himayə altında olan yetkinlik yaşına çatmayanlar

qızlar və çox gənc qadınlar aid edilir. Valideynin himayəsindən azad olar olmaz onlar işləməyə və ya oxumağa gedir, fərqli həyat yaşamağa başlayırlar.

3. Qəddar tip – bura artıq övladı olan qadın cinayətkarlar aid edilir. Övladını qətlə yetirən bütün digər tiplərdən fərqli olaraq onlar cinayəti şüurlu vəziyyətdə, düşünülmüş və qəsdən törədirlər. Hamiləlik və övladın olması onlar üçün gözlənilməz deyil. Bu tip qadın cinayətkarlar inertlik, empatiya hissinin olmaması, aşağı təhsil və mədəni səviyyə ilə fərqlənir. Onlar heç vaxt övladlarının xəstəliklərinin profilaktikası üçün tibb məntəqəsinə getmək üçün vaxt sərf etmirlər.

Qadın cinayətkarların zorakı motivasiyası onların aqressiv davranış variantlarının seçimini şərtləndirən motivlər sistemi və fərdi-psixoloji xüsusiyyətlərlə müəyyən edilir [5, səh.25].

Bu baxımdan qadın cinayətkarların motivasiyasının strukturunun təhlili aşağıdakı tipləri fərqləndirmək imkanı verir:

1. İnstrumental aqressiya – (hər hansı vacib bir tələbatı təmin etmək, əhəmiyyətli məqsədə çatmaq üçün vasitə) Buradakı qurbanlara xəsarət yetirmək qadın cinayətkarın məqsədi daşımır şəxsi, maddi tələbatı ödəmək vasitəsi kimi çıxış edir. Bu tip motivasiya bəzən cinayətkar qadının özünü sosial-psixoloji və fərdi səviyyədə təsdiq etməsi şəklində də göstərə bilər. İlk halda qadın özü üçün əhəmiyyətli əhatədə, ətrafdakıların gözündə özünüdə təsdiqləməyə çalışır (“Mən də sizin kimiyəm”). İkinci halda isə qadın cinayəti öz daxili psixoloji problemlərini həll etmək üçün törədir. Bu halda o, özündə öz şəxsi dəyərliliyinə əminliyi yüksəldir, öz gözündə özünü təsdiqləyir. (“Mən şəxsiyyətəm”).

2. Ədavətli aqressiya – zorakılıq naminə zorakılıq. Bu cür davranış xüsusi qəddarlıq, sadizm, insanın şəxsi ləyaqətinin alçaldılması ilə müşayiət edilir. Bütün bunlar qadın cinayətkar zorakılığın tətbiqi prosesindən və onun nəticəsindən zövq alır, məmnunluq duyur.

3. Müdafiə xarakterli aqressiya – daha dəqiq desək, “zorakılıq-zorakılığın nəticəsidir” reaksiya tipi. Bu tipin motivasiyasında qəzəb, inciklik və intiqam dominantlıq təşkil edir. Bu emosional reaksiyaların təsiri altında ətrafdakıların ədavəti hipertrofiya olunmuş şəkildə qavranılır və hər vasitədən istifadə edərək özünü müdafiəyə yönələn, bir çox hallarda spontan və qəddar xarakter daşıyan aqressiv davranışa səbəb olur. Qadın cinayətkarların motivasiyasının tədqiqi göstərir ki, onların kriminal davranışlarının motivasiyasında müdafiə xarakterli aqressiya üstünlük təşkil edir. Qadınlar ətraf reallığın neqativ tərəflərinə son dərəcə emosional və kəskin reaksiya verir.

İstehsalatdakı travmalar, ailədəki çətinliklə, şəxsi həyatdakı problemlər onlarda daha dərin səciyyə daşıyır. Qadınlar kişilərlə müqayisədə yaranmış situasiyanı özləri üçün təhlükəli qiymətləndirir. Bu səbəbdən də onların hüquqazidd davranışı müdafiə xarakteri daşıyır və özlərini və ailəsini təhlükədən qorumağa yönəlir. Qadınlarda ədavətli aqressiyaya nisbətən az təsadüf edilir. Özünütəsdiq motivinə əsaslanan kriminal davranışa da qadınlarda çox az təsadüf edilir. Bu da bir daha qadınların zorakı cinayətlərinin motivinin unikal struktura malik olmasını göstərir [3, səh.77].

Qadın cinayətkarların şəxsiyyətinin tədqiqi onların kriminal davranışının istiqamətini müəyyən edən əlamət və keyfiyyətlərini əks etdirən daha iki aparıcı tipi fərqləndirmək imkanı verir:

1. Antisosial tip – bu tip cəmiyyətin normativ dəyərlər sistemindən kənarlaşması, cinayətin törədiləməsi zamanı aktivliklə, ictimai təhlükəli əməllərə dərk olunmuş hazırlığı əks etdirən cəmiyyətə zidd baxışlar kompleksi ilə xarakterizə olunur.

2. Asosial tip – passiv, amorf tip cəmiyyətə zidd istiqamətlə, itirilmiş əlaqə və dəyərləri şəxsi qeyri-müəyyənliklə əvəz etməsi, sosial adaptasiyada pozuntularla, həyati problemləri kriminal yolla həll etməklə, yaxud problemlərinin həllini spirtli içki və narkotik maddələrdən istifadədə görməsi ilə səciyyələnir.

Bu tip qadın cinayətkarlar arasında dəfələrlə şəxsi mülkiyyəti qarət etmiş, xuliqanlıq, bədənə ağır xəsarətlər yetirmə və digər zorakı xarakterli əməllər törətmiş qadınlar üstünlük təşkil edir.

Qadın cinayətkarların tipologiyası yuxarıda nəzərdən keçirdiyimiz tipologiyalarla bitmir. Qadın cinayətkarlar müxtəlif meyarlara görə təsnif edilə bilər.

Bu tipologiyların hüquq praktikasında istifadəsi təkcə qadın cinayətkarların şəxsiyyəti, psixoloji xüsusiyətləri haqqında deyil, həm də onunla birlikdə cinayətdə iştirak etmiş şəxslərin şəxsiyyəti haqqında da versiyalar irəli sürməyə imkan verə bilər, qadın cinayətkarların effektiv islahının eləcə də korreksiya proqramının həyata keçməsində istifadə edilə bilər.

ƏDƏBİYYAT

1. Голубев В.П., Кудряков Ю.Н. Личность корыстного преступника. Томск, 2008
2. Криминальная агрессия женщин с психическими расстройствами. Москва, 1998
3. Кудрявцев И.А. Криминальная агрессия. Экспертная типология и судебно-психологическая оценка. Москва, 2000
4. Ломброзо Ч. Женщина преступница и проститутка. Ставрополь, 1991
5. Попова С.А. К вопросу о личностных характеристиках женщин, совершающих насильственные преступления. // Российский следователь, 2007, № 21, стр. 24-26
6. Федотов И.С. Расследование детоубийств. Москва, 2003
7. Шиан В.И. Предупреждение корыстных преступлений, совершаемых женщинами. Москва, 2006

ТИПОЛОГИЯ И ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ЖЕНЩИН, СОВЕРШИВЩИХ НАСИЛЬСТВЕННЫЕ ПРЕСТУПЛЕНИЯ

АННОТАЦИЯ

В статье рассматриваюься различные типологии женщин преступниц, совершивщих насильственные преступления. Анализируются мотивы преступного поведения женщин. Обосновывается необходимость и значение систематизации и учета психологических особенностей женщин преступниц в расследовании преступлений.

TYPOLOGY AND PSYCHOLOGICAL PROFILE OF WOMEN WHO COMMIT VIOLENT CRIMES

SUMMARY

The article deals with various typologies of women criminals who have committed violent crimes. The motives of women’s criminal behavior are are analysed. The necessity and importance of systematizing and taking into account the psychological characteristics of women offenders in the investigation of crimes are substantiated.

OYUN TERAPİYASI

dos. Mirələm Vəliyev
BDU-nun Psixologiya kafedrasının müəllimi
Əfsanə Rəhmanzadə
BDU-nun II kurs magistrantı
efsanerehmanzade6@gmail.com

Açarsözlər: oyun, oyun terapiyası**,** uşaqlar, terapiya otağı, oyuncaqlar.
Ключевые слова: игра,игровая терапия,дети, терапевтическая комната, игрушки.
Keywords: play, play therapy, children,therapy room, toys.

Bir uşağa "oyun oynayaq?" deyə sual verildiyi zaman onun cavabı təbii olaraq "yox" olmayacaqdır. Çünki bu onun ən sevdiyi və əyləndiyi fəaliyyətdir. Uşaqlar oyun oynadıqları zaman əsas istəkləri əylənməkolduğu halda, əslində oynadıqları oyunlar onların həm sosial, həm də emosional inkişaflarına müsbət təsir göstərmiş olur. Uşaqlar böyüklərdən fərqli olaraq duyğularını sözlə deyil, oyun vasitəsilə çatdırırlar. Oyun vasitəsilə onlar həm müsbət, həm də mənfi duyğularını, emosiyalarını ifadə edə bilmək, özlərini sərbəst və rahat şəkildə ifadə edə bilmək fürsətini əldə etmiş olurlar. Bu səbəbdən də oyun uşaqlar üçün əlaqə qurmaq, ünsiyyətdə olmaq və həyatı öyrənə bilmələri üçün əlverişli bir yol, vasitədir.

Uşaqlara istiqamətlənən terapiyalar və mövcud terapiyalarda istifadə olunan danışıq üsulları fərqlidir. Oyun terapiyası da həm uşağa yanaşma, həm də tətbiq etmək baxımından fərqlənir. Ancaq ən vacib ortaq cəhət isə oyunun uşağın universal dilidir. Oyuncaqlar da onların sözləridir. Oyun oynamaq uşağın təbii meylidir. "Uşaq problemlərini oyunla üzə çıxarır, bu da ən təbii öz-özünü müalicə etmək üsuludur [1].

Oyun uşaqlar üçün münasibətlərini və sosial bacarıqlarını təcrübə etdikləri təbii ünsiyyət vasitəsidir. Bu səbəbdən də, oyunun əsas funksiyası evdə ya da oyun seansları zamanı dəyişmir. Ancaq oyun seanslarının içindəki oyun texnika və məzmun baxımından uşağın öz-özünə ya da digər böyüklərlə birgə oynadığı oyundan fərqlidir. Əsas fərq isə terapiya zamanı özünü müxtəlif formada ifadə edən uşağı anlaya bilən terapevtin olması və onunla oynamasıdır. Oyun terapiyasında uşağın üstünlük verdiyi oyuncaqlar, bu oyuncaqların istifadə olunma forması və onların mücərrəd/konkret mənaları təcrübəli oyun terapevti tərəfindən izah edilir.

Uşaqların motivasiya olduqları oyun psixoterapiyada təxminən 1900-cü ildən etibarən istifadə edilməkdədir. Oyun terapiyası uşaqların duyğularını və yaşadıqları problemləri üzə çıxarmaq fürsəti verərək, bunlarla üzləşməsinə və həll yolunu tapa bilməsinə şərait yaradır. Bu terapiya zamanı tənqid edilmədən birbaşa qəbul edilən uşaq öz problemlərini, duyğu və düşüncələrini ortaya qoyaraq özünü tam olaraq ifadə edə bilir. Yönəldilmiş və yönəldilməmiş olaraq iki növ oyun terapiyası var. Yönəldilmiş oyun terapiyası ilə uşağa göstərişlər verilərək oyun oynaması təmin edilir. Uşaq mərkəzli oyun terapiyası olaraq bilinən yönləndirilməmiş oyun terapiyasında isə oyunun kapitanı uşaqdır. Uşaq hər seansda hansı mövzunu gətirəcəyinə özü qərar verir. Terapevtin vəzifəsi isə uşağı izləmək, yönləndirməmək və uşağın öz yaşadıqlarının, duyğularının fərqinə varması üçün şərait yaratmaqdır [4].

Böyüklər üçün terapiya nədirsə, uşaqlar üçün də oyun terapiyasının mahiyyəti odur. Böyüklərin problemləri olduğu zaman bunu etibar etdikləri bir dostu və ya psixoloqla paylaşdıqda bu onlara kömək olur. Lakin uşaqlar özlərini sözlərlə ifadə etməkdə böyüklər qədər bacarıqlı olmadığından onların canını sıxan şeyləri sözlə ifadə etməkdə müəyyən çətinlik çəkə bilirlər. Bu səbəbdən də böyüklərdə istifadə olunan terapiyalar uşaqlarda istifadə edilə bilmir. Məhz beləzamanlarda uşaqların özlərini təbii üsullarla ifadə edə bilməsi üçün oyun terapiyası faydalıdır. Oyun terapiyası uşaqlara fikirlərini, düşüncələrini, duyğularını, ehtiyac və arzularını oyunla ifadə

edə bilməsi üçün vasitədir. Savadlı və bacarıqlı oyun terapevti ilə uşaqlar özlərini və dünyalarını daha yaxşı anlamağa, problemlərini həll etmək üçün çalışmağı və həyatla daha yaxşı uyğunlaşmaq üçün lazımlı bacarıqları inkişaf etdirməyi öyrənirlər.(Oyun Terapisi Aile için bilgilendirici el kitabı)

Uşaqlar üçün oyun özlərini ifadə edə bilmələri üçün ən yaxşı vasitədir. Bu səbəbdən də mütəxəssislər onların problemlərini ifadə edə bilmələri və emosional problemlərini həll edə bilmələri üçün oyun terapiyasından istifadə edirlər. Oyun terapiyası uşaqların sözlər yerinə oyun və oyuncaqlarla özlərini və ehtiyaclarını ifadə edə bilməklərinə istiqamətlənən terapiya üsuludur. Bu üsulla eynilə böyüklərin terapiya zamanı problemlərini danışaraq izah etdiyi kimi uşaqların da özlərini oyunlar yoluyla ifadə etmələri əsas məqsəddir.

Uşaqlar böyümək müddətinin bir nöqtəsində həyat təcrübələri ilə mübarizə aparmaqda çətinlik çəkirlər. Həmçinin ailələrini və ya müəllimlərini narahat edəcək davranışlar nümayiş etdirirlər. Bu hallarda həmçinin uşağın çətinlik çəkdiyi məsələlərin olduğunu gördükdə kömək üçün irəli sürülən üsul oyun terapiyasıdır.

Oyun terapiyası terapevtin uşaqla etibarlı bir əlaqə qurduğu, uşağın problemlərinin ortaya çıxarıldığı və ya problem üzərində çalışıldığı, həll üsuluna istiqamətlənən, yeni bacarıqların təcrübə edildiyi bir müddətdir. Terapiya zamanı duyğu və davranışlarda dəyişikliklərin olması normal və gözlənilən haldır. Bəzən işlər yaxşıya deyil də, pisə gedirmiş kimi də görülə bilər. Bu hal gözlənilən və normal haldır. Bunun fərqində olunduğu zaman terapevtlə danışılması lazım olan məsələlərdəndir. Oyun terapiyası zamanı terapevt uşağı həyati ya da travmatik təcrübələrlə bağlı məlumat haqqında məcbur etməyəcək, uşağın öz sürətində sualları cavablamasına icazə veriləcək. Terapiya otağında uşaq üçün digər yerlərdən fərqli olaraq daha rahat və sərbəst davranması üçün şərait yaradılır. Seans boyunca uşağın hər düşüncəsi, duyğusu, davranışı qəbul edilir. Uşağın özünün qəbul edildiyini bildiyi, özünü ifadə edə biləcəyi, problemləri və qorxuları üstündə işlənilə biləcəyi qədər etibarlı yerdə olduğunu hiss etməsi üçün terapiya otağı azadlığını hiss edəcəyi şərait yaradılması əsas tərəflərdəndir. Oyun terapiyası otağında sərhəd qoyulan davranışlar uşağa, terapevtə ya da oyun terapiyası vasitələrinə zərər verə biləcək davranışlardır.

Oyun terapiyasının davam etmə müddəti uşağın keçmişdə və bu gün yaşadığı vəziyyətlər və travmalardan asılı olaraq dəyişə bilir. Ən vacib faktorlar uşağın inkişaf baxımından hansı dövrdə olduğu və yaşadığı travma varsa, bunun neçə yaşında baş verməsidir. Yaşanılan hadisədən sonra nə qədər tez terapiyaya başlanılarsa, bir o qədər də tez nəticə alına bilər və uyğun olaraq da zaman baxımından daha qısamüddətli terapiya müddəti olmuş olar.

Terapiya ilə uşaqlar sözlərdən istifadə etmək əvəzinə oyun və oyuncaqlar vasitəsilə özünü ifadə edə bilməyi, gündəlik həyatında həll edə bilmədiyi problemləri həll etməyi və mövcud olan mənfi davranışlarını dəyişdirə bilməyi öyrənir. Oyun terapiyasının məqsədi uşağın özünü yaxşı hiss etməsini təmin etməkdir. Uşağın normal inkişafına təsir göstərən davranış və psixoloji problemlərini aradan qaldırmaq və problemin böyüməsinin qarşısını almağa istiqamətlənir.

Oyun otağının necə olması da terapiya zamanı əsas diqqət yetirilməli olan hissələrdəndir. Oyun otağı səs keçirməyən, divarları rahatlıqla silinə bilinən, kifayət qədər rahatlıqla təmizlənə bilən, otağın qapısı içəri doğru açılan, əl yuyulan yer, tualet olmalıdır. Həmçinin oyuncaqların qoyula biləcəyi rəflər, bir masa, iki oturacaq, təkərli oturacaq, qruplaşdırılacaq oyuncaqların olması da lazımdır. Oyuncaqlar mümkün olduqca sadə, ucuz, dayanıqlı və ehtiyaca uyğun olmalı, pəncərə şüşələrinin qırılmazlığı da əhəmiyyət daşıyan tərəflərdəndir. Otaqda olan oyuncaqların hamısından ən azından iki ədəd, heyvan qruplarından da hər qrupdan üç-üç olmalıdır. Oyuncaqlar uşaqların sözləri və oyun da onların dili olaraq dəyənləndirildiyi üçün onların seçiminə xüsusi diqqət ayrılmalıdır.

Landreth tərəfindən oyun otağı çantası üçün tövsiyə olunan materiallar bunlardır: karandaş, kağız, kəskin olmayan qayçı, gil ya da oyun xəmiri, dondurma çubuqları, lent, əmzik, kukla,

plastik qab və stəkanlar, bükülə bilən fiqurlar, oyuncaq kukla ailəsi, oyuncaq uşaq mebeli, oyuncaq uşaq evi olması lazım olan əsas vasitələrdəndir (Landreth, 2002).

Uşaq və böyüklərin terapiyalarında ailənin prosesə daxil olması və valideynlərin aktiv şəkildə iştirakı ən əsas ünsürlərdəndir. Oyun terapiyalarında da ailənin prosesdən xəbərdar olması və terapevt ilə bir komanda yarada bilməsi vacibdir. Bu baxımdan terapevt ehtiyac hiss etdiyində valideynlərlə yanaşı nənə, baba, bibi, əmi, dayı, xala kimi uşağın həyatında önəm daşıyan insanları prosesə daxil edə bilər. Uşaq ilə aparılan oyun terapiyasından əlavə terapevt davamlı şəkildə ailə ilə də fikir mübadiləsi apara bilər. Bu görüşlər içində ailələri yaxşılaşma müddəti və ailə münasibətləri haqqında məlumatlandırır. Beləliklə ailələr uşağın ehtiyacı olan və ona kömək edəcək şeylər haqqında məlumatlanmış olurlar. Həmçinin terapevt lazım bildiyində ailəni də oyuna daxil edə bilər.

Oyun terapiyası ilə uşaqda olan problemlərdən aşağıdakılar həll oluna bilər:

- Travmalar və istismar (fiziki, emosional, cinsi)
- Bağlanma problemləri/ çətin doğuş
- Ayrılıq qorxusu
- Yuxu, yemək və tualet problemləri
- Enurez (alt islatma)/enkopresiz
- Narahatlıqlar və qorxular/ fobiyalar və tiklər
- Ailəvi həyatındakı dəyişikliklər (yaxının itirmə, ölüm, yas, köçmək və s.)
- Boşanma sonrası adaptasiya problemləri
- Bacı-qardaş qısqanclığı
- Övladlığa götürülmə
- Məktəbə başlamaq və uyğunlaşmaq problemləri / davranış problemləri
- Aşağı özünüqiymətləndirmə / sosial özünəqapanma
- Diqqət əksikliyi və hiperaktivlik
- Münasibət qurmaq problemləri
- İnkişafdan qalma [4].

Oyun terapiyası uşaqlarda ən effektli dərmansız müalicə üsuludur. Bir çox ana-ata uşaqlarında bir simptom müşahidə etmədikcə oyun terapiyasına ehtiyac olmadığını düşünür. Lakin oyun terapiyası sadəcə bir müalicə üsulu deyil, uşağın inkişafını və ruhi sağlamlığına dəstək olan təsirli terapiya üsuludur.

Uşağın psixoloji olaraq tarazlıqda olması, özünü tanıması, özü olması, öz problemlərini həll etməyi öyrənməsi, özünə güvənin artması, empatiya hissinin inkişafı üçün oyun terapiyasına ehtiyac olur. Ən vacibi isə akademik nailiyyətin uşaqların həyatlarının mərkəzində olduğu, bütün gün demək olar məktəbdə olan və oyundan uzaq böyüyən uşaqların məktəb nailiyyətini artırmağın yolu da oyun terapiyasıdır. Çünki beyində öyrənməyin reallaşdırılması üçün uşağın emosional olaraq tarazlıqda olması və psixoloji olaraq sağlıqlı olması lazımdır. Əgər uşaq emosional olaraq bir xaos içindədirsə, uşağa nə qədər təzyiq edilirsə edilsin uşağın potensial öyrənmək bacarığı reallaşmaz və öyrənməyə qapalı olar [5].

Uşağın dili oyun dili olduğundan oyun terapiyası vasitəsilə uşağın öz duyğularını, fikirlərini ifadə edə bilməsi, rahatlamağı üçün əlverişli şərait yaranmış olur. Terapiya zamanı uşaq öz dünyasında olduğu üçün həm rahat olur, həm də terapevtə müəyyən məlumatları ötürmüş olur. Terapevt uşağı olduğu kimi qəbul edir, onu tənqid etmir, terapevt və uşaq arasında xüsusi etibarlı bir əlaqə mövcuddur. Uşağa onu anladığını, onun yanında olduğunu çatdırmış olur. Hər bir uşağın istəyəcəyi sərhədsiz oyun sahəsinin yaradılması nəticə əldə edilməsinə müsbət təsir göstərən ən önəmli faktdır.

Terapevt oyun oynaya bilmirsə, o işə uyğun deyildir. Pasiyent oyun oynaya bilmirsə, onda oyun oynaya bilməsinə kömək olacaq bir şey edilməsi lazımdır [2, s.75].

ƏDƏBİYYAT

1. Ormanlıoğlu M.U. Niçin oyun? İstanbul: 2013
2. Winnicott D.W. Oyun ve gerçekler. İstanbul: 2013
3. https://www.dbe.com.tr/Cocukvegenc/tr/news/oyun-terapisi/
4. http://www.icimizdekiebeveyn.com/10-soruda-oyun-terapisi-nedir/
5. https://www.milliyet.com.tr/pembenar/pedagog-sevil-yavuz/oyun-terapisi-nedir-2805711

ИГРОВАЯ ТЕРАПИЯ

АННОТАЦИЯ

Когда у взрослых есть проблема, она может помочь поделиться ею с доверенным другом или психологом.Однако дети не так хорошо выражают себя словами, как взрослые.Им может быть трудно выразить свои чувства словами.Таким образом, методы лечения, используемые у взрослых, не могут быть использованы у детей.В таких случаях игровая терапия помогает детям выразить себя естественно.Игровая терапия - это инструмент, позволяющий детям выражать свои мысли, чувства, потребности и желания в игре.

GAME THERAPY

SUMMARY

When adults have problems, sharing them with a trusted friend or psychologist can help. However, children are not as good at expressing themselves in words as adults. It may be difficult for them to express their feelings in words. Therefore, therapies used in adults cannot be used in children. In such cases, game therapy helps children express themselves naturally. Game therapy is a tool for children to express their thoughts, feelings, needs and desires through play.

ПУТИ ОПТИМИЗАЦИИ УЧЕБНОГО ПРОЦЕССА СТУДЕНТОВ, СТРАДАЮЩИХ ХРОНИЧЕСКИМИ СОМАТИЧЕСКИМИ ЗАБОЛЕВАНИЯМИ

доц. Севиндж Аллахярова
Доцент кафедры психологии БГУ
д.ф.б Ибрагимов Э. А.
Преподаватель АМУ,

Ключевые слова: хронические соматические заболевания; эффективность учебной деятельности; психокоррекционная работа
Açar sözlər: xroniki somatik xəstəliklər; təlim fəaliyyətinin effektivliyi, psixokorreksion iş
Keywords: chronic somatic diseases; the effectiveness of educational activities; psycho correctional work

Проблема взаимосвязи здоровья и психики – всегда являлась актуальной проблемой и вызывала большой интерес у психологов. Очень актуально рассмотрение данного вопроса в студенческом возрасте, так как психическое и соматическое развитие способствует активному формированию личности.

В результате образования хронических соматических заболеваний возникает проблема нахождения оптимальных путей развития и обучения студентов в ВУЗах, так как эти заболевания создают условия для появления ряда нарушений в развитии личности. Это связано с ограничением возможности контакта больного с физически здоровыми сверстниками, которое может привести к снижению уровня мотивации, самооценки и «уходу в себя».

Все физиологические и психические функции организма человека представляют собой неразрывное целое, то есть любую психическую реакцию сопровождают более или менее выраженно физиологические реакции, и наоборот. Исследование качеств и особенностей личности студентов, страдающих хроническими соматическими заболеваниями, позволит выявить механизмы психической регуляции учебной деятельности и поведения, что обусловит создание оптимальных условий для их дальнейшего обучения и развития. Влияя на определенные структурные компоненты механизма психической регуляции учебной деятельности, возможно изменение отношения больного к болезни и дальнейшее выздоровление.

В основе психосоматического заболевания лежит реакция на эмоциональное переживание, сопровождающееся функциональными изменениями и, как правило, патологическими нарушениями в определенных органах. Соответствующая предрасположенность может влиять на выбор поражаемого органа или системы. Наиболее четко прослеживается связь между эмоциональными процессами и функционированием сердечно-сосудистой, пищеварительной и дыхательной систем. При этом отмечается повышение уровня тревожности и изменение эмоционального состояния больного, которое реализуется в непосредственной эмоциональной реакции на ситуацию болезни в целом.

Доминирование ведущего мотива поддержания здоровья придает особую окраску всей психической жизни больного, накладывает отпечаток на особенности восприятия мира, что ведет к росту инертности и снижению жизненной активности. Подобное изменение мотивации приводит к общему сужению и обеднению личностной направленности: упрощению деятельности, сужению основного круга отношений человека с миром, сужению интересов, обеднению мотивационной сферы, нарушению степени критичности и самоконтроля, нарастанию эгоцентричности. В целом, происходят изменения, не

Ailə fərdləri arasında əlaqələrin inkişaf etdirilməsi və saxlanılması əsas səbəblərdən biridir, ailə üzvlərinin bir – birinə iqtisadi, psixoloji və sosial həmrəyliyidir. Dəyişən ailə quruluşu və həyat tərzi nəsillər arasındakı münasibətünsiyyət, rol və gözləntilərdəki dəyişikliklərin ortaya çıxmasına səbəb olmuşdur.

Şəhər həyatının genişlənməsi, ailə quruluşunun dəyişməsi və ailə sayının azalması nəticəsində müxtəlif yaşlı insanların bir arada olması məhdudlaşıb. Uşaqlar gündəlik həyatlarında onlarla eyni yaşda olan insanlarla vaxt keçirdirlər. Bunun nəticəsində nəsillərin bir –

birilərini tanıma imkanları məhduddur və bu vəziyyətlərin mənfi təsirləri olduğu görünür (2, s. 48).

Cəmiyyətdə sosial, iqtisadi və mədəni dəyişikliklər, nəsillərarası ünsiyyətə həmrəyliyə mənfi təsir göstərir. Yeni məlumatların əldə edilməsi, ənənələrin nəsildən – nəsilə ötürülməsi, gənclərin yaşlıların təcrübələrindən faydalanması və yaşlıların cəmiyyətə qatılması və s. bunlar hər nəsil insanların həyat fəaliyyətinə yaxşı təsir göstərir.

Dünyanın bir çox yerində, yaşlıların sosial həyatda iştirakını dəstəkləyən fəaliyyətlər təşkil olunur.

Elmi ədəbiyyatda nəsillərarası münasibətlər probleminə dair iki fikir üstünlük təşkil edir: bəzi müəlliflər daim böyüməkdə olan nəsillər arasında qlobal universal boşluq fikrini əsaslandırırlar (M. Mid, S.N. Parkinson və s.). Digər tədqiqatçılar nəsillərarası münasibətlərin bələdçi xarakterini vurğulayırlar. Onların nöqteyi-nəzərindən münaqişə dövrləri fasiləsizlik dövrləri ilə dəyişir

Qeyd etmək lazımdır ki, nəsillərarası münasibətlər və qarşılıqlı münasibətlər problemi ənənəvi olaraq sosiologiyada nəzərdən keçirilmişdir (S.I.Qolod, V.Z. Kelle, M. Mid və başqaları). Burada "nəsil" müəyyən bir tarixi dövrdə yaş hədləri və ümumi formalaşma fəaliyyəti ilə birləşən insanların obyektiv inkişaf edən sosial-demoqrafik və mədəni-tarixi icması kimi müəyyən edilmişdir.

M.İ.Postnikovaya görə, nəsillərarası münasibətlər sosial mühitin müxtəlif səviyyələrində həyata keçirilir:

- mikrosistem (təhsil qrupu, ailə, sinif, iş kollektivi);
- mezosistem (mikrosistemlərin qarşılıqlı əlaqəsi: ailə, məktəb və s.);
- ekzosistem (cəmiyyət - dövlət / ölkə; şəhər / kənd);
- makrosistem (mədəniyyət; dəyərlər; etnik-mədəni xüsusiyyətləri).

Həqiqətən ailədəki nəsillərarası münasibətlər qruplararası və şəxsiyyətlərarası münasibətlərin əlamətlərini birləşdirir. Ailələrarası və nəsillərarası münasibətlərə söykənən bir qrup olaraq nəsil şəxsiyyətinin formalaşmasının əsas mənbəyidir.

Ailədə nəsillərarası münasibətlərin əsas funksiyası ailə qrupunun xüsusi sosial mülkiyyəti olaraq qəbilə bütövlüyünü qorumaq və möhkəmləndirməkdir. Nəsillərarası ünsiyyətin xüsusiyyətlərinin korrelyasiyası ailədə nəsillərarası münasibətlərin təsnifatını əsas götürür ki, bunda dörd əsas növ daxildir:

- nəsillərin bir-birinin qəbulu
- ailə yaddaşının qorunması;
- münasibətlərin gərginliyi;
- nəsillərin yadlaşması.

Övladlararası ünsiyyət təcrübə elementlərinin əcdadlardan nəsillərə ötürülməsi və qəbul edilməsi və əcdadların nəsillərin təcrübə elementlərinin qəbul edilməsi ilə təmsil olunur. Ailədəki nəsillərarası münasibətlər, valideynlərin və uşaqların davranışlarının qarşısını alan sosial-psixoloji amillərdən biridir. Müxtəlif nəsillərin həyatının sosial-mədəni kontekstində dəyişikliklərə baxmayaraq, nəsillər tərəfindən ən qiymətli və faydalı təcrübə kimi qiymətləndirilən və yenidən qurulan əcdadların davranış nümunələri mövcuddur (5, s. 92).

Ailə cəmiyyətin əsas sosial institutlarından biridir, buna görə müasir cəmiyyətdə baş verən bütün dəyişikliklər ona əhəmiyyətli dərəcədə təsir göstərir. Hal-hazırda ailə köklərinə maraq artmaqdadır, ailə ənənələrinin canlanması, ailə irsi və təcrübəsinin axtarışı və mənimsənilməsi var. Ailədəki nəsillər arasındakı əlaqələr və davamlılıq, qrup şəxsiyyətini qorumağa, müvəffəqiyyətlə fəaliyyət göstərməyə və çətinlikləri dəf etməyə imkan verən bir təməldir.

ƏDƏBİYYAT

1. Saygılı S. Yaşlılık Psikolojisi, Elit-Kültür yayınları, İstanbul: 2011, s. 152
2. Tufan İ, Yazıcı S. Yaşlilikta kuşaklararasi ilişkiler, Cilt 20, Sayı 1, Nisan 2009 s.52
3. Захарова Г.И. Психология семейных отношений . Челябинск: Юургу, 2009, 125с
4. Ковалев С.В. Психология семейных отношений. М.: 1983.
5. Тайкова Л.В., Тайков С.М.Проблема межпоколенных отношений в современном обществе и семье, 2015, s. 95
6. Фильчакова Е.А. Межпоколенческая преемственность проблема взаимопонимания отцов и детей . Иркутск: 2005, 234 с.

XÜLASƏ

Məqalədə muasir dövrün problemlərindən olan nəsillərarası münasibətlərdən danışılır. Müasir dövrdə ailədaxili münasibətlərdə, sosial cəmiyyətdə yaşlının rolu nə qədər önəmlidir və yaşlı nəslin ailədə, cəmiyyətdə statusu nəqədər dəyişmişdir, nəsillərarası münasibətlər hansı səviyyədə aktualdır məsələlərinə toxunulub.
Cəmiyyətdə sosial, iqtisadi və mədəni dəyişikliklər, nəsillərarası ünsiyyətə, həmrəyliyə mənfi təsir göstərdiyi öz əksini tapmışdır.

АННОТАЦИЯ

В статье рассматриваются отношения между поколениями, что является одной из проблем современности. Насколько важна роль пожилых людей в семейных отношениях и социальном обществе в современную эпоху, насколько изменился статус старшего поколения в семье и обществе и насколько актуальны отношения между поколениями.

Социальные, экономические и культурные изменения в обществе оказывают негативное влияние на общение между поколениями и солидарность.

SUMMARY

The article discusses relations between generations, which is one of the problems of our time. How important is the role of older people in family relations and social society in the modern era, how has the status of the older generation in the family and society changed, and how relevant are intergenerational relationships.

Social, economic and cultural changes in society negatively affect intergenerational communication and solidarity.

ZORAKI DAVRANIŞ PROBLEMİNƏ ƏSAS NƏZƏRİ YANAŞMALAR

Dos. ə. Yamən Vəliyeva
BDU-nun psixologiya kafedrasının müəllimi
Aişə Musayeva
BDU – nun II kurs magistrantı
m.aisha96@mail.ru

Açar sözlər: zorakılıq, yanaşma, gender, model, tədqiqat, ailə, nəzəriyyə, resurs, hakimiyyət, fenomen, zorakı davranış, deviant davranış, səbəb, sosiallaşma.
Ключевые слова: насилие, подход, пол, модель, исследование, семья, теория, ресурс, власть, феномен, насильственное поведение, девиантное поведение, причина, социализация.
Keywords: violence, approach, floor, model, research, family, theory, resource, power, phenomenon, violent behavior, deviant behavior, reason, socialization.

Zorakılığın mənfi kontekstini və insan cəmiyyətində yayılmasını nəzərə alaraq, insanların törətdiyi zorakı əməllərin səbəblərinin axtarışı həmişə böyük əhəmiyyətə malik olmuşdur. Vahid hərtərəfli nəzəri modelin olmaması bir çox nəzəri yanaşmalara səbəb olmuşdur ki, bunların da hər biri zorakılığın müxtəlif səbəblərini, mexanizmlərini, nəticələrini nəzərdən keçirir. Qadınlara qarşı zorakılıq probleminin sistematik araşdırılması aparılmır. Sosioloji baxımdan dörd nəzəri yanaşmanı ayırmaq olar.

Ailə zorakılığına əsas yanaşma patriarxal nəzəriyyədir və bu nəzəriyyə gender bərabərsizliyini zorakılığın əsas səbəbi hesab edir. Amerika sosioloqu K. Levinsonun Kross-mədəni tədqiqatı bu nəzəriyyəni təsdiq edir. Bu tədqiqat 9 ölkədə keçirilmişdir ki, hansıki, burada kişilər maddi resurslara və ailə səviyyəsində qərarların qəbuluna nəzarət edir, qadınlar isə bütün hüquqdan məhrumdurlarvə bu da həyat yoldaşına qarşı zorakılığın səbəbidir.Bu yanaşma zorakılıq fenomenini öyrənərkən özünü doğrultmadı, çünki bir çox ölkələrdə qadınlar son onilliklərdə bütün əsas resurslara (hakimiyyət, təhsil, pul, prestijli peşələrə) çıxış əldə etmiş və bütün hüquqlara malik olmuşdur. Bu səbəbdən də qadın və kişi arasında qarşılıqlı münasibətlərin patriarxat modeli artıq "qalıq"kimi nəzərdən keçirilmişdir.

Zorakılığı sosial fenomen kimi təsvir edən digər modelləri və yanaşmaları nəzərdən keçirək.

Zorakılıqla bağlı daha bir tarixi yanaşma Ziqmund Freydə məxsusdur. Freydin psixoanaliz nəzəriyyəsi insan təbiətinin ayrılmaz hissəsi olan iki əsas qüvvə tərəfindən fərdi davranışın təşviq edildiyini nəzərdə tutur: həyatın instinkti (Eros) və ölüm instinkti (Tanatos).Eros insanı zövq axtarmağa təşviq etdiyi halda, Tanatos özünü məhv etmək məqsədi daşıyır.Bu instinktlərin antaqonist təbiəti nəticəsində onlar fasiləsiz daxili münaqişə mənbəyini təşkil edirlər. Bu münaqişəni insan yalnız destruktiv qüvvəni özündən uzaqlaşdıraraq və başqalarına yönəltməklə həll edə bilər.Beləliklə, başqa bir şəxslə bağlı zorakı hərəkətlər enerjinin azad edilməsi üçün bir mexanizm kimi qəbul edilir və bu, fəaliyyət göstərən subyektin daxili sabitliyini qoruyur.Z. Freyd, həmçinin, katarsis anlayışını da daxil edir ki, dağıdıcı enerjinin qeyri-proqressiv davranış vasitəsilə (məsələn, zarafatlar vasitəsilə), lakin yalnız müvəqqəti effektlə azad edilməsinin mümkünlüyünü nəzərdə tutur. Onun fikrincə, zorakılıq fərdlərin nəzarətindən kənarda olan, insan davranışının qaçılmaz xüsusiyyətidir. Freydin nəzəriyyəsini təsdiqləyən empirik sübutlar kifayət deyil, lakin buna baxmayaraq, Freydin ideyaları zorakılıq fenomeninin anlaşılmasının yaxşılaşdırılmasında əhəmiyyətli rol oynamışdır.

Tədris nəzəriyyəsi zorakılığı insan təbiətinin anadangəlmə xüsusiyyəti hesab edənlərdən fərqli olaraq, zorakı davranışın əhəmiyyətli dərəcədə "tədris" prosesində yarandığını, yəni sosial

davranışın əksər formaları kimi, tədris prosesləri vasitəsilə əldə edildiyini vurğulayır.Bu, möhkəmləndirilmə və ya cəza vasitəsilə təlim, eləcə də davranış nümunələrinin müşahidə vasitəsilə mənimsənilməsinin və zorakı davranışın həyata keçirilməsinin güclü bir mexanizm olduğunu sübut edilmişdir."Böyük təsirə malik olan modelin müşahidə edilməsi müşahidə olunan davranışın mənimsənilməsinə gətirib çıxara bilər. Mənimsənilmiş davranışın həyata keçirilməsində zorakı davranışın nəticələrinin dərk edilməsi mühüm rol oynayır. Model üçün onun zorakı davranışının nəticələri nə qədər müsbət olarsa, müşahidəçinin onu təkrarlaması ehtimalı da o qədər yüksəkdir"

Sosial təhsil konsepsiyası kütləvi informasiya vasitələrində zorakı davranışın təsvirinin öyrənilməsinə təsir göstərən ən mühüm nəzəri yanaşma halına gəlmişdir ki, bu da müşahidə vasitəsilə öyrənmək üçün nümunədir. Sosial tədris nəzəriyyəsi zorakılığa meyilli kişilərdə zorakı davranışı stimullaşdıran yaxın mühitin rolunu vurğulayır.Bu nəzəriyyə M.Kaufmanın əsərlərində inkişaf etmişdir. O, müasir cəmiyyətdə zorakılığın mənşəyini araşdıraraq, ötən əsrin 70-ci illərində S.Braumiller tərəfindən irəli sürülmüş radikal feminist nəzəriyyəyə qarşı çıxış edir. Bu nəzəriyyə zorakılığın mənşəyini əsasən kişi psixologiyasının xüsusiyyətlərinə yönəltmişdi. Kaufman hesab edir ki, cinsindən asılı olmayaraq, bütövlükdə insan varlığının təcavüzkar ola bilməyəcəyini iddia etmək üçün heç bir səbəb yoxdur. Onun fikrincə, kişi zorakılığı özünə qarşı zorakılıqdan başlayır (oğlanların ağlamasının, öz hisslərini göstərməsinin qadağan edilməsi), sonra isə qadınlarla münasibətlər səviyyəsinə keçir, sonra isə bütövlükdə cəmiyyəti təhdid etməyə başlayır. "Zorakılıq bu zaman kişinin işdə və ya cəmiyyətdə keçirdiyi gücsüzlük və acizlik hisslərinin kompensasiyası, həmçinin qadını öz hakimiyyətinə tabe etmək cəhdidir".

Konfliktoloji nəzəriyyə-zorakılığı fikir ayrılığı, maraq toqquşmaları zəncirində son həlqələrdən biri kimi nəzərdən keçirir. Münaqişələrdə zorakılığın səviyyəsini şərtləndirən bir sıra səbəblərin strukturu L. Kozerin əsərlərində təsvir edilmişdir. O, münaqişələrdə zorakılığın səviyyəsini şərtləndirən bir sıra halları vurğulayır: "hakimiyyət münaqişə iştirakçıları arasında nə qədər qeyri-bərabər bölünsə də, ehtimal olunur ki, münaqişənin həlli üçün alternativ, qeyri-zorakı vasitələr tapmaq cəhdləri olacaqdır. Münaqişə qeyri-real mübahisəli məsələlər ilə nə qədər çox bağlıdırsa, o, iştirakçılarda o qədər çox emosiya yaradır, o qədər kəskindir. Qrupdaxili münaqişə əsas dəyərlərə, mərkəzi mübahisəli problemlərə nə qədər çox toxunursa, o qədər kəskindir. Münasibətlərin funksional qarşılıqlı şərtləri nə qədər çox olsa, gərginliyin yumşaldılması üçün vəsaitin tapılacağı ehtimalı bir o qədər də artır, münaqişə bir o qədər yumşaqdır. Birinci şərt, zorakılığa qadınların qeyri-bərabər vəziyyəti kontekstində baxıldığı yanaşmaya uyğun gəlir. Növbəti iki bənd sanki bir-birinə ziddir. Orada bildirilir ki, emosiya, münaqişənin kəskinləşməsi həm əsas dəyərlərin toqquşması, həm də qeyri-real mübahisəli məsələlər ilə nəticələnir. Lakin xatırlayaq ki, çox vaxt zorakılığa səbəb olan ən kəskin münaqişələr ər-arvaddan birinin hüquq bərabərliyi kimi bir dəyərə əhəmiyyət vermədiyi zaman yaranır. Digər tərəfdən, şərəf və ləyaqətin toxunulmazlığına əks olan istənilən münasibət münaqişəyə səbəb ola bilər.

Zorakılığın ekoloji modelinin nümayəndələrinin fikrincə, ayrı-ayrılıqda heç bir amil bir insanın nə üçün aqressiv davrandığını, digəri isə olmamasını, yaxud bəzi rayonlarda başqalarına nisbətən niyə daha çox zorakılıq aktı törədildiyini izah etmək iqtidarında deyil. Zorakılıq-fərdi, qrup, sosial, mədəni amillərin və mühit amillərinin mürəkkəb qarşılıqlı təsirinin nəticəsidir. Bu amillərin zorakılıqla necə əlaqəli olduğunu dərk etmək zorakılığın qarşısını almaq üçün vacib addımdır. Ümumdünya Səhiyyə Təşkilatının zorakılıq problemi ilə bağlı məruzəsində çoxsəviyyəli yanaşmadan istifadə edilir, bu digər adı ilə "ekoloji model" adlanır. Bu model zorakılığın çoxtərəfli təbiətini daha yaxşı başa düşməyə imkan verir. Ekoloji model ilk dəfə 1970-ci illərin sonlarında uşaqlarla qəddar rəftarın öyrənilməsi, sonra isə gənclər arasında zorakılığın tədqiqi üçün istifadə edilmişdir. Son illərdə elm adamları onu partnyorların bir-birinə qarşı zorakılığını və yaşlılara qarşı qəddar davranışı dərk etmək üçün istifadə ediblər. Bu model fərdi

və kontekstli faktorlar arasında qarşılıqlı əlaqəni araşdırır və zorakılığı insan davranışına təsir edən bir çox amillərin məhsulu kimi nəzərdən keçirir.

Şəxsiyyəti nəzərdən keçirərkən, ilk növbədə, insan davranışına təsir edən bioloji amillər və fərdi bioqrafiya amilləri müəyyənləşdirilir. Bundan başqa, burada impulsivlik, təhsilin aşağı səviyyəsi, narkotik maddələrdən sui-istifadə, həmçinin keçmişdə insanlarda müşahidə edilən təcavüzkar davranış və qəddarlıq kimi amillər də nəzərdən keçirilir. Başqa sözlə, bu səviyyədə əsas diqqət onun ya zorakılığın qurbanı olması, ya da onun günahkar olması ehtimalını artıran şəxsiyyət əlamətlərinə yönəldilir.

Modelin ikinci səviyyəsi sosial əlaqələrin və münasibətlərin, məsələn, həmyaşıdları, partnyorları və ya ailə üzvləri ilə münasibətlərin potensial zorakılıq qurbanı olmaq, zorakılıq aktı törətmək riskinin artmasını araşdırır. Məsələn, daimi əlaqələr və ya eyni mənzildə yaşayış partnyora qarşı zorakılıqlar etmək və uşaqlarla pis rəftar etmək imkanını artıra bilər. Bu vəziyyətdə insanlar daim bir-biri ilə əlaqəli olduğundan, qurbanların dəfələrlə zorakılığa məruz qalacağı ehtimal olunur.

Ekoloji modelin üçüncü səviyyəsi sosial münasibətlərə daxil olan insanın ətraf mühitini araşdırır: məktəb, iş və yaşayış yeri. O, bu yerlərin hansı xüsusiyyətlərinin insanın qurban və ya zorakı şəxsiyyət olmasına gətirib çıxardığını müəyyən etməyə çalışır. "Əhalinin mobilliyinin yüksək səviyyəsi, onun heterogenliyi və yüksək sıxlığı zorakılıq göstəricilərini artıran xüsusiyyətlərdir. Narkotik ticarətinin xarakterik olduğu icmalar, işsizliyin yüksək səviyyəsi və böyük sosial təcrid də zorakılıq şəraitində yaşamaq ehtimalını artırır. Zorakı davranış tədqiqatları göstərir ki, zorakılığın təzahürü riski bəzi icmalarda daha çoxdur, məsələn, yoxsul rayonlarda, kənd yerlərində, harada ki, az müəssisə var və ya onlar qeyri-qənaətbəxş işləyirlər".

Ekoloji modelin dördüncü və sonuncu səviyyəsi zorakılığın səviyyəsinə təsir edən vacib sosial amilləri araşdırır. Buraya zorakılığın təzahürü üçün əlverişli şərait yaradan, zorakılığın təzahürünə qadağaları azaldan, cəmiyyətin seqmentləri arasında bərabərsizliyi, yaxud əhali qrupları və ya ölkələr arasında gərgin münasibətləri yaradan və dəstəkləyən amillər daxildir. Ən mühüm sosial amillərin tərkibinə daxildir:

- zorakılığı münaqişələrin həlli üçün məqbul vasitə hesab edən mədəniyyət normaları;
- valideynlərin hüquqlarını uşaqların rifahından üstün tutan normalar;
- qadınlar və uşaqlar üzərində kişilərin gücünü iddia edən normalar;
- polisin vətəndaşlara qarşı gücdən istifadə etməsinə yol verən normalar;
- siyasi münaqişələri dəstəkləyən normalar.

Ekoloji model göstərir ki, zorakılığın bir çox səbəbləri, həmçinin ailə, cəmiyyət, sosial, mədəni və iqtisadi məkanın daxilində fəaliyyət göstərən risk faktorları var. Bu modeli insan inkişafı prosesinə tətbiq etsəniz, həyatın müxtəlif mərhələlərində müxtəlif amillərin zorakılığın baş verməsinə necə təsir etdiyini görə bilərsiniz. Bəzi risk faktorları şiddətin yalnız bir növü üçün xarakterik olsa da, ümumi risk faktorları olan şiddətin növləri də var. Cəmiyyətdə hökm sürən mədəni normalar, yoxsulluq, sosial təcrid etmə, alkoqoldan və narkotik maddələrdən sui-istifadə, habelə odlu silahın əlçatanlığına zorakılığın yalnız bir növü üçün risk faktorları kimi baxıla bilməz. Fərdin birdən-birə bir neçə növ zorakılığa məruz qaldığı hallar heç də nadir deyil. Məsələn, Partnyor tərəfindən fiziki zorakılığa məruz qalan qadınlar, adətən, cinsi zorakılığa məruz qalırlar. Risk faktorları arasında deyil, müxtəlif zorakılıq növləri arasında da sıx əlaqə tapmaq təsadüfi deyil. Tədqiqatlar göstərir ki, valideynlərə qarşı zorakılıq həmin şəxsin yeniyetməlik və ya yetkinlik yaşına çatmayan yaşda zorakılığın qurbanı olması və ya təqsirkarı olması ilə əlaqədar olması, valideynlər öz uşaqlarını rədd etdikdə, onlara qayğı göstərmədikdə və onlara kömək göstərmədikdə baş verir. Bu cür münasibət daha çox ona gətirib çıxarır ki, onlar özlərini aqressiv və antisosyal aparacaqlar, o cümlədən yaşlılıq dövründə də qəddarlıq nümayiş etdirəcəklər. Həmçinin intihar davranışı ilə bəzi zorakılıq növləri, o cümlədən uşaqlarla pis rəftar, partnyora qarşı zorakılıq, zorlama və yaşlılara qarşı amansız rəftar arasında əlaqələr qurulmuşdur.

Bizim fikrimizcə, müasir elmi tədqiqatlar çərçivəsində qadınlara qarşı zorakı davranışın problemləri ekoloji modeldən istifadə etmək üstünlük təşkil edir, çünki o, müxtəlif səviyyələrdə zorakılığın təzahürünü təsvir etməyə və qiymətləndirməyə imkan verir, makrososioloji yanaşma kimi özündə mədəni amillərin problemlərin həlli üçün zorakı üsullardan istifadə tezliyinə təsirini, eləcə də qadının sağlamlığı üçün zorakılığın nəticələri öyrənilən mikrososioloji modellərin öyrənilməsini cəmləşdirir. Zorakılığın növləri ilə ayrı-ayrı faktorların daha geniş sosial, mədəni və iqtisadi kontekstlə qarşılıqlı əlaqəsi onu göstərir ki, risk amillərinə müxtəlif nəzəri modellərin köməyi ilə təsir göstərməklə, bütövlükdə cəmiyyətdə və xüsusilə qadınlara münasibətdə zorakı davranışın yayılmasını azaltmaq mümkündür.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Maarif, 2002, 642 s.
2. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s.
3. Əliyev B.H. Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri. Bakı: Azərnəşr, 1996, 200 s.
4. Əliyev B.H. Məhkəmə-psixoloji ekspertizasının əsasları. Bakı, 1999, 53 s.
5. Аминов И.И. Юридическая психология. – М.: Юнити, 2007. – 415с.
6. Вандышев В.В. Реализация взаимосвязей жертвы и преступника в раскрытии и расследовании насильственных преступлений, (учеб.пособ.) Санкт Петербург. 1992.
7. Волков.Б.С. Мотивы преступлений (уголовно- правовое и социально психологическое исследование). Казань. 1982.
8. Еникеев М.И. Юридическая психология. - СПб.: Питер, 2004.
9. Криминальная мотивация. Под ред. В.Н.Кудрявцева.М.1986.
10. Hopkins, Burke Roger .An Introduction to Criminological Theory. Oxon, Taylor & Francis 2011

XÜLASƏ

Məqalədə zorakı davranışın tarixi-nəzəri yanaşmaları araşdırılmışdır. Eyni zamanda zorakılığın yaranma səbəbləri öyrənilməyə cəhd edilmişdir. Məqalədə deviant davranışın zorakılığn yaranmasında rolu xüsusilə qeyd edilmişdir. Bundan başqa sosial mühitin və bioloji amillərin də zorakı davranışın yaranmasında əhəmiyyətli mövqeyi nəzərə alınmışdır. Belə nəticəyə gəlinir ki zorakılıq hallarının yaranma səbəbləri bir deyil bir neçə amillərlə şərtlənir. Bu səbəbdən də zorakılığın qarşısının alınması üçün bu amilləri kompleks şəkildə araşdırmaq lazımdır.

АННОТАЦИЯ

В статье рассматриваются исторические и теоретические подходы к насильственному поведению. Предприняты попытки изучить причины насилия. В статье подчеркивается роль девиантного поведения в развитии насилия. Кроме того, была принята во внимание важная роль социальной среды и биологических факторов в развитии насильственного поведения. Делается вывод, что причинами насилия являются не один, а несколько факторов. Поэтому, чтобы предотвратить насилие, эти факторы должны быть всесторонне исследованы.

SUMMARY

The article discusses the historical and theoretical approaches to violent behavior. At the same time, attempts were made to study the causes of violence. The article emphasizes the role of deviant behavior in the development of violence. In addition, the important role of the social environment and biological factors in the development of violent behavior was taken into account. It is concluded that the causes of violence are not one, but several factors. Therefore, to prevent violence, these factors must be thoroughly investigated

STRESSİN ŞƏXSİYYƏTİN FƏALİYYƏTİNƏ TƏSİRİ

Elmi rəhbər. dosent: Solmaz Həsənli
Mehin Nəsibova
ADPU-nun II kurs magistrantı
melisa14_18@mail.ru

Açar sözlər: rigid, emosiya, nevroz, qorxu, həyəcan, şəxs
Ключевые слова: ригид, емосия, невроз, страх, волнение, человек
Key words: rigid, emosion, neurosis, fear, excitement, person.

Məlumdur ki, stress gündəlik həyatın əsas hissəsini təşkil edir. Müasir dövrdə stress qaçılmazdır. Şəxsiyyətin fəaliyyətində və quruluşunda stressmüəyyən rola malikdir. Daha çox şəxsiyyətin səhhətinə, emosiyalarına, eyni zamanda travma yaşamasına belə səbəb olur. Sağlam insanda stress zamanı davamlı baş ağrıları, ürək ritminin sürətlənməsi, qan dövranının zəifləməsi, maddələr mübadiləsinin pozulması, halsızlıq, özünə qapanma kimi halətlər baş qaldırır. Məhz buna görə də stress anlayışı "gərginlik", "sıxıntı" mənasını bildirir.

Adətən sosial mühit insan qarşısına həll edilməsi çətin olan tələb qoyur və bu tələbə qarşı qeyri-adi cavab stress kimi təzahür edir.

Uzun müddətli stress zamanı insanların qarşılıqlı münasibəti pisləşə bilər. Şəxsin özünüqiymətləndirmə, özünümüəyyənləşdirmə və cəmiyyətdəki mövqeyinə təsir etməklə yanaşı onun emosiyalarında da biruzə verə bilər.

Bildiyimiz kimi, stresin bir neçə növü, mərhələsi psixoloji ədəbiyyatda öz təsdiqini tapmışdır. Stressin yaradıcısı hesab edilən Kanada alimi H.Selye stressi "ümumi adaptasiya sindromu" adlandırmaqla üç mərhələsini ayırd etmişdir: 1.həyəcanlanma. 2.müqavimət. 3. əldən düşmə (1, s. 260).

Stressin növündən bəhs edərkən onun psixoloji növünün də iki cür olduğunu qeyd edilmişdir. Emosional və informasion stress.

Şəxsiyyətin fəaliyyətində emosional stress daha çox nəzərə çarpır. Emosional stress çətin, qorxulu, həyəcanlı vəziyyətdə özünü göstərir. Təhlükənin və müdafiəyəyə reaksiya, eyni zamanda hazırlıq prosesi olaraq emosional stressi şərh etmək olar. Emosional stress vəziyyətin düzgün qiymətləndirilməməsi və imtina edilməsi, özünənəzarətin pozulması kimi də anlaşıla bilər. İnsan həyatı üçün təhlükəli hesab edilən hər hansı stressor emosional stressə malik olur. Belə ki, stress vəziyyətində olan adam öz hisslərini cilovlaya bilmir və nəticədə öz emosialarının əsiri olur.

Şlosberq emosional stress vəziyyətdə olan şəxsdə beş mimik üz ifadələrinin olduğunu bildirmişdir. 1) sevinc, xoşbəxtlik 2) qorxu 3) qəzəb 4) təəccüb 5) ikrah.

Lakin P. Ekman isə stress müddətində şəxsdə altı emosiyanın olduğunu qeyd etmişdir: 1. qorxu 2. qəzəb 3. kədər 4.təbbəssüm 5.qətiyyət 6. ikrah

Şəxsin stress anında öz emosiyalarını cilovlamaq özündən asılı olmayaraq təzahür edir. Yəni, sıxıntılı və ya narazılıq yaşanan vaxtda qəzəb, qışqırtı, acı ifadələrin işlədilməsi stressorun təsirindən xəbər verir. Yaranmış psixoloji pozuntular insanın davranışı və ətraf aləmə insanlara münasibəti psixoterapiya proseslərinə ciddi manea törədir (3, s. 236).

İlk başlanğıcda əhəmiyyət verilməyən baş ağrıları, iştahsızlıq, özünə qapanma kimi hallar sonrada stressin təsirindən mədə-bağırsaq hipofunksiyasını yaratmağa səbəb olur. Mədə-bağırsağın selikli qişasında eroziya və mədə yarsı əmələ gəlir. Bağırsaq daha çox psixoloji gərginliyə həsas olur. Mübahisə anında isə bağırsaqda ağrılar hiss ediləcək qədər artır.

Emosiyaların ümumi və dəyişməz olaraq qaldığnı güman edirik. Lakin həm emosiyalar, həm də insanların hiss etdikləri mimiklər belə zamanla dəyişə bilir.

Sarah Chaney Emosiyaların Tarixi mərkəzinin əməkdaşı bir neçə nümünələrdən məlumat verib.

Asediya. Yorğunluq, ümidsizlik, bədbinlik və müqəddəs həyatla vidalaşmaq arzusu kimi müşayət olunurdu. Müasir dövrdə belə vəziyyəti stress hətta stressin xroniki növü heab etmək olar.

Hikkə. Orta əsrlərdə emosiyaların qəzəbə yaxın daha dar mənasındadır. Hikkə vəziyyətində insan irəli gedib-gəlir, sakit otura bilmir, qəzəb tutmaları keçirir, həyəcanlanır.

İpoxondrik sindorm. XlX əsrdə insanın stress vəziyyəti olub, ağrı və həzm problemləri yaradıb. Kişilərdə isə "isteriya " adlandırmışlar. XVII-XVIII əsrdə xəstənin dalaq problemi olduğu güman edilirdi, stressdən yaranmış problem olduğu müəyyən edilmişdir.

Cowles Pirchard ilk dəfə 1835-ci ildə stresin xroniki formasini "mənəvi dəlilik" hesab etmişdir. Psixoloji stressdə mənəvi dəlilik hesab edilən adamların qəribə davranışı və xaotik əlamətlər özünü göstərirdi. Belə halı keçirən insanlar normal davrana bilirdi, amma emosiyalarını idarə etməyi bacarmayaraq, cinayət törədirdilər.

Adler psixoloji fikrində belə qənaətə gəlmşidir ki, sıxılmış aqressiv reaksiyalar stressə və nevroza səbəb olur.

Stress anında şəxsin emosiyalarını səylə daxildə gizlətməsi iri topu su altında saxlamağa oxşayır. Lakin, şəxsiyyətin fəaliyyətində manea yaradan sıxıntını, qəzəbi "azadlığa" buraxmalıyıq.

Şəxsiyyətin fəaliyyətində stress müəyyən mərhələyə çatdıqda dörd dərəcəsi olduğu qeyd edilir.

Birinci dərəcəli gərginlik zamanı mobilizasiya diqqət, fəal vəziyyət, iş qabiliyyətinin artması ilə xarakterizə olunur. Bu zaman orqanizmin fəaliyyəti yaxşı mənada yüksəlir, ona görə də faydalı dərəcə hesab etmək olar.

İkinci dərəcdə insanın lazımı güc toplaması mümkünsüz olur. Gərginlik artır, psixoloji olaraq nifrət, əsəb halları, bir sözlə mənfi emosiyalar yaranaraq, sklet əzələlərinin işi artır. Bu reaksiya orqanizmin potensial imkanlarını artırmaq məqsədi kəsb edir.

Üçüncü dərəcə - astenik mənfi emosional halətdir. Qorxu, şiddət, ağrı hissi ilə meydana çıxır. Enerji ehtiyyatı azalır, ayaqlar əsir, "vegetativ tufan xaosa" keçir. Belə vəziyyətdə insan qarşısına qoyduğu məqsəddən imtina edir, lakin məqsəd davam edirsə bu halda dördüncü dərəcə xəstəlik- nevrozu başlayır. İradəyə tabe olmayan nevroz infantil xarakter daşıyır. Vəziyyəti bu mərhələyə çatdırmamaq üçün peşəkar yanaşmaq və iradi səy göstərməklə yanaşı hər bir insan dördüncü dərəcədən əvvəlki mərhələdə dayana bilər.

Emosional stress təhlükənin reaksiya vasitəsi ilə qiymətləndirilməsi və müdafiəyə hazırlıq proses kimi başa düşülməlidir. Emosional stress özünənəzarətin itirilməsi, yəni stiuasiyanı düzgün qiymətləndirə bilməmək və həmçinin ona münasibət göstərməkdən imtina kimi də başa düşülür. Orqanizim və həyat üçün təhlükəli olan hər bir stressor emosional stress yarada bilər.

Elmi-texniki tərəqqi, elm-təhsil prosesinin mürəkkəbləşməsi və informasiya bolluğu insan həyatını emosional gərginlik yaradan faktorlarla zənginləşdirmişdir ki, məhz bu da sinir sisteminin emosional gərginlik zamanı fəaliyyətinin öyrənilməsini aktual problemə çevirmişdir.

Emosiya insanın üzvi tələbatının təmin olunub-olunmamsı ilə əlaqədardır. Emosiya canlı varlığın orqanizmin vəziyyətini və xarici təsirlərini bioloji əhəmiyyətini müəyyənləşdirmək tələbatı ilə bağlıdır.

Emosiyalar insan təcrübəsini hissi fundamenti hesab olunur. Onlar ətraf aləmlə, cəmiyyətlə qarşılıqlı münasibətləri zənginləşdirir və xatirələrə dinamiklik verir.

- Qəzəb (hücum, dağıdıcılıq)- qorxu (müdafiə)
- Bəyənmə (təqdir, qəbuletmə)- ikrah (rədd etmə)
- Sevinc (canlandırma, ərsətmə)- məyusluq (hüzn, məhrum olma)
- Gözləmə (tədqiq etmə)- təəccüb (istiqamətlənmə)

K.İzardın müəyyən etdiyi təməl emosiyaların sayı 10-dur: qəzəb, ikrah, nifrət, dərd-iztirab, qorxu, günah, maraq, sevinc, utanma, təəccüb.

Emosiyaların funksiyaları məsələləri bir çox müəlliflər tərəfindən əsas tədqiqat obyekti kimi ayrılmışdır.

V.K.Vilyunas emosiyaların bioloji məqsədəuyğunluğundan danışarkən aşağıdakı funksiyaları sadalayır. Emosional stress və psixosomatik xəstəliklər artıq qeyd edildiyi kimi yaxşılaşdırılmış psixi gərginliyə səbəb olur. Stressi törədən amillər, səbələr isə stressorlar adlanır.

Adinadi'nin sıx təsirləri Stress orqanizminə daha çox cəlb edilmir, qeyri-adi- amillər, səbəblər eksperimental təsirlərə moruz qalması ilə əlaqəli olaraq baş verir vəmüxtəlif təzahürlərə malik olur.

25 Noyabr 2000-ci ildə respublikamızda baş veron güc zəl-zələ nəticəsinda insanlarda bir çox güclü stress yaranır. Buradakı stresin güclülüyü ilə əlaqəli ekstremal vəziyyətin qəflətən olması ilə əlaqələndirilir. Belə stress uzun müddət davam edir. Çünkü yeraltı təkanların güclü olsa da davam etməsi stressorun təsirinin müxtəlif təzahürələrə malik olması olur.

Yəni stresorların növündən və onların təsirinin xüsusiyyətlərindən asılı olaraq stressorlar fərqli formada özünü göstərir. Stresslərin təbii və təsirli xüsusiyyətlərinə əsaslanaraq baş verir. İnformasiya stresləri məlumatların həddən ziyadə ayırd edilir. hərəkətə gətirilməməsi və cavab vermə vaxtı boşluq vəziyyətinə gətirilməsi, cavabdehliyi ilə Pəəəə stres stres stres stres stres stres stres stres stres stres stres stress stres "Emosional stresslər isə daha çox təhlükəli, qorxulu vəziyyətlərdə, ciddi inciklik şəraitində baş verir. Bu halda insanın psixi proseslərinin, emosional halətlərinin, fəaliyyətin motivasiyasının ciddi təbədüata uğraması, orada müəyyən dəyişikliklərin baş ver-məsi özünü göstərir. Hətta bu vəziyyətdə insanın nitq və hərəki fəaliyyətində pozğunluqlar baş verə bilir.

Məlum olduğu kimi emosional stresslar bir sıra psixosomatik xəstəliklərin törənməsi ilə nəticələnə bilir. Emosional stress təhlükənin reaksiya vasitəsilə qiymətləndirilməsi və müdafiəyə hazırlıq prosesi kimi başa düşülməlidir.

Emosional stress isə təhlükəni qorxulu, yaxud dərin narahatlıq şəraitində təzahür edir. Bu halda psixi proseslərin, emosional halətin cərəyanında, fəaliyyətin motivasiya sahəsində dəyişiklik baş verir. Eyni zamanda insanın hərəkət və davranışında. Həmçinin nitqində özünü büruzə verə bilər.

Buna görə də ayrı-ayrı adamlarda, eləcə də müəyyən sosial qruplarda uzun müddət davam edən stress vəziyyətinin aradan qaldırılması xüsusi psixoloji təsir vasitələrini tələb edir. Bu da respublikmaızda indiki şəraitdə qaçqın və köçgünlərdə stress halətini aradan götürmək üçün psixoloji xidməti zəruri edir.

Hiss və emosiya əslində bədənlə şüurun birgə fəaliyyətinin son məhsulu və ya təzahür formasıdır. Hiss və emosiya diqqət, hafizə, duyğu, qavrayış, təfəkkür, təxəyyül və orqanizmin mürəkkəb kombinasiyasıdır.

İnsanın psixi həyatı çoxcəhətli, rəngarəng olsa da o vəhdətdədir. İdrak prosesləri (duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, təxəyyül, nitq) emosiya və hisslərlə dialektik vəhdət təşkil edir. Bu köklü qanunauyğunluq müasir təlim nəzəriyyəsi üçün fundamental əhəmiyyətə malikdir. Belə ki, hissələrin qeyri adi qüvvəsindən istifadə etməklə şagirdin və ya tələbənin idrak fəaliyyətini fəallaşdırmaq yolu ilə, təlim prosesinin məhsuldarlığını yüksəltmək olar.

Təlim prosesində öyrəncilərin emosional cəhətdən fəallaşdırılması nəinki elmi, həm də köklü praktik məsələ kimi meydana çıxır. İnsan hafizəsi adətən seçici xarakter daşıyır. Hafizənin bu önəmli xüsusiyyəti onun hər bir növündə öz təsdiqini tapır. Belə bir önəmli qanunauyğunluq ilk növbədə insanın cisim və hadisələrə münasibəti ilə müəyyən olunur.

Emosional stresin orqanizmin münaqişəli şəraitlərdə reaksiyası kimi müasir ideyalar diqqəti humoral mexanizmlərin mərkəzi və vegatativ sinir sisteminin reaksiyaları tərəfindən həyata

keçirilməsinə yönəltdi. Emosional gərginlik insanın əhval ruhiyyəsində pozaraq, somatik xəstəliklərə səbəb ola bilər.

Nəticədə stressə tabe olub-olmamaq şəxsiyyətin strukrurundan və yaşadığı situasiyadan asılı olaraq dəyişə bilər

ƏDƏBİYYAT

1. Bayramov Ə. S, Bayramov Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: Çinar, 2009, 620 s.
2. Əliyev R.İ. Psixologiya. Bakı: Nurlan, 2008, 352 s.
3. İsamyılov N.V. İsmayılov F.N. Tibbi psixologiya və psixoterapiya. Bakı: CBS, 2008, 416 s.
4. Şamilov B.E. Stress relyativizm psixoanaliz. Bakı: 2004, 23 s
5. Qurbanova L. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı: Bilik, 2012, 240 s
6. https://www.google.az/amps/s/www.bbc.com/azeri/amp/48109544

XÜLASƏ

Emosional stress insan fəaliyyətinə müxtəlif cür təsir edir. İstər əmək fəaliyyətində, istərsə də gündəlik insanlarla ünsiyyətində bilavasitə rol oynayır. Çox vaxt emosional stressi "emosional gərginlik" adlandırırlar. Emosional stressin orqanizmin münaqişəli şəraitlərdə reaksiyası kimi müasir təsəvvürlər stresin təbiətinə baxışları dəyişdirdi. Psixoloqlar stress dövründə insanda emosional gərginlik, həmçinin narahatlıq olduğunu qeyd etmişlər.

İnsanın narahatlığı və gərginliyi emosional stressdə hərkətlərində, başqalarına münasibətinə də müşahidə edilir. İnsanlar daha çox əsəbi, hər şeyə əks mənfi reaksiya verərək, yaxınları ilə də münaqişələr edir. Yığılmış duyğuları sərbəst buraxmaq üçün, insanlara və əlaqələrə zərər verməyən bu müxtəlif optimal yolları axtarmaq üçün bu prosesin bir psixoloqun iştiraki ilə keçirilməsi yaxşıdır. Psixoloqlar emosional stressi aradan qaldırmaq üçün daha çox insanın sevdiyi işlə məşğul olmağa, daxili və xarici işi, ehtiyac və imkanların həssas hissini və səbrini nəzərdə tutur.

Bu müddət ərzində hər bir insan rəqs, idman və fiziki fəaliyətlə məşğul olmalıdır. Həyata rəng qatan fəaliyyət növləri ilə məşğul olmaq da mühüm əhəmiyyət kəsb edir. Çünki emosional stress insanda fəaliyyətsizlik yaratmaqla yanaşı, insan həyatı mənasız dərk edir və həyatın əsas varlıqlarını da "ağ qara" görür.

АННОТАЦИЯ

Эмоциональный стресс оказывает существенное влияние на деятельность человека. Он играет непосредственную роль в вашей профессиональной деятельности или по отношению к человеку. Офтальмологический, эмоциональный стресс приводит к эмоциональному напряжению. Эмоциональный стресс будет реконструирован в соответствии с характеристиками, которые привлекают внимание организма. Психологи подчеркивают стресс, беспокойство и стресс у человека.

Эмоциональный стресс, связанный с неудовлетворенностью и развитием человека, виден повсюду, по отношению к другим. Лучше человеку быть более нервным, делать вещи более осмысленными, реагировать, быть ближе и ближе. Лучший способ сделать это для больных людей, независимо от того, здоровы они или нет, состоит в том, чтобы участвовать в этой операции с психологом. Психологи обеспечивают больше людей

любовью, внутренней и внешней работой, образованием, эмоциональной чувствительностью и здоровьем, чтобы избежать эмоционального стресса.

Это может быть достигнуто путем соревнований, спорта и физического контакта с каждым человеком. Речь идет о соединении с цветом жизни и о близких отношениях. Быстрый эмоциональный стресс может улучшить здоровье человека, создать бессмысленную кожу и воспринимать основные черты жизни как «белый черный».

SUMMARY

Emotioan stress has a significant effect on human activities. It plays a direct role in the professional activity, or in relation to the person. Often, emotional stress leads to emotional tension. Emotional stress will be reconstructed according to the characteristics that attract the attention of the body. Psychologists stress emotional stress, anxiety and stress in a person.

Emotional stress associated with the dissatisfaction and development of a person is seen everywhere, in relation to others. It is better for a person to be more nervous, to make things more meaningful, to react, to be closer and closer. The best way to do this for people who are ill, whether they are healthy or not, is to engage in this operation with a psychologist. Psychologists provide more people with love, inner and outer work, education, and emotional sensitivity and health to avoid emotional stress.

This can be achieved by competing, sports and physical contact with each person. It is about connecting with the color of life and having close relationships. Rapid emotional stress can enhance a person's health, create a meaningless skin, and see the main features of life as "white black."

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN QORXU HİSSİNİN ARADAN QALDIRILMASINDA PSİXOKORREKSİYA İŞİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Mizgin Karadeniz
BDU-nun II kurs magisrtantı
mizginkaradeniz7676@gmail.com

Açar sözlər: kiçik yaşlı məktəbli, psixologiya, qorxu, həyəcan, narahatlıq
Ключевые слова: младший школьник, психология, страх, тревога, тревожность.
Keywords: younger schoolchildren, psychology, fear, anxiety, disquiet

Kiçik yaşlı məktəblilərdə qorxu ilə bağlı psixokorreksiya işinin əsas prinsipləri belə elm adamları tərəfindən hazırlanmışdır: B.Q.Ananyev, A.İ.Bozoviç, L.S. Vıqostkiy, P.Y. Halperin, V.V. Davidov və başqaları.

Bu prinsiplər şəxsiyyətin şüur və davranışın sosial formalarını mənimsəməsi əsasında bir insanın həyatı prosesində meydana gələn vahid psixoloji bir quruluş olduğunu ifadə edir. Psixoloji inkişaf və uşağın şəxsiyyətinin formalaşması yalnız böyüklər ilə ünsiyyətdə mümkündür və əsasən inkişafın bu mərhələsində aparıcı fəaliyyətdə baş verir. Kiçik məktəb yaşında bu təlim fəaliyyətidir və oyun hələ də vacibdir. Müəyyən və ciddi şəkildə düşünülmüş şərtlər olduqda, bütün sağlam uşaqlar, normaya cavab verməyən pozğunluqları inkişaf etdirmək və düzəltmək, o cümlədən qorxu və həyəcanı korreksiya etmək imkanına malikdirlər. Daha çox dərəcədə, psixokorreksiya işinin nəticəsi onun təşkilindən asılıdır.

Bir uşağın və böyüklərin qarşılıqlı əlaqəsində müsbət ünsiyyət ilə müəyyən edilən bir tərbiyə müəssisəsində uşaqların inkişafı üçün əlverişli bir psixoloji mühit yaratmaq aktual məsələdir. Bu cür ünsiyyət əvəzsizdir. Ünsiyyətdə ən yüksək dəyər, ünsiyyət qurduğumuz başqa bir şəxsdir, bütün keyfiyyətləri, xüsusiyyətləri, əhval-ruhiyyəsi və s. Pozitiv ünsiyyətdə əsas şey başqa bir insanın artıq qurulmuş və ya formalaşmaqda olan bir fərdilik hüququdur.

Korreksiya işini təşkil edərkən şagirdin müəllimə etibar etməsi üçün şərait yaratmaq lazımdır, yalnız bu halda uşağın korreksiya işləri ilə məşğul olmaq istəyi yaranır [4, s. 37].

Qorxunu aradan qaldırmaq problemi mahiyyətcə ikiyə bölünür: qorxu vəziyyətinin mənimsənilməsi, mənfi nəticələrinin aradan qaldırılması və nisbətən sabit bir şəxsiyyət təlimi kimi qorxunun aradan qaldırılması problemi.

Qorxunu aradan qaldırmaq üçün işlər bir-biri ilə əlaqəli və qarşılıqlı təsir göstərən üç səviyyədə həyata keçirilə bilər:

1. məktəblinin həyəcanını mənimsəmə üsulları və metodları ilə öyrətmək, qorxunu artırmaq;
2. məktəblinin fəaliyyətinin nəticəviliynin artmasına, "möhkəmlik ehtiyatının"nın yaradılmasına aparan funksional və əməliyyat qabiliyyətlərinin genişlənməsi, lazımi bacarıq, biliklərin formalaşması;
3. məktəblinin şəxsiyyət xüsusiyyətlərinin yenidən qurulması, ilk növbədə özünə hörmət və motivasiya. Eyni zamanda, məktəblinin ailəsi və müəllimləri ilə işləmək lazımdır ki, korreksiya işinin hissələrini yerinə yetirsinlər.

Kiçik yaşlı məktəblilərdə həyəcanı aradan qaldırmaq üçün üsul və məşqlərin bütün kompleksi mövcuddur. Ancaq 2 metod mərkəzi rol oynayır.

1. Ardıcıl desensibilizasiya metodu. Onun mahiyyəti, uşağın həyəcan və qorxu doğuran bir sahə ilə əlaqəli vəziyyətə gətirilməsidir, onu bir az narahat edə bilənlərdən başlayaraq, böyük narahatlıq, bəlkə də qorxuya səbəb olanlarla sona çatmasıdır. Stressdən azad olmaq üçün uşağa konfet sormaq təklif olunur.

2. Qorxu, həyəcan, gərginliyə "cavab" üsulu. Bir oyunun köməyi ilə həyata keçirilir – "çox çox qorxulu bir məktəbin" dramatikləşməsi, burada əvvəlcə kukla-cəfəri köməyi ilə teatr eskizləri

şəklində uşaqlar məktəb həyatında qorxudan vəziyyətləri təsvir edir və bütün "qorxulu" məqamları həddindən artıq dərəcəyə çatdırmaq lazımdır (elə olmalıdır ki, tamaşaçılar çox qorxsunlar). Bundan əlavə, "qorxunu cəlb etmək", "qorxu hekayələri" üsullarını tətbiq etmək olar və məktəb mövzularına vurğu edilməlidir. Bu işin gedişində vəziyyəti yumoristik, karikatura təsvir etməyə cəhdlər təşviq olunur [3, s.143].

Kiçik məktəb yaşlı uşaqlarda müəllimə və psixoloqa mənfi münasibət çox nadir və çox vaxt qeyri-müəyyəndir, çünki bu münasibətlə müəllimə və buna görə də məşğul olduğu fəaliyyətə inamsızlıq olur. Sinifdə bu cür uşaqlar ən çox qapalı, həssas və ya laqeyddirlər, psixoloqun göstərişlərinə əməl etmirlər və təşəbbüs göstərmirlər. Ünsiyyətdə məcburi itaətkarlıq, bəzən isə uyğunlaşma istəyi göstərirlər. Bu duyğular düzəldilə bilər və sonrakı həyatdakı müəllimlər və yoldaşlar arasındakı əlaqəyə keçirilə bilər. Qarşılaşmalarla əlaqədar olaraq təhsil müəssisələrinə mənfi münasibət və özünə və insanlara qeyri-adekvat münasibət yarana bilər. Belə şəraitdə şəxsiyyətin mütərəqqi inkişafı qeyri-mümkündür, psixokorreksiya işində təqdim olunan əsas prinsiplərə uyğun olaraq bu şərtlərin korreksiyası tələb olunur.

Birinci prinsip korreksiya və inkişafın vəhdətidir. Bu o deməkdir ki, korreksiya işinə ehtiyac barədə qərar yalnız uşağın inkişafının daxili və xarici şərtlərinin psixoloji və pedaqoji təhlili əsasında qəbul edilir.

İkinci prinsip yaş və fərdi inkişafın vəhdətidir. Bu, uşağın yaşının inkişafı kontekstində fərdi yanaşma deməkdir. Korreksiya işi, uşağın şəxsiyyətinin formalaşması üçün ardıcıl yaş mərhələlərinin mənasını dərk edərək, zehni inkişafın əsas qanunlarını bilməkdir. Normal inkişaf üçün yaş qaydaları var. Normal inkişaf, yaşa uyğun ahəngdar zehni inkişaf kimi başa düşülür. Bu təxmini yaş norması əsasən cəmiyyətin mədəni səviyyəsi və sosial-tarixi tələbləri ilə müəyyən edilir [4, s. 8].

Üçüncü prinsip, inkişafın diaqnostika və korreksiyasının vəhdətidir. Korreksiya işinin vəzifələri yalnız uşağın ən yaxın inkişaf zonası əsasında müəyyən edilən ən yaxın ehtimal olunan inkişaf proqnozunun tam diaqnozu və qiymətləndirilməsi əsasında başa düşülə bilər. Korreksiya və inkişaf bir-birindən asılıdır. Psixoloji korreksiya problemlərinin həllinə yönəlmiş fəaliyyətləri diaqnostik-korreksiya və ya diaqnostik-inkişaf işi adlandırmaq olar.

Dördüncü prinsip korreksiyanın həyata keçirilməsinin fəaliyyət prinsipidir. Bu prinsip məqsədə çatmaq üçün vasitə, yol və üsul seçimini müəyyənləşdirir. Fəaliyyət prinsipi, inkişafın hərəkətverici qüvvəsi olan uşağın özünün aktiv fəaliyyətinin, hər on mərhələdə ontogenez dövründə uşağın inkişafına ən çox töhfə verən sözdə aparıcı fəaliyyətin olduğunu, hər hansı bir insan fəaliyyətinin inkişafının xüsusi bir formalaşma tələb edir. Bu fikri A.N. Leontyev, P.Y. Halperin, S.L.Rubinşteyn irəli sürmüşdür.

Bu prinsip, böyüklə əməkdaşlıqda uşağın müvafiq fəaliyyətinin təşkili yolu ilə psixoloji və pedaqoji korreksiya işlərinin aparılmasını əhatə edir. Beləliklə, uşağın maraq, axtarışa, biliyə və kəşflərə əsaslanan öz fəaliyyəti, təlim fəaliyyətində uğur qazanmasına səbəb olur. Məktəbdə bu cür fəaliyyətin oyanması asan deyil. Ancaq bunsuz heç bir inkişafdan danışmaq olmaz. Bir uşağı müvəffəqiyyətə, zorakılıq, təhqir, əmr yolu ilə bacarıqların inkişafına gətirmək mümkün deyil. Tədris və idrak fəaliyyətində uşağın öz fəaliyyətini inkişaf etdirməsini təmin edən tədris şəraitinin dəyişdirilməsi baxımından tədris prosesini korreksiya lazımdır.

Beləliklə, beşinci prinsip hər bir uşağa istedad kimi yanaşma. Bu prinsip o deməkdir ki, psixokorreksiya işləri aparılmış uşaqlar "ikinci" çeşid uşaqları kimi qəbul edilməməlidirlər. Onlardan kədərlənməməyi, təəssüflənməməyi, ümumi təhsil səviyyəsində azalma deyil, inkişafının optimal normaya düzəldilməsini tələb edirlər.

İnkişafın hərəkətverici qüvvələrinin səfərbərliyi bir uşaqda bir yetkinin ona inandığını, ona güvəndiyini və getdikcə daha çətin tapşırıq və problemlərin həllində iştirak etdiyini hiss etdikdə baş verir. M.M. Prişvinanın çox incə bir sözü vardır: "mənim içimdə sevdiyin insan, əlbəttə ki,

məndən yaxşıdır: mən belə deyiləm. Ancaq sən sev və mən özümdən daha yaxşı olmağa çalışacağam" [5, s. 17].

Həm ümumi, həm də xüsusi qabiliyyətlərin formalaşması çox mürəkkəb bir prosesdir, hər yaş mərhələsində öz xüsusiyyətlərinə malikdir, uşağın maraqlarının inkişafı, bu və ya digər fəaliyyətdəki uğurlarının özünü qiymətləndirməsi ilə sıx bağlıdır. Formalaşmamış qabiliyyət və maraqlar fərdin inkişaf etməməsinə səbəb olur. Uşağın qabiliyyət və maraqlarının inkişafındakı çatışmazlıqların düzəldilməsi psixoloji və pedaqoji işin ən vacib sahəsidir.

Psixoterapevtik iş zamanı pasientin fərdi xüsusiyyətlərindən və xəstəliyinin əlamətlərindən asılı olaraq müxtəlif psixoterapiya metodlarından istifadə etmək məsləhət görülür.

Pasientə bağlı olaraq psixoterapiya üsullarının seçilməsinin tövsiyə olunan təsnifatı var: Kəskin isterik simptomlarda təlqinə; vegetativ pozulmalarda avtogen təlimə; həyat çətinliyi zamanı – "danışıq" terapiyasına; fobiyalarda davranış terapiyasına; xarakteroloji pozulmalarda psixodrama, geştalt terapiyasına; ailə problemləri ilə əlaqəli pozulmalar üçün ailə psixoterapiyası; əvvəl olan meylin mövcudluğuyla bağlı kompleks pozulmalardadərin psixoloji metodlara üstünlük verilir

Psixoterapiya metodundan asılı olmayaraq, onun həyata keçirilməsi zamanı bir sıra məcburi qaydalara riayət etmək lazımdır:

Psixoterapiya yalnız klinik ola bilər. Psixoterapiya ilə məşğul olan həkim, ilk növbədə düzgün diaqnoz qoymalı və müalicə etdiyi xəstəliyin dinamikasını qiymətləndirməlidir.

Bir xəstəliyin müalicəsinə inteqrasiya olunmuş bir şəkildə psixoterapiya hər hansı digər müalicə metodu kimi yalnız seçim məsələsi olmalıdır.

Mövcud psixoterapiya metodlarının, əgər sonuncusu vaxtında tətbiq olunarsa və xəstəliyin mexanizmi, klinikası və dinamikası nəzərə alınarsa heç biri başqalarından üstün deyil. Psixoterapiyanın "yaxşı" və ya "pis" üsulları yoxdur. [6, s. 43].

Psixoterapiya, klinik tibbin hər hansı bir sahəsi kimi, üç sütun üzərində qurulmalıdır: klinika, bilik (nəzəriyyə) və peşəkarlıq.

Yerli psixologiyada həyəcan da ənənəvi olaraq ağır somatik və neyroskopik xəstəliklər nəticəsində yaranan bəlanın təzahürü və ya zehni bir travmanın nəticəsi olaraq qəbul edilmişdir. Şəxsiyyət əlaməti olaraq qorxu və həyəcan, fəaliyyətin səmərəliliyinə birmənalı təsir göstərir, bu, qorxu səviyyəsinin müəyyən bir şəxs üçün optimal vəziyyətə uyğunluğu ilə müəyyən edilir. Bütövlükdə təsir ya səfərbər ola bilər, ya da qeyri-mütəşəkkil ola bilər və narahatlıq vəziyyəti nə qədər güclü olarsa, qeyri-mütəşəkkil təsiri də o qədər yüksəkdir. Qorxu və həyəcan çox vaxt subyekt tərəfindən tanınmır və hərəkətlərini şüuraltı səviyyədə idarə edə bilər [1, s.212]. Qorxu davranışının "kənardan" müşahidə edilməsi, əksər hallarda qorxunun bir insanın davranışındakı digər təzahürlərlə maskalana bilməsi səbəbindən çətindir. Təcrübədə bir uşağın nevrotik sapmalardan əziyyət çəkdiyini və ya davranış problemlərinin xarakter əlamətləri və tərbiyə çatışmazlığı ilə izah edilib-edilmədiyini birmənalı şəkildə anlamaq çətindir. Güman edilir ki, məktəb müəllim-psixoloqu belə hallarda valideynlərə və müəllimlərə ən azı köməyə ehtiyacı olan uşağın vəziyyətini pisləşdirməməsinə kömək edən müəyyən psixoloji, diaqnostik və psixoterapevtik iş aparır. Və burada art terapiya üsulları mütəxəssisin korreksiya fəaliyyətində qiymətli bir vasitədir. Müxtəlif yaradıcı fəaliyyət növləri mühüm psixoprofilaktik və inkişaf təsirlərinə sahib ola bilər, uşaqların qorxularını, yüksək emosional stressi azalda bilər.

Art terapiya yalnız şifahi ünsiyyətə söykənən psixoterapevtik işin digər formaları arasında açıq üstünlüklərə malikdir. İbtidai məktəb uşaqlarının "mənlik" proseslərinin özünü inkişaf etdirmə, özünü bilmə, sənət vasitəsi ilə özünü terapiya, özünü korreksiya və mənfi psixo-emosional vəziyyətlərin qarşısının alınması proseslərinin aktivləşməsinə öz töhfəsini verir [7, s. 17].

Art terapiya əsasən şifahi olmayan ünsiyyət vasitəsi olduğundan, bu təsir forması, kifayət qədər yaxşı danışmayan, duyğu və təcrübələrini şifahi şəkildə təsvir etməkdə çətinlik çəkən və ya əksinə, danışma ünsiyyəti ilə həddən artıq əlaqəli olanlarla işləmək üçündür.

Hər hansı bir uşaq art-terapevtik işlərdə iştirak edə bilər, çünki ondan vizual fəaliyyət üçün hər hansı bir bədii bacarıq və qabiliyyət tələb olunmur. Bu cür iş ən çox uşaqlarda müsbət emosiyalara səbəb olur, daha aktiv həyat mövqeyinin formalaşmasına, təşəbbüs və laqeydliyin aradan qaldırılmasına kömək edir.

Konvensiyauşağın müstəqil və bütün hüquq və azadlıqlara sahib bir şəxs kimi tanınması və onun maraqlarının dövlətin, cəmiyyətin, ailənin, dinin ehtiyaclarından üstün tutulması kimi bir sıra sosial-hüquqi prinsipləri əhatə edir. Konvensiya uşaqların iqtisadi, sosial, mədəni və hətta siyasi hüquqlara malik olmasını vurğulayır. Uşaq şəxsiyyətinin ahəngdar hərtərəfli inkişafı ücünonun ailədə qarşılıqlı sevgi və anlayış mühitində böyüməsi şərtdir. Uşaq böyüdükdə cəmiyyətdə müstəqil yaşamağa tam hazır olmalı və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində elan olunan ideallar, xüsusən də sülh, ləyaqət, tolerantlıq, azadlıq, bərabərlik və həmrəylik xüsusiyyətlərinə malik şəxsiyyət olmalıdır.İstirahət və mədəni həyat hüququ BMT-nin Uşaq hüquqlarıKonvensiyanın 31-ci maddəsində öz əksini tapmişdır:

1. İştirakçı dövlətlər uşağın istirahət və asudə vaxtını, yaşına uyğun oyun vətədbirlərində iştirak etmək, mədəni həyatda sərbəst iştirak etmək və incəsənətlə məşğul olmaq hüququnu tanıyırlar.
2. İştirakçı dövlətlər uşağın mədəni və yaradıcı həyatda tam iştirak hüququna hörmət edir və bunu təşviq edir, mədəni və yaradıcı fəaliyyət, istirahət üçün müvafiq və bərabər imkanların verilməsində iştirak edir [2].

Asudə vaxtdan istədikləri kimi istifadə etmək, istirahətə, gəzintiyə, ekskursiyalara, muzeylərə getmək və yarışlarda iştirak etmək uşaq hüquqlarına daxildir. Bu tədbirlər könüllülük əsasında qurulur, ailə, təhsil müəssisələri, ictimai təşkilatlar, yaradıcılıq birlikləri, cəmiyyətlər, fondlar, əmək kollektivləri ilə birlikdə aparılır.

Asudə vaxtın təşkili məktəbin apardığı ümumi tərbiyə prosesinin tərkib hissəsidir. Bu tədbirlər "sinifdənxaric iş" və "məktəbdənkənar iş" formalarında mövcuddur. Sinifdənxaric iş dərsdən əvvəl və ya dərsdən sonra məktəb tərəfindən, şagird özünüidarə təşkilatları, uşaq və gənclər təşkilatlarının rəhbərləri tərəfindən həyata keçirilir.

Sinifdənxaric işlər zamanı şagirdi gələcək əmək fəaliyyətinə hazırlamaq, əqli, əxlaqi, fiziki, estetik, iqtisadi, və ekoloji cəhətdən tərbiyələndirmək və onu insan hüquq və azadlıqlarina hörmət əsasında yetişdirmək vacibdir. Məktəb rəhbərliyi sinifdənxaric və məktəbdənkənar işlərin vahid sistemdə birləşdirməyi bacarmalı və bu tədbirləri bilavasitə təkminləşdirərək onların məzmununu zənginləşdirməlidir. Bu baxımdan ictimai-faydalı və məhsuldar əməyin şagirdlərin dönyagörüşünün formalaşmasına, yaradıcı təfəkkürün inkişafına zəmin yaratmış olur.

Bədii mətnlərin oxunması, rollu oyunlar, səyahətlərin təşkili, bayram tədbirlərinin kecirilməsi, müvafiq soyqırım və matəm günlərinin qeyd olunması, müsabiqə və yarışların kecirilməsi, ekskursiya və turizm işlərinin təşkili kimi tədbirlər şagirdlərə milli özünüdərk, yüksək milli və bəşəri dəyərlər aşlayır. Bununla yanaşı onlarda həyatda, cəmiyyətdə, qarşılıqlı münasibətlərdə normal davranış qaydalarını başa salır, aşkarlıq və demokratik fikirləri stimullaşdıraraq uşaq şəxsiyyətinin formalaşmasinda başlıca yer tutur.

Uşaqların müxtəlifmüsabiqələrdə və layihələrdə iştiraka həvəsləndirərək onlarda yaradıcı təfəkkürü inkişaf etdirmək, maddi və mənəvi dəyərlərin formalaşdırmaq əsas məqsədlərdəndir. Yaradıcılıq olmadan nə inkişaf etmiş iqtisadiyyat, nə də inkişaf etmiş bir mədəniyyət olmayacaq. Yaradıcılıq, hər şeydən əvvəl uşağın özünü ifadə etmə ehtiyacını ödəmək, üfüqünü genişləndirmək və zehni imkanlarını artırmaq üçün vacibdir.Bu müsabiqələr onu gələcək həyatında rəqabət aparmaq qabiliyyətini inkişaf etdirir belə ki,onsuz müasir dünyada uğur qazanmaq çox çətindir.

Məktəbdənkənar tərbiyə işləri bir qayda olaraq dərsdən sonra, məqsədyönlü və planlaşdırılmış şəkildə həyata kecirilir. Bu tədbirləri adətən məktəbdənkənar təhsil müəssisələri həyata kecirir. Məktəbdənkənar təhsil uşaq, yeniyetmə və gənclərin maraq, meyl və bacarıqlarının, intelektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şərait yaradır, onların istirahətinin, asudə vaxtlarının mənalı təşkilini təmin edir [3]. Bütün bu işlər könüllülük əsasında qurulur, ailə, təhsil müəssisələri, ictimai təşkilatlar, yaradıcılıq birlikləri və s. tərəfindən həyata kecirilir [4].

Dərnək məşgələləri, mədəni–kütləvi tədbirlərin, idman yarışlarının keçirilməsi, təlimati-metodiki işlər məktəbdənkənar təhsil müəssisələrinin əsas istiqamətləridir. Uşaq yaradıcılıq mərkəzləri tərəfindən il boyu kecirilən bayram şənlikləri, ekskursiyalar, müsabiqələr, idman yarışları, beynəlxalq səviyyəli tədbirlərdə şagirdlərin pulsuz və ya güzəştli şəkildə iştirakı təmin edir.Məktəbdənkənartəhsil müəssisəsi kimi "Ekoloji tərbiyə və təcrübəcilik" mərkəzlərində asudə vaxtın səmərəli təşkili ilə yanaşı şagirdlərin ekoloji mədəniiyətinin artırır, ətraf mühitə humanist münasibəti formalaşdırır, onların əməli bacarıq və vərdişlərə yiyələnmasinə şərait yaradır.Ümumiyyətlə istər məktəbdənkənar iş, istərsə də sinifdənxaric iş şagird şəxsiyyətinin formalaşması və məktəbdə təhsil keyfiyyətinin artmasına xidmət edir.

Bundan əlavə məktəbdə təlim prosesində qazanılmış bilik, bacarıq və vərdişlər daha da zənginləşir, şagirdlərin müstəqilliyini, təşəbbüskarlığını artırır, meyl və qabiliyyətlərini inkişaf etdirir. Bu tədbirlərin düzgün təşkili şagirdi həmçinin küçənin mənfi təsirlərindən qoruyur, ondadostluq, yoldaşlıq kimi əxlaqi keyfiyyətləri inkişaf etdirir, yaşıdları ilə münasibətlərin qurulmasında əvəzsiz rol oynayır. Audə vaxtdan düzgun istifadə edən uşaq, fiziki cəhətdən saglam böyüyür, gələcəkdə peşə seçimində çətinlik çəkmir, belə ki, bu tədbirlər həmçinin onun fərdi qabiliyyətlərinin inkişafina küməklik göstərir.

Asudə vaxtin keçirilməsində yerindən və məznunundan asılı olaraq fərdi iş, qrup halinda iş və kollektiv iş formaları mövcuddur. Tədbirin mövzusu, planı, icra vaxtı, yeri və xarakteri müəyyənləşdirildikdən sonra onun hansı formada keçiriləcəyi təcrübəli müəllim tərəfindən qərarlaşdırılır. Tədbir başa catdqdan sonra ümumiləşdirmələr etmək, nəticə cıxarmaq və bu əsnada müvafiq təkliflər hazırlamaq vacibdir.Kecirilən tədbirlərin müvəfəqiyyətli olması üçün tərbiyənin ümumi prinsipləri rəhbər tutularaq həyata kecirilməlidir. Ümumdünya Uşaq Hüquqları Bəyənnaməsinə əsasən uşaqlara asudə vaxtını istədiyi kimi keçirmək hüququ vardır. Bu hüquqlara məktəblə yanaşı ailədə də riayət olunmalıdır.

Şagird asudə vaxtını kompyuterdə oyun oynamaga serf edirsə, bu onun ən ali haqqıdır. Ətrafdakılar irad tutusalar belə, bu iradlara reaksiya vermək və ya verməməkuşağın öz əlindədir.Kompyuteroyunlarını neqativ bir hal kimi qəbul etmək lazım deyil, sadəcə olaraq uşaqkompüter oynamaqdan başqa bir şey etmirsə, bu onun üçün neqativ bir hala çevrilir, belə ki, bu onun gələcəkdə asosial olmasına və özünə qapanmasına səbəb ola bilər. Sadəcə kompüter deyil, hər hansı başqa bir fəaliyyət növünü dəgötürsək, məsələn, kitab oxumaq, musiqiyə qulaq asmaq, hətta idmanla məşgul olmaq, bütün bunlara həddindən artıq vaxt ayrılarsa uşaga eyni dərəcədə zərər vura bilər. Bu prosesdə valideyinin nəzarəti çox vacibdir, belə ki, məktəbin gördüyu işin davamı olaraq valideyin də uşağa bilavasitə təsir edə bilər ona məhdudiyyətlər qoya bilər. Lakin bunu edərkən azad fikirli, ahəngdar bir insan yetişdirdiyini unutmamalıdır, onun hüquqlarını pozmamalıdır. Uşaq kompyuterdə oynamaq istəyirsə ona bu imkanı vermək lazımdır, çünki qadağalar insanı daha böyuk pozuntulara təhrik edir. Uşağa serbestlik verilərsə, qərarı özu verərsə, bir necə vaxtdan sönra vəziyyətdəyişiləcək, cünki, hec bir adekvat insan bütün gününü kompyuter arxasında keçirdə bilməz. “Mədəni həyat" və “İstirahət” anlayışlarıhəm məktəb tərəfindən həm də valideyin tərəfindən düzgun izah olunmalı, istiqamətlənməlidir. Mədəni həyat dedikdə insanın öz xalqının, millətinin və bütövlükdə bəşəriyyətin mədəniyyəti ilə qarşılıqlı əlaqəsidir.Sinifdənxaric və məktəbdənkənar tədbirlərin məzmunu daim təkminləşməli, bütün bu işlər üzvi surətdə əlaqələndirilməlidir. Lakin sirr deyilki, bəzən bu tədbirlərin kecirilməsində qanunsuzluqlar baş verir. Məsələn, şagirdlərin tətil zamanı məktəbə konsultasiya və ya sinif təmizliyi üçün gəldikləri faktıdır. Bu cür halların qarşısının alınması ücün şagirdlərə onlarin hüquqlarını izah etmək bu sahədə məlumatlandırıcı iş aparmaq vacibdir.

Şagirdlərin öz hüquqlari haqqinda məlumat dərəcəsini yoxlamaq ücün Bakı şəhərindəki ümumitəhsil məktəblərin birində keçirilən experiment zamanı məlum olmuşdur ki, şagirdləristirahət və mədəni həyat hüququ barədə məlumatları yox dərəcəsindədi və onlara bunu izah etdikdə, bu hüququnun məktəb tərəfindən daha çox pozuldğu aşkar olunmuşdur. Çox güman ki, bu istirahət forması seçimi ilə bağlı uşağın fikirlərini dinləmək istənilməməsi ilə əlaqədardır. Bu hal valideynlər tərəfindən də təkrarlanır, yəni onlar uşağın əvəzinə onun hansı idman və ya sənət növü ilə məşğul olacağına qərar verirlər. Və beləliklə uşağın fikir azadlığı hüququnu pozmuş olur [5].

İstirahət və mədəni həyat hüququ problemini həll etmək üçün ailə və məktəb uşaqlara istirahət formasını seçmək hüququ verməli, sinifdənxaric və məktəbdənkənar saatlarında müxtəlif növ layihələrdə iştirak etmələrinə şərait yaratmalı, siyasi və hüquqi mədəniyyətlərinin artırılmasını dəstəkləməli və bu zaman uşağın şəxsiyyətinin formalaşmasına xüsusi diqqət yetirilməlidirlər. Təşkilati vəzifələrin yerinə yetirilməsində təşkilatçının şəxsi keyfiyyətləri, onun

sadə mehriban, gülərüz, həssas, qayğıkeş olması vacibdir. O tədbirlərin iştirakçiları ilə əlaqələrini elə qurmalıdır ki, görülən işlərin səviyyəsi və səmərəsi pedaqoji tələblərə uygun olsun. Bununla yanaşı təşkilatçı yaradıcı şəxs olmalıdır və tədbirlərin məzmununa yaradıcı yanaşmanı təmin etməlidir.

Uşaqlar ölkənin gələcəyidir. Dövlətin prioritet vəzifələrindən biri də mədəni və yaradıcı fəaliyyət ücün uşaqlara bərabər şəraitin yaradılmasıdır. Sağlam, yaradıcı, istedadlı, mədəniyyətli bir nəsil yetişdirmək istəyiriksə, uşaq düşərgələrinin,sənət və musiqi məktəblərinin vəziyyətini yaxşılaşdırmaq, uşaqlarin bu məktəblərdə təhsilini əkcatan etmək,uşaq tamaşaların qiymətlərini münasibləşdirmək, ekskursiyalarin təşkili zamanı aztəminatlı ailələrdən olan uşaqlara güzəştlər təklif edərək, onara bərabər imkanlar verilməsi kimi məsələlər aktuallığını qoruyur.

ƏDƏBİYYAT

1. http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_noyabr2009/97507.htm
2. BMT Uşaq Hüquqları Konvensiyası
3. Azərbaycan Respublikası Təhsil Nazirliyinin təlimatı
4. R.Hüseynzadə, K.Qəhrəmanova Tərbiyə Hüquqi-Normativ əsasları, Bakı: 2015
5. M. İsmixanov Pedaqogikanın əsasları, Bakı: 2017
6. Бабаева Ю.Д. Войскунский А.Е. Смыслова О.В. Интернет: воздействие на личность. Москва: 2000

XÜLASƏ

Məqalədə ümumitəhsil məktəblərində şagirdlərin asudə vaxtinin sinifdənxaric və məktəbdənkənar formada təşkilindən bəhs olunmuşdur. Bu tədbirlər uşaq şəxsiyyətinin tərbiyəsinə yönəldilməklə yanaşı, onun özünüdərk, mədəniyyət və özünüifadənin bütun metodlarını və formalarını özündə cəmləşdirir. Şagirdlərin asudə vaxt hüququ məktəb vəvalideyinlər tərəfindən pozulduğuna görə bu hüquqlar məqalədə xüsusi vurğulanmışdır.

АННОТАЦИЯ

В статье рассматриваются вопросы организации досуга учеников в общеобразовательных школах в форме внешкольных и внеклассных мероприятий. Эти мероприятия направлены не только на воспитание личности ребенка, а, также формируют самоосознанность, культуру и ряд форм и методов самовыражения.Так как право на отдых учащихся нарушаются школой и родителями, они были особо затронутыв статье.

SUMMARY

The article is devoted to the organization of leisure of students outside school and extracurricular activities in secondary schools. These activities not only focus on the education of the child's personality, but also integrate the child's self-awareness, culture and self-awareness into all forms. The leisure of students was violated from the school and parents, what was specifically noted in this article.

NURƏDDİN KAZIMOVUN MİLLİ PEDAQOGİKA İDEYASI BAXIMINDAN TƏLİM, TƏRBİYƏ, TƏHSİL MƏSƏLƏLƏRİ

Aliyə Əliyeva
BDU-nun II kurs magistrantı
eliyevaaliye1@gmail.com

Açar sözlər: milli, təlim, tərbiyə, təhsil, məqsəd, vəzifə.
Key words: national, training, upbringing, purpose, duty.
Ключевые слова: национальный, обучение, воспитание, цель, обязанность.

Nurəddin Kazımov Milli pedaqogika ideyasının banisi hesab olunur. "Milli və ümumibəşəri dəyərlərə, o cümlədən respublikanın reallığına və keçmiş pedaqoji irsimizə əsaslanaraq müvafiq qanunauyğunluqlar üzə çıxaran və digər ölkələrin faydalı pedaqoji fikir və təcrübəsinə laqeyd qalmayan elmə Milli Pedaqogika deyilir". Milli pedaqogikanın tədqiqat mövzusunu təlim, tərbiyə və təhsil məsələləri, yəni pedaqoji proses təşkil edir. Yalnız Azərbaycan xalqının olan Milli pedaqogika sahəsindəki elmi yeniliklər xalqımızın milli-mənəvi sərvətinə çevrilmişdir. Respublikamızda təhsil islahatlarının müvəffəqiyyətli bir şəkildə həyata keçirilməsi və Respublikamızın müstəqilliyinə xidmət etməsi Milli pedaqogikanın əsas məqsədini təşkil edir. Milli pedaqogika sahəsində təlim, tərbiyə, təhsil sahəsində hər birinin ayrı-ayrılıqda məqsədi deyil, hər üçünün umumi bir məqsədi olmalı, onların hər biri ümumi olaraq şagirdlərin əqidələrinə, dəyərlərinə uyğun bir şəkildə həyata keçirilməlidir. Təhsil, təlim və tərbiyə sahəsində olan bu ümumi məqsəd birliyi pedaqoji prosesi vacib edən əsaslı amillərdən ən başlıcası və ümdəsidir [1,s.5].

Pedaqogikada aktual olan məsələlərdən biri olan təlim-tərbiyə məsələləri cəmiyyətimizin əsasını təşkil edir. Pedaqoji elmin başlıca kateqoriyası, ikitərəfli pedaqoji proses olan, şagirdlərdə, tələbələrdə elmi dünyagörüşün formalaşmasına səbəb olan təlim prosesi öyrənənlər və öyrədənlər arasında qarşılıqlı bir fəaliyyətdir. Bəs təlim kateqoriyası nədir? Milli pedaqogikada təlim necə ifadə olunmuşdur? Milli pedaqogikada təlimin hansı vəzifələri vardır?

Milli Pedaqogikada təlim belə ifadə olunmuşdur: "Təlim-müəllimin məqsədyönlü, planlı və mütəşəkkil rəhbərliyi ilə şagirdlərin sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərə yiyələnmələri və bu zaman onların psixoloji qüvvələrinin inkişaf etdirilməsi və tərbiyə olunmaları prosesidir".

Milli Pedaqogikada təlimin aşağıdakı vəzifələri vardır:

1. Təlimin təhsilləndirici vəzifəsi
2. Təlimin tərbiyələndirici vəzifəsi.
3. Təlimin inkişafetdirici vəzifəsi

Təlimin vəzifələri (təhsilləndirici, tərbiyələndirici, inkişafetdirici) öyrədənlərin və öyrənənlərin birgə fəaliyyəti zamanı həyata keçirilir. Respublikamızı inkişaf etmiş dövlətlər səviyyəsini qaldırmaq, Respulikamızın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, sərhədlərimizin toxunulmazlığı xalqımızın başlıca qayğısını təşkil edir. Bu qayğıların, məqsədlərin həll olunması yalnız təlim-təhsil vasitəsi ilə həll etmək olar. Bütün təhsil müəssisələrində bu qayğılar əks olunur. Milli pedaqogikada təlimin məqsədi belə ifadə olunmuşdur: "Məzmunu milli və ümumibəşəri dəyərlərlə zənginləşmiş bilikləri, bacarıq və vərdişləri mənimsəmək yolu ilə Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını qorumağa, respublikamızı inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirmək təlimin əsas məqsədidir" [1, s.129].

Milli pedaqogikada təlim prosesi əsasən aşağıdakı mərhələlərdə həyata keçirilir:

1) yeni tədris mövzusunun qavranması 2) biliklərin, bacarıq və vərdişlərin əsasən başa düşülməsi; 3)biliklərin, bacarıq və vərdişlərin əsasən möhkəmləndirilməsi və tətbiqi; 4)təlimdə

müvəffəqiyyətə nəzarət və onun qiymətləndirilməsi. Bu mərhələlərin hər biri bir-biri ilə qarşılıqlı əlaqədə olurlar. Təlim üsulları isə təlimin mərhələlərinə uyğun olaraq həyata keçirilir. Milli pedaqogikada təlim üsulunun mahiyyəti elə ifadə olunmuşdur: "Təlim mərhələlərinə uyğun olaraq müəllimin rəhbərliyi altında şagirdlərin müəyyən biliklərə, bacarıq və vərdişlərə yiyələnməsi, tərbiyə olunmaları və inkişaf etmələri yollarına təlimin üsulları deyilir" [1, s.167].

Tərbiyə hər bir cəmiyyət üçün vacib olan məsələlərdən biridir. Cəmiyyətin əsası, özülü olan tərbiyə mövzusu həmişə-istər keçmişdə, istər indiki dövrdə, istərsə də gələcək zamanda həmişə aktual mövzu olaraq qalmış, qalır və qalacaqdır. Nurəddin Kazımovun fikrinə görə təhsil prosesində ki, tərbiyə yalnız "Milli tərbiyə olmalıdır". Milli tərbiyə isə yalnız milli ideologiya və dövlətçilik ənənələri ilə əsasında yaradılmalıdır.

Ümumilli liderimiz Heydər Əliyev demişdir: "Gənclərimiz milli ruhda tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".

Nurəddin Kazımova görə dövlət müstəqilliyimiz möhkəmləndirilməsinin əsas yolu tərbiyə məsələsinə diqqət yetirilməli, insanlar yeni pedaqoji təfəkkürə, yeni düşüncə tərzinə yiyələnməli, adamlarda milli mənlik şüuru möhkəmləndirilməlidir. Mənlik şüuruna malik olmayan insan nə özünə, nə xalqına, nə də cəmiyyət üçün faydalı olmayacaq. Milli pedaqogikada tərbiyənin məqsədi belə ifadə edilmişdir: "Davranışla əlaqədar olan milli və ümumbəşəri dəyərlərə yiyələnmək yolu ilə respublika müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumağa, ölkəmizi inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirməyə kömək etmək tərbiyənin məqsədidir. Ölkəmizin indiki durumunda tərbiyədən gözlənilən bu nəticə ümumi, qlobal, strateji səciyyə daşıyır ".

Tərbiyənin məzmununu milli və ümumibəşəri dəyərlərin məcmusunun insanların davranışında, hərəkətlərində ifadə olunması təşkil edir. Milli pedaqogikada tərbiyə prosesi belə ifadə olunmuşdur: "Tərbiyə davranışla bağlı olan milli və ümumibəşəri mənəvi dəyərlərin müəyyən mühitdə adamlara tərbiyəçi tərəfindən məqsədyönlü, planlı və mütəşəkkil formalaşması prosesidir".

Hər zaman milli və mənəvi keyfiyyətlərin qorunmasına fədakarlıq göstərən Nurəddin Kazımov tələbələrini milli mənəvi keyfiyyətlərlə tərbiyə etməyə çalışmışdır. Onun tez-tez işlətdiyi bir kəlam var idi: "İnsan həyatda öz yerini düzgün tənzimləməyi bacarmalıdır, dünəninə, bu gününə və sabahına kişi kimi cavab verməyi bacarmalıdır, haqqı nahaqqa qurban verməməlidir. Adam xudbin və paxıl olmamalıdır" [2, s.45].

Nurəddin Kazımov tərbiyənin məqsədini belə ifadə etmişdir: "Davranışla əlaqədar olaraq olan mənəvi keyfiyyətlərin mənimsənilməsi yolu ilə Azərbaycanın dövlət müstəqilliyini, sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü qorumağa, respublikamızı inkişaf etmiş dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirmək tərbiyənin məqsədidir". Tərbiyənin məqsədi özündə gənclərin təlim və tərbiyəsi ilə bağlı müəyyən keyfiyyətləri birləşdirir:

1. Gənclərdə milli və ümumibəşəri dəyərləri özündə birləşdirən mənəvi keyfiyyətlər aşılamaq;
2. Respublikamızın müstəqilliyini müdafiə etmək;
3. Torpaqlarımızı göz bəbəyi kimi qorumaq;
4. Dövlətimizi inkişaf etmiş dövlətlər səviyyəsinə qaldırmağa nail olmaq və b.

Nurəddin Kazımovun bu qənaətinə görə gənclərin təlim və tərbiyəsinin məqsədi dedikdə, pedaqoji işçilər, tərbiyəçilər və valideynlər milli və umumibəşəri dəyərləri özündə ehtiva edən mənəvi keyfiyyətləri gənc nəslə ötürməli, onları vətənpərvər- müstəqilliyimizi qoruyan, torpaqlarımızın hər qarışını göz bəbəyi kimi qoruyan, Respublikamızı inkişaf etmiş ölkələr səviyyəsinə qaldıra biləcək şəxsiyyətlər kimi tərbiyə etməli olduğu nəzərdə tuturdu.

Respublikamızın gələcəyinin vətənpərvər gənclərimizdən asılı olduğunu bilən görkəmli pedaqoqumuz gənclərimizin təhsil almasına cani könüldən istəmişdir. Professorun fikrincə, təhsil 2 əsas məqsəddən asılı olmalıdır:

1. Öz ixtisasının dərindən bilən mütəxəssis hazırlamaq- öz ixtisasını dərindən bilən hər bir kadr cəmiyyət üçün, insanlıq üçün xüsusi bir yer tutur. İnsan yalnız elmlərə, biliklərə yiyələnmək sayəsində yüksək mərtəbələrə yüksələ, cəmiyyətimizin inkişafına da xüsusi bir şəkildə köməklik göstərə bilər. Bunun üçün də təhsil müəssilərində təhsil alan hər bir vətəndaş öz ixtisasını dərindən öyrənməlidir.
2. Cəmiyyət üçün əsl vətəndaş yetişdirmək-Təhsilin, tərbiyənin başlıca məqsədi cəmiyyətimiz üçün layiqli, milli və mənəvi keyfiyyətlərə malik olan, vətənpərvərlik ideyasına sadiq olan, elmli bilikli, savadlı cəmiyyət üçün yararlı olan şəxsiyyətlər yetişdirməlidir.

Milli pedaqogikada təhsil belə ifadə olunmuşdur: "Təhsil sosial-iqtisadi həyatın tərkib hissəsi kimi, müvafiq tədris müəssisələrində müəyyən müddətdə məqsədyönlü, planlı və mütəşəkkil, öyrənilən, tərbiyə və psixoloji inkişaf imkanlarına malik olan, təlimin bir halda zəruri şərti, digər halda gedişi, üçüncü halda isə nəticəsi kimi özünü göstərən sistemləşdrilmiş biliklərin, bacarıq və vərdişlərin, habelə mənəvi keyfiyyətlərin məcmusudur" [1, s.98].

Təhsilin məqsədi məsələsinə də özünəməxsus bir şəkildə yanaşan Nurəddin Kazımov Milli Pedaqogikada təhsilin məqsədi belə ifadə etmişdir: "Təhsilin məqsədi-milli və ümumibəşəri dəyərlərə yiyələnmək yolu ilə respublikamızın dövlət müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumağa, ölkəmizi inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan Azərbaycan vətəndaşlarının yetişdirilməsindən ibarətdir".

Professor Nurəddin Kazımov novator pedaqoq kimi pedaqogikanın məlum tərbiyə və təlimin vəhdəti müddəasını əsas götürərək insanı düzgün yola çağıran, yolundan azmağa qoymayan, vətən yolunda fəda olmağı bacarmaq, ləyaqəti qoruyub saxlamaq, böyüklərə hörmət bəsləmək, zəhməti qiymətləndirmək, halallıqla çörək yemək, mərhəmətli, etiqadlı olmaq və s. Kimi tərbiyəvi prinsipləri ön plana çəkir [3, s.113].

ƏDƏBİYYAT

1. N. Kazımov. Məktəb pedaqogikası. Bakı, 2011
2. Vidadi Bəşirov. "Pedaqoji aləm" jurnalı. Bakı. 2006.
3. Sadıqov F.B. Əliyeva Z. Mollayeva A. "İki əsrin sönməz pedaqoji məşəli", Bakı, 2007
4. N.Kazımov. Mərhələli tərbiyə nəzəriyyəsi. Bakı, 2007
5. N. Kazımov. Ali məktəb pedaqogikası. Bakı, 2006
6. http://www.dqdk.gov.az/az/view/news/4910/heyder-eliyev-ve-milli-menevi-deyerlerimiz

XÜLASƏ

Nurəddin Kazımov Milli pedaqogika ideyasının banisi hesab olunur. Milli pedaqogikanın tədqiqat mövzusunu təlim, tərbiyə və təhsil məsələləri, yəni pedaqoji proses təşkil edir. Pedaqogikada aktual olan məsələlərdən biri olan təlim, tərbiyə məsələləri cəmiyyətimizin əsasını təşkil edir.

АННОТАЦИЯ

Нуреддин Казимов считается основоположником идеи народной педагогики. Предметом исследования отечественной педагогики являются проблемы обучения, воспитания и образования, то есть педагогического процесса. Обучение и воспитание, являющееся одним из важнейших вопросов в педагогике, является основой нашего общества.

SUMMARY

Nureddin Kazimov is considered the founder of the idea of national pedagogy. The research topic of national pedagogy is the issues of training, upbringing and education, ie the pedagogical process. Training and education, which is one of the most important issues in pedagogy, is the basis of our society.

UŞAQLARIN AİLƏDƏ XEYİRXAHLIQ VƏ ƏMƏK TƏRBİYƏSİ

Jalə Alıyeva
BDU-nun II kurs magistrantı
Elmi rəhbər: dos. Mehparə Quliyeva
jale.aliyeva1995@mail.ru

Açar sözlər: xeyirxahlıq, əmək, əşya, adət-ənənə, hörmət.
Ключевые слова: добро, труд, собственность, традиция, уважение.
Keywords*:* goodness, labor, property, tradition, respect.

Əmək təhsili Azərbaycan ailə ənənələrində xüsusi yer tutur, çünki uşaq doğulandan bəri liderlik edir. Tərbiyə prosesində bütün ailə üzvləri iştirak edir, söhbətlərdən, şəxsi nümunədən, təşviqlərdən və s. İstifadə edirlər. Pedaqogikanın ənənələri, adətləri, ayinləri, ritualları, oyunları, etnoqrafik və tarixi materialları, folkloru üstünlük təşkil edir, etno-pedaqoji xarakter daşıyır azərbaycanlıların mirası. Bir Azərbaycan ailəsində əmək və mənəvi tərbiyə həmişə vacib İslam postulatları ilə əlaqələndirilir, buna görə ata ailədə əsasdır və o, tərbiyə prosesində aparıcı rol oynayır. Ata, (qəbilənin ağsaqqalı), ailədə əsas olan, böyük insanın hörməti, itaət etməsi və münasibətləri ilə əlaqəli adət və ənənələrin daşıyıcısıdır. Ənənələri qorumaq, bütün ailə üzvlərinin, xüsusən də uşaqların müqəddəs borcudur. Çalışqan gənclərin tərbiyəsi ailənin və cəmiyyətin ən vacib vəzifələrindən biridir. Əksəriyyət, bu kənd yerlərinə aiddir, burada ən başlıcası əmək ənənələrinin köçürülməsidir [9, s. 105-106].

Bir Azərbaycan ailəsində bir uşağın işləməsində başlıca amil, əlbəttə ki, yaşından və fiziki xüsusiyyətlərindən asılı olaraq, öz əmək nümunəsinin nümayişidir. Uşağın əmək şüurunun formalaşmasında aparıcı rol xalq pedaqogikasının kəlamlar, atalar sözləri, nağıllar, münasibətlər, şeirlər, bayan, mahnılar - uşaqların dünyagörüşünü özünü inkişafa və əmək və mənəvi ənənələri dərk etməyə sövq edən hər şeyə aiddir. Azərbaycan təhsil praktikasında insanı həyat və işə hazırlamaqda başlıcası uşağın bacarıqlarını, uşaq pedaqogikasının bilik və bacarıqlarını doldurmaqdır, onsuz cəmiyyətə uyğunlaşa bilməyəcək və böyüklər həyatında uyğunlaşmaq və mövcud olmaq üçün vasitələrə sahib ola bilməz və s. Böyüdükdə uşağın tədricən maddi və mənəvi dəyərlər istehsal etməsi və çoxalması lazımdır, buna görə də ağsaqqalların göstəriş və təlimlərini qəbul edib gələcək nəsillərə ötürməyə çalışmaq lazımdır. Məhz bu yanaşma, Azərbaycan ailəsində uşağın ictimailəşməsinə kömək edir.

Doğuşdan bəri uşaq sevgi və mehribanlıqla əhatə olunur. Əlbəttə ki, bütün ailələr buna tam şəkildə nail ola bilmirlər, lakin siyasi və iqtisadi vəziyyətə baxmayaraq, adət və ənənələrə hörmət edən valideynlərin əksəriyyəti ailə tərbiyəsində xalq təcrübəsindən istifadə edirlər. Doğuşdan etibarən uşaq lullabies oxuyur, nağıllar oxuyur, dünyası, təbiəti ilə tanış olur, bu da erkən yaşlarından uşaqlıq dünyagörüşünün formalaşmasına təsir göstərir. Əmək tərbiyəsi məqsədi ilə uşaqlara valideynlərinə bir növ zinət əşyaları təqdim etmək, yemək yedikdən sonra qab-qacaq təmizləmək, heç olmasa bəzi paltarlarını öz başlarına qoymaq və ya məsələn əşyalarını və ya oyuncaqlarını təmizləmək tapşırılır ki, bu da uşağın müstəqillik və məsuliyyət inkişafına kömək edir. Azərbaycan ailəsində təhsilin əsas istiqaməti iqtisadi və iqtisadi təhsildir. Beləliklə, məsələn, qızlar ev və ailə əşyalarının təşkili və saxlanması ənənələrinə cəlb olunurlar. Oğlanlar üçün qazanc və ailə biznesinin aparılması vasitələri və metodlarına sahib olmaq ənənələri müəyyən edilmişdir.

Əyalət şəhər və kəndlərinin bir çox ailəsində, uşaq böyüklər kimi düşünə və hərəkət edə bilməsi üçün valideynlərinin sahib olduğu sənətkarlıqlara çoxdan öyrəşmişdir. Yetkinlik yaşına çatdıqda və öz növünün ağsaqqalı olanda oğlanlara əlavə olaraq nəyə uyğun ola biləcəyi və gələcəkdə nə kömək edə biləcəyi barədə qərar qəbul etmək öyrədildi. Q. Volkovun fikrincə, əmək

gənc nəslin fiziki, əqli inkişafı və mənəvi yaxşılaşdırılmasında əsas amildir. Lakin alim insanların əməyin yalnız sosial rolunu qiymətləndirməməsini, həm də onun psixoloji əhəmiyyətini vurğuladığını, əməyin insanlara mənəvi və mənəvi zövq verdiyini qeyd edir və yalnız insanın əməyi prosesində ləyaqət, əməksevərlik, məsuliyyət və məsuliyyət hisslərini aşılayır. və s. [4, s. 69].

N. Pçelintseva, "Kəndli bir Azərbaycan ailəsində uşaq və yeniyetmələrin yetişdirilməsi" əsərində qeyd edir ki, bəzi ailələrdə uşaqlar arasında vəzifə bölgüsünün fərqli qaydası məqbuldur, lakin, bir qayda olaraq, yetkinlər erkən yaşlarından uşaqlarda məsuliyyətli bir münasibət inkişaf etdirməyə çalışaraq vəzifələrin icrasını yaxından izləyirlər. öz vəzifələrinə [9, s. 107]. Azərbaycan ailə münasibətlərinin öyrənilməsi ailədəki iş yükünün kişi və qadın arasında, daha sonra qız və oğlan arasında qeyri-bərabər paylanması barədə danışmaq imkanı verir.. Təhlil göstərir ki, qızlar daha çox iş yükü və məsuliyyət alırlar, onlara daha çox ev işləri verilir (təmizlik, yemək bişirmək).

Kənd yerlərində qızların su kampaniyası problemi xüsusilə kəskin olur və çox vaxt bu yaxın yol deyil. 6-7 yaşından etibarən illər keçdikcə böyüdükləri kiçik qablarla su içirlər. 10–12 yaşlı qızlar yuyulmağa, təmizlənməyə, quş əti bəsləməyə və s. Cəlb olunurlar. 13-14 yaşlarından müstəqil olaraq sadə yeməklər və çay hazırlamağa başlayırlar [9, s. 107]. Bir çox ailədə qızlar, 15 yaşından sonra inəkləri sağaltmaq, analarına təndirdə çörək bişirmək və s. Kimi çətin işləri yerinə yetirirlər [9, s. 108]. Oğlanlarda əmək bacarıqlarının öyrədilməsi sonradan bəzi ailələrdə başlayır. Mal-qara yeminin hazırlanmasında kömək edirlər. Atalar 11-12 yaş arasındakı oğlanları mal-qara otlamaq üçün aparırlar.

Əvvəllər oğlanlar da qış vaxtı üçün odun yığırdılar. Tikinti və təmir işlərində oğlanların əməyindən də istifadə olunurdu [9, s. 108-109]. Bütün əmək vəzifələri yaşla əlaqədar qabiliyyətləri və fiziki hazırlıqları nəzərə alınmaqla, həmçinin müxtəlif bacarıqlara yiyələnmək məqsədi ilə uşaqlar arasında bölüşdürüldü. Azərbaycan ailəsində mənəvi tərbiyənin əsasını dini görüşlər təşkil edir. Onların meydana gəlməsi uzun bir tarix boyu, əsasən zərdüştilik və islamın postulatlarının təsiri altında baş verir. Qədim Azərbaycanın ən qədim abidələrindən biri Avestadır - Zərdüşttranın yaradılması (e.ə. 589-512-ci illər), atəşpərəstlərin "Zərdüştlük" bütpərəst dininin yaradıcısı. "Avesta", bir çox xalqların ortaq xatirəsi olan Şərq xalqlarının həyatını, görüşlərini və adət-ənənələrini əks etdirən müqəddəs kitablar toplusudur. "Avesta" nın məzmunu yaxşı və pisin mübarizəsinə söykənir, orada yaxşılar həmişə qələbə çalırlar.

Müəllif bütün insanlara xeyir diləyir. Yaxşı düşüncə, mehriban söz, yaxşı əməl Avestada əsas mənəvi meyarlardır. Xatirə siyasi, sosial, fəlsəfi, dini görüşlər, təlimatlar, humanist ideallar, pisliyə nifrət, yaxşılığa sevgi, işə çağırışları əks etdirir [1, s. 104]. Bu xatirə bir çox tarixi-pedaqoji və milli pedaqoji tədqiqat üçün əhəmiyyətli bir mənbədir. Əsrlər boyu Azərbaycan xalqının formalaşdığı, mənəvi və ideoloji mövqelərini formalaşdıran "Avesta" şərtsiz mənbəyidir və Şərq cəmiyyətinin mənəvi və əmək tərbiyəsinin əsaslarını mənimsəməyə kömək edir. Avesta bizi insanlığa, yaxşı əməllərə, pisliyə qarşı mübarizəyə, işləməyə, gözəlliklərə və parlaqlara səsləyir, insanlığı və müdrikliyi və həqiqətən yüksək və mənəvi əxlaqı təsdiqləyir. Bunu "Avesta" dan sitatlar təsdiqləyir: "Həqiqət! Nə qədər ki, mənim qəlbimdəsən, bu mənim xalqımın arasındadır","Əllərin, ayaqlarınız, ağlınız saleh işlər görməyə, dünyada müqəddəs bir dünya qurmağa hazır olun" [5, s. 22].

I.İlyin vurğuladığı kimi: "... düzgün əxlaq, vətənpərvərlik və milli tərbiyə ruhu dildə, mahnıda, duada, nağıllarda, müqəddəslərin və qəhrəmanların həyatında, şeirdə, milli tarixin mənəvi qavranılmasında tərbiyə olunur" [7, s. 201]. Ən yaxşı təsvir Türk Oğuz tayfasına kömək edən müdrik, dürüst və ədalətli bir insanın prototipindən bəhs edən qəhrəmanlıq dastanı "Kitabi Dədə Qorqud" (Qorqud). Adı Qorqud-ata (Qorqudun atası) idi və dediyi hər şey gerçəkləşdi. Məsləhət verdi və insanların problemlərini həll etməyə kömək etdi. Məsləhətləri olmadan heç bir qərar qəbul edilmədi, verdiyi əmrlərə tabe oldu və hörmətlə yanaşdı [6, s. 35]. Böyüklərə hörmət,

ailənin böyüklərinə hörmət - bunlar müasir həyatda öz davamını tapan qədim Azərbaycan ənənələridir və böyük ailə üzvlərinin müdrik göstərişləri müxtəlif çətinlik və çətinliklərin həllində faydalı olacaqdır.

Bu dastanda əxlaq tərbiyəsinə yol açan məsləhətlər və tövsiyələr təsvir edilmişdir. Dədə Qorqud öz təlimlərində demişdir: "Bu dünyada yalan bir söz var, olmamaq daha yaxşıdır", "İnsanlar hündür və güclü, nitqlərində təvazökar olsunlar", "İnsan həqiqətlərin müjdəsi olsun" [8, s. 25]. Bu sətirlərdə kömək etmək, müdriklik bölüşmək və şəxsiyyətin formalaşmasında əxlaqın postulatları olan dürüstlük, həqiqət, ədalət tərəfində olmaq arzusu.

Tədqiqatçı T.Mütəllimov "Azərbaycan etnosunun milli ruhunun formalaşmasının xüsusiyyətləri" adlı namizədlik dissertasiyasında milli ruhun Şərq və Qərbin müxtəlif dövrlərindən olan ziyalılar tərəfindən süni şəkildə yaradılan mücərrəd bir fəlsəfi kateqoriya kimi tərif olunur. Onun sözlərinə görə, "Milli ruh bir sıra sosial-tarixi formasiyalarda bir çox zərbələrə və sınaqlara məruz qalmış insanların mənəvi və xarakterik mənəvi-əxlaqi xüsusiyyətlərinin məcmusudur". [8, s. 33–34]. Valideynlərin fərdi nümunəsi ilə yanaşı, şifahi xalq yaradıcılığının xatırlatmaları bir Azərbaycan ailəsində əmək tərbiyəsi vasitəsi olmuşdur və qalmaqdadır. Bu, tarlada işləyərkən və digər ailənin bütün işləri ailənin daha şüurlu və məhsuldar işləməsinə təkan verən valideynlərin ifasında əmək mahnıları idi. Sübut olaraq aşağıdakı sətirləri vermək olar: İşçiyə - həmd, tənbəllərə - küfr. Ulduz ağardığı alnda, İnadkar bir öküz döydülər [2, s. 56].

Laqeydlik nümunələrinə uşaq folklorunda rast gəlinir. Pozitiv və mənfi əlamətlərin simvolik təcəssümü heyvanlardır: Hamının zövqünə - sevincli bir öküz, Yük yalnızca - tənbəl öküz. Sahibi - öküz tənbəllik edəndir.Hər zaman qəm və qəzəb var. Xalq pedaqogikasının təsirli vasitələrindən biri, uşaqlar üçün qısa, lakin məlumatlı pedaqoji təlimatlar verən atalar sözləri və sözlərdir: "Əmək həyatın bəzəyidir" [11, s. 174], "Əmək bəsləyəcək və öyrədəcək", "Zirə götürən ac olmayacaq", "İşçi ac olmayacaq, tənbəllər doymayacaq", "Bacarıqlı bir əl üçün bütün işlər asandır" [14, s. 50-51]. Əxlaqi bir istiqamətli atalar sözləri və məsəlləri xüsusi yer tutur: "Müəlliminə hörmət etməyən xoşbəxtliyi tanımaz", "Acı ağlayan ağsaqqallarına qulaq asmaz" [14, s. 46–47].

Bu nümunələr uşaqlara daima işləyən və ailəsini bəsləyə biləcək bir insanın bütün üstünlüklərini anlamağa kömək edir və xoşbəxtliyin ailədə, işdə və mənəvi dəyərlərdə olduğunu anlayır. Göstərişlər və tövsiyələr: "İnsanın gözü qarşısında danışma, əgər danışacağınız bir şey varsa, onun üzünə danış", "Düşənə kömək əlini ver", "Aydın bir ad qazanmağa çalış. Saf ad qazanmaq qəhrəmanın meylidir", [13,s. 80] vicdanlı, vicdanlı olmağı, həqiqətçi, çalışqan olmağı, mehribanlığın və şərəfin, cəsarətin və sevginin tərəfində olmağı öyrət, uşağın mənəvi keyfiyyətlərinin formalaşmasına birbaşa təsir göstərir. K. Uşinski, şifahi xalq yaradıcılığının tərbiyə və təhsil sahəsindəki xatirələrinin əhəmiyyətini dəfələrlə vurğulamış və nağılları birinci yerə qoymuşdur: "... düşünmürəm ki, heç kim bu işdə xalqın pedaqoji dahisi ilə rəqabət apara bilməz ... Mən bir xalq nağılını ... ədəbiyyatla uşaqlar üçün yazılmış bütün hekayələrin üstündən əlçatmaz qoydum" [10, s. 272].

Nağıllar Azərbaycan xalq pedaqoji düşüncəsinin aparıcı vasitəsidir. Bunun bariz nümunəsi "Ağıllı bir qız nağılı"dır [12, s. 81]. Bu nağıl, uşaqların əməyi, mənəvi və əqli tərbiyəsinin milli pedaqoji nümunələrindən biridir və yoxsulluğun tənbəlliyin nəticəsidir və xalqın hərəkət, səyahət, iş, ağıl, əxlaq, dözümlülük, cəsarət insana daha yaxşı bir həyat qurma imkanı verdiyini göstərir. xüsusilə ailəsinin həyatı. Paralel olaraq, bu nağılın və bir çox digər Azərbaycan nağıllarının nümunəsindən istifadə edərək qadının ailə həyatının, harmoniyanın, tərbiyənin və ailədəki var-dövlətin inkişafında rolunu görmək olur. Şifahi şeir əsərini təhlil edərək, Azərbaycanın "Bayatılar" - kiçik bir forma lirik şeirlərinə diqqət çəkmək istərdik. Lullabiyalardan başlayaraq azərbaycanlıların bütün həyatı bayatılarla müşayiət olunur. Səbəb, təhsil, sevgi, dostluq, əxlaq, əməksevərlik, cəsarət bayatılarda çox geniş şəkildə təmsil olunur [1, s. 538].

Müxtəlif mövzulara həsr olunmuş bayatılar. Ancaq bu şeirin dəqiq təcrübəsi və əmək və mənəvi tərbiyəsi nümunələri ilə maraqlanırıq: bir bağ əksən, çiçək açar, qum da fərq etməz. Arı dişləməyən biri, Bal qiymətləndirə bilməz [2, s. 71]. Bayatlar həm uşaqlara, həm də gənclərə öz sənətkarlığının vacibliyini dərk etmək, valideynlərə kömək etmək, zəhmətkeş olmağın nə qədər zəruri olduğunu göstərmək üçün bir fürsət verir: Güllər bal olacaq - Burada qızıl və mis var. Əl sənətinə yox, var-dövlətə, usta sənətkarlıq edərdi [2, s. 71]. Azərbaycan etnosu mədəniyyətində ən çox səslənən hadisələrdən biri də bu şeirin özünəməxsusluğunu ən yaxşı şəkildə nümayiş etdirən əxlaq bayatılarıdır: Sən əylənirsən, aha, mən qayğıdayam, qulluqçuyam. Paxıl insanlar Həyat acı və qısa ömürlüdür [2, s. 70].

Əxlaqi tərbiyənin bayatıları dürüstlüyün, ədalətin, sevgi istəyinin, dincliyin bir nümunəsidir, şeirin aşağıdakı nümunəsində bizə deyilir: Kədər azalıbsa, keçəcək, Göz yaşları axan bir dəniz tökdü, keçəcək. Həqiqət sözü qaya üzərindən, Darıxdırıcı uçurumdan keçəcəkdir. Bu qısa ayələr daim və müasir bir Azərbaycan ailəsinin həyatında istifadə olunur. Bayatılar Azərbaycan cəmiyyətinin xalq simvollarından biri hesab olunur və onun xalq mədəniyyətinin ayrılmaz hissəsidir. Müsəlman postulatlarından biri bildirir ki, mənəvi və əxlaqi tərbiyə bir uşağa, sevgiliyə (qıza), ərə (arvad) ruh və hisslər səviyyəsində müdrik olmağa kömək edəcəkdir. Ləyaqət hissi, dini özünəməxsusluğu, müsbət milli təfəkkürü və fərdiliyini qoruyaraq müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələri ilə ahəngdar bir yerdə yaşamaq ehtiyacı haqqında bir anlayış meydana gətirir.

Müsəlmanların dini olaraq İslamın öz mənəvi etikası var, bu, Azərbaycan cəmiyyətinin şüurunda müsbət mənəvi dəyər standartları kimi təsdiqlənir, ədalətli, təvazökar, dözümlü olmaq, insanlarda nöqsanları görməmək və qeybət etməmək, nəcib və müdrik olmaq postulatlarında işıqlandırılır. Ukrayna xalq pedaqogikasının tədqiqatçılarından biri M. Stelmaxoviç iddia edir: "Əgər nəsillərin mənəvi bağları pozularsa, xalq adətləri, adət-ənənələri, tətilləri pozularsa, bunlar sağlam içməli su ilə əvəz ediləcəkdir. Xalqın ənənəvi ailə adət və rituallarının məhv edilməsi uşaqlıq və analığı məhv edir, xoşbəxtlik ailəsini qarət edir" [12, s. 13-14]. Qədimdən bəri Azərbaycan xalqının mənəvi tərəfi: xoş fikir, xoş söz, yaxşı əməl kimi kateqoriyalardan formalaşmışdır. Başqa sözlə, insan düşüncə və əməllərində bütöv olmalıdır, sözləri və əməlləri arasında boşluq olmamalıdır.

Azərbaycan xalq tərbiyəsi ənənələri həm qədim fəlsəfi, həm dini cərəyanlardan, həm də dünyanın ilkin mənbələrindən yaranan dərin köklərə və böyük milli-pedaqoji əhəmiyyətə malikdir. Azərbaycanlıların əsas mənəvi keyfiyyətləri həqiqi mənəvi tərbiyənin ümumi qəbul edilmiş normalarını təşkil edən mehribanlıq, nəciblik, ədalət, cəsarət, əməksevərlikdir.

ƏDƏBİYYAT

1. Ə. Ağayev. Pedaqogika. Bakı, 1993
2. Ə. Paşayev, F. Rüstəmov. Pedaqogika. «Elm və təhsil», Bakı, 2010
3. Əhmədov H. M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Təhsil, Elm, 2001
4. F. Rüstəmov. Pedaqogika tarixi. «Elm və təhsil», Bakı, 2010. 752 s.
5. H. Əlizadə. Sosial pedaqogika. Bakı, 2014
6. H.Əhmədov, N. Zeynalova. Pedaqogika.Bakalavr hazırlığı üçün dərslik. Bakı: Elm və təhsil, 2016. 455 s.
7. L. Qasımova. Pedaqogika. Çaşıoğlu, Bakı, 2012
8. N. Kazımov. Məktəb pedaqogikası, Bakı: «Çıraq», 2011. 440 s.
9. Podlasıy İ.P. Pedaqogika. 2003
10. R.Hüseynzadə, L.Allahverdiya. Ailə pedaqogikası. Bakı, ADPU, 2016. 340 s.
11. Talıbov Y.R., Sadıqov F.B., Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı, Ünsiyyət, 2000

12. Cass L. Discipline from the psychoanalitic viewpoint // Dorr D., Zax M., Bonner J. W. III. The psychology of discipline.- New York: International Universities Press, Inc., 1988
13. Hart I. Maternal child-rearing practices and authoritarian ideology // Journal of Abnormal and Social Psychology, 1957, 55
14. Lazarus A. A.Behavior therapy and beyond.New York: McGraw-Hill, 1971

UŞAQLARIN AİLƏDƏ XEYİRXAHLIQ VƏ ƏMƏK TƏRBİYƏSİ

XÜLASƏ

Məqalədə uşaqların ailədə xeyirxahlıq və əmək tərbiyəsinin əhəmiyyəti araşdırılmışdır. Beləliklə, bir Azərbaycan ailəsində əmək və mənəvi tərbiyə ənənələrini təhlil edərək, onların Azərbaycan xalq pedaqogikasının ayrılmaz bir hissəsi olduğunu iddia edə bilərik. Ailədə erkən yaşlarından bir uşağa əmək eşqi, böyüklərə və işçilərə hörmət, ləyaqət hissi, vətənpərvərlik, valideynlərin işinə və işinə sədaqət, dürüstlük, ədalət və özünə hörmət hissi, cəsarət aşılanır. Milli pedaqoji təcrübənin vasitələri uşağın inkişafında və tərbiyəsində real amildir, onun dünyagörüşünü açır, düşüncəsini inkişaf etdirir və ən əsası həqiqi bir insan yetişdirir.

ДОБРОТА И ТРУДОВОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ В СЕМЬЕ

АННОТАЦИЯ

В статье рассматривается важность благополучия ребенка в семье. Таким образом, мы можем проанализировать традиции трудового и духовного воспитания в азербайджанской семье и заявить, что они являются неотъемлемой частью азербайджанской народной педагогики. В раннем возрасте у ребенка развивается любовь к работе, уважение к взрослым и работникам, чувство собственного достоинства, патриотизм, лояльность к работе и работе родителей, а также чувство справедливости и самоуважения. Инструменты отечественного педагогического опыта являются реальным фактором развития и воспитания ребенка, раскрывают мировоззрение, развивают мышление и, главное, вырабатывают истинного человека.

KINDNESS AND LABOR EDUCATION OF CHILDREN IN THE FAMILY

SUMMARY

The article examines the importance of child well-being in the family. Thus, we can analyze the traditions of labor and spiritual education in an Azerbaijani family and claim that they are an integral part of Azerbaijani folk pedagogics. In an early age, a child develops a love of work, respect for adults and employees, a sense of dignity, patriotism, loyalty to the work and work of parents, and a sense of justice and self-respect. The tools of the national pedagogical experience are a real factor in the development and upbringing of a child, it opens up a worldview, develops thinking and, most importantly, produces a true person.

ИСПОЛЬЗОВАНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ НА УРОКАХ В НАЧАЛЬНОЙ ШКОЛЕ

Алсу Велизаде
Магистрант II-го курса БГУ
alsu-davlyatshina@mail.ru

Ключевые слова: мультимедийные продукты, интерактивные технологии, образовательные эффекты, информационные и коммуникационные технологии.
Açar sözlər: multimedia məhsulları, interaktiv texnologiyalar, tədris effektləri, informasiya və kommunikasiya texnologiyaları.
Key words: multimedia products, interactive technologies, educational effects, information and communication technologies.

Современный человек окружен таким количеством информации, которое он не в состоянии перерабатывать и использовать для развития общества без помощи новых информационных технологий. С каждым годом все настойчивее в нашу жизнь врывается компьютер, а вместе с ним и информационные технологии. Исходя из того, что «информационные и коммуникационные технологии - это совокупность методов, устройств и производственных процессов, используемых обществом для сбора, хранения, обработки и распространения информации», главным в практической деятельности учителя становится понимание роли применения ИКТ в учебной деятельности. Уровень квалификации преподавательских кадров, их готовность использовать современные технологии в профессиональной деятельности будут главными в сложном процессе вывода образования на уровень потребностей современного общества.

Информационные технологии дают уникальную возможность развиваться не только ученику, но и учителю. Развитие и расширение информационного пространства детей и подростков, побуждает учителя заниматься вместе с учениками, осваивая новые неизведанные ранее просторы. Подчеркну, что простое использование компьютерной техники на уроках не влечет за собой автоматически повышение уровня профессионального мастерства учителя и рост качества образования. Определяющую роль играет, прежде всего, личность педагога и его мотивация. Поэтому в школах необходимо создать такие условия работы, при которыхучитель хотел бы постоянно применять имеющиеся у него знания в области использования ИКТ и пополнять их. При этом внедрение современных технологий в педагогическую деятельность должно быть не просто необходимостью, а быть осознанным процессом при непрерывном образовании и самообразовании учителя в этой области.

Направления модернизации образования должны определяться не столько наличием в школе компьютерной техники и программных средств, сколько готовностью учителей начальных классов к переменам в соответствии с запросами и проблемами общества.

По нынешней статистике 18% учителей 1-4 классов негативно относятся к применению компьютерных технологий на уроках, не проявляют интереса к компьютеру, избегают обучения на курсах повышения компьютерной грамотности, предпочитая прибегать к помощи своих «продвинутых коллег. Педагогический стаж этой группы учителей превышает 20 лет. Более половины учителей начальных классов (54%) положительно относятся к компьютеру, проявляют интерес к новым ИКТ, используют их в своей практике, среди них как молодые учителя (стаж работы до 5 лет), так и опытные педагоги.

Около трети учителей начальных классов (28%) положительно относятся к ИТ, интересуются ими, но не используют на своих уроках. В данную группу также вошли педагоги с разным стажем. А среди учителей начальных классов, владеющих компьютерными технологиями 18% не применяют их на уроках, 27% используют, но редко, 36% используют 2-3 раза в неделю, а 19% постоянно, практически на каждом уроке.

Понятно, что компьютер не сможет заменить живого учителя. Зато поможет облегчить его труд, заинтересовать детей, обеспечить более наглядное, совершенно новое восприятие материала.

Использование ИКТ в учебном процессе позволяет:

• усилить образовательные эффекты;

• повысить качество усвоения материала;

• построить индивидуальные образовательные траектории учащихся;

• осуществить дифференцированный подход к учащимся с разным уровнем готовности к обучению;

• организовать одновременно детей, обладающих различными способностями и возможностями.

Одной из наиболее удачных форм подготовки и представления учебного материала к урокам в начальной школе можно назвать создание мультимедийных презентаций.

Более того, презентация даёт возможность учителю самостоятельно скомпоновать учебный материал исходя из особенностей конкретного класса, темы, предмета, что позволяет построить урок так, чтобы добиться максимального учебного эффекта.

Использование интерактивных технологий становится привычным явлением в образовании. Интерактивное оборудование, такое как интерактивные доски, создают устойчивую мотивацию учащихся к получению знаний и помогают творчески решать учебные задачи, тем самым, развивая образное мышление учащихся. С помощью интерактивной доски можно демонстрировать презентации, создавать модели, активно вовлекать учащихся в процесс освоения материала, улучшать темп и течение занятия.

Электронная доска помогает детям преодолеть страх и стеснение у доски, легко вовлекать их в учебный процесс. В классе не остаётся равнодушных. За счет большой наглядности, использование интерактивной доски позволяет привлечь внимание детей к процессу обучения, повышает мотивацию. Все, что есть на компьютере, демонстрируется и на интерактивной доске. На ней можно передвигать объекты и надписи, добавлять комментарии к текстам, рисункам и диаграммам, выделять ключевые области и добавлять цвета.

У преподавателя появилась возможность моделировать свой урок вместе с учениками в режиме мозгового штурма, демонстрировать учебный материал, делать письменные комментарии поверх изображения на экране, записывать идеи учащихся и таким образом создавать вместе с учащимися общий конспект с учебным материалом. При этом написанное на интерактивной доске может передаваться учащимся, сохраняться на магнитных носителях, распечатываться, посылаться по электронной почте.

Так же на уроках возможен выход в Интернет, где учащиеся могут самостоятельно получить новую информацию. Во время работы на интерактивных досках, улучшается концентрация внимания учащихся, быстрее усваивается учебный материал, и в результате повышается успеваемость каждого из учеников, что качественно повышает уровень современного образования.

Используя интерактивную доску, преподаватель не только может показать и прокомментировать живопись и графику, но и создавать свой рисунок.

Несмотря на все сложности, которые учитель в состоянии решить, новые технологии открывают учителю более широкие возможности для творчества.

Уже имеющийся небольшой опыт показал, что работа с ИД улучшает восприятие материала учащимися, особенно, начальных классов. Учащиеся считают, что работать с ИД гораздо интереснее, чем с обычной доской или печатным раздаточным материалом. Они признают, что интерактивный подход помогает принимать активное участие в уроке.

Интернет - новое информационное явление, перед которым мы - учителя - оказались подобно сказочному богатырю на распутье: дорог много, выбор широк, а мы еще не успели понять, что это и зачем оно нам. Глобальная компьютерная сеть для образовательного процесса - мощный инструмент, который должен органично вписаться и в предметы образовательных областей.

Работа с сетью Интернет развивает уверенность, позволяет чувствовать себя частью большого реального мира, подстегивает любознательность, развивает коммуникативные качества, создает элемент соревновательности, позволяет разнообразить в иды деятельности на уроке.

Часто картинки из сети Интернет становятся единственным источником того, чтобы дети увидели портрет писателя, фотографии, русские народные костюмы, шедевры русского искусства. Это становится ярким наглядным пособием и источником вдохновения на уроках изобразительного искусства, окружающего мира, литературного чтения и художественного труда.

ЛИТЕРАТУРА

1. Стадник М.В. Использование медиауроков для развития мышления младших школьников. Библиотека сообщества учителей начальных классов. Образовательный портал «Сеть творческих учителей», 2008.
2. Захарова Н.И. Внедрение информационных технологий в учебный процесс. Журнал «Начальная школа» , 2008.
3. Учебные материалы: уроки, картинки, виджеты. [Электронный ресурс]. Режим доступа: http://www.smartboard.ru/

АННОТАЦИЯ

Традиционно считается, что грамотность ребенок получает в начальной школе, где его учат писать, читать и считать. Это, несомненно, так. Но современному обществу нужны новые способы деятельности, что требует развития у человека целого комплекса умений и навыков — поиска необходимой информации, ее обработки, предоставления другим людям, моделирования новых объектов и процессов, самостоятельного планирования и выстраивания своих действий. Наряду с обучением навыкам чтения, письма и счета важно учить детей использованию цифровой техники в качестве рабочего инструмента в учебе и повседневной жизни, начиная с первого класса.

XÜLASƏ

Ənənəvi olaraq, uşağın yazmaq, oxumaq və saymaq üçün öyrədildiyi ibtidai məktəbdə savad aldığı düşünülür. Bu şübhəsiz həqiqətdir. Ancaq müasir cəmiyyətin bir insanın bacarıqlar kompleksini inkişaf etdirməsini tələb edən yeni fəaliyyət metodlarına ehtiyacı var - lazımi məlumatları tapmaq, onu emal etmək, digər insanlara vermək, yeni obyekt və prosesləri modelləşdirmək, özünü planlaşdırma və hərəkətlərini qurmaq. Oxumağı, yazmağı və saymağı

öyrətməklə yanaşı, uşaqlara birinci sinifdən başlayaraq məktəbdə və gündəlik həyatda rəqəmsal texnologiyalardan işçi vasitə kimi necə istifadə etməyi öyrətmək lazımdır.

SUMMARY

It is traditionally believed that the child receives literacy in elementary school, where he is taught to write, read and count. This is undoubtedly true. But modern society needs new methods of activity, which requires the development of a person's complex of skills - finding the necessary information, processing it, providing it to other people, modeling new objects and processes, self-planning and building their actions. Along with teaching reading, writing and numeracy, it is important to teach children how to use digital technology as a working tool in school and everyday life, starting from first grade.

ПЕДАГОГИЧЕСКИЙ МОНИТОРИНГ КАК СРЕДСТВО УПРАВЛЕНИЯ КАЧЕСТВОМ ОБРАЗОВАНИЯ

Офелия Джавадова
Магистрант II-го курса БГУ
ofa.dzhavadova@mail.ru

Ключевые слова: мониторинг, системный подход, интеграционные процессы, информационные процессы, качество образования, модель, педагогические технологии, принципы, критерии эффективности.
Açar sözlər: monitorinq, sistemlərə yanaşma, inteqrasiya prosesləri, informasiya prosesləri, təhsilin keyfiyyəti, model, pedaqoji texnologiyalar, prinsiplər, fəaliyyət meyarları**.**
Key words: monitoring, systems approach, integration processes, information processes, quality of education, model, pedagogical technologies, principles, performance criteria.

В последние годы практическая деятельность приобретает все более мониторинговый характер, что обеспечивает комплексное взаимодействие компонентов и структур для более эффективного достижения целей. Мониторинг как вид деятельности больше не является просто привилегией технической профессиональной области, оно активно внедряется в профессиональные области управления, социологии, психологиис ипедагогики.

Практически восех сферах деятельности современные специалисты должны уметь проектировать и создавать как минимум несложные базы данных. Это поможет автоматизировать и ускорить процесс решения многих общих задач.

Появление понятия «мониторинг» связано с формированием и развитием информационного общества, которое требует субъективную информацию о состоянии определенных объектов и структур. Эта концепция начинает использоваться в педагогике, которая рассматривает мониторинг как систему, которая собирает, обрабатывает, хранит и распространяет образовательную информацию для научных исследований или управления организационным управлением (набор методов для оценки состояния системы). В любой области человеческой деятельности невозможно получить положительный импульс без сознательных (всех или многих) и признанных систем. Есть возможность определить уровень образовательных учреждений и определить области, которые требуют особого внимания со стороны учителей. Однако также возникли большие трудности. Оказывается, система образования слишком сложна и многопланова, поэтому можно сразу организовать такое наблюдение, чтобы можно было объективно оценить ситуацию.

На разных уровнях образования люди пытаются создать систему мониторинга обучения и изучают все аспекты преподавательской работы. Многие монографии и статьи продемонстрировали большой интерес к этому вопросу. Отсутствие определенности по некоторым вопросам и разнообразие существующих перспектив позволяют исследователям действовать и вводить новшества в режиме поиска. Это определяет многие цели работы и развития ученого: обобщать и систематизировать на основе доступных методов для создания теоретической модели, которая может показать ее эффективность или недействительность в ходе теста. Показателем эффективности данной модели должно стать улучшение качества образования. Однако улучшить процесс можно только на основе собранной объективной информации. Поэтому говорить о повышении качества образования можно только в том случае, если результаты контроля станут основой мониторинга инновационной деятельности всех участников (субъектов) в образовательном процессе. В свою очередь, каждый субъект образования выступает в качестве объекта для структур более сложного уровня.

В рамках мониторинга субъектам являются все участники образовательного процесса. Их уровень участия варьируется, но все они (учителя, студенты, родители и общественность) получают информацию и анализируют ее. Например, общество получает информацию об учебных заведениях. На основании этой информации формируется общественное мнение.

Объектами мониторинга являются образовательный процесс и его результаты, личностные характеристики всех участников образовательного процесса, их потребности и отношение к учебным заведениям.

На уровне образовательной программы объектами мониторинга могут быть:

• Процесс освоения программы, предмета;

• Интеграционный процесс в обучении;

• Процесс обновления, улучшения содержания, методов, методик обучения и средств контроля усвоения учебных материалов;

• Качество учебного процесса и др.

Во время внедрения разработанной системы мониторинга обучения, в первую очередь необходимо провести обсуждения и корректировки.

Мониторинг является одним из наиболее важных методов: поскольку эффективность, объективность и доступность информации постоянно улучшаются, само информационное пространство также меняется. Поэтому целью мониторинга является быстрое выявление всех изменений в сфере образования. Полученные объективные данные являются основой для принятия управленческих решений.

При организации системы мониторинга обучения могут возникнуть объективные и субъективные трудности и препятствия.

Необходимо учитывать качество используемых методов, подготовку экспертов и возможность повышения их профессиональных навыков. Эти факторы не должны быть забыты, кроме того, необходимо минимизировать негативные последствия и рассмотреть возможные проблемы.

Будучи технологией обучения, мониторинг может не только систематизировать вашу информацию, но и стать эффективным механизмом для эффективной мотивации основных преподавателей и стать основой для повышения их квалификации.

В настоящее время существует некоторая неопределенность в оценке тематической деятельности образовательного процесса, которая предоставляет больше возможностей для обобщения и инноваций. Теория образования предлагает больше возможностей, потому что понятие «образование» является многомерным и трудно поддается количественной оценке. Ситуация с понятием «компетенция» аналогична. Сложность в том, что нет четко определенных систем действий и методов работы. Принцип непрерывного образования основан на активном участии учреждений среднего профессионального образования в этом процессе .

Несомненным преимуществом предлагаемой модели мониторинга обучения является ее универсальность, адаптивность к системе среднего профессионального образования и ее эффективность в условиях

Решение проблемы качества образования зависит от своевременного и полного реагирования образовательных учреждений на изменения внешней среды, социальных потребностей, социального порядка, эффективности выбранных методов и технологий, а также рациональности учебных демонстраций и объективности обзора учебных заведений.

Основной целью обучения мониторингу является обучение информации, которая отражает характер его деятельности. Обучающая информация - это личная информация с диагностической и прогностической информацией.

Чтобы получать обучающую информацию посредством мониторинга, она должна основываться на следующих принципах:

• диагностическая и прогностическая направленность;

• личные средства;

• обучение обменам;

Информационная интеграция;

• социальные и нормативные условия;

• наука;

• преемственность;

• целостность;

• преемственность.

Следует подчеркнуть, что принцип диагностики, его прогностическая направленность, личностная целесообразность, педагогическая коммуникация, информационная интеграция, социальные и нормативные условия непосредственно обеспечивают реализацию обучающих информационных функций.

Принцип научности –эта система, отражающая научные формы, методы и средства получения учебной информации. Основываясь на принципах непрерывности, целостности и непрерывности, необходимо разработать технологию наблюдения. Методика обучения мониторингу технологий развития.

Следующий опыт и теоретические методы являются основными методами, которые могут быть эффективно использованы при разработке технологии мониторинга обучения:

• наблюдать;

Опросы (интервью, анкеты);

• диалог;

• Натуральные и диагностические эксперименты;

• Моделирование.

Кроме того, они должны использоваться качественно, чтобы обеспечить необходимый уровень достоверности результатов.

Алгоритм мониторинга обучения должен включать два периода.

Первый этап - экспериментальный поиск. Его основными целями являются теоретическое обоснование, практическая реализация и доказательство.

Второй этап конструктивный и организованный. Целью этого периода является обеспечение внедрения эффективных учебных процедур в практику университетской образовательной деятельности. Он включает в себя следующие шаги:

• Мониторинг;

• Организация;

• Наука и методология.

На нормативном этапе были сформулированы положения и инструкции по внедрению методик мониторинга обучения в учебный процесс.

Критерии мониторинга эффективности.

На основании определения эффективности мониторинга преподавания мы провели субъективную рефлексию оценки важности информации, получаемой участниками мониторинга.

В качестве показателей эффективности были использованы следующие требования принципа мониторинга обучения:

• информация является этически устойчивой и не будет ущемлять личные права человека;

• информация помогает персонализировать индивидуальные и коллективные цели индивидуальной образовательной деятельности;

• информация помогает лучше оценить уровни профессиональной подготовки и определить наиболее эффективные методы самосовершенствования в личной карьере;

• информация мотивирует людей повышать свои профессиональные стандарты и стимулировать развитие личности;

• информация способствует конструктивному диалогу между участниками образовательной деятельности;

• Информация создает условия для разумного решения проблем, которые возникают в моей профессиональной команде;

Улучшение взаимопонимания между участниками образовательной деятельности благодаря полученной информации;

• Информация не носит агрессивный характер и может быть полностью доступна отдельным лицам.

• информация повышает культуру общения;

• Информация помогает оценить качество внедрения требований национальных стандартов образования в учебный процесс.

Таким образом, предлагаемая методика мониторинга обучения является теоретической основой для разработки конкретных технологий мониторинга. Уникальность каждой технологии будет зависеть от объектов и тем преподавания мониторинга, форм, методов, методов и средств получения обучающей информации, а также от тем, участвующих в обучении мониторинга .

А.С.Белкин определяет мониторинг как непрерывное научно обоснованное диагностико-прогностическое отслеживание образовательного процесса.

Э.Ф.Зеер рассматривает мониторинг как процесс отслеживания состояния объекта (системы или сложного явления) с помощью непрерывного или периодически повторяющегося сбора данных, представляющих собой совокупность определенных ключевых показателей.

Мониторинг используется в тех случаях, когда в построении какого-либо процесса необходимо постоянно отслеживать происходящие в реальной предметной среде явления с тем, чтобы включать результаты текущих наблюдений в процесс управления.Понятие «мониторинг» близко к таким общенаучным педагогическим и психологическим понятиям, как «обратная связь», «рефлексия», «контроль», «аттестация», однако, по мнению Э.Ф.Зеера, все эти понятия являются отдельными элементами мониторинга или его частными случаями.

Следует отметить, что в дополнение к данным мониторинговых исследований, оценка качества подготовки к образованию также основана на независимом, всестороннем и регулярном анализе деятельности и на основе ряда внешних и внутренних показателей параметров .

Внешние параметры включают в себя:

• информация по направлениям непрерывного образования и переподготовки педагогических кадров в учебных заведениях или на кафедрах.

• Стандарты, условия и выпуск студентов, распределение студентов по форме и обучению.

• Информация об источниках финансирования образовательных программ;

• Структура и квалификация факультета.

• Информационное, научно-методическое обеспечение систем повышения квалификации и переподготовки преподавателей и персонала.

Данные об успешности обучения студентов.

• Продолжать инновационный потенциал системы педагогического образования.

• Информация о подержанных современных методах обучения, используемых инструментах электронного обучения, оснащении курсов продуктами электронного обучения.

Внутренние варианты включают в себя: связанную информацию

Подготовка различных компонентов профессиональной деятельности (по уровню и количеству).

• Информация об изменениях показателей готовности на основе результатов обучения (с точки зрения уровня и количества).

Источники информации по параметрам субъективны и объективны.

Таким образом, на основе комплексных данных мониторинга качества обучения в образовательных направлениях оценивают изменения показателей готовности к профессиональной деятельности на основе результатов обучения, анализируют результаты, создают концептуальную модель управления качеством в областях дополнительного профессионального образования образовательных учреждений, а также планируют и осуществляют Качество дополнительных образовательных услуг.

Подводя итог важности вышеуказанных принципов, следует подчеркнуть, что они составляют конкретную основу анализа мониторинга. Эти принципы служат основными руководящими принципами исследовательской деятельности, определяя общее направление исследований, не только собирая, обрабатывая и анализируя информацию, представляющую интерес, но и оценивая ее и корректируя дальнейшую работу, что в конечном итоге составляет суть преподавания мониторинга.

ЛИТЕРАТУРА

1.Бардовский Г.А., Нестеров А.А. Управление качеством образовательного процесса. СПб, 2001.
2.Горб В.Г. Педагогический мониторинг в вузе: методология, теория, технологии. Екатеринбург: Изд-во Урал, ун-та, 2003. 387 с.
3.Горб В.Г. Педагогический мониторинг образовательного процесса как фактор повышения его уровня и результатов // Стандарты и мониторинг в образовании. 2000. № 5. С. 33-37 .
4.Горб В.Г. Технологические аспекты педагогического мониторинга взаимоотношений субъектов образовательной деятельности в вузе // Стандарты и мониторинг в образовании. 2003. № 2. С. 46-52.
5.Казакова Н.Е., Валеева И.А. Оценка качества подготовки учителясистеме непрерывного образования. М: 2006.
6.Кузьмина Н.В. Акмеологическая теория повышения качества подготовки специалистов образования. М. 2000.

ПЕДАГОГИЧЕСКИЙ МОНИТОРИНГ КАК СРЕДСТВО УПРАВЛЕНИЯ КАЧЕСТВОМ ОБРАЗОВАНИЯ

АННОТАЦИЯ

На основе анализа научной литературы раскрываются разные подходы к созданию системы педагогического мониторинга. Показаны его роль и значение повышения качества высшего образования. Сегодня воспринимают мониторинг как систему, обеспечивающую непрерывное слежение за состоянием педагогической системы и ее отдельных элементов в целях своевременного принятия адекватных управленческих решений на основе анализа собранной информации и педагогического прогноза.

PEDAQOJİ MONİTORİNQ TƏHSİL KEYFİYYƏTİNİN İDARƏ OLUNMASININ VASİTƏSİ KİMİ

XÜLASƏ

Elmi ədəbiyyatın təhlili əsasında pedaqoji monitorinq sisteminin yaradılmasına müxtəlif yanaşmalar aşkar olunur. Ali təhsilin keyfiyyətinin yüksəldilməsində onun rolu və əhəmiyyəti göstərilir. Bu gün monitorinq toplanmış məlumatların təhlili və pedaqoji proqnoza əsaslanaraq adekvat idarəetmə qərarlarının qəbul edilməsi məqsədilə pedaqoji sistemin və onun ayrı-ayrı elementlərinin durmadan izlənilməsini təmin edən bir sistem kimi qəbul edilir**.**

PEDAGOGICAL MONITORING AS A MEANS EDUCATION QUALITY MANAGEMENT

SUMMARY

Based on the analysis of scientific literature, various approaches to the creation of a system of pedagogical monitoring are revealed. Its role and importance of improving the quality of higher education are shown. Today, monitoring is perceived as a system that provides continuous monitoring of the state of the pedagogical system and its individual elements in order to make adequate management decisions based on the analysis of the information collected and the pedagogical forecast.

HÜSEYN CAVİD ƏSƏRLƏRİNDƏ AİLƏ TƏRBİYƏSİNDƏ QADININ ROLU

Günətay Məhərrəmova
BDU-nun II kurs magistrantı
meherremovagunetay@gmail.com

Açar sözlər: ailə,tərbiyə, qadın, qadının rolu, məhəbbət, ailə tərbiyəsi, ana
Ключевые слова: семья, взрастить, женщина, роль женщины, любовь, семейное воспитание, мать
Key words: family, bringing up, woman the role of women, love, family upbringing, mother

"Qadın gülərsə şu issız mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət qadınla yüksələcək"
(Hüseyn Cavid)

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan, şair, müəllim, publisist, dramaturq kimi tanınmış Hüseyn Cavidin əsərlərində ailə məsələləri daim diqqət mərkəzində olmuşdur. Ailə tərbiyəsinə böyük önəm verən şair əsərlərində ailə tərbiyəsi, əxlaq tərbiyəsi,qadına münasibət, valideyn –övlad münasibəti geniş şəkildə öz əksini tapmışdır.

Ailə tərbiyəsini cəmiyyətin inkişafı üçün vacib hesab edən şair uşaqların tərbiyəsinə erkən yaşlardan başlamağı məsləhət bilmişdir. Hüseyn Cavid qeyd edir ki, ailədə uşaqların ilk tərbiyəçisi valideynləridir. Şair tərbiyə prosesində ananın rolunu önə çəkir. Cavidin yaradıcıllığında əks etdirdiyi fikirlərindən aydın olur ki, ana və ata uşaqlarının tərbiyəsi ilə maraqlanmağa, bunun məsuliyyətini dərk etməyə, bu vəzifənin cidiyətini anlamağa borcludurlar. Kiçik yaşlardan uşaqlara verilən düzgün tərbiyə onların gəcələkdə inkişafının,formaşmağının və cəmiyyətin yararlı üzvü olmağının əsasını təşkil edir.

Hər bir hərəkət tərbiyəyə əsaslandığını üçün şair uşaqların tərbiyəsində valideynlərin nəcib, gözəl əxlaqi sifətlərə sahib olmasını önəmli hesab edirdi. Cavidin yaradıcıllığında əks etdirdiyi əsas məsələlərdən biridə böyüyən nəslin tərbiyəsində xüsusi rolu olan valideynlərin pedaqoji biliklərə yiyələnməsi, sahib olmasıdır.

Ailədə valideynlər arasında qarşılıqlı hörmətin, sevginin olması uşaqda müsbət keyfiyyətlər formalaşmasına böyük təsir göstərir. İlk tərbiyədən başlayaraq uşağa aşılanan məhəbbət, sevgi,kin,paxilliq və s. müsbət və mənfi keyfiyyətlər daha sonra cəmiyyət həyatında özünü əks etdirir.

Gözəl vətəndaşar yetişdirməyi əsas vəzifə hesab edən valideynlər tərəfindən övladlarına verilən ən dəyərli miraslardan biri tərbiyədir. Gələcəyimiz olan uşaqlar düzgün tərbiyə edilməli, gələcəkdə tərbiyə görmüş ana,ata və vətəndaş olmalıdır.Uşaqların ilk tərbiyəçiləri olan valideynlər onlara müsbət keyfiyyətlər aşılamağa, gözəl hisslər oyatmağa çalışırlar. Böyüyən nəslin düzgün tərbiyə olunmasına xüsusi diqqət yetirən valideynlər bu dərin məsuliyyəti duyur, onları nəzarətsiz qoymur, çıxan problemləri həll etmək üçün birgə çalışırlar

Uşaqların tərbiyəsində önəmli rol oynayan şəxsi nümunə valideynlər tərəfində dərk edilir və onlar övladlarına düzgün nümunə olmağa çalışırlar. Yaradıcıllığında ailə tərbiyəsinə geniş yer verən Cavid qeyd etmişdir: "Uşaq dünyaya gəldiyi gündən məktəb yaşına qədər ata anası yanında ev tərbiyəsi, ailə tərbiyəsi alır".

Böyüyən nəslin ilk tərbiyəçisi olan ana onları gələcək üçün hazırlamalı və qayğısına qalmalı, düzgün tərbiyə verməlidir. "Uşaqları tərbiyə etmək üçün tərbiyə görmüş analar lazım deyilmi? Hanı ana yetişdirəcək məktəblərimiz?" deyən şair xalqın inkişafını,gələcəyini təhsildə, elmdə, analarda, məktəblərdə və müəllimlərdə görür. Şair düşünürdü ki, analar nə qədər savadlı, bilikli olsa böyüyən nəsil bir o qədər bilikli, savadlı və nəzakətli olar. Şair tərəqqinin, inkişafın ilk

addımını analarda görürdü. Uşaqların gələcəkdə savadlı,tərbiyəli olması üçün anaları təhsilli savadlı görmək şairin böyük arzularından idi. Ailə tərbiyəsində,cəmiyyətdə rolu yüksək olan qadınlar yalnız kişilərində doğulub böyüməsində deyil,onların şəxsiyyətli, savadlı, tərbiyəli, mənəviyyatlı, vətənpərvər olmalarındada böyük rol oynayır.

Təlim-tərbiyə prosesində xüsusi rolu olan ana övladının ehtiyaclarını qarşılamaqla yanaşı onda düzgün fikirlər formalaşdırmalı,cəmiyyətə yararlı bir şəxsiyyət yetişdirməli,mənəvi cəhətdən düzgün tərbiyə etməlidir. Ulu öndər qadınları şahlıq kimi qiymətləndirdiyi halda, müqəddəs Ananı həmişə şahlığın tacı kimi nəzərdə tuturdu və deyirdi: "Ana ilahi qüvvə, ulu varlıqdır, alilik, adilik, aqillik zirvəsidir, yaradan, yaşadan, ərsiyə gətirən, kamala yetirəndi, saf duyğular, zərif hisslər, incə mətləblər timsalıdır". Ana olmaqla yanaşı cəmiyyətin önəmli dayaqlarından olan qadınlarımız daim ailənin sədaqətli qoruyucularıdır. Azərbaycan qadınının mərd, qeyrətli, ağıllı və mədəni nümunəsi xalqımızın simasıdır. Bəşəriyyətin ilk tərbiyəçisi olan qadın düyaya yeni nəsillər gətirir, onu böyüdür və tərbiyə edir. Ailənin bütövlüyü, möhkəmliyini qoruyan qadının rolunu ön plana çəkən Cavid "Qadın" şeirində qadının insanlığın tərbiyəçisi adlandırmış, rolunu yüksək qiymətləndirmiş,.

Qadın, qadın?! Onu duymaq, duyurmaq istərkən
Yaxar düşüncəmi bir şölə, bir zəhərli dikən.
Bütün həyatı çiçəkləndirən fəqət o… niçin,
Niçin əzilsin o, bilməm niçin sürüklənsin?!
Qadın-günəş, çocuq-ay…nuru ay günəşdən alır,
Qadınsız ölkə çapuq məhv olur, zavallı qalır.
Qadın əlilə fəqət bəxtiyar olur şu cihan.
O bir mələk… onu təqdis edər böyük yaradan.
O pək sevimli, gözəl, incə, nazlı bir xilqət,
Onun ayaqları altındadır fəqət cənnət:
Qadın gülərsə şu issız mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət qadınla yüksələcək.

Cavid uşaqlarının tərbiyəsinə biganə yanaşan valideynlərə: "Siz ey ata və analar! Yarınki gün cigərguşələrinizin zillət, fəlakət odunda yanıb-qavrulduqlarını ağlaya-ağlaya seyr edəcəksiniz" deyərək qeyd edirdi: "Çocuqlar məsumdurlar, onunçin yapdıqları işlərin hiç birindən məsul deyildirlər, onların hal və hərəkətlərindən məsul olacaq yalnız ata-analardır… Xeyirsiz, xain, ədəbsiz evlad yetişdirib onları tərbiyə və islahına çalışmayan ata-analar, şübhəsiz ki, gələcəkdə namuslu, vicdanlı, heysiyyətli insanlara müsəllət olmaq için bir sürü əxlaqsız, bir yığın sərsəri yetişdirmiş olurlar...". Bu günü və gələcəyi olan uşaqlar valideynlər tərəfindən diqqətsiz qoyularsa əxlaqı pozular xalqa, vətənə xeyir verməz.

Uşaqların hiss və emosiyalarına təsir edən ailə daxili münasibətlər onlar böyüdükcə xarakter əlamətləri formalaşmasında böyük rol oynayır.

Ailə münasibətlərində olan yanlışlardan biri də böyüyən nəslin ailə tərbiyəsində rolunun nəzərə alınmamasıdır.Bəzi ailələrdə uşağa qarşı irəli sürülən tələblərlə valideynlərin hərəkətləri ilə sözləri üst – üstə düşmür. Bu isə uşaqda çaşğınlıq yarada bilir. Evin məişət qayğılarında valideynlərin eyni dərəcədən çıxış etməməsi, bu səbədən yaranan söz - söhbət və münaqişələr uşaqlarda kişilik və qadınlıq haqqında təsəvvürlərin formalaşmasına mənfi təsir göstərir. Bəzən ailə üzləri uşağa fərqli nənə və babalar isə tamam fərqli yanaşırlar. Uşağa göstərilən tərbiyəvi təsirlərdə vəhdətin olmaması onların münasibətlər sisteminin formalaşması prosesini çətinləşdirir.

İnkişafın əsasında analaların dayandığını hesab edən şair böyüyən nəslin savadlı nəzakətli, tərbiyəli olması üçün qadınların pedaqoji biliklərə yiyələnməsini təhsil almasını, önəmli hesab edirdi.

Qadınların cəmiyyətdə daha aktiv olması,təhsil alması üçün mübarizə aparan şair düşünürdüki ailə daxili münasibətlər düzələrsə problemlər həll olar,valideyn övlad münasibətləri qaydaya düşər .

ƏDƏBİYYAT

1. http://hurriyet.com.az/post/3105
2. Əzizova N H.Cavid dramaturgiyasında qadınların tipləri və Cavidin məhəbbət konsepsiyası .Bakı.Sabah.2005.
3. http://anl.az/down/meqale/respublika/respublika_mart2009/71570.htm
4. Kamal Camallı.Hüseyn Cavid yaradıcıllığında əxlaq tərbiyəsi məsələləri .Pedaqoji Universitet xəbərləri (Humanitar,pedaqoji,psixolji elmlər seriyası),Bakı,2002,№ 1
5. Kamal.Camalov. Hüseyn Cavid ailə tərbiyəsi haqqında.Pedaqoji Universitet xəbərləri (Pedaqoji,psixoloji elmlər seriyası),2000,№1-2.
6. İsgəndər Əhməd oğlu Atilla.Əsrin şairi.Cavid estetikası (sənət və gözəllik dünyası),Bakı,2010
7. https://aztehsil.com/valideyn/195-valideyn-vlad-mnasibtlrinin-pedaqoji-saslar-piral-liyev.html
8. https://aztehsil.com/valideyn/141-valideyinlrl-laqlrin-qurulmas-v-mhhkmlnmsin-rhbrlik.html

XÜLASƏ

Hüseyn Cavid yaradıcıllığında ailə tərbiyəsinə geniş yer vermiş,ailə tərbiyəsində qadının rolunu xüsusi qeyd etmişdir. Tərbiyədə əsas rol oynayan ana ömənəvi cəhətdən tərbiyə etməli, açıq-aydın fikirlər yaratmalı və onu gələcək cəmiyyət üçün hazırlamalıdır.

АННОТАЦИЯ

Хуссейн Джавид уделял большое внимание семейному воспитанию в своих произведениях, подчеркивая роль женщин в семейном воспитании. Мать, которая играет ключевую роль в воспитании, должна воспитывать ребенка морально, создавать ясные идеи и готовить его к будущему обществу.

SUMMARY

Hussein Javid gave a wide place to family upbringing in his work, emphasizing the role of women in family upbringing. The mother, who plays a key role in the upbringing, must bring up the child morally, create clear ideas and prepare him for the future society.

PEDAQOJİ ƏDƏBİYYATLARDA VƏ XATİRƏLƏRDƏ YUSİF TALIBOV ŞƏXSİYYƏTİ

Gülnar Mustafayeva
BDU-nun II kurs magistrantı
Elmi rəhbər dos. Mehparə Quliyeva
gulnar_mustafayeva86@mail.ru

Açar sözlər: şəxsiyyət, alim- pedaqoq, elmi- pedaqoji fəaliyyət, zəhmətkeşlik, təvazökarlıq, səmimiyyət, dostluq.
Keywords: personality, scholar-educator, scientific and pedagogical activity, hard work, modesty, sincerity, friendship.
Ключевые слова: личность, ученый-педагог, научно-педагогическая деятельность, трудолюбие, скромность, искренность, дружба.

"Şirin bir xatirətək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər".

Elə yaşa ki, sanki heç vaxt ölməyəcəksən deyiblər müdriklərimiz. İnsan var ki yaşadığı ömür yolu heç bir faydalılığı ilə yadda qalmaz, insan da var ki, ölümüylə ölümsüzlük qazanar, bütün qəlblərə hopar, hafizələrin lentinə həkk olunar. Bu o şəxsiyyətlərdir ki, halal zəhməti,namusu, vicdanı, insani keyfiyyətlərinin zənginliyi, qayğıkeşliyi ilə öz ömrünü neçə ömrə işıq vermək üçün şam kimi yandırar. Sevimli pedaqoq, professor səmimiyyəti və sadəliyi ilə qəlblərdə məskən salan Yusif Talıbov şəxsiyyəti məhz sadalanan bu müsbət məziyyətləri özündə ehtiva edən, dostları üçün sirdaş, məsləhətçi, əsl dost olmağı bacara bilən, valideynləri üçün layiqli övlad olan, olduqca qayğıkeş, mehriban təvazökar, daim xalqını, millətini düşünən bir şəxsiyyət kimi öz adını həm elm zirvəsinə, həm də qəlblərə yazmağı bacarmışdır. Buna görədir ki, dünyasını dəyişsə də onun nurlu siması, işıqlı çöhrəsi tanışların, tələbələrin yaddaşında əbədi həkk olunub. Bu gəlimli gedimli, bir ucu ölümlü dünyada hər kəs əməlləri, fəaliyyəti ilə sahəsindən, peşəsindən asılı olmayaraq öləndən sonra yaşama müddətini müəyyən edir. Düşünürəm ki, öləndən sonra da ölümsüzlüyə ucalmaq, əbədi yaşamaq deyərkən Yusif müəllim kimi şəxsiyyətləri nəzərdə tutmuşlar.

Həyatda baş verən bütün hadisələrə realist yanaşmağı bacaran böyük şəxsiyyət hətta səhhətində yaranan problemlərlə bağlı həkimə müraciət edəndə belə həyatın qanunu, taleyi ilə razılaşır, "tale oyunundan qaçmaq olmaz"- deyə reaksiya verir.Qısa da olsa onun haqqında söz söyləmiş, xatirələrini sözlərə hopdurmuş, cümlələrə düzmüş, alimin həyat yolunu, şəxsiyyətinin ucalığını vəsf edərək təsvir etmiş, onu biz nəsillərə çatdırmaq üçün izah etmiş görkəmli alim, pedaqoq və digər peşə sahəsinin nümayəndələrinin xatirələri, memuarları ilə Yusif Talıbov şəxsiyyətinin dayandığı zirvəni qiyabi səyahət edək.Pedaqoji elmlər doktoru,professor Farahim Sadıqovun "Ölməzlik mücəssəməsi",Xudaverdi Əlizadənin "Bir ulduz axdı", pedaqoji elmlər namizədi, dosent, yazıçı, publisist Allahverdi Eminlinin "Onu unutmağa haqqımız yox", dostu və həmkarı, pedaqoji elmlər namizədi, Azərbaycan DBT və İA-nın kafedra müdiri, əməkdar müəllim Məmməd Nəsrullayevin "Yusif Talıbov insan qəlbinin mühəndisi idi", AMİ-nin pedaqogika kafedrasının dosenti, filologiya elmləri namizədi Akif Nəzərovun "Qeyri adi insan, dahi şəxsiyyət", Azərbaycan Müəllimlər İnstitutunun kabinet müdiri Rahim Əzimovun "Zəhmətlə yaşanmış ömür" adlı xatirələri Yusif Talıbovun möhtəşəm, əsrarəngiz, bənzərsiz tablosunu göz önündə canlandırır.Pedaqoji elmlər doktoru, professor Əjdər Ağayevin "Əsl insan, əsl pedaqoq", tarix elmləri doktoru, professor Sabir Əsədovun"Təvazökarlıq mücəssəməsi", professor Məcid İsmixanovun "Müdriklik, sadəlik, xeyirxahlıq timsalı", professor Fikrət

Seyidovun "Xalq maarifinin sevimli nümayəndəsi", Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, professor Fərrux Rüstəmovun "Fikrin işığında güzgülənən ömür", pedaqogika üzrə fəlsəfə doktoru Firudin Məmmədovun "Əzizivə unudulmaz müəllimim", nəvəsi Yusif Talıbovun "Mənim babam", şair publisist Cavad Cavadlının "Bir ömür yaşadı gün kimi nurlu", Nazimə Rüstəmovanın "Xatirələrə dönən Yusif", Azərbaycan ETİEİ-nin direktor müavini, professor Yəhya Kərimovun "Tərbiyə problemlərinin mahir tədqiqatçısı" adlı dolğun, məzmunlu və əhatəli yazıları, filologiya elmləri doktoru, professor Oruc Musayevin(Türksevər) "Səmimi insan və əziz dost" adlı məqalələri, xatirələri və saymaqla bitməyən çoxsaylı şəxsiyyətlərin memuarları, xoş sözləri onun necə böyük və dillərə dastan olan ucalığından xəbər verir (3).

Tələbəlik həyatının elə ilk günündə təsadüfən rastlaşan, sonra illərin möhkəm və qırılmaz dostluq zənciri ilə bir birinə bağlanan iki alim, iki dilçi Oruc Musayev və Yusif Talıbov şəxsiyyətinin dostluq münasibətləri onların həm elmdə, həm də dostluqda ideal şəxsiyyətlər olmasını göstərir. Oruc Musayevin təbirincə desək "izləri qranit daşlar üzərində həkk olunan şəxsiyyət" Yusif Talıbov xalqımızın elm sənət salnaməsində unudulmaz izləriylə həkk olunub. Elə əbədiyaşar ölməzliyə ucalıb ki, əsən küləklər, coşub sahili döyəcləyən dəlisov dalğalar, tufanlar onu heç zaman qəlblərdən silməyə müvəffəq olmayacaq (7, səh 81).

Fikrət Seyidov atası Əhməd Seyidovun tələbəsi Yusif müəllim haqqında xatirələrindən söz açarkən onun necə məsuliyyətli, çalışqan, mütaliəni sevən bir insan olduğunu vurğulayır.İnsan oxuduğu kitabların həcmi ilə ölçülür deyirlər.Yusif Talıbova Fikrət Seyidov prizmasından yanaşsaq müəllifin özünün də dediyi kimi "Pedaqoji elmin bayrağını Əhməd Seyidov möhkəm əllərə tapşırıb" deyə bilərik.1998-ci ildə Fikrət Seyidovun "Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair" adlı əsərinin üzərində yoxlama və düzəlişlər edən Yusif müəllimin bu əsər üzərindəki düzəlişləri ilə yanaşı gərgin əməyi və diqqəti də olduğunu müəllif xatirəsində qeyd edir.Hətta görkəmli alim Yusif müəllim bu əsərə giriş yazmaq istədiyini bildirməsi Fikrət Seyidovu qürurlandırmış və atası Əhməd Seyidovun özündən sonra layiqli nəsil qoyub getdiyini anlamış, fəxr hiss keçirmişdir. Yusif Talıbovun ona "müstəqillik aldığımız bir dövrdə tələbələrimizin türk xalqlarının tərbiyə tarixini, "Orxon-Yenisey" abidələrinin tərbiyəvi əhəmiyyətini bilmələri olduqca mühüm məsələdir"- deməyi Fikrət müəllimi mütəəssir etməklə yanaşı qürurlandırmışdır (7, səh 103).

Müasir dövrümüzün Pestalotsisi, humanist alim heç bir qarşılıq, təmənna ummadan xalqın yolunda özünü həsr edən Yusif Talıbov şəxsiyyəti məhz bu keyfiyyətləri ilə müəllim adının ucalığında dayanmağa nail olub. Professor Məcid İsmixanovun memuarında onun həmçinin "Qabusnamə" ni böyük şövq və sevgiylə mütaliə, təhlil etməsi məqamından bəhs olunur. "Adamların ən yazığı odur ki, alim olsa da heç kim onun görüşünə getməsin, ancaq bu baxımdan deyilən sözlərin Yusif Talıbova yaxınlığı aidiyyəti yox idi, o elə xoşbəxt insanlardan idi ki, nəinki həmkarları, hətta tələbələri aspirantları ilə də eyni səmimiyyət ilə, isti münasibət saxlayardı" deyə Məcid İsmixanov vurğulayır (7, səh 160).

Pedaqogika elminin inkişafında misilsiz xidmətləri olan professor Fərrux Rüstəmov Yusif Talıbov ömrünün bənzərsizliyini, şəxsiyyətinin böyüklüyünü, nümunəviliyini parlaq, bərq vuran daş-qaşlara bənzədir, onu qorumağı, əziz tutmağı tövsiyyə edir, çünki, Yusif Talıbov sədaqət, dəyanət, mərdlik, səbr, təmkin sərgiləməsi ilə nümunə olmuş bir insan olmuşdur (7, səh 200).

Yusif Talıbov ucalığını dillərə dastan edən, müəllimini təsvir etməkdən doymayan, onu biz tələbələrinə sevə-sevə anladan Firudin müəllim Məmmədov bu görkəmli şəxsiyyətin Azərbaycan pedaqogika elminə bəxş etdiyi fundamental əsərlərindən, onun yarıməsrlik elmi pedaqoji fəaliyyətindən, illərlə yazıb ərsəyə gətirdiyi əsərlərindən, dərsliklərindən, qəzet və jurnallarda dərc olunan məqalələrindən, həmçinin onun sayəsində elmi pedaqoji kadrların hazırlığının təkmilləşdirilməsindəki konseptual məsələlərdən geniş söz açır. Firudin müəllimin təbirincə desək Yusif Talıbov hər kəsi öz dilində danışdırmağı bacarır, insanları sevindirməyi, qəlblərini şad etməyi sevir, olduğu kimi görünür, göründüyü kimi olurdu (7, səh 208).

Xisləti, mayası təmizlikdən, varlığı saflıqdan yoğrulmuş Yusif müəllim yanaraq əzablarını kimsəyə duyurmadan ətrafı nura qərq edir, yüzlərlə insanın həyat yolunu işıqlandırır, gələcəklərinə işıq salan mayak rolunu oynayır.Digər xalqların pedaqoji əsərlərini tərcümə edib nəşr etdirməsi onun ən şərəfli xidmətləri sırasındadır. Həm didaktika, həm təhsilin idarə olunması,həm də tərbiyə nəzəriyyəsinin incəliklərini tədqiq edir, eyni zamanda klassik pedaqoqların nəzəri irsini öyrənib yayırdı. Elmi əsərləri ilə yanaşı digər xidmətləri- elmi pedaqoji kadr hazırlığında elmi rəhbər vəzifəsinin layiqli icraçısı olmuş, opponent müdafiə şurası, ekspert üzvü, rəyçi, məsləhətçi kimi fəaliyyət göstərmiş, bu xidmətləri ilə pedaqogika elminə öz töhfələrini vermişdir (3, səh 89).

"Əzab əziyyət Allahın yaxşı adamlara mükafatıdır"- deyirlər. Yaşadığı ömür yolu əzab əziyyətlə dolu olsa belə bir dəfə də olsun təmkinini pozmayan, Tanrının verdiyi dərdi də nemət sayan Y.Talıbov şəxsiyyətinin böyüklüyü bunda idi. Allaha üsyan etməzdi. Alın yazısına qane olardı. Bacısının ailəsinin 1939-cu ildə Qazaxıstana sürgün edilməsi, bacısının 2 atasız körpəsi ilə Qazaxıstan çöllərində qalması, 1941-1945-ci illər müharibəsində Leninqradda qardaşının ölməsi, buna dözməyib dünyasını dəyişən atasının dərdi, yükü, o biri qardaşının da onun ardınca vəfat etməsi balaca Yusifin hələ dərd çəkmək üçün bərkiməyən çiyinlərində ağır yük qoydu. Çətinliklər onu sıxsa da mətinləşib güclənən Yusif Talıbov hətta xəstə yatağına düşdüyü anda belə acıya gülümsəmə qabiliyyətini qoruyub saxlayır, onu cənginə alan xəstəliyə meydan oxuyur (3, səh 97).

Gözlərində dağ gölünün şəffaflığı əks olunan gözəl insanın qəlbinin qapısını kin- küdurət tanımaz, dilini yalana, əlini harama alışdırmazdı. Sözünün ağası, dürüst, qarşısındakını sonuna kimi dinləyən biri idi."Ən böyük biclik düzlükdür"- şüarını əlində rəhbər tutan professor uşaqlara "nə etsən düzünü de, ona çarə tapılar,yalanın çarəsi yoxdur"-deyə öyüd verərdi.Sözə çox dəyər verən alim oxuduğu sitatlardan bəyəndiyini kəsib alboma yapışdırar, onun hikmətini tələbələrinə də təlqin edərdi.Bütün yeni çıxan kitabları əldə edən, hətta poçtla uzaqdan olsa da gətirdən professora haqlı olaraq "yeriyən ensiklopediya" deyirdilər.Obyektiv və xeyirxahlığı ilə seçilən şəxsiyyət müdafiədə aspirant və dissertantlara obyektiv, ədalətli davranar, bədxahlıq etməzdi. "Dədə Qorqudda ailə tərbiyəsi", " H.Cavid ailə tərbiyəsi haqqında", " Nitşenin pedaqoji ideyaları", "Pedaqogikanın qızıl zərrələri"adlı məqalələrin müəllifi Y.Talıbov bir yandan dünya klassiklərinin incilərini tədqiq etmiş, digər tərəfdən də millilikla beynəlmiləlçiliyin vəhdətini yaratmağa nail olmuşdur.

Müəllifi olduğu 300-dən çox kitab, proqram, məqalələr onun elmi irsini bizə zamanın dalğaları üzərindən çatdıran gəmilərdir."Günəş kainat üçün nədirsə, müəllim də cəmiyyət üçün odur".Disterverqin bu kəlamı əslində günəş nuru ilə kainatı nura qərq edən Yusif müəllimin təsviri idi. Müəllimlik peşəsini bütün peşələrdən üstün tutan Yusif Talıbov Rahim Əzizovun ona "-Yusif müəllim, rəhmətlik Mehdi Mehdizadə nazir olanda Sizə vəzifə təklif edərkən, niyə getmədiniz?"-sualına "-Mən müəllimliklə fəxr edirəm"-deyə cavab verməsi onun sözü ilə əməlinin vəhdətini açıq göstərirdi, çünki, müəllimlik onun da qeyd etdiyi kimi ən uca, ən ali vəzifə, ən yüksək rütbə, tituldur. Bütün peşə sahiblərini, ən böyük dahiləri belə müəllimlər yetişdirib. Ulu öndərimiz Heydər Əliyevin dillər əzbəri olan aforizmi ilə fikrimizi bitirsək, düşünürəm yerinə düşər: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram".

ƏDƏBİYYAT

1. F. Rüstəmov, Azərbaycan pedaqogikaşünaslığı, Bakı,Elm və Təhsil, 2016
2.Y.Talıbov, Uşaqlarımızın səadəti naminə, Bakı, Maarif, 1988,
3.Y.Talıbov, Məqalələri, qəzet səhifələrində, xatirələrdə, nekroloqlarda, Nasir, 2006
4.Y.Talıbov, Şagirdlərin sosialist beynəlmiləlçiliyi ruhunda tərbiyə edilməsi, Maarif, 1974,
5.Mobil Aslanlı, Fiziki mədəniyət və mənəvi kamillik, Bakı, Maarif, 1993,

6.Y.Talıbov, Uşaqların beynəlmiləl tərbiyəsi, Azərbaycan Dövlət Tədris- Pedaqoji Ədəbiyyatı Nəşriyyatı, Bakı, 1961,
7. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Yusif müəllim necə varsa, Bakı, 2000,
8.Y.Talıbov, Şagirdlərdə sosialist humanizm tərbiyəsi, Maarif nəşriyyatı, Bakı, 1965.

XÜLASƏ

Bu məqalədəAzərbaycan Pedaqogika elminin inkişafında, formalaşmasında özünəməxsus izi və rolu olan görkəmli alim, professorYusif Rəhim oğlu Talıbovun elmi və pedaqoji fəaliyyəti, dostluq və yoldaşlıq münasibətləri haqqında həmkarları, elm- sənət nümayəndələri, tələbələri və ailə üzvlərinin xatirələrindən bəhs olunur.

АННОТАЦИЯ

В этой статье рассказывается о воспоминаниях коллег, студентов и членов семьи о научной и педагогической деятельности выдающегося ученого, профессора Юсифа Рагима оглы Талибова, который имеет уникальную роль и роль в развитии и становлении педагогической науки Азербайджана

SUMMARY

This article deals with the memories of colleagues, students, and family members about the scientific and pedagogical activities of the prominent scientist, professor Yusif Rahim oglu Talibov, who has a unique effort and role in the development and formation of Azerbaijan Pedagogical Science.

QEYRİ-FORMAL QRUPLARIN YARANMA SƏBƏBLƏRİ

Əfsanə Sadiqova
BDU-nun II kurs magistrantı
Elmi rəhbər: Sevinc Əliyeva
sadigova97@mail.ru

Açar sözlər: uşaq, küçə uşaqları, münasibət, pedaqoji iş
Ключевые слова: ребенок, уличные дети, отношение, педагогическая работа.
Key words:child, street children, attitude, pedagogical work.

Bir çox ölkədə müxtəlif adlarla çağırılan qeyri-formal küçə qrupları, Kolombiyada "yataq böcəkləri", Braziliyada "marjinallar", Peruda "meyvə quşları", Vyetnamda "toz böcəkləri", Ruandada "pis uşaqlar", Kamerunda "ağcaqanadlar" olaraq adlandırılırlar.

Ailədə problem, parçalanma və boşanma, işsizlik, sosial dəyişim və özgələşmə, kənddən şəhərə köçmə və şəhərə ayaq uydura bilməmək, uşaqların ortada qalması, şəhərdə məktəb həyatına alışa bilməmək və s. yəni müxtəlif uyğunlaşma problemləri, yoxsulluq, evdə sevgisizlik, istismar, basqı, şiddət, çatışma, ana-atasızlıq, ehmal və diqqətsizlik, cinsi istismar, macəra axtarma, uşaqlar evində özlərini güvəndə hiss etməmə, məktəbdə uğursuzluq, evin fiziki yetərsizliyi, məsələn: darlığı, uşağın küçədə işləməsi, pul qazanmasına təşviq olunması, savadsızlıq, dost qrupu, özünütəsdiq istəyi, sosial şəbəkələrdən təsirlənmə, dövlət yardımlarının uşağı küçəyə təşviq etməsi kimi səbəblər misal göstərilə bilər.

Küçədə yaşayan və işləyən uşaqlar, cinayətə yönəlmədən əlavə ehmal və istismara uğrama, narkotik, siqaret kimi bağımlılıq yaradan maddələrdən istifadə etmə, zehni və fiziki inkişafda geriləmə, yaralama, ölüm kimi şiddətə məruz qalma, psixoloji problemlərlə üz-üzə gəlmə, təhsil və sağlıq problemləri, cinsi taciz və təcavüzə məruz qalma kimi hallarla qarşılaşa bilirlər. Bu uşaqlar pul qazandığı üçün özlərini yetkin kimi hiss etməkdədirlər. Çox zaman ailənin diqqətindən uzaqlaşan uşaq təhsilini yarıda buraxaraq yaşıdlarının qrupunda özlərinə yer tapa bilmədikləri kimi yetkinlərin də dünyasına da girə bilməməkdə, iş mühitinə də adaptasiya ola bilməyərək ayrılmaqda, küçədəki limitsiz və məsuliyyətsiz azadlığı seçərək sosial həyatdan tamamilə qopur və bir müddət sonra küçədə yaşamağı üstün tuturlar.

Qeyri-formal küçə qruplarının yaranma səbəbləri müxtəlifdir. Bu səbəblər 2 qrupda yer alır:

1. Ailə amilləri;
2. Sosial-iqtisadi amillər.

Ailə ana, ata və uşaqdan ibarət olan cəmiyyətin təməl bir hissəsidir. Hər bir insanın doğulub böyüdüyü cəmiyyətdə üstünlük təşkil edən dəyərlər, inanclar və davranışları sosiallaşma müddətində öyrənir və mənimsəyir. Bu proses ilk növbədə ailədə başlayır və məktəbdə, sosial mühitdə davam edir. Uşaqların özünə güvənən sağlam fərd kimi yetişməsi üçün ən uyğun mühit ailədir. Uşaqların sağlam, fiziki və psixoloji inkişafı və tərbiyəsini təmin edəcək ailə mühitinin hazırlanması, həmin cəmiyyətin gələcəyi üçün çox vacibdir. Ailə qurumunun öz funksiyalarını yerinə yetirə bilməməsi və bütövlüyünün pozulması bir çox problemlər gətirir və sosial parçalanmaya səbəb olur.

Ənənəvi ailə quruluşunun pozulması və statuslara uyğun hərəkət etməyən, vəzifələrini yerinə yetirməyən valideynlər küçə uşaqları fenomenini ortaya çıxaran və onu yaradan amillərdən biridir. Valideynlərin uşağa necə davranacağını bilməməsi, həddən artıq avtoritar, həddən artıq müdafiəsiz və ya qeyri-sabit valideyn münasibətləri, uşaq üzərində kifayət qədər nəzarətin qurulmaması uşağı küçəyə sövq edə bilər. Davamlı uşağın istəklərinin əngəllənməsi, davranışlarını daim tənqid etmək, uşağı alçaltmaq, ağır cəzalar tətbiq etmək, evdən qovmaqla və ya evi tərk etməklə hədələmək uşağı ailə mühitindən uzaqlaşdıra bilər. Ailəsi ilə münaqişə edən

uşaq ailəsinə mənfi münasibət bəsləyərək evdən çıxıb küçələrdə yaşaya bilər. Ölkəmizdə boşanma halları günü-gündən artır. Ailəsi parçalanan, ana və ata arasındakı seçim etməli olan uşaq küçəyə qaça bilər və ya valideynləri tərəfindən tərk edilə bilər. Qeyri-formal küçə qruplarının yaranmasına təsir edən ailə amilləri aşağıdakılardır:

1. Ailə içi şiddət

Ailə içi şiddət uşaqları küçələrə təhrik edən amillərdən biridir. Zorakılıq növü həm fiziki, həm də psixoloji ola bilər. Cəmiyyətimizdə uşağın təlimində və tərbiyəsində döymək çox istifadə olunur. Atanın ənənəvi ailə quruluşundakı evdə məhdudiyyətsiz bir səlahiyyətə sahib olması və avtoritarlığı ailə içi şiddətə zəmin hazırlayır.

Uşaqlara tətbiq olunan şiddət fiziki və psixoloji ola bildiyi kimi hər iki şiddət birlikdə də tətbiq oluna bilir. Azərbaycan ailələrində şiddət daha çox ata tərəfindən göstərilir. Şiddət tətbiq edən atalar avtoritar davranışlar sərgiləyərək özlərini haqlı göstərməyə çalışırlar. Atanın evin ehtiyacını qarşılayacaq gücdə olmaması və uşağını işlətmək istəməsi nəticəsində tərs bir cavabla qarşılaşması şiddəti yarada bilir. Şiddətin göstərilməsilə uşağın psixologiyasında və sosialaşmasında dərin yaralar açılır.

Ailə içi şiddətin yaranmasında şəhər həyatının gərginliyi, iqtisadi çatışmazlıqlar, ər-arvad arasında bir-birini aldatma, ögey valideynlər, ailə qohumların dəstəyindən uzaq olması təsirli olur. Atası ilə qarşıdurma içində davamlı mübarizə mühitində olan uşaq bəzən qisas alır, bəzən də olduğu mühitdən uzaqlaşmaq üçün evindən çıxır və küçələrdə yaşamağa başlayır.

Valideynlərinin dəstəyindən daim uzaq olan və zorakılığa məruz qalan uşaqlar valideynlərindən qorxurlar və nifrət edirlər. Özlərində valideynlərinə qarşı hörmət, sevgi, qorxu və nifrət hissləri ilə qarşılaşan uşaq, özünü bu vəziyyətdə tənha və köməksiz hiss edir və uşaqların zehni sağlamlığı pozulur. Zorakılığa məruz qalan uşaq zorakılığı öyrənir və o da insanlara qarşı şiddət tətbiq edir.

Atauzun araşdırmasında uşaqların evdən qaçmasının səbəblərindən evdə 9,65% döyülərək, 2,41% alkoqolik ata, 14,13% psixoloji təzyiq, 15,51% ailə içi münaqişə, 10% ögeylik, 3.10% isə evlənməyə məcbur edildiyi ortaya çıxdı. Küçələrdə yaşayan uşaqlarda evdə 40% zorakılığın olduğu göstərilmişdir.

Ailəsi tərəfindən istismar edilən uşaqlar aşkarlandıqda Sosial Xidmətlər Uşaq Qoruma Agentliyində qorunur. Bəzi uşaqlar qoruyucu ailələrə yaxşı təhsil almaq və sağlam şəxsiyyət kimi yetişmək üçün verilir. Bir və ya hər iki valideynin ölümü ilə qoruma altına alınanların nisbəti 24,7%, imtina və fiziki zorakılıq səbəbi ilə 8.5%, emosional istismar səbəbiylə qorunanların 1.9% - dir.

Ölkəmizdəki uşaqlara qarşı fiziki zorakılıqla bağlı araşdırmalar kifayət qədər deyil. Bununla birlikdə kütləvi informasiya vasitələri ilə ölkəmizdə mövzu yeniləşməyə başladı. Cəmiyyətdəki uşaqlara qarşı zorakılıq və pis davranış haqqında məlumatlılıq və şüur günbəgün artır. Zorakı xarakter daşıyan cizgi filmlər və serialların məhdudlaşdırılması, ailə içi şiddət törədən insanlara verilən cəzaların artırılması lazımdır.

2. Ögey ana – ata

Evlilik psixoloji, sosial, bioloji və hüquqi hadisədir.Hüquqi baxımdan, evlilik hökumətin icazəsini tələb edir, çünki doğulmuş və ya dünyaya gələn uşaqlar üçün məsuliyyət tələb edir.Ailə bütün cəmiyyəti əhatə edən bir qurumdur. Evli cütlüklərin boşanması ilə ailə qurumu öz funksiyasını itirir. Ailəsi dağılmış bir uşaq bir ögey ana və ya ata yanında olur. Bu insanlar tərəfindən istənməyən və ya ögey ana, ata ilə razılaşmayan, ailəsi parçalanan bir uşaq bu vəziyyətə qarşı reaksiya verir, siqaret, içki, narkotik kimi pis vərdişlərə sahib ola bilər, içinə qapana və ya evdən qaça bilər. 1998-ci ildə Yılmazın küçə uşaqlarına dair araşdırmasında, dağılmış ailədən olan uşaqların nisbəti 56,7%, atası ilə birlikdə yaşayanların nisbəti 43,3% - dir. Parçalanmış ailədən olan küçə uşaqlarının ögey bacı və qardaşı olanların nisbəti 74.1%, olmayanların nisbəti isə 25.9% təşkil edir.

Bu tədqiqatların nəticələri küçə uşaqlarının əksəriyyətinin parçalanmış ailələrin uşaqları olduğunu göstərir. Ev şəraitində ailə üzvləri ilə razılaşa bilməyən və ailənin parçalandığını qəbul etmək istəməyən uşaq, bu vəziyyətdə daim qarşıdurma yaşayan küçə uşağı ola bilər. Küçələrdə yaşayan uşaqların əksəriyyəti parçalanmış ailədən gəlməsinə baxmayaraq, işləyən uşaqların əksəriyyətinin ailələri bütünlüyü qorumaqdadır.

3. Geniş ailə

Geniş ailədəki uşaqların maddi və ya mənəvi ehtiyacları bacı-qardaşları arasında bölünür. Sevilmədiyini və kifayət qədər qayğı göstərilmədiyini düşünən, təməl ehtiyacları və sosial-iqtisadi ehtiyacları təmin edilməyən uşaq bunlara reaksiya verərək evdən çıxıb küçələrdə yaşayır.

1-ci kurs: tələbələrə maddi dəstək sahəsində dövlət siyasətinin dəyişməsi; tələbələr işləyən müəllimlər tərəfindən anlaşma; kitabxananın təlim üçün lazımi ədəbiyyatla doldurulması (hər biri 1 nüsxədən); tələbələrin asudə və yaradıcılıq fəaliyyəti üçün tədbirlərin təşkili; tələbələrin real problemlərinə daha çox diqqət yetirmək; 2-ci kurs: tələbələrin, müəllimlərin, rektorların, mütəxəssislərin tələbələrin sosial problemlərinin həllində birgə fəaliyyəti; tələbələrə maddi dəstək; mütəxəssislərin real deyil, kağız fəaliyyəti; hər şey tələbələrin özlərinin əlindədir; həllər yoxdur; 3-cü kurs: universitet üçün maliyyələşdirmənin artması; işləyən tələbələrin müəllimləri tərəfindən başa düşülməsi; tələbələrin sanatoriyalara, tibbi prosedurlar üçün pulsuz səyahət etmələri; kinoteatrlara, teatrlara və sərgilərə pulsuz bilet vermək; tələbə hökuməti; 4-cü kurs: səlahiyyətli dövlət siyasəti; maddi dəstək; tələbələrin problemlərini başa düşmək; tələbələrin yaşayış şəraitinin yaxşılaşdırılması, tələbələr üçün ipoteka kreditlərinin faiz dərəcələrinin aşağı salınması; həqiqi, mütəxəssislərin kağız işi; digər universitetlərin sosial siyasətinə diqqət yetirmək; hər şey tələbələrin özlərinin əlindədir; heç bir şey tələbənin rəyindən asılı deyil; 5-ci kurs: işəgötürənlərlə görüşlər; gənclər üçün mənzil əldə etmək imkanı; gənc mütəxəssislər üçün maaş artımı; minimal təcrübə ilə və ya onsuz bir iş əldə etmək imkanı; daxili universitet siyasətində dəyişiklik; heç nə tələbələrin fikirlərindən asılı deyil.

Keçirilmiş sorğu anketi göstərir ki, problemlər tələbə həyatının bütün sahələrini (maddi, psixoloji, fizioloji, peşə və s.) əhatə edir, aradan qaldırılması məsələsi federal, regional, əyalət və universitet səviyyələrində fəal şəkildə həll edilməlidir.

Anket vasitəsilə kuratorların müəyyən edilmiş fəaliyyətləri aşağıdakı kimi təqdim edilə bilər:

- tələbə fəaliyyətini izləmək;
- nümunəvi tələbələrin ödənişli təhsil formasından büdcəyə köçürülməsinə kömək etmək;
- tələbələrin vaxtında lazımi imtiyazlarla təmin edilməsini izləmək;
- yataqxana ilə bağlı tələbələrə kömək;
- yataqxanada yaşayan tələbələrin yaşayış şəraitinin araşdırılması;
- yataqxananın komendantı və tələbələrlə tədris və sosial iş üzrə şöbənin mütəxəssisləri ilə qarşılıqlı əlaqə;
- tələbələrin valideynləri və ya onları əvəz edən şəxslərlə ünsiyyət;
- məsləhət - psixoloji - təşkilati yardım;
- tələbələrlə fərdi və qrup işləri;
- tələbə məşğulluğunu izləmək;
- maddi yardımın alınmasında, hissə-hissə və təhsil qrantı üçün ödənişin formalaşmasında köməklik.

Bu tədqiqatlar təsdiqləyir ki, kuratorların işi tələbələrin sosial problemlərini müəyyənləşdirmək və onların həllinə kömək etmək üçün vacibdir. Tələbə tədqiqatçılarının təyin etdiyi universitetin tələbə problemlərinin həlli yolları maraq doğurur. Tələbələrin müəllim heyəti və inzibati strukturlarla birlikdə mütəxəssislərin cəlb edilməsi ilə səylərinin aşağıdakı kimi olmasını təklif edirlər. Məsələn, bir işdə bunlar rəhbərlik üçün, sosial şöbə üçün müəyyən edilmiş problemlərin həlli üçün şərait yaratmaq üçün tövsiyələrdir. Digər bir müəllif, xidmətlərin (məsələn, tələbə ailələri, dövlət dəstəyinə ehtiyacı olan tələbələrlə işləmək xidmətləri, tələbələrin asudə vaxtlarının təşkili xidmətləri, tələbələr üçün əmək mübadiləsi, hüquq xidmətləri və xidmətlər) universitet və universitet tələbələrinin tələbələrə uyğunlaşdırılması üçün bir model hazırladı. sağlamlığa qənaət və s.). Hər bir xidmətin mənalı bir xüsusiyyəti var (məqsədi, istiqamətləri, iş üsulları və formaları). Tələbələrin problemlərini özləri həll etmək istəyi sevindirir, çünki bu onların aktiv mövqeyindən xəbər verir. Üçüncüsü, gənclərin problemlərinin həllində iştirak edən universitetlərarası əlaqələndirici şuranın yaradılmasını təklif edir.

Eyni zamanda, yuxarıda göstərilən material universitetin tədris prosesinin bütün iştirakçılarının tələbələrin sosial problemlərini və məhsuldar işlərini və təhsilini aradan

qaldırmağa kömək edəcək rahat qarşılıqlı əlaqə və münasibətlər atmosferi yaratmağı düşündüklərini göstərir.

ƏDƏBİYYAT

1. Шевандрин Н. И. Социальная психология в образовании: учебное пособие. М.: Владос, 2005. 396 с.
2. Рубин Б. Г., Колесникова Ю. С. Студент глазами социологов. Ростов н/Д: 2004. 218 с.
3. Ханжин Е. В., Карпова Т. П., Ерофеева Н. П.Основы социальной работы: учебное пособие для нач. проф. образования. М.: Издательский центр Академия, 2003. 144 с.
4. Римский В. Социальная политика как метод решения социальных проблем. Общественные науки и современность. 2006, N 5

Aİİ MƏKTƏBDƏ TƏLƏBƏ QIZLARIN SOSİAL PROBLEMLƏRİNİN ƏSAS XÜSUSIYYƏTLƏRİ

XÜLASƏ

Müasir tələbə qızların praktik olaraq valideynlərindən və sosial müdafiə və dəstək sistemindən asılı olaraq dolanışıqlarının müstəqil maddi mənbələri yoxdur, bu da universitetin qoruyucu və sosial dəstək şərtlərinin yaradılması ilə əlaqəli funksiyaların yerinə yetirilməsini müəyyənləşdirir. Müasir universitetdə tələbə qızların sosial müdafiəsi və dəstəklənməsi, tələbələrin sosial risklərinin qarşısının alınmasına, minimuma endirilməsinə və ya kompensasiyasına yönəldilmiş, prioritetləri arasında sosial-iqtisadi, sosial-mədəni, fərdi və sağlamlıq riskləri olan universitetin tədris, tərbiyə və ictimai fəaliyyətində həyata keçirilən mütəşəkkil tədbirlər kompleksidir.

Universitetdə tələbə qızların sosial müdafiənin və dəstəyinin idarə olunmasının təşkilati modeli universitetin və bölgənin gənclər siyasətinin bir hissəsi hesab olunur və sosial müdafiənin subyektləri, əsas fəaliyyət sahələri, xarici əlaqələr və sosial təşkilatlarla qarşılıqlı əlaqə kimi komponentləri özündə cəmləşdirir.

ОСНОВНЫЕ ОСОБЕННОСТИ СОЦИАЛЬНЫХ ПРОБЛЕМ СТУДЕНТОК В ВУЗЕ

АННОТАЦИЯ

Современные студентки практически не имеют независимых источников средств к существованию, в зависимости от их родителей и системы социальной защиты и поддержки, которая определяет функции университета в создании условий для защиты и социальной поддержки. Социальная защита и поддержка студенток в современном университете - это комплекс организованных мероприятий, направленных на предотвращение, минимизацию или компенсацию социальных рисков студентов, включая социально-экономические, социально-культурные, личные и медицинские риски.

Организационная модель управления социальной защитой и поддержкой студенток в университете является частью молодежной политики университета и региона и включает в себя такие компоненты, как предметы социальной защиты, основные направления деятельности, международные отношения и взаимодействие с общественными организациями.

THE MAIN FEATURES OF THE SOCIAL PROBLEMS OF STUDENTS AT THE UNIVERSITY

SUMMARY

Modern students practically do not have independent sources of livelihood, depending on their parents and the social protection and support system that defines the university's functions in creating conditions for protection and social support. Social protection and support of students at a modern university is a set of organized measures aimed at preventing, minimizing or compensating for social risks of students, including socio-economic, socio-cultural, personal and medical risks.

The organizational model of managing social protection and student support at the university is part of the youth policy of the university and the region and includes such components as social protection items, main lines of activity, international relations and interaction with public organizations.

İSLAM SİVİLİZASİYASI VƏ ELMƏ VERİLƏN DƏYƏR

Nigar İbadova
BDU-nun II kurs magistrantı
nigaribadovaa@gmail.com

Açar sözlər: İslam, təhsil, elm, iman, inkişaf.
Key words: Islam, education, science, belief, development.
Ключевыеслова: Ислам, образование, наука, вера, развитие.

İslamiyyətin meydana gəlməsi elmin, təhsilin, maarifin məzmun və formasına öz təsirini göstərdi, belə ki, onun yenidən qurulmasına səbəb oldu, nəticədə yeni pedaqoji təfəkkür formalaşır. Xüsusən də qızlar və qadınların təhsil alması məsələsi İslamda ən təqdirə layiq məsələdir.

Cəmiyyətin maddi və mənəvi cəhətdən hər sahədə yüksəlişi, inkişaf etməsi, birbaşa təhsil səviyyəsi ilə şərtlənir. Yaxşı təhsil almış yüksək ixtisaslı mütəxəssislər cəmiyyətin bütün sahələrində-iqtisadiyyat, elm və texnika, təhsil və mədəniyyət, tibb və digər sahələrdə uğurla fəaliyyət göstərib, həmin sahələrin inkişafına öz töhvələrini verə bilərlər. Bu səbəblə təhsil, elm hər bir cəmiyyətin strateji vəzifəsi sayılır. Eyni cəmiyyətin müxtəlif dövrlərində də cəmiyyətin inkişaf xarakterindən asılı olaraq, təhsil prosesi müxtəlif formalarda təzahür edir. Elmin, təhsilin ən kəskin silah olduğunu müəyyən edən İslam dini həm təbliğatda, həm də dinin daşıyıcısı olan müsəlmanların yaşayış formasında elmin, təhsilin, tərbiyənin önəmli bir faktor olduğunu dəfələrlə vurğulayır. Təhsil, elm İslamda o qədər vacib bir yerə sahibdir ki, insanları doğru yola və səadətə çatdırmaqla hökmlü olan, İslam dininin müqəddəs kitabı Qurani Kərimin ilk endirilən ayəsinin başlanğıcı "İqra" (Oxu!) əmr xitabı ilə başlayır. Bundan başqa, Qurani Kərimdə 725 yerdə, elm və həmin kökdən törəyən kəlmələr yer almaqdadır. Elm kəlməsi ilə yaxından əlaqəsi olan ağıl, fikir, ibrət sözləri də, Qurani Kərimin bir çox yerində rast gəlinir.

Dahi mütəfəkkir Əbu Turxanin bir sözü var: "İnsanlar təhsil üçün yox, təhsil insanlar üçündür və o, insanların konkret ehtiyaclarına uyğunlaşdırılmalıdır". Təhsil sisteminin neçə əsrlər ərzində özünü təsdiq etmiş müstəqil sosial hadisə olması heç kimdə şübhə doğurmur. Bu sistem cəmiyyətdə bir çox elmlərin, o cümlədən, fəlsəfənin, sosiologiyanın predmetinə aiddirş Təhsildə idarəetmə məsələləri menecmentin, maddi-texniki baza ilə təmin olunması, təhsil müəssisələrinin infrastrukturu, maliyyələşdirilməsi iqtisadiyyatın predmetinə aiddir. Fəlsəfə geniş aspektdə olan bir dünyanı, insaniləşmiş, rəmziləşmiş dünyanı öyrənir. Din isə insanın məqsədini bilavasitə təlqin edir. İslami dəyərlərin, İslami biliklərin isbata ehtiyaca yoxdur. İslamda məqsəd eynidir, amma birinci idrak, ikinci inam üzrində qurulur. Məhəmməd İqbal İslamda Dini Düşüncənin yenidən doğuşu əsərində yazır: "İslam qətiyyətlə qəbul edildiyi və tam mənası ilə qavrandığl təqdirdə xarakter və mənliyi büsbütün dəyişdirə biləcək həqiqətlər sistemidir".

İslam dini, biliyə sahib olmağın, daim elmlə özünü təkmilləşdirməyin, həm fərdin şəxsiyyət kimi formalaşmasında, həm də Allahın razılığını əldə etmək üçün ən gözəl vasitə hesab edir. İslam dininin gəlişinin ilk illərindən etibarən, iman edib, dini qəbul edən cəmiyyətin fərdlərinin əksəriyyəti, təhsilin mühüm bir faktor olduğu düşüncəsini mənimsəmişlər. Qurani Kərimin bir çox ayələrində elmə, biliyə sahib olmağın əhəmiyyətindən bəhs olunur və dinin daşıyıcısı müsəlmanı təlim-tədrisə təşviq edir:

Allah istədiyi şəsxə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər!

Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır. (1, Ali İmran, 190).

Biz ayələri ağılla düşünən bir qövm üçün belə ətraflı izah edirik. (Ya Peyğəmbər! Bu Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar! (1, Rum, 28).

De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?! Yalnız ağıl sahibləri ibrət alar!" (1, Zumər, 9). Qurani-Kərimə baxdığımız zaman görərik ki, hər 4 ayənin birində elmlə baölı kəlimələrə rast gəlinir. Bundan başqa Quran təməl informasiya vasitəsi olaraq, Qələm (Qələm surəsi, 1) (Ələq surəsi, 4), Mürəkkəb (Kəhf surəsi, 109) və yazıdan (Ələq surəsi, 4) bəhs etmişdir.

Bəzi ayələrdə isə elm sahiblərinin daha çox məlumat sahibi olduqları, Allahın böyüklüyünü daha yaxşı dərk etdikləri bildirilmişdir:

Məgər Allahın göydən bir yağmur yağdırdığını görmüsənmi?! Sonra Biz onunla növbənöv meyvələr yetişdirdik və dağlarda müxtəlif rəngli-ağ, qırmızı, tünd qara yollar əmələ gətirdik. İnsanların, heyvanların və mal-qaranı da bu cür müxtəlif rəngləri vardır. Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar. Həqiqətən, Allah yenilməz qüvvət sahibidir, bağışlayandır!

Quran əxlaqına uyğun yaşayan İslam cəmiyyəti, gözəl əxlaqlarını və yüksək şəxsiyyətlərini, Quranda mövcud olan bilikləri, müasir elmlər, mədəniyyət və incəsənət kimi sahələrdəki bilikləri ilə birləşdirərək, İslamı ən gözəl şəkildə təbliğ etmişdir. Bu səbəblə, digər insanlara nümunə olmağı və onların iman etmələrinə səbəbkar olacaqlarını, İslamda yeri olmayan davranış formaları və düşüncələrlə Quran əxlaqını təmsil edə bilməyəcəklərini dərk etmişlər.

Hz. Peyğəmbər də bir çox hədislərdə elmin vacibliyinə diqqət çəkmiş, bizləri elmə təşviq etmiş, bir qayəyə sahib olan elm adamı kimi yetişməyimizi istəmişdir:

Elm yoluna daxil olana, Allah Cənnətin yolunu asanlaşdırar (5, I, s. 63).

Qadın və kişi, hər bir müsəlmana elm öyrətmək fərzdir. (4, Müqəddimə, s.17)

Müsəlmanlar İslamın ilk illərindən başlayaraq, elm və hikmət adı ilə bir çox elmi əsərlər ortaya çıxarmışlar. Məkkə, Mədinə, Şam, Qahirə, Qüds, Bağdad, İstanbul, Kordova, Buxara, Səmərqənd kimi bir çox şəhərlər elm. Təhsil və mədəniyyət mərkəzlərinə çevrilmişdir.

Hz.Peyğəmbərin yol göstərməsi ilə Quranın nazil edilməsindən sonra çox dinamik olan ərəb cəmiyyətində daimi təbliğ mühiti təmin edilərək insanlara Allahın varlığı və din əxlaqı izah edilmiş, bu yolla günbəgün çox sayda insan İslam əxlaqını nümunələrini tanımış və mənimsəmişdir. Burada ən əsas amillərdən biri Qurandakı elmi məlumattların insanlara çatdırılmasıdır. Quranın nazil olduğu dönəmlərdə cəmiyyət olaraq elmdə geri olan Ərəb cəmiyyətinə Qurandakı biliklərdən nümunələr verilərək insanlar səmimi şəkildə bunlar üzərində düşünməyə dəvət ediliblər.

Quranda bildirilən kainat və canlıların yaradılışındakı xüsusiyyətlər kimi nümunələr izah edildikcə, bunların insanlar üzərindəki təsiri böyük olmuş və İslam o dövrdə çox geniş kütləyə yayılmışdır. Bununla yanaşı, Peyğəmbərimiz (s.ə.v) təhsilin yayılması üçün əvvəlcə məkanlar seçmiş və ehtiyac olan bölgələrə müəllimlər göndərmişdir. Bədr döyüşündən sonra əsirlərə oxuma-yazma öyrətmə qarşılığında onları azad etmə haqqının verilməsi də bu dövrdəki fəaliyyətlərdəndir. Hz. Peyğəmbər Mədinəyə hicrətdən sonra məscidin yanında inşa etdirdiyi, Suffa bir təhsil qurumuna çevrilmişdir.

Suffada müsəlmanlara oxuma-yazma, Quran elmləri, Əqaid, Tarix, Tibb, Riyaziyyat, Ərəb şeiri və Dil dərsləri öyrədilirdi. Bəzən bu məktəblərdə tələbə sayının 400-dən çox olduğu deyilir. Hz. Peyğəmbər qadınların da təhsilinə böyük önəm vermişdir. İlk dövrlərdə təlim-tədris daha çox məscidlərdə aparılırdı. Daha sonra bir çox təhsil qurumlarl meydana çıxmasına baxmayaraq, məscidlər bu funksionallığını itirməmişdir.

832-ci ildə Abbasi Xəlifəsi Məmun tərəfindən Bağdatda yüksək təhsil qurumu olan Beytul Hikmənin əsası qoyulmuşdur. Bu təhsil ocağında kitabxana, rəsədxana mövcud olmuş, burada tərcümə mərkəzi olma xüsusiyyətini də daşıyırdı.

İslam dini yarandıqdan və geniş yayıldıqdan sonra dünyada ilk dəfə olaraq yaranan ali təhsil ocağı Mərakeşin Fas şəhərində yaranan Əl-Qarauin Universitetidir. Bu universitet 859-cu ildə Fatimə əl Fihri tərəfindən əsası qoyulmuşdur. İlk olaraq məscid kimi fəaliyyət göstərən bu təhsil ocağında 1957-ci ilə kimi elmlər də əlavə edilərək tədris olunmağa başladı. Bu universitet fasiləsiz olaraqindiki dövrə kimi fəaliyyət göstərən ən qədim ali təhsil ocağı olaraq Ginnesin Rekordlar Kitabına daxil edilmişdir. Kitabxanası son dönəmlərdə restavrasiya olunmuş və 2016-cı ildə yenidən fəaliyyətinə davam etmişdir. Kitabxananın kolleksiyasında 4000-ə qədər əlyazma saxlanılır. Bu əlyazmaların içərisində 9-cu əsrdən mövcud olan Quran və daha əvvəllərə aid olan hədis külliyyatı saxlanılır. Bu təhsil ocağında mövcud olan məscid, şimali Afrikanın ən böyük məscidlərindən hesab olunur. Eyni zamanda universitetin digər şəhərlərdə də fəaliyyət göstərən müxtəlif fakültələri mövcud olmuşdur.

İslam təlim-tədris tarixində ən mühüm yeri tutan mədrəsələrin ilk yaranma prosesi Fatimilər, Qaraxanilər və Qəznəvilər dövründə baş vermişdir. Lakin Nizamiyyə mədrəsələrinin yaranması prosesi İslam mədəniyyət və təhsilində dönüm nöqtələrindəndir. Səlcuq hökmdarı Alparslanın əmriylə vəzir Nizamülmülk tərəfindən Bağdatda 1067-cil ildə əsası qoyulmuşdur. Bu mədrəsələr Anadolu Səlcuqları və Osmanlı mədrəsələrinin formalaşmasında qaynaq rolunu oynamışlar. İslam mədəniyyətinin təhsil qurumlarından Biruni, Fərabi, İbn Rüşd, İbn Sina, Kindi kimi dünyaca məşhur alimlər çıxmış, həm İslam mədəniyyətinə, həm də insanlıq tarixinə dərin töhvələr vermişlər.

Azərbaycan da İslam mədəniyyətinin bir hissəsi olduğu üçün burada da mədrəsələr fəaliyyət göstərmişdir. X əsrdə İslam dininin təsiri ilə iki pilləli-orta və ali təhsil verən mədrəsələr yaranmağa başlayır. İlk mədrəsələr Təbrizdə, Bağdadda, Dəməşqdə yaranmışdır (Beyhəqiyyə, Sədiyyə, Nizamiyyə mədrəsələri). Azərbaycan ərazisində ilk mədrəsələr Marağada, Naxçıvanda, Şamaxı və Gəncə şəhərlərində fəaliyyət göstərmişdir. XII əsrdə mədrəsə təhsili almış bir çox mütəfəkkirlər yetişmişdir (Əbül Üla Gəncəvi, Nizami Gəncəvi, Məshəti Gəncəvi, Fələki Şirvani, Xəqani Şirvani, Xətib Təbrizi və b.). Onların bir çoxu mədrəsə və akademiyalarda müəllimlik etmişlər.

İslam elm ənənəsi içərisində Əndəlüs təcrübəsi çox mühüm bir yerə sahibdir. İbn Rüşd, İbn Hazm, İbn Ərəbi, İbn Tüfeyl, İbn Xaldun, İbn Baccə və Şatibi kimi simalar məhz Əndəlüsdə yaradıcılıqla məşğul olmuşlar. 800 ilə qədər davam edən bu elm ənənəsi bugünkü Qərb düşüncəsinin formalaşmasına öz təsirini göstərmişdir. Əndəlüsdə həmin dönəmdə hər il 70 və ya 80 min arası kitab çap olunduğu tarixi qaynaqlarda keçir. Yəhudi əsilli olan Alberto Manguel "Oxumanın tarixi" adlı əsərində Kordova kitabxanasında 700 min cild kitabın mövcud olduğunu söyləyir.

Misirdəki Əl Əzhər Universiteti şərqdə və qərbdə bənzərinə az rast gəlinən universitetlərdən biri olmuşdur. Əl Əzhər universitetinin formalaşdığı dönəmdə qərbə Boloniya universiteti, şərqdə isə Mustansiriyyə Universiteti dövrünün ən nüfuzlu təhsil müəssisələri idilər. Hindistandakı Diyabəndi mədrəsəsi Əl Əzhardan təsirlənərək yaradılmışdır. Bugün də fəaliyyətini davam etdirən. Əl Əzhər Universiteti demək olar ki, dünyanın bütün ölkələrindən tələbələri qəbul edir.

Orta əsrlərdə bir sıra İslam alimləri elmlərin inkişafına öz töhvələrini vermişlər. Həkimlərin sultanı olaraq tanınan İbn Sinanın (980-10370 tibbə bir çox yeniliklər gətirən "Təbabət elminin qanunu" adlı tibb kitabı, İslam dünyasında olduğu kimi, Avropada da Tibbin əsas kitabı olmuşdur. "Tibbin İncili" ünvanını qazanması, 600 il Avropa Universitetlərində dərs kitabı olaraq tədris edilməsi, bunun ən böyük dəlilidir. İbn Sina, tibb də daxil olmaqla 29 müxtəlif elm sahəsindəki ixtiraları ilə Avropalı elm adamlarına öndərlik edən böyük bir alimdir. Gözlə bağlı tədqiqatları ilə müsəlman həkimlər elm dünyasının əsrlərlə öndəri olmuşlar. Gözdəkiretina

təbəqəsinin funksiyasından ilk dəfə bəhs edən İbn Rüşddür (1126-1198). XI əsrdə yaşayan məşhur göz həkimi Əli bin İsanın gözlə bağlı yazdığı "Təzkirə" adlı əsəri yüz illərcə göz sahəsində yeganə kitab olaraq qalmışdır. Sıfırı ilk dəfə işlədən Xarəzmi (780-850) Cəbrin təməllərini atmışdır.

İlk cəbr kitabını "Əl Cəbr vəl Muqabələ" adıyla o, yazmış və kitabın adı olan "Əl-Cəbr" Qərbə "Alqebra" kimi kiçik bir tələffüzdəyişikliyi ilə keçmişdir. "Əl-cəbr" bu gün "Cəbr" olaraq tələffüz edilir. Müsəlman alimlərini ən çox maraqlandıran bir elm sahəsi də Astronomiyadır. İslam ölkələrinin demək olar ki, hər böyük şəhərində bir rəsədxana var idi. Bu rəsədxanalarda müsəlmanlar kəşf və tədqiqatlar apardılar ki, əldə etdikləri nəticələrlə elm dünyasına əsrlərlə yol göstərdilər. Cordano Bruno (1546-1601), Kopernik (1543-1743), Qaliley (1564-1642) kimi bir çox qərb alimlərinə belə ilham qaynağı oldular. Coğrafiyanın bir elm kimi ortaya çıxmasına təkan verənlər də müsəlmanlardır. Qarış-qarış, bucaq-bucaq dünyanı dolaşan Övliya Çələbi (1611-1682), 29 il durmadan ölkə-ölkə, qitə-qitə gəzən, İbn Batutinin (1304-1369) səyahətnamələri ayrı-ayrılıqda tarix və coğrafiya xəzinələridir. Biruni əsrlər öncə Amerikanın mövcudluğundan bəhs etmişdir.

Tarix fəlsəfəsinin ən görkəmli simalarından birisi olan İbn Xaldun (1332-1406) Sosiologiya elminin qurucusu olaraq xatırlanmaqdadır. Açdığı cığırla bir çox qərbli alimə yol göstərib. Memarlıq deyildiyi zaman, ilk ağla gələn Memar Sinan (1489-1588) möhtəşəm memarlıq üslubu ilə bir çox əsər qoyub getmişdir. İslam dini göndərildiyindən etibarən hər dövrdə dünyanı aydınladan, mənalandıran bir işıq olub. Peyğəmbərimiz Hz.Muhəmməd (s.ə.v) və Əshabi-kirab Quran əxlaqının insanlara qazandırdığı üstün və müasir mədəniyyət anlayışının ən gözəl təmsilçiləri olublar. Bu görkəmli sivilizasiyanın təməlində isə təhsilə verilən əhəmiyyət, elm, mədəniyyət və incəsənətə verilən dəyər çox böyük rol oynamışdır.

İstər Quran əxlaqının təbliğində, istərsə də insanın Allahın nemətlərini gösrməsində mühüm rol oynayan elmin, başqa sözlə, təhsil və mədəniyyətin müsəlmanların həyatının mühüm hissəsi olduğu aydındır. Bununla bərabər, hər cəmiyyətdə fərdlərin özlərində, ailələrinə, ətraflarına, ölkələrinə və bəşəriyyətə faydalı insan kimi yetişdirilməsinin də ancaq hərtərəfli təhsillə mümkün olduğu bir həqiqətdir. Peyğəmbərimiz (s.ə.v) hər bir valideynin övladını gözəl yetişdirməli olduğunu bildirmişdir. Bəs İslam əxlaqının tələbinə uyğun təhsil anlayışı hansı bilikləri əhatə edir? Aldığımız təhsilin məqsədi nə olmalıdır? Elm, mədəniyyət və incəsənət sahəsində qabaqcıl olmağın əhəmiyyəti nədir? Hər sahədə bilikli və təcrübəli olmağın hansı faydaları var? Bu suallara ən gözəl cavab digər bütün məsələlərdə olduğu kimi, Quran ayələrində və Peyğəmbərimiz (s.ə.v) hədislərindədir.

Təhsil və bilik nə üçün vacibdir?-sualına hədislərdə belə cavab verilir:

1. Hər sahədə təhsilli və bilikli olmaq Quran əxlaqına uyğun yaşamağın təbii nəticəsidir:

Quran əxlaqına uyğun yaşayan möminlər gözəl əxlaqlarını və yüksək şəxsiyyətlərini Quran biliyi, müasir elmlər, mədəniyyət və incəsənət kimi sahələrdəki bilikləri ilə birləşdirərək İslamı ən gözəl şəkildə təbliğ edirlər.

2. Bilikli olmaq Allahın rizasını qazanmaq üçün gözəl yoldur:

İman gətirənlər biliyi Allahın rizasını qazanmaq üçün gözəl yol hesab edirlər. Nə qədər bilikli olsalar, bunun imanlarının artmasına səbəb olacağını, Allah yaxınlaşdırmaq məqsədilə elm öyrənmək üçün göstərdikləri cəhdin də, Allahın iznilə, saleh əməl olacağını bilirlər.

3. Bilik sahibi olmaq Allaha olan sevgimizin və Allah qorxumuzun artmasına səbəb olur:

Uca Allaha olan sevgi Onun yaratdığı varlıqlardakı üstün və qüsursuz xüsusiyyətləri oxuyub, araşdırıb öyrənməklə daha da artır. Yaradılış dəlilləri möminlərin üstün güc sahibi, hər şeyin yaradanı oaln Rəbbimizdən lazım olduğu kimi qorxmasına da səbəb olur.

4. Quran elmə təşviq edir və elmə yol göstərir6

Elm Quranda bildirilən həqiqətlər uyğun istiqamətləndirildiyi təqdirdə çox sürətlə irəliləyər və bəşəriyyətə daha çox xidmət edər. Allah Quranda insanlara göylər, yer, dağlar, ulduzlar,

bitkilər, toxumlar, heyvanlar, gecə ilə gündüzün meydana gəlməsi, insanın öz doğuluşu, yağış və yaradılmış bir çox varlıq üzərində düşünməyi və bu varlıqları tədqiq etməyi bildirmişdir. Bunları tədqiq edən insan bütün canlı və cansız varlıqlarda Allahın üstün yaratma sənətini görər, beləliklə, özünü və bütün kainatı yoxdan yaradan Rəbbimizi lazımınca tanıyar.

5. Din əxlaqına uyğun olmayan fəlsəfələrlə ideoloji mübarizə aparmağın yolu bilikdir:

Din əxlaqına uyğun olmayan ideologiya və fəlsəfələrin bəşəriyyətə verdiyi zərərlərlə, zülm və ədalətsizliklərlə mübarizə aparmağın yolu Quranda bildirilmişdir. İslam əxlaqı zorakılığı, pisliyi deyil, anlayışı, mərhəməti və yaxşılığı tövsiyə edir.

6. Hər sahədə yaxşı biliyə yiyələnmək Quran əxlaqını təbliğ etməkdə ən təsirli yollardan biridir:

Quranda bildirilən təhsil anlayışı çox ədalətlidir. Ən əsas təhsil sahələrindən biri də imanlı insanın şəxsiyyətini, rəftar və davranışlarını, danışıq üslubunu və müraciət formasını və bütün xüsusiyyətlərini Quranda bildirilən üstün əxlaqa yaraşan formaya salması və bu məqsədlə çatışmayan cəhətlərini tamamlaması, xətalı cəhətlərini düzəltməsidir. Çünki bu xüsusiyyətlər təbliğ vəzifəsini yerinə yetirərkən ona kömək edəcək

7. Bilik hadisələrin geniş dünyagörüşü ilə dəyərləndirilməsinə və həll yolları tapmağa imkan verir:

Rəbbimizin bizə rəhbər və rəhmət kimi nazil etdiyi Qurandakı ayələri bilən, Allaha qarşı səmimi olan müsəlman qarşılaşdığı hadisələri Quranın göstərdiyi doğru yollar çərçivəsində hikmətli şəkildə dəyərləndirər. Məsələn, sosial həyata dair bir çox məsələni ayələr işığında sağlam dəyərləndirər, insan xarakterlərini daha yaxşı təhlil edər və problemlərə tez həll yolu tapar. Eyni şəkildə, Allahın canlılardakı yaratma sənətinə dair hərtərəfli biliyə malik olan mömin ayələrdə bildirilən nümunələri daha yaxşı qavrayar və Allahın qədrini daha yaxşı təqdir edər. Hz. Muhəmmədin (s.ə.v) yol göstərməsi ilə Quranın nazil edilməsindən sonra çox dinamik olan ərəb cəmiyyətində daimi təbliğ mühiti təmin edilərək insanlaraAllahın varlığı və din əxlaqı izah edilmiş, bu yolla günbəgün çox sayda insan İslam əxlaqını tanımışdır. O dövrdə elmdə çox irəliləyiş olmasa da, Qurandakı biliklərdən nümunələr verilərək insanlar səmimi şəkildə bunlar üzərində düşünməyə dəvət ediliblər.

Bununla yanaşı, Peyğəmbərimiz (s.ə.v) təhsilin yayılması üçün əvvəlcə məkanlar seçmiş və ehtiyac olan bölgələrə müəllimlər göndərmişdir. Bədr döyüşündən sonra əsirlərə oxuma-yazma öyrətmə qarşılığında onları azad etmə haqqının verilməsi də bu dövrdəki fəaliyyətlərdəndir. Peyğəmbərlərimiz (s.ə.v) əvvəlcə "suffa" adlanan yataqxanalı məktəb açmış və burada ancaq elm və ibadət əsas götürülmüşdür. Cəmiyyətdə imkansız heç nə yoxdur, çətin və vaxt aparan şeylər var ki, çalışıb onun da öhdəsindən gəlmək olar. Yetər ki, savadlı olasan, elmin bütün sirlərinə yiyələnəsən, biliklərin açarını əlində möhkəm tutasan. Dahi filosof Hegelin dediyi kimi: "Din və əxlaq inama əsaslanmaqla vasitəsiz bilik olsalar da, hər halda yenə də tərbiyə və təhsillə vasitələnirlər".

ƏDƏBİYYAT

1. Elnur Nəsirov. "İslam Tarixi". Bakı, 2015
2. İslam mənəvi dəyərlərinin formalaşmasının Mədinə dövrü // BDU-nun Dil və ədəbiyyat jurnalı, 2009, №3
3. Şagirdlərin İslam mənəvi dəyərləri əsasında tərbiyəsində müəllimlərin rolu // BDU-nun Dil və ədəbiyyat jurnalı, 2010, №1
4. Fərrux Rüstəmov. "Azərbaycan məktəb və pedaqoji fikir tarixi". Bakı,2014
5. Ləzifə Qasımova. "Pedaqogika". Bakı, 2012

XÜLASƏ

İslam görüşündə cəmiyyətin inkişafı təkcə elmlə yox, həm də mənəvi-əxlaqi dəyərlər, bəşəriyyətin min illər boyu formalaşmış olan mədəni idealları, humanist fəlsəfi fikirləri, nəhayət onun ən ali meyar və metodu olan mənəviyyat prinsipilə bağlıdır. İslam əslində bütün bunların vəhdəti, insanın intellektual, emosional və mənəvi-əxlaqi inkişaf istiqamətlərinin birləşdyi zirvədir.

АННОТАЦИЯ

В исламском мире развитие общества зависит не только от науки, но и от моральных ценностей, культурных идеалов человечества, сформировавшихся за тысячи лет, гуманистических философских идей и, наконец, принципа морали, который является его высшим критерием и методом. Фактически ислам - это единство всего этого, вершина интеллектуального, эмоционального и духовного развития человека.

SUMMARY

In the Islamic world, the development of society depends not only on science, but also on moral values, the cultural ideals of mankind formed over thousands of years, humanist philosophical ideas, and finally the principle of morality, which is its highest criterion and method. Islam is, in fact, the unity of all this, the pinnacle of human intellectual, emotional and spiritual development.

FİZİKİ VƏ ƏQLİ İMKANLARI MƏHDUD ŞAGİRDLƏRLƏ İŞ TƏCRÜBƏSİNDƏN

Abdulova Səadət Yasin qızı, Xudat şəhər
3 saylı tam orta məktəbinin həndəsə və riyaziyyat müəllimi

Açar sözlər: təhsilin formaları, fiziki imkanları məhdud şagirdlər, təlim texnologiyaları, psixoloji amil.

Keywords: forms of education, students with disabilities, learning technologies, psychological factors.

Ключевые слова: формы обучения, учащиеся с ограниченными возможностями, технологии обучения, психологический фактор.

Məlumdur ki, bəzi hallarda fiziki imkanları məhdud şagirdlər üçün xüsusi ev dərsləri (“ev məktəbi”) təşkil olunur. Topladığım təcrübə ilə həmkarlarımla bölüşmək istəyirəm. Şagird Kamil Ağamalıyev (8-ci sinif) ilə mən məktəbdə tanış oldum və cədvəl üzrə müntəzəm olaraq onunla görüşdüm.

17 oktyabr

Bu gün Kamillə ilk dərs məşğələm oldu. Bir neçə il öncə məktəbdə tanış olmuşdum onunla. Kamil bəzən mənə əl verib görüşürdü, bəzən isə üzünü yana döndərərək mənimlə ünsiyyət istəmədiyini biruzə verirdi. Kamil məni tanıdı və sevinclə qarşıladı.

Ayın tarixini yazarkən hərfləri məndən soruşurdu. Mən hərfi kağız üzərində yazırdım, o tezcə dəftərə yazırdı. Qəribə yazı tərzi var: əvvəlcə sağdan sola bir yarısını yazır, sonra tamamlayır. r l

a + a = 2a

a + 2a = 3a

a + a + a = 3a kimi çalışmaları barmaqla sayaraq cavabını verdi.

4a – a = 3a

4a – 2a = 2a kimi çalışmaları stolun üstündə qabdakı almaları saymaqla cavabını çətinliklə aldım: -- Dörd alma var. Bir almanı yesən neçə alma qalar? Cavab:-- Elə alçaların hamısını mən yeyirəmdə!

Cavab almaq üçün xeyli dilə tutmalı olurdum. Hiyləgərlik edir; yalan danışır, bəzi yazı ləvazimatlarını, eynəyini gizlədir və itib , yoxdur deyir. Onda mən gülə - gülə soruşuram: -- Kamil, məni aldadırsan? Aç bax, bəlkə çantadadır? Bu çür “ oyun “ kamilin xoşuna gəlir. Tez gizlətdiyini çıxarır.

Sütun şəklində toplama və cıxma əməllərini yerinə yetirməyi xoşlayır. 20-yə qədər yaxşı sayır, toplayır, çıxır.

Şəkildəki mavi dairəcəkləri saydırdım: 7 dənə İndi yazır: - mavi – 7

Kamil mavi sözünü yazınca 7-ni unutdum; “ yaşıl – 10 “ yazmaq üçün 2-3 dəfə yaşıl dairəcikləri saymalı oldu; bəzən hansınısa iki dəfə sayırdı. Qırmızı rənglərə çatınca yoruldu və saymaqdan imtina etdi.

24 oktyabr

Həndəsi fiqurlardan: üçbucaq, dairə və kvadratı , düzbucaqlını tanıyır və çəkir. Xətkeşi, istifadə edərkən tələsmə baş verir , məncə həyəcanlanır, karandaşdan uzaq saxlayaraq xətt çəkir , nəticədə xətt əyri alınır, ə-ə-ə səsləri ilə narazılıq edir və əyrini daha da betər əyir.

Bucaq, radius, diametr, vətər sözlərini yazdırdım və şəkil çəkərək üzərində nəyin nə olduğunu izah etdim (Kamilin iştirakı ilə şəkil çəkdik, mən göstəriş verirdim.)

“şəkil çəkək” deyən kimi şəkil albomunu götürür və çəkdiyi rəsmləri mənə göstərir. Dəftərdə həndəsi fiqur çəkməyə etiraz edir. Albomdakı şəkilləri təbii ki, nəzərdən keçirdim, valeh

olduğumu, çox gözəl çəkdiyini söylədim. Yenə hiyləyə əl atır: məni albomda rəsm çəkməyə dəvət edir.

Albomda Kamilin çəkdiyi (müstəqil olaraq) ev şəkli diqqətimi cəlb etdi. Bu onların tikdiyi təzə evin şəkli idi.

Evə tapşırıq istəyir. Misallar yazıram (sütun çəklində) son..

31 0ktyabr

Yenə hərf yazılışında çətinliklər. "a" hərfi yazarkən "ι" işarəsini unudur, "o" yazır və deyir ki, yazdımda. Ona belə tip çalışma verdim

7a - = 5a



Çətinlikdə dairədə 2a olduğuna onu inandırdım.

Sonra dairə çəkməyi; 3 dənə balaca xiyar çəkməyi; daha sonra iki dənə alma çəkməyi təklif etdim. Belə çəkdi:



İstiqamət soldan sağa; almanın saplaq və yarpaq hissəsini çəkib.

Məqsəd: çoxluq anlayışını vermək idi.

Daha bir şəkil çəkdirdim: dairə, 3 dənə düzbucaqlı; 4 dənə dairə, 5 dənə üçbucaq. Belə alındı.



Bu çalışma zamanı Kamil yorulmuşdumu, başqa səbəbdəndimi, əl hərəkəti dəqiq deyildi.

Daha sonrakı mərhələ: 3□, **4**○, 5Δ.

7 noyabr

Kamil gözlərinin yaşarmasından şikayət edir. Eynək taxmaq istəmir. Ayın tarixini çox çətinliklə yazdı. Dörtbucaqlılar sözünü yazarkən q və a hərflərini tamamilə unutdu. - a hərfi

amma, r hərfi həmişə cox gözəl olur:

l r r
1 2

Dəftərdə nöqtələr qeyd etdim; xətkeş və karandaşın köməyi ilə həmin nöqtələri birləşdirməyi təklif etdim. Bu gün Kamilin diqqəti cox dağınıqdır; tez – tez əsəbləşir; çəkmək istəmir; hər fiquuru çəkmək üçün dilə tutmalı oluram; tez – tez saata baxır, məndən nə vaxt gedəcəyimi soruşur. Gözləri yaşardığı üçün eynəyi taxmır, dəftərin üzərinə cox əyilir. (eynək yoxdur deyir; çantada gizləibmiş, ana və bacısının köməyi ilə tapıldı, lakin tez –tez çıxarır).

Nöqtələri bir az iri qeyd etdim. İndi iş asanlaşır.

Rəsm albomunu göstərdi. Yeni rəsmlərini: çaynik və daha nə isə unutdum... diqqətimi həndəsi fiqur cəlb etdi:



Ötən dərsdə çəkdiyi fiquru eynilə rəsm dəftərində çəkmiş və boyamışdı.

21 noyabr

Ayın tarixini bilmir. Hərfləri eşidərək yaza bilmir. Əlifbadan göstərirəm, bir – bir yazır.

Şəkil olmayan kitabdan misal yazdırdım. Dedi ki, istəmirəm. Səbəb: bu kitabdan xoşu gəlmirdi ona görə misalı dəftərə yazdırdım, oda dəftərinə yazdı.

28
19
9

"9" cavabını tapmaq üçün dairəciklər çəkdim və ona 19 dənəsinin üzərindən x çəkməyi təklif etdim. O , bunu çox həvəssiz edir. Sonra x çəkilməyənləri saydırdım. Saymaq istəmir. Ardımca təkrar etməyi tələb: bir, iki... O, çox yavaş, səsini nazildərək təkrar edir: bir, iki.. Məndə səsimi onun səsinə oxşadaraq:- üç

Kamil hündür səslə: - üç!

Mən:- kamil, tülkülük edirsən?

Kamil bərkdən gülərək və başını arxaya atıb mənə baxaraq:

- Sənnən məzələnirəm ey – deyir.
- Məndə gülümsədim dedim :
- Birdə belə eləmə, yaxşımı.

İndi təzədən sayaq. "9" ədədini yerinə yazdıqdan sonra soruşur:

Burda yazmayım?

28
19
9

Cavabın birrəqəmli ədəd olması onun diqqətini cəlb etmişdi. Cıxma əməlinə aid misal verdim koməkli həll etdik. əvvəlcə misalı sətirdə yazdırdım. - =

Sonra alt-alta yazdırdım və cavab 24; 21 aldıq yerinə yazmağı təklif etdim 21 əvəzinə 12 , 24 əvəzinə 42 yazmaq istəyidi. Sətir şəklində yazılmış misalları hec xoşlamır.

7x3 = kimi misalı həll etmək üçün rəngli karandaşlarla dairəciklər çəkməyi təklif etdim. (hündürdən e-e-e-e-ə-ə-hh etdi). Mənə dedi ki, gedirsə, evə. əvvəlcə misalı qurtaraq sonra gedərəm dedim. (Adətən o, yorularkən, çətinlik çəkərkən belə edir.) Karandaşlarla dairə

çəkərkən 1mm uzunluğunda parca boyu sol yuxarı – sağ aşağı küncə doğru hərəkət edirdi; dairə çəkmək mexanizmi alınmırdı, sanki. Bir dənə dairə çəkib göstərdim, sonra ala- babat çəkdi.



10-dan yuxarı saymq istəmir. 5x4 = 20 misalını əvvəl dairəcik çəkməklə, sonra əllər və barmaqlarla; sayaraq həll etdirməyə çalışdım. İki əldə 10 barmaq olduğunu dərk edir, 4 əldə 20 olduğu ilə razılaşmır.

Sonra 4 nöqtə qoymağa və xətkeşlə bunları cüt- cüt birləşdirməyi tapşırdım. O, isə xətkeş yoxdur deyərək əl ilə çəkdi. Bacısı öz xətkeşini gətirdi. Yenə bir şəkil çəkdi. Nöqtədən nöqtəyə dəqiqliklə çəkə bilmir.



Yenə bir şəkil çəkməyi xahiş etdim, nöqtələri özüm qoydum; xətkeşi düzgün qoymağa kömək etdim. Əlimdəki qələmi isə uc nöqtədə manea kimi qoydum ki, şəkil yaxşı alınsın. Xətti çox sürətlə çəkir. Qələmi dəftərə toxunduran anda xətti çəkir, mənim qələmimə toxunduqda "tormozlanir". Bu onun xoşuna gəlir gülür.

5 dekabr

Vurma cədvəlini yazdırmağa çalışıram. Bacısı (normal, 6-cı sinif şagirdi) dedi ki, məndə vurma cədvəli var. Çantasından yenicə çıxarmışdı ki, Kamil stolun üzərindən dartınaraq cədvəli qapıb götürdü və sürətlə əllərinin içində əzişdirib qatladı və karandaşlar üçün nəzərdə tutulan çantanın içinə dürtdü. Bütün dərs ərzində etdiyi hərəkətdən razı olduğunu gizlətmədi. Cədvəli nə mənə nə də bacısına göstərmədi.

12 dekabr

Kamil çox əsəbi və kefsiz idi. Ana bunun səbəbini "kalonkaların" sıradan çıxması olduğunu və Kamilin bu işdə təqsirkar olduğunu mənə eşitdirdi.

Bacı gəldiyimi görüb, dərhal televizoru söndürdü. Kamil yenidən qoşdu. Bacı anaya dedi. Ana acıqlandı. Dedi ki, sonra mən səninlə yaxşıca danışaram. Televizoru söndürdü. Kamil dayanmadn mızıldanır, yeni " kalonka" alınmasında israr edirdi. Mənə də dedi ki, sən çıx get. Mən yazmıram.mən yazmaq istəmirəm və s.

20 dekabr

Kamil məni sevinclə salamladı. Dəftəri stolun üstünə qoydu və dedi; - hə, indi nə yazım?

Kağız üzərində iri xətlə 4-ə vurma cədvəlini yazdım. Həvəslə dəftərə köçürdü, özü də qəşəng xətlə. Vurmaya aid sadə misallar yazdım.

$$\begin{array}{r}\times 11\\ \underline{\quad 2}\end{array},\quad \begin{array}{r}\times 23\\ \underline{\quad 3}\end{array},\quad \begin{array}{r}44\\ \underline{\quad 2}\end{array},\quad \begin{array}{r}\times 12\\ \underline{\quad 3}\end{array}$$

Köməkləşib cavabları yazdırdım. Daha sonra bir az çətinləşdirdim misalları

$\frac{\times 15}{2}$, $\frac{\times 13}{3}$, $\frac{\times 21}{4}$, $\frac{\times 51}{1}$, $\frac{\times 21}{5}$

Kamil yenə hiyləyə əl atdı: bu misalları “ evdə həll edim” dedi. Sonra: - vurma cədvəlini yenə yazım? – dedi.

Razılaşdım.

Dərs prosesində bacısı da mənə öz misallarının həllində kömək üçün müraciət edirdi. Baciya izahat verərkən Kamil bir az inciyir, bütün diqqətimin yalnız özünə yönəltməyimi istəyirdi. Xülasə, dərs konfiliktsiz keçdi. Ana buna ciddi səbəb olduğunu söylədi: Kamilin “kalonkaları” təmir olunub, axı. Qeyd: Kamil bütün əqrəbalarını yaxşı tanıyır. Adlarını bilir. Toylarda, ad günlərində iştirak etməyi sevir, əqrəbaların toy kosetlərini saatlarla seyr etməyi çox sevir. Körpələrlə oynamağə çox sevir.

Kamil 9-cu sinfi bitirib. Onu Bakiya göndərdilər xüsusi məktəbə.(oxumaq üçün). Orda müqaisə edəndə Kamilin yaxşı inkişaf etdiyini görcək (nitqi, şüuru, davranışı) dedilər ki, bura onun yeri deyil. 9-cu sinfə bizim məktəbə gəlib, getdi. (fərdi sinfə)

Xudat şəh.3N-li tam orta məktəb, Abdulova Səadət

64 yaş

Kamil ilə birinci dərsim vaxtından bir ay gec oldu, çünki saatlar vaxtında paylaşmamış idi.

Şiddətli yağış yağırdı. Kamil yaşayan binanın həyətinə keçə bilmədim: böyük bir gölməçə yaranmışdı, həm də hansı bina olduğunu bilmirdim. İstədim geri qayıdım. Yarı yolda direktor zəng elədi: yoxlama var. Bakıdan. Tez yerində ol, gəlir.

Mən geri qayıtdım və dərsə başladım.

Yoxlama gəldi. Keçən ilki müəllimlərin adlarını soruşdu.uşaq susurdu.məni soruşanda dedi ki, elə indi gəldidə..... hamı gülüşdü.

Xülasə

Məqalədə orta məktəbdə imkanları məhdud uşqa ilə pedaqoji təcrübədən bəhs edilir. Xüsusi metodika və fəndlər, psixoloji-pedaqoji üsullar vasitəsilə şagirdin məntiqi-riyazi biliklər formalaşdırılır, özündə əminlik, müstəqil iş bacarıqları formalaşdırılır. Burada həm də ev şəraiti, sosial mühit, uşağın əvvəlki illərdə əldə etdiyi bacarıqlar və biliklər də nəzərə alınmalıdır. Qeyd olunmalıdır ki, bəzi metodikalar müəllif tərəfindən ilk dəfə olaraq istifadə edilmişdir.

Аннотация

В статье рассматривается педагогический опыт работы с ребенком с ограниченными возможностями в средней домашней специализированной школе. С помощью специальных приемов и методов, в том числе и психолого-педагогических, формируются логико-математические знания учащегося, навыки самоподготовки и самостоятельной работы, уверенность в себе Следует также учитывать домашнюю обстановку, социальную среду, навыки и знания, которые ребенок приобрел в предыдущие годы. Следует отметить, что некоторые из методов автором были использованы впервые.

Abstract

The article discusses the pedagogical experience of working with a child with disabilities in a secondary home specialized school. Using special techniques and methods, including psychological and pedagogical, logical and mathematical knowledge of the student, self-training skills and independent work, self-confidence, self-confidence, should also be taken into account The home environment, social environment, skills and knowledge that the child acquired in previous years. It should be noted that some of the methods by the author were used for the first time.

TƏLİM FƏALİYYƏTİNDƏ TƏLƏBƏLƏRİN ÖZÜNÜAKTUALLAŞDIRMA XÜSUSİYYƏTLƏRİ

pedaqoq.ü.f.d. Nuriyeva Məlahət Rafiq qızı
BDU-nun Gender və tətbiqi psixologiya kafedrasının müəllimi
malahat.nuriyeva@gmail.com

Açar sözlər: tələbə, təlim fəaliyyəti, özünüaktuallaşdırma, özünüaktuallaşdırmanın xüsusiyyətləri, daxili və xarici maeələr
Ключевые слова: студент, учебная деятельность, самореализация, особенности самореализации, внутренние и внешние барьеры.
Keywords: student, learning activity, self-actualization, features of self-actualization, internal and external barriers.

Müasir həyat şəraitində şəxsiyyətin özünüakktuallaşdırması humanistik psixologiyanın və pedaqogikanın əsas mövzusudur. "Özünüakktuallaşdırma" anlayışı geniş yayılıb. Qeyd olunan halda tələbənin təlim fəaliyyətində özünüakktuallaşdırmaya müraciəti bir tərəfdən XXI əsrdə baş verən sosial, siyasi, iqtisadi proseslər ilə şərtlənir və nəticə olaraq kütləvi və informasiya-texnoloji mühitdə şəxsiyyətin uzaqlaşmasına gətirib çıxarır.

Digər tərəfdən psixoloji və sosial pedaqoji elmin, humanistik şüurun inkişafı muasir ziddiyətli vəziyyətə adekvat olan mənəvi idealın və ona uyğun olan mənəvi təcrübənin axtarış problemini getdikcə kəskinləşdirir.

Şüurlu özünüakktuallaşdırma şəxsiyyətin tərbiyyəsi və peşəkarın hazırlığının vacib məsələsi olaraq, şəxsiyyətin özündən əmək tələb edən inteqrativ xüsusiyyətidir.

Qeyd etmək lazımdır ki, müasir pedaqogika dərsliklərində hərtərəfli və harmonik inkişaf etmiş şəxsiyyətin təhsili və tərbiyyəsi xüsusi olaraq qeyd olunur: "hərtərəfli və harmonik inkişaf etmiş şəxsiyyət, ideal şəxsiyyət uzaq keçmişdən gələn dünya nəzəriyyəsinin və humanistik tərbiyyənin təcrübəsində qəbul edilmiş məqsəd olaraq qalır"[5;97].

Təlim prosesində özünüaktuallaşdırmaya təkan verən zəruri faktorlar nəzərə alınıb, ona çətinliklər yaradan maneələr aradan qaldırılsa, özünüaktuallaşdırma təlim prosesində müəllim və tələbənin qarşılıqlı yaradıcı əlaqələrinin nəticəsi kimi ortaya çıxır.

Tələbə şəxsiyyətinin özünüaktuallaşdırması ozünü dərk edib və tanınma zamanı insan mahiyyətinin inkişafı, şəxsi həyat fəaliyyətinin təşkilində öz imkanlarından sərbəst istifadə etmə bacarıqlarının müstəqil inkişafını təmin edir[8;70].

Psixoloji araşdırmaların təhlili göstərir ki, A.Maslounun özünüaktuallaşdırma nəzəriyyəsinin əsas müddəalarına görə "özünüaktuallaşdıran şəxsiyyət" anlayışı əsas xüsusiyyətlərinə görə "harmonik şəxsiyyət" və psixi cəhətdən sağlam insan anlayışı ilə uyğun gəlir. Bir çox hallarda bu terminlərdən sinonim kimi istifadə olunur[1;117].

Bu işlər əsasında özünüaktuallaşdırmanın bir sira universal meyarlarını qeyd etmək olar: dərk edilmiş özünüqəbul, həyatın dərk edilməsi, həyat dəyər kimi, sadəlöhv cəsarət, emosional müdrüklük, şəxsiyyətin münasibətlərdə interpritasiyası, problematizasiya və proqnozlaşdırma bacarıqları ilə ölçülə bilən kreativlik; şəxsiyyətin özünə, digərlərinə, fəaliyyətə yönəlmiş refleksiya ilə müəyyən olunan refleksivlik; daxildə baş verən proseslərə diqqətdə, həyatın mənasını dərk edilməsində, tələbələrə məxsus tolerantlıqda ozünü göstərən özünütəşkil, özünüaktuallaşdıran şəxsiyyətin əsas xüsusiyyətləri. Özünüaktuallaşdıran şəxsiyyətə aşağıda göstərilən xüsusiyyətlər məxsusdur:

1. Reallığın tam qəbul olunması və ona qarşı rahat münasibət (həyatdan qaçmamaq, onu dərk edib qəbul etmək);

2. Digərlərini və özünü qəbul etmək (“ Mən özüm bildiyim kimi edirəm, sən özün bildiyin kimi. Mən bu dünyaya sənin gözləntilərini doğrultmaq üçün gəlməmişəm. Mən mənəm, sən sənsən. Mən sənə hörmət edirəm və səni olduğun kimi qəbul edirəm”);

3. Sevdiyin iş ilə peşəkar ruhlanmaq; işə, məsələyə istiqamətlənmə;

4. Avtonomluq, sosial mühiddə müstəqil olmaq, fikir müstəqilliyi;

5. Digər insanları anlamaq bacarığı, insanlara qarşı diqqət və xeyirxaxlıq;

6. Yeniliklərin qəbul olunması, qiymət verilməkdə aydınlıq, yeni təcrübələrə açıq olmaq;

7. Məqsəd və vasitələrin, pis və yaxşının seçilməsi (“məqsədə nail olmaq üçün bütün vasitələr yaxşı deyil”);

8. Öz-özünə əmələ gələn, davranışın təbiiliyi;

9. Yumor hissi;

10. Özünüinkişaf, bacarıqların, potensial imkanların üzərə çıxması, iş fəaliyyətində, məhəbbətdə, həyatda özünüaktuallaşdıran yaradıcılıq;

11. Yeni problemlərin və çətinliklərin həllinə, öz təcrübəsinin dərk edilməsinə öz imkanlarının həqiqi dərk ediməsinə hazırlıq, konkruentliyin yüksəlməsi[6;67].

Tədris fəaliyyətində (O.S. Qazman, N.B.Krılova, E.V.Bondarevskaya, L.N. Kulikova, A.P. Tryapisina və d.) pedaqoji faktorların araşdırılmasının analizi göstərir ki, səmərəlilik, özünüinkişaf bacarıqlarının aktivləşdirilməsindən, hər tələbənin pedaqoji heyyət tərəfindən məqsədyönlü təkminləşmə motivasiyasından daha çox asılıdır, nəinki dəstəkləyici əlagəlik, tələbənin inkişaf üçün olan şəraitinin yaxşılaşdırılmasından[9;166].

Burdan nəticə çıxarmaq olar ki, tələbənin özünüaktuallaşdırma bacarıqlarının inkişafının pedaqoji faktorlarını onun öz həyatını bütöv məqsədyönlü dərk edilmiş proses kimi qəbul etmək üçün yaradılmış şərait kimi müəyyən etmək olar; peşə və bilik əldə etdikdə yaranan çətinlikləri özünün təkminləşməsi üçün təkan kimi qəbul edir; öz davranışının və ünsiyyətinin səmərəli qurulması üçün başqa insanlarla münasibətlərini, hərəkətlərini təhlil edir.

Tələbələrdə özünüaktuallaşdırma bacarıqlarının pedaqoji inkişaf faktorlarının təhlili pedaqoji maneələrin mövcudluğunu aşkar etmişdir. Bu maneələr müasir tələbələrin özünüaktuallaşdırma bacarıqlarının inkişafında ciddi çətinlik yaradır[10;123].

Özünüaktuallaşdırmanın tipik maneələri: motivasiya əsaslarının, özünüinkişafın üsul və yollarının, mexanizmlərinin formalaşmaması; özünüqiymətləndirmənin uyğun olmamasından irəli gələn özünə əminlik və əminliyin olmaması, bu da öz növbəsində həyat məqsədlərinin düzgün qoyulmasında çətinliklər, özünütərbiyyə ilə məşğul olmamaq ilə və s. nəticələnir.

Şəxsiyyətdə (formalaşmasının müxtəlif mərhələrində) pozitiv münasibət ilə müşahidə olunan psixo-pedaqoji dəstək edildikdə, özünüaktuallaşdırma prosesi sosial-münasib normalarda da daha səmərəli keçə bilər.

Təhsil müəssisələrində müşahidə ideyası həyata keçirildiyi və təlim-tərbiyyə işi özünüaktuallaşdırmaya istiqamətləndirildiyi halda hər bir subyekti onun fəaliyyətində öz üzərində işləmək, fərdi özünüinkişaf və özünü dərk etməyə həvəsləndirir.

Özünüaktuallaşdırmanın maneələrinə gəldikdə, onlar daxili və xarici olurlar, obyektiv və subyektiv faktorlarla şərtlənirər.

Xarici maneələr:

- Təhsil müəssisəsində özünüaktuallaşdırma və özünüinkişaf üçün bilərəkdən şərait yaradılmır;
- Düşmənçilik, paxıllıq və ətrafın təziyi, konfliktlərin mövcudluğu – konkret şəxsiyyətin özünüaktuallaşdırma cəhdlərini mühasirəyə alır; bu məsələdə pedaqoji heyyətin dəstəyinin və köməyinin olmaması[7;127].

Daxili maneələr:

- Özünüaktuallaşdırma bacarıqlarının olmaması, şablon və stereotiplərə bağlılıq;
- Özünüaktuallaşdırmaya istiqmətləndirilmiş tələbatların və motivlətin olmaması;

- Özünüinkişaf və özünütərbiyyə "texnikaları"nın zəif idarə olunması;
- Şəxsi süstlük, tənbəllik, öz şəxsiyyətinin inkişafına, dəyişiklərə özünü səfərbər etmək arzusunun və bacarıqlarının olmaması;
- Həyatdan məmnun olmağa imkan verməyən əsəbləri üzən özünə əminliyin olmaması;
- Dəyişiklərə cəhdləri mühasirə edən özünə əminliyin olmaması: "Mən onsuzda hər şeyi bilirəm, bacarıram, mənim öyrənməyə etiyacım yoxdur";
- Öz üzərində işləməyə məcbur edən və ədət edilmiş tərzi pozan hər cür innovasiyalara (yeniliklərin tədbiqinə) mənfi münasibət; bu şəxsiyyət əmindir ki, hər cür innovasiyalar zərərli və lazımsızdır [7;128].

Muasir tələbə şəxsiyyətinin özünüaktuallaşdırma xüsusiyyətləri maraqlı məzmuna malikdir. Məlumdur ki, şəxsiyyətin sosial funksionallıq prosesi iki prosesin dialektik vəhdədidir: adapdasiya və özünüaktuallaşdırma. Adapdasiyanın məqsədi şəxsiyyətin sosiuma konstruktiv inteqrasiyası üçün sosiallaşma normativlərinə maksimal olaraq bənzəməkdir. Özünüaktuallaşdırma isə şəxsiyyətin şəxsi potensial sisteminin həyata keçirilməsini nəzərdə tutur. "Özünüaktuallaşdırma" – insanın istədiyi insan olmaq arzusudur.

Muasir həyatın paradoksu ondan ibarətdir ki, əsas sosial institutlar (təhsil, ailə) şəxsiyyətin adapdasiyasının dəstəkənməsinə istiqamətlənib, bununla bərabər özünüaktuallaşdırma problemi inkişafda olan şəxsiyyətin səlahiyyətinə aid qalır. Tələbə şəxsiyyətin özünüaktuallaşdırmasının araşdırmaları zənnimizcə, xüsusi elmi maraq doğurur. Çünki, tələbə onun özünüaktuallaşdırılması üçün lazım olan ehtiyatlara malik olan vəziyyətdədir- bu təlim prosesi vəziyyətidir.

Özünüaktuallaşdırmanın hakim mövqeləri A.Maslou və K. Rocers tərəfindən humanistik psixoloqiya çərcivəsində inkişaf edilən konsepsiyalarıdır. Həmçinin, özünüaktuallaşdırmanı digər humanistlər də araşdırıblar (K.Xorni, A.Adler, E.Fromm və d.). Qeyd olunan problem ilə Rusiya psixoloqları da məşğul olublar (B.Q. Ananyev, K.A. Abulxanova- Slavskaya və d.) [8;74].

A.Maslou "İnsan psixikasının uzaq sərhədləri" kitabında özünüaktuallaşdıran insanların xüsusiytyətlərini göstərir: reallığın qəbul edilməsinin son dərəcəsi, özünü və başqalarının qəbul edilməsi, kənarlaşmağa və tənhalığa meyillilik, qəbul etmənin təravəti və emosional reaksiyaların zənqinliyi, yüksək yaradıcı bacarıqlar, kreativlik, pərəstişlənməyə müqavimət, problemdə mərkəzləşmək, avtonomiya və s.

Bununla yanaşı A.Maslou qeyd edir ki, özünüaktuallaşdıran insanlar – mələk deyirlər, onlarada zəifdirlər və nöqsanları mövcuddur. Onlar bəzən təqsir, həyacan, qəm və tərəddüd hisləri keçirirlər. Lakin, bütün bu qeyri-mükəmməlliklərə baxmayaraq, belə insanlar psixi sağlamlığın örnəyidirlər.

Belə ki, A. Maslou hesab edirdi ki, praktiki olaraq bütün insanlar özünüaktuallaşdırmağa can atırlar, amma əhalinin yalniz 1 % buna nail olur. Buna baxmayaraq, tələbələr arasında təcrübədə biz hər zaman özünüaktuallaşdırmaya cəhdin mövcudluğunu qeyd edə bilmirik[9;163].

K.Rodjers deyirdiki, davranış əvvəldən axıra kimi vahid ümumi motiv ilə ruhlanan və nəzarətdə saxlanan özünüaktuallaşdırmaya meyillikdir. O hesab edirdiki, bu meyillik yeganə motivasiya yaradıcısıdır. Onun nəzəriyyəsinin kontekstində özünüaktuallaşdırma – həyat boyu öz imkanlarını yerinə yetirən, bununla bərabər mükəmməl fəaliyyət göstərən prosesdir. Onun nəzəriyyəsinə görə, tələbənin təlim-peşəkar fəaliyyətində mükəmməl inkişaf etməsi, öz imkanlarını həyata keçirməsi zəruridir, və bu "öz axarı" ilə baş verməlidir, çünki insan yaşadığı üçün artıq motivasiyalıdır, yaşamaq və fəliyyət göstərməsi onu artiq motivasiyalı edir. Bəs nə üçün tələbələrin hamısı təlim fəaliyyətində özünüaktuallaşdırmaya can atmırlar?

Ədəbi mənbələrin nəzəri araşdırmaları tələbə şəxsiyyətinin özünüaktuallaşdırma istiqamətində olan əsas maneələri qeyd etməyə imkan verir:

1. tələbələr öz imkanlarını görmürlər və özünütəkminləşmənin faydasını bilmirlər (passiv sosial fəaliyyətə istiqamət, qedonizm);
2. şəxsiyyətin ahəngdar inkişafını müəyyən çərçivələrə salan sosial və mədəni normalar (hamı kimi olmaq səyləri);
3. Təhlükəsizlik tələbatından yaranan mənfi təsir (yeniliklərə meyilli olduqda qorxu yaranır, buda təhlükəsizliy və müdafiə axtarışlarına gayıdışı çoxaldır) [10;160].

Bu maneələr tələbə şəxsiyyətinin özünüaktuallaşdırmaya meyilliyinə məhdudlaşdırıcı təsir göstərə bilər.

Bu fərziyyəmizin yoxlanılması üçün şəxsiyyətin özünüaktuallaşdırma sahəsində müasir araşdırmalar tərəfimizdən təhlil edilmişdir. A.V. Zabelina "Tələbə şəxsiyyətinin özünüaktuallaşdırması psixoloji sağlamlıq şərti kimi " özünüaktuallaşdırma testi (L.Y.Qozman, M.V. Kroz, M.V. Latinskaya) vasitəsi ilə tələbələrin özünüaktuallaşdırma araşdırmalarının nəticələrini göstərir. Araşdırılmaların məqsədi - tələbə şəxsiyyətinin özünüaktuallaşdırma səviyyəsinin üzə çıxarılması idi. Araşdırılmalarda 100 sınağdan keçirilən şəxs iştirak edirdi.. Nəticələrin analizi iki əsas şkala üzrə aparılırdı (zaman səlahiyyətliyi; dəstək) və 12 əlavə (dəyər istiqamətləri; davranışın çevikliyi; özünə qarşı senzitivlik; daxili səbəblərdən törənən; özünə qarşı hörmət; özünü qəbul; insanın təbiəti haqqında təsəvvür; sinerqiya; aqressiyanın qəbul edilməsi; ünsüyyətçillik; öyrənmə tələbatları; kreativlik) [9].

Araşdırmaların nəticələri aşağıdaki kimidir: əsas şkalalara görə tələbələrin üçdə biri özünüaktuallaşdırmanın yüksək səviyyəsinə malikdirlər. 29% tələbə ("Zaman səlahiyyətliyi" şkalası) hazırki zamanla yaşayırlar (öz həyatlarını vahid və bütöv görürlər). Tələbələrin dörddə biri "Dəstək" şkalası üzrə yüksək ball toplayıblar, buda onların hərəkətlərinin müstəqil olmasından, həyatın məqsədlərini müstəqil müəyyən edilməsindən, öz prinsiplirini idarə etməkdən, əminliklərini müdafiə etmək bacarığından bəhs edir. Tələbələrin 43% "Zaman səlahiyyətliyi" şkalası üzrə aşağı nəticə göstərmişdilər. Bu araşdırma müasir tələbələrin potensial və imkanlarının özünüaktuallaşdırmasına can atmama hipotezamızı təstiq edir.

Bizim fərziyyəmiz O.N. Bolşakovanın "Tələbələrin özünüaktuallaşdırma inkişafının xüsusiyyətləri" məqaləsində dərc edilmiş araşdırması da təstiq edir. Onlar müasir tələbələrin özünüaktuallaşdırma səviyyəsini göstərməyə imkan verən sınaq - eksperemental araşdırmalar aparmışdırlar. Araşdırmanın fərziyyəsi – tələbələr ilə özünüaktuallaşdırmanın səviyyəsinin yüksəlməsinə yönəlmiş iş aparılarkən, şəxsiyyətin özünüaktuallaşdırma səviyyəsi artır.

Diaqnostika L.A. Staroverkinanın araşdırılmalarında müəyyən olunmuş üç meyyar əsasında aparılıb: koqnitiv, tələbat-motivasiya və fəaliyyət-təcrübə [9]. Eksperemental araşdırmalar bir neçə mərhələlərdən ibarət idi: tələbələrdən ibarət eksperemental və yoxlama qruplarının formalaşma şəraitinin və xüsusiyyətlərinin ilkin araşdırılması; sonra tələbələrlə təklif olunan modelə uyğun olan özünüaktuallaşdırmanın inkişafı ilə bağlı iş aparılmışdır. Bizim hipotezamızı təstiq etmək üçün özünüaktuallaşdırma səviyyəsinin ilkin diaqnostikasının nəticələri kifayətdir: "Birinci kursda özünüaktuallaşdırmanın yüksək səviyyəsi müşahidə olunmur, amma aşağı səviyyə ən yüksək faiz təşkil edir (8, 17%) digər kurslarla müqaisədə; özünüaktuallaşdırmanın yüksək səviyyəsi dördüncü kurs tələbələrində üstünlük təşkil edir və 29 və 31% təşkil edir".

Psixo-pedaqoji ədəbiyyatın analizi nəticəsində müəyyən oldu ki, özünüaktuallaşdırmaya meyillik hər bir tələbənin təbiətində var, lakin müxtəlif maneə və çətinlik ucbatından (sosial funksionallığın passivliyi, dəbdə olmaq arzusu) tələbələr çox vaxt öz imkanlarını dərk etmirlər. Biz fərz etdik ki, muasir tələbələrdə özünüaktuallaşdırmanın səviyyəsi çox aşağıdır. İki araşdırma (A.V. Zabelinanın və O.N. Bolşakovanın) əsasında nəticə çıxara bilərik ki, müasir tələbələr özünüreallaşdırmağa, öz şəxsi potensiallarını açmağa meyilli deyillər. Bu araşdırmalar göstərir ki, tələbələrin üçdə birindən azı özünüaktuallaşdırmanın yüksək səviyyəsinə malikdirlər, bu səviyyə yüksək olanlar artiq 4-cü kurs tələbələridirlər.

Tələbə şəxsiyyətinin özünüaktuallaşdırma fenomeninin araşdırması, zənnimizcə, təhsil prosesini kifayət qədər optimallaşdıran perspektiv elmi istiqamətdir və bu da tələbələrdə özünüaktuallaşdırma meyillərinin formalaşmasına şərait yaradacaq.

ƏDƏBİYYAT

1. Cabbarov R.V. Psixologiyada özünügerçəkləşdirmə probleminin tədqiqi istiqamətləri // Psixologiya jurnalı, 2007, №3, s.116-130.
2. Əliyev R.İ. Mentalitet.B.: Elm və Təhsil, 2009. S. 255.
3. Əliyev B.H. Şəxsiyyət probleminə yeni baxış / Elm XXI əsrin astanasında elmi-praktik konfransının materialları. Bakı: Renessans, 1998, s.3.
4. Əliyev B.H. Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s.
5. Erden, M. ve Akman, Y. Gelişim ve öğrenme (13.Baskı). Ankara, 2004, Arkadaş Yayınevi.
6. Антропова, Л.И. Самоактуализация личности // Психологический институт РАО: материалы симпозиума. - М., 2002. - №1.
7. Брылева, Л.И. Проблемы самореализационной парадигмы // Психологический институт РАО: материалы симпозиума. - М.: Академия, 2002. - №1.
8. Петрова, Н.И. Самоактуализация и социальная адаптация студентов/ Н.И. Петрова // Психологический журнал. - М., 2003. - №3. – С 70-80
9. Смирнова, Т.Л. Самоактуалиация личности студентв в процессе подготовки / Т.Л. Смирнова// Фундаментальные исследования. – 2007. – № 12 – С. 166-167.
10. Удовыдченко, Т. Н. Особенности развития личности студента - Материалы II Международной научной конференции «Научный потенциал студенчества – будущему России». – Т2. Общественные науки. Ставрополь: СевКавГТУ, 2008. - 166с.

TƏLİM FƏALİYYƏTİNDƏ TƏLƏBƏLƏRİN ÖZÜNÜAKTUALLAŞDIRMA XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Özünüaktuallaşdırma mövzusu psixologiya sahəsində araşdırlan və müxtəlif istiqamətlər tərəfindən fərqli izahlar verilən anlayışdır. Biz məqalə çərçivəsndə tələbələrdə özünüaktuallaşdırmanın xüsusiyyətlərindən bəhs etdik. O cümlədən məqalədə tələbələrdə özünüaktuallaşdırmağa təsir edən xarici və daxili maneələrdən bəhs edilmişdir. Mövzu ilə bağlı aparılan tədqiqatlar haqqında qısa məlumat verilmişdir. Qeyd edək ki, mövzu müasir dövrdə çox aktualdır və bu mövzu haqqında tədqiqini gözləyən məsələlər çoxdur.

ОСОБЕННОСТИ САМОАКТУАЛИЗАЦИИ СТУДЕНТОВ В ОБРАЗОВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

РЕЗЮМЕ

Предмет самоактуализации - это понятие, которое изучается в области психологии и дает разные объяснения по разным направлениям. В статье мы говорили об особенностях самореализации у студентов. Кроме того, в статье рассматриваются внешние и внутренние барьеры, влияющие на самореализацию студентов. Была дана краткая информация об исследованиях, проведенных по данной теме. Следует отметить, что эта тема очень актуальна в наше время, и есть много вопросов, ожидающих исследования по этой теме.

SELF-ACTUALIZATION FEATURES OF STUDENTS IN EDUCATIONAL ACTIVITIES

SUMMARY

The subject of self-actualization is a concept that is studied in the field of psychology and given different explanations by different directions. In the article, we talked about the features of self-actualization in students. In addition, the article discusses external and internal barriers that affect students' self-actualization. Brief information was given about the research conducted on the topic. It should be noted that the topic is very relevant in modern times, and there are many issues awaiting research on this topic.

FİLOLİGİYA

SƏDİ SANİ QARABAĞI LİRİKASİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

İlhamə Məmmədzadə
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu kiçik elmi işçi
ilhamamammadzada@yahoo.co.uk

Açar sözlər: Qarabağ, Amasiya, müxəmməs, qoşma, qəzəl
Ключевые слова: Гарабаг, Амасия, мухаммас, гошма, газель
Key words: Garabagh, Amasia, mukhammas, goshma, gazel.

XIX əsr Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən biri də Sədi Sani Qarabaği olmuşdur. Mir Möhsün Nəvvab özünün təzkirəsində şairin 1854-1879-cu illərdə yaşadığını, cəmi 25 il ömür sürdüyünü (1, s.123), Məhəmməd ağa Müctəhidzadə isə "Riyazül-aşiqin" təzkirəsində 1841-1876-cı illərdə yaşadığını, 35 il ömür sürdüyünü (2, s.120) göstərmişdir. Sədi Saninin yaradıcılığı görkəmli tədqiqatçı Salman Mümtazın da diqqətini cəlb etmişdir. O, hələ XX əsrin əvvəllərində şairin əsərlərinin bir qismini toplayaraq ön söz yazmış, lakin işini sona çatdıra bilməmişdir. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan A-34(1), FR-993 şifrli bu əlyazmada S.Mümtaz Sədi Saninin doğum və ölüm tarixlərini də göstərmişdir: "Sədi Qarabağın Cinli adlı kəndində hicrətin 1259-cu ilində (miladi: 1841) doğulmuş, 35 yaşında olduğu halda 1294-cü ildə (miladi:1876) vəfat etmişdir". Buradan məlum olur ki, görkəmli ədəbiyyatşünas bu məlumatları olduğu kimi M.Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirəsindən götürmüşdür. Tədqiqatçılar Raqub Kərimov və İlahə Vəliyeva S.S.Qarabaği əsərlərinin nəşrinə yazdıqları ön sözdə şairə dair məlumatlarla əsərlərini müqayisə edərək belə nəticəyə gəlmişlər ki, o, 1841-1879-cu illərdə yaşamış, yəni 38 il ömür sürmüşdür (3, s.5).

Sədi Saninin həyatı barədə bilirik ki, şairin atasının adı Ocaqqulu olmuş, o, Qarabağın Cinli kəndində doğulmuş, Həsənəli xan Qaradaği ilə dostluq etmiş, nəqşbəndi təriqətinə mənsub olmuş, mürşidi və ustadı Seyid Mir Həmzə Nigari ilə ünsiyyətdə olmaq üçün Türkiyənin Amasiya şəhərinə getmiş, gənc yaşlarında orada vəfat etmişdir. Akademik Feyzulla Qasımzadə "XIX əsr Azərbaycan ədəbiyyatı" adlı monoqrafiyasında Sədi Sanini Xurşidbanu Natəvanın müasirlərindən biri, eyni zamanda, nəqşbəndi təriqətinə mənsub şair kimi təqdim etmişdir: "Natəvanın Qarabağ müasirlərindən Mir Həsən Yüzbaşov farsca qəzəllərində Hafizin, azərbaycanca qəzəllərində isə Nəvai şeirlərinin təsiri altında qəzəllər yazırdı. Sədi Sani isə Füzuliyanə qəzəlləri ilə bərabər bir təriqət şairi kimi "nəqşbəndi" ideyasını təbliğ edən şeirlər də yazırdı" (4,s.306).

Tədqiqatçılar şairin əsərlərinin müəyyən cəhətləri ilə bir-birindən fərqlənən üç əlyazmasının B-1232/2855, B-1298/2921, S-396/9349 şifrləri altında Əlyazmalar İnstitutunda saxlandığını göstərmişlər. Bundan başqa, ayrı-ayrı cüng və fraqmentlərdə şairin əsərlərinə rast gəlirik. Şairin ölümündən bir az sonra Türkiyədə tərtib edilmiş divanı da mükəmməl nüsxə hesab olunur. R.Kərimov və İ.Vəliyeva yazırlar: "Divanın əldə etdiyimiz fotofaksimilesində şairin digər mənbələrdə rast gəlmədiyimiz ona qədər şeirinə təsadüf etdik. Bu da onu göstərir ki, Sədi Sani hələ sağlığında əldə olan divanına yeni şeirlər əlavə edərək onu daha da təkmilləşdirmiş və üzünü köçürmək istəyində olmuşdur. Lakin şairin bu arzusu onun sağlığında deyil, ölümündən bir qədər sonra dostları tərəfindən həyata keçirilmişdir. Divan şairin irsini öyrənmək, onun əsərlərinin tekstoloji və filoloji tədqiqini həyata keçirmək üçün mühüm əhəmiyyət kəsb edir" (3, s.20-21).

Sədi Sani Qarabağinin şeirləri istər mövzu dairəsinin genişliyi, istərsə də onun müraciət etdiyi klassik və şifahi xalq ədəbiyyatı janrlarının zənginliyi baxımından maraq doğurur. Qeyd edək ki, XIX əsr Azərbaycan ədəbiyyatında heca vəznində, şifahi xalq ədəbiyyatı janrlarında şeirlər

yazılmasına meyl artsa da, klassik janrlarda əsərlər yaradılması da geniş yayılmışdı. Tədqiqatçı Nəsrəddin Qarayev "XIX əsr Azərbaycan ədəbi məclisləri" adlı monoqrafiyasında yazır: "XIX əsr ədəbiyyatında heca vəznində şeirin güclənməsi klassik üslubda yazan ədəbi məclis şairlərinin bir çoxuna öz təsirini göstərmişdir. "Fövcül-füsəha"da M.İ.Qasirin qoşmaları, "Məcməüş-şüəra"da Ə.Cənnətinin bayatıları, "Məclisi-fəramuşan"da M.Ə.Bakinin bayatı, qoşma və şikəstələri buna misal ola bilər" (5,s.212). Sədi Sani də klassik poeziyanın qəzəl, qəsidə, müstəzad, tərcibənd, müxəmməs, təxmis, mürəbbe, mənzumə janrları ilə bərabər şifahi xalq ədəbiyyatının qoşma və təcnis janrlarında əsərlər yazmışdır. XIX əsrin ikinci yarısında yaşamış əksər şairlərində olduğu kimi qəzəl S.S.Qarabağinin poeziyasında mühüm yer tutur. Şair şeirlərinin əksəriyyətini məhz bu nəzm şəklində yazmışdır. R.Kərimov və İ.Vəliyeva onun qəzəlçilik sahəsindəki fəaliyyəti barədə yazırlar: "Təbii ki, nə Sədi, nə də qəzəl janrına üstünlük verən digər XIX əsr şairləri forma baxımından qəzələ heç bir yenilik gətirməsələr də, onu məzmun baxımından yeniləşdirmiş, günün tələblərinə cavab verən mövzular seçməklə qəzəli aparıcı janra çevirmişlər" (3, s.21).

S.S.Qarabağinin qəzəllərində təmiz və ülvi məhəbbət, ana vətənin gözəllikləri, səmimi insani hisslər, şairin dini-fəlsəfi görüşləri əsas yer tutur. Füzuli yaradıcılığından bəhrələnən sənətkar klassik poeziyanın obrazlar sistemindən, bədii təsvir və ifadə vasitələrindən məharətlə istifadə etmiş, cəlbedici və oxunaqlı poeziya nümunələri yaratmışdır. O, bir sıra müasirlərindən fərqli olaraq qəzəl janrında yazdığı əsərlərində klassik ədəbiyyatın arsenalında olan poetik fiqurlardan yüksək zövqlə, məharətlə istifadə edərək şeirini zənginləşdirmiş, ona təkrarsız gözəllik bəxş edə bilmişdir. S.Sani özündən əvvəlki şairlərin dönə-dönə, şablona çevrilmiş bir sıra ifadə və təşbehləri yenidən və məharətlə işlətmiş, oxucuların marağına səbəb olan poeziya nümunələri yaratmışdır. "Geymiş" rədifli qəzəlində şair uca boylu, ağ bədənli bir gözəlin qırmızı rəngli paltar geyinməsini yasəmənin qızılgül ləçəkləri ilə əhatə olunmasına, qırmızı stəkanda ağ qəndin oynamasına bənzədir. Təşbehlərin orijinallığı müəllifin gözələ qarşı heyranlığını, emosiyalarını oxucuya əyani şəkildə çatdırmağa xidmət edir:

Tikilmiş xələti-xoşrənglər ol gülbədən geymiş,
Qızıl gül yarpağın köynək tikib guya səmən geymiş.
Sanasan istəkani-sürx içində qəndi-ağ oynar,
Səhiqədlər ağ əndamə qənavuz pirəhən geymiş (3, s.119)

S.S.Qarabağı şeirlərində tez-tez vurğulayır ki, onun vəsf etdiyi məşuqə konkret, real bir şəxsdir, Qarabağ gözəlidir. Qəzəllərindən birində şair Türkiyədə yaşayarkən bir müddət ustadı Seyid Mir Həmzə Nigari ilə birlikdə Amasiya şəhərini tərk etməyə məcbur olduqlarını qeyd etmişdir:

Sədiya, çıxdıq Amasiyayi-behiştasadən,
Kəndimiz adəmisək həqdən itab olmalıyız (3, s.115)

Bu məqamlar Sədi Saninin konkretliyə, real hadisələri təsvir etməyə meylli olduğunu göstərməkdədir. Şair şeirlərində təkrirlərin, xüsusilə də rədif sözlərin qoşalığının köməyi ilə axıcılıq, emosional əhvali-ruhiyyə yaradır:

Kiprigin çaldı, nəzər eylədi süzgün-süzgün,
Batdı tiri-müjəsi qanıma gökçək-gökçək.
Dağıdıb daireyi-arizə zülfün-zülfün,
Baisi-səbri-pərişanıma gökçək-gökçək.
Dəstə-dəstə tökülüb gül yüzə tellər-tellər,
Çəkdi ləşkər dili-viranıma gökçək-gökçək (3, s.129).

Bu və bir sıra digər qəzəllərində S.S.Qarabağı lirikasının bir səciyyəvi xüsusiyyəti də üzə çıxır. O şeir boyu ardıcıl olaraq sevgilisinin gözəlliklərini, ayrı-ayrı bədən üzvlərini, kirpiyini, saçını, üzünü və s. təsvir edir. Şairin bu cür şeirlərini rəssamın portret çəkməsinə bənzətmək olar, oxucunun gözü önündə məşuqənin heyranlıqla çəkilmiş portreti canlanır. S.S.Qarabağı şeirlərində M.P.Vaqif və Q.Zakir yaradıcılığının müəyyən təsirini görsək də onların şeirlərindəki açıq-

saçıqlığı onun əsərlərində görmürük. Şeirlərinin birində şair gözəllərdə əvvəlcə kamalı, sonra isə zahiri gözəlliyi görmək istədiyini bildirir:

Əvvəla, şərti-gözəllikdə kamal olmalıdır,
Saniyəm, qaideyi-hüsnü cəmal olmalıdır (3, s.105).

Burada şair milli mentalitetimizin vacib şərtlərindən olan qadın üçün ağlın, kamalın vacib şərt olmasını xüsusilə vurğulanmışdır. Bundan sonra isə qadın üçün zəruri olan zahiri gözəlliyin əlamətləri sadalanır. Müəllifə görə bu gözəllik riyasız, təbii olmalı, aşiqin qəlbini ovlamalıdır. Şairin görmək istədiyi gözəlin yanağı bülbülləri vəcdə gətirən qızıl gül ləçəyi kimi al, onun üzərində isə bu gözəlliyi tamamlayan xal olmalıdır:

Almağa al ilə bülbüllərin əqlin əldən,
Gül yanağın da qızıl gül kimi al olmalıdır.
Adəmin əqlini aldatmağa cənnət quşu tək,
Danə-danə ağ üzündə qara xal olmalıdır.
Əli nazik, beli nazik, dili nazik gözəlin,
Özü şirin, sözü şirin, ləbi bal olmalıdır (3, s.105).

Göründüyü kimi, müəllif qadınların surətlərinin gözəlliyi ilə yanaşı onların boy-buxunlarının, əzalarının mütənasib, yerli-yerində, incə, zərif olmasını və bu incəliklə yanaşı onların lətif danışıqlı, şirin dilli olmasını,özləri şirin olduqları kimi, sözlərinin də şirin olmasını arzulayır. Şairin təsvir etdiyi bu qadın elə gözəl olmalıdır ki, onu görən hər bir kəsi ilk baxışdan məftun edə bilsin. Buna görə də o, qadın gözəlliyini daha da rövnəqləndirən və tamamlayan işvə və qəmzənin də olmasını vacib hesab edir. Şair sonrakı beytlərdə sələfləri Vaqif və Zakirin yolu ilə gedərək belə bir gözələ sahib olan şəxsin dünyada heç bir dərdi, məlalı olmadığını, belə gözəlin insana səadət gətirəcəyini, onun yaşadığı evin isə cənnətə çevriləcəyini göstərir:

Bu gözəllikdə kimin olsa gözəl məşuqi,
Ona dünyada nə dərd, nə məlal olmalıdır.
Deyirəm:-Doğrusu, dünyada o ev cənnətdir,
Onda kim, bir sənəmi-hurimisal olmalıdır (3, s.105).

Qeyd edildiyi kimi, S.S.Qarabağı nəqşbəndi təriqəti müridi olmuş, vətəni Qarabağdan Türkiyənin Amasiya şəhərinə gedən mürşidi Seyid Mir Həmzə Nigarinin yanında yaşamışdır. Həmin dövrdə nəqşbəndilik bölgədə böyük nüfuza malik idi, bu təriqətin mənsubları Azərbaycan və Dağıstanda çar Rusiyası işğalına qarşı mübarizədə fəal iştirak edirdilər. Haqqında danışdığımız Seyid Nigari ruslara qarşı üsyan planlarının üstü açıldığına görə qaçaraq Türkiyəyə pənah aparmışdır (6, s.57).

Şair bir neçə şeirində dərviş olduğunu vurğulayır, öz təriqətinə məxsus dərvişlərin əxlaq kodeksinin əsas müddəalarını şərh edir. "Dərvişəm" rədifli qəzəlində o, dərvişliyin əsas mahiyyətinin zahirdə deyil, batində olduğunu, cəmiyyət üzvlərindən uzaqlaşaraq guşənişin həyat yaşadığını, dərvişlikdə hələ yetişməkdə olduğunu, mürşidinə sədaqətlə xidmət etdiyini bildirir:

Təbərra qılma görsən zahirimdə cameyi-cahil,
Xəbər bil batinimdən, gör necə manənd dərvişəm.
Üzülmüş cümlə kəslərdən əlaqəm, yox hənüz, ey dil,
Giriftari-kəməndi-türreyi-dilbənd dərvişəm.
Qələndərlik təriqindən zücaci-can zəng almış,
Hələ dərvişi-saf olmamışam, hərçənd dərvişəm.
Ölüncə çəkməzəm əl daməni-dərvişi-mövladan,
Sədaqətlə içib mövlayə bir sovgənd dərvişəm (3, s.148).

"Dərvişlər" rədifli qəzəlində şair dərvişlərin hər cür dərdlərə təmkinlə dözdüklərindən, zəmanənin, dünyanın dərdi ilə məşğul olduqlarından, heç bir qüvvədən qorxmadıqları halda təvazökarlıqla gözə görünmədiklərindən danışır:

Gərçi dağı-dərdlə dilriş olur dərvişlər,

Mərhəmi-səbrilə bitəşviş olur dərvişlər.
Dəhrin əncamın əcəl camından eylərlər qiyas,
Gör nə zirək mərdi-durändiş olur dərvişlər.
Şirlər şərrindən ol ahular olmaz xofnak,
Gərgədan bak etməz, əmma miş olur dərvişlər (3, s.95).

Qeyd edək ki, S.S.Qarabağinin qəzəlləri beytlərinin çoxluğu ilə də diqqəti cəlb edir. Əgər Füzulinin qəzəllərinin əksəriyyəti yeddi beytdən ibarətdirsə, Sədi Saninin on, on bir, on beş beytlik qəzəlləri kifayət qədərdir. Sədi Sani müasirləri içində ən çox sayda müxəmməs yazmış sənətkarlardandır. Onun üçü təxmis olmaqla otuz bir müxəmməsi əlimizə çatmışdır. Tədqiqatçı Nailə Mustafayeva bu müxəmməsləri aşağıdakı kimi təsrifləndirmişdir: 1) Lirik-aşiqanə mövzulu 21 şeir; 2) Lənbərana həsr edilmiş vətənpərvərlik ruhlu 1 şeir; 3) Qarabağda açılmış təhsil ocağına həsr edilmiş "Görünür" rədifli şeir; 4) ictimai lirika nümunəsi olan "Görmədim" rədifli şeir; 5) Şükür adlı şəxsin şücaətinin tərifindən ibarət şeir; 6) Şair həyatının Amasiya dövrü ilə bağlı olan 3 şeir; 7) Dünyanın faniliyindən bəhs edən "Gələcəkdir" rədifli şeir; 8) Tövbənamə; 9) Təxmislər (7, s.317).

Şair Füzulinin 2, Siracinin 1 qəzəlinə təxmis yazmışdır. Onun müxəmməslərinin əksəriyyəti, 22-si 5, 3-ü 7, 2-si 11 bənddən, digər müxəmməsləri 4, 9 və 12 bənddən ibarətdir.

Sədi Saninin müxəmməslərini nəzərdən keçirdikdə görürük ki, Vaqif yaradıcılığından bəhrələnən şair bu janrdakı əsərlərinin mövzu dairəsini daha da genişləndirmişdir. S.S.Qarabağinin müxəmməslərində ictimai mövzuya daha çox toxunulmuşdur. Lənbərana həsr edilmiş şeirdə vətənpərvərlik mövzusu xüsusilə nəzərə çarpır.

Sədi Saninin lirik-aşiqanə mövzulu müxəmməslərinin əsas hissəsi məşuqəyə müraciətlə yazılmışdır. Məlumdur ki, Füzulinin, Vaqifin bir çox şeirləri belə müraciət formasında yazılmışdır. Vaqifin ənənələrini davam etdirən şair müxəmməslərində Mədinə, Qönçə, Xırda, Gülnisə adlı el qızlarına üz tutaraq onların təbii gözəlliyini, bədən üzvlərini vəsf etmiş, geyimlərini, xoş xasiyyətlərini tərifləmişdir. "Mədinə" rədifli müxəmməsində Sədi Sani gözəlin qaşlarını qibləyə, üzünü Kəbəyə, dodaqlarını cənnətdəki Zəmzəm suyuna bənzədir. Şair müxəmməslərindən birində sevgilisinin nəfəsinin İsa kimi ölüləri diriltdiyindən, dodaqlarının, qara saçlarının möcüzəli təsirindən danışır.

S.S.Qarabağini şeirləri, o cümlədən, müxəmməsləri, müxtəlif bədii ifadə vasitələri ilə, xüsusi ilə də təşbihlərlə zəngindir. Təriqət nümayəndəsi olmasına baxmayaraq şairin əsərlərində təşbihlərin təsəvvüfi deyil, dünyəvi məzmun daşıdığını görürük. "Xırda" rədifli müxəmməsində müəllif gözəlin qaşını yaya, üzünü aya, sözünü şəkərə bənzədir, özünü isə "tuti dilli" adlandırır.

Sədi Saninin hətta lirik-aşiqanə şeirlərində belə vətən sevgisi, doğma yurda bağlılıq hiss olunur. Onun vətənpərvərlik ruhlu şeirləri içində "Lənbəran" rədifli beş bəndlik müxəmməs xüsusi yer tutur. İlk bənddə müəllifin Lənbəran barədə "Rusiya dövlətində gözəl bir diyardır" deməsi şeirin vətəndən kənarda yazıldığını göstərir. Bu müxəmməs müəyyən dərəcədə şairin mürşidi Seyid Mir Həmzə Nigarinin Türkiyədə yaşadığı zaman vətəni Qarabağa həsr etdiyi şeirləri xatırladır. Sədi Sani həyatının müəyyən bir hissəsini keçirdiyi Lənbəran torpağını tərifləyir, onu cənnətə bənzədir. O, burada Tərtər çayının suyunu cənnətin abi-kövsəri ilə müqayisə edir, Lənbəranı "ali vətən" adlandırır. Sonda Lənbəranın təbiəti, yaşıllığı, gül-çiçəkləri, bağlarında oxuyan bülbülləri, abad evləri tərifləmir. Axıcı bir dillə, nostalji duyğusu ilə yazılmış bu səmimi şeir sənətkarın yaradıcılığında vətən sevgisinin ən bariz şəkildə ifadə olunduğu əsərlərdəndir.

S.S.Qarabağı M.P.Vaqifin 13 bəndlik "Görmədim" rədifli müxəmməsinə 12 bəndlik nəzirə-müxəmməs yazmışdır. Sədi Sani Qarabağinin nəzirəsində Vaqif müxəmməsinin əsas ideyasına sadiq qaldığını, insanlarda vəfa, sədaqət və etiqadın olmadığını kəskin şəkildə tənqid etdiyini görürük. Şeir birinci bəndindən cəmiyyət üzvlərinin yalançılıq, etibarsızlıqda ittihamı ilə başlanır. Şair Vaqifin əsərindəki bəzi sözləri təkrar edir:

Çox cəfa çəkdim, cəfanın bir səfasın görmədim,

Çox kəsin dərdində mürd oldum, dəvasın görmədim,
Çoxları iksir sandım, kimiyasın görmədim,
Çox təbibin şərbətin içdim, səfasın görmədim,
Bivəfa gördüm nə gördümsə, vəfasın görmədim (3, s.269).

Vaqifdən fərqli olaraq Sədi Saninin müxəmməsində pozitiv məqamları, müsbət ideyaların təbliğini də görürük. Əgər Vaqif ömrünün sonunda yazdığı şeirində müasirlərinin düzələcəyinə inamını itirmişdisə, yeganə ümidini zülmün ərşə dirəndiyi zamanda zühur edəcək, ədalətsizlikləri aradan götürəcək, dünyanı düzəldəcək. Mehdi Sahibbəzzəmana bağlamışdısa, Sədi Sani Qarabaği daha nikbin olduğu üçün müsbət ideyalarını elan edir, insanlara düzgün, inamlı, əqidəli, yolun istiqamətini göstərir. Şeir cəmiyyətin bütün təbəqələrinin nümayəndələrinə qarşı ciddi tələblər irəli sürür. Oxucuya başa salır ki, normal cəmiyyətdə, normal şəraitdə yaşamaq üçün insanlar sidq ürəkdən müəyyən əxlaqi-mənəvi prinsiplərə riayət etməlidirlər. Sədi Sani Vaqifin "ibrətnamə" adlandırdığı "Görmədim" müxəmməsində deyilənləri təsdiq etdiyini, özünün də cəmiyyətdə onun dediklərindən artıq bir şey görmədiyini deyir:

Həq demiş Vaqif ol "ibrətnamə"ni, laf etməmiş,
Mən də gəzdim, bundan artıq bir səzasın görmədim (3, s.265).

Sədi Sani heca vəznində də qələmini sınamış, bu sahədə də uğur qazanmışdır. Təəssüf ki, onun bu vəzndə yazdığı cəmi bir qoşma və dörd təcnisi gəlib bizə çatmışdır. Qeyd edək ki, şifahi xalq ədəbiyyatı və aşiq poeziyasının janrı olan təcnis cinas qafiyəli qoşmadır. Hər iki nəzm şəklinin misraları 11 hecadan ibarətdir. S.S.Qarabağinin qoşma və təcnislərində xalq yaradıcılığı, onum milli, bəşəri koloriti bariz şəkildə hiss olunur. Şairin klassik nəzm şəkillərində işlətdiyi çətin anlaşılan ərəb-fars tərkiblərinə burada rast gəlmirik. Bu şeirlərin sadə, aydın, canlı danışıq dilində yazılması ona xüsusi gözəllik verir. Üç bənddən ibarət qoşmasında sənətkar təbiət gözəlliklərini sevgilisinin gözəllikləri ilə müqayisə edir, sevgilisinin daha gözəl olduğunu iddia edir. Üçüncü bənddə müəllif dediklərinə yekun vuraraq sevgilisinə üz tutur, dünyada ondan gözəl heç kimin olmadığını, şairin ona bənzər ikinci bir gözəl tanimadığını deyir:

Sənin tək məhvəşin, bir xoşcəmalın,
Göftarı şəkərtək tutiməqalın,
Görməyib aləmdə Sədi misalın,
Gözəl olmaz, göyçək olmaz özüntək (3, s.238).

Sədi Sani eyni məharəti təcnislərində nümayiş etdirmişdir. R.Kərimov və İ.Vəliyeva onun təcnisləri barədə yazırlar: "Sədi Sani oxucularına son dərəcə gözəl, oynaq, axıcı və düşündürücü təcnislər ərməğan etmişdir. Bu şeirləri hətta ən istedadlı aşığın belə qibtə edəcəyi şeir nümunəsi hesab etmək olar. Çünki bunların hər biri mükəmməl sənət əsəridir. Şeirdə olan həm forma, həm də məzmun gözəlliyi biri digərini tamamlayır, artıq, yersiz ifadələrə yer verilmir, hər bir kəlmə düşünülmüş şəkildə öz yerində işlənir" (3, s.33). "İndi" rədifli təcnisinin ikinci bəndində şair "incidir" sözünü həm inci, mərcan, həm də incitmək mənasında işlətmişdir:

Ləblərin ləbdir, dişin incidir,
Miyanın həm mulərindən incədir,
Rəqiblər kuyində məni incidir,
Müraxxəs et gedim, ay ağə, məni (3, s.240).

Müəllif gözəlin dodağını lələ, dişlərini inciyə bənzədir, onun belinin saçlarından da incə olduğunu deyir, sonda isə rəqiblər onu incitdiyinə görə sevgilisinin yanından getmək üçün icazə istəyir.

Sədi Saninin qəsidə, müstəzad, tərcibənd, müsəbbe nəzm şəkillərində də dəyərli əsərləri vardır.

Sədi Sani Qarabağinin şeirlərinin əksəriyyəti lirik-aşiqanə mövzuda yazılsa da, onun cəmiyyətdəki nöqsanları tənqid edən və vətənpərvərlik ruhlu şeirləri də vardır. Klassik poeziyanın

Füzuli, Vaqif kimi nümayəndələrinin ənənələrini ləyaqətlə davam etdirən şairin yaradıcılığı XIX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus mövqeyə malikdir.

ƏDƏBİYYAT

1. Nəvvab M.M.Təzkireyi-Nəvvab. Bakı: "Azərbaycan" nəşriyyatı, 1998.
2. Müctəhidzadə M. Riyazül-aşiqin. Bakı: "Azərbaycan" nəşriyyatı, 1995.
3. Qarabağı Sədi Sani. Əsərləri/Nəşrə hazırlayanlar və ön söz müəllifləri: Raqub Kərimov və İlahə Vəliyeva. Bakı: "Elm və təhsil", 2014.
4. Qasımzadə Feyzulla. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: "Maarif", 1974.
5. Qarayev Nəsrəddin. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: "Nurlan", 2012.
6. Seyid Yəhya əş Şirvani əl-Bakuvi. Səfa əl-əsrar/Nəşrə hazırlayan və ön sözün müəllifi: Mehmet Rıhtım. Bakı: "Elm", 2010.
7. Mustafayeva Nailə. Azərbaycan ədəbiyyatında müxəmməs janrı. Bakı: "Elm və təhsil", 2018.

ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ЛИРИКИ САДИ САНИ ГАРАБАГИ

АННОТАЦИЯ

Сади Сани Гарабаги является одним из талантливых азербайджанских поэтов, живших в XIX веке. Он родился в селе Джинли Гарабага, потом переселился в город Амасия Турции, чтобы быть вместе со своим наставником Сейидом Мир Хамза Нигяри. Сади Сани писал свои стихи под воздействием произведений Физули, был последователем тариката нагшбандия. В его диване-сборнике лирических стихов собраны произведения, написанные в разных жанрах: газели, гошмы, мустазады, тарджибанды, мухаммасы, тахмисы, мураббе, и.т.д. Он является автором более тридцати мухаммасов (пятистищий). В стихах поэта чувствуется еще и влияние М.П.Вагифа. Сади Сани писал в основном лирические стихи. Но в ряде его произведений мы видим острую критику несправедливостей общественной жизни.

CHARACTERISTIC FEATURES OF THE LYRICS OF SADI SANI GARABAGH

SUMMARY

Sadi Sani Garabaghi is one of the talented Azerbaijani poets who lived in the XIX century. He was born in Ginli Garabagh, then moved to the city of Amasia Turkey to be with his mentor Seyyid Mir Hamza Nigyari. Sadi Sani wrote his poems under the influence of the works of Fizuli, he was a follower of the tariqa of nagshbandiya. His divan-collection of lyric poems contains works written in different genres: gazelles, goshmas, mustadas, tarjibandy, muhammas, tahmis, murabbe, etc. He is the author of more than thirty muhammases. In poetry poet is also felt the influence of M.P.Vagif. Sadi Sani wrote mostly lyric poems. But in a number of his works we see a sharp criticism of the misconduct of public life.

İNTONASİYANIN CÜMLƏ KOMMUNİKATİV TİPLƏRİNƏ GÖRƏ MÜNASIBƏTİ

Turan Mehdizadə
ADU-nin II kurs magistrantı
turaneyvazova@mail.ru

Açar sözlər: intonasiya, kommunikasiya, kommunikati tip, cümlə;
Ключевые слова: интонация, связ, тип связи, предложение;
Keywords: intonation, communication, type of communication, sentence.

İntonasiya danışıqda çox böyük və həlledici gücə malik kommunikativ vasitədir. Dilimiz intonasiya baxımından olduqca zəngindir. Hətta nəinki bizim dilimiz bəzi başqa xalqların dili də intonasiya cəhətdən çox zəngindir. İntonasiya ilə dolu olan dil nitq prosesində rəngarəng məna çalarını kəsb edir. İntonasiya çalarları vasitəsilə müxtəlif emosional vəziyyətləri ifadə etmək olar. Məsələn: qorxu, qayğı, qərəz, qəm, məğrurluq, əsəbilik, dəhşət, etinasızlıq, məftunluq, məyusluq, nigarançılıq, nəşə, həyəcan, tələş, təşviş, təskinlik, təntənə, pərtlik, lovğalıq, laqeydlik, coşqunluq, həya, sevinc, acıq, şübhə, təkəbbür və sairə duyğu və düşüncələri nitq zamanı intonasiya vasitəsilə ifadə etmək mümkündür. Danışanda bu çalarlardan məqsədə müvafiq şəkildə istifadə etmək, nitqin predmetinə, müsahibinə münasibətini bildirməklə söz və ifadəyə müxtəlif məna rəngarəngliyi verir, onun məzmununu genişləndirir, zənginləşdirir və dolğunlaşdırır.

İntonasiyaya görə düzgün qurulmuş nitq diqqəti daim cəlb edir, nəzərdə tutulmuş məqsəd və ideyanın dinləyiciyə asan çatması üçün şərait yaradır. Əksinə olaraq isə, intonasiya çalarlarından məhrum olan bir nitq, danışıqda monotonluq, süstlük, həddindən artıq sürətlə və ya yavaş danışıq, diksiyanın pozulması və sairəyə səbəb olur. Bunun nəticəsi olaraq da bu cür nitq, yəni intonasiya çalarından məhrum olmuş nitq dinləyicini yorur, bəzən hətta əsəbiləşib özündən çıxmasına da gətirib çıxarır. Təbii ki,dinləyicilər bu cür natiqin mühazirəsindən, nitqindən bezirlər və necə deyərlər, tez yaxa qurtarmağa çalışırlar.

Natiq fikrini düzgün, aydın, məqsədəuyğun ifadə etməlidir. Həmçinin bunlarla yanaşı natiq nitqini cazibəli, təsirli, emosional bir formada verməyi, dinləyicinin qəlbinə, zehninə nüfuz edə biləcək inandırıcı dil vasitələrindən istifadə etməyi də bilməlidir və bacarmalıdır. Əlbəttə ki, parlaq, kəskin, orijinal, ifadəli nitqin kommunikativ imkanları da geniş olur. Bu cür nitq dinləyicilərin hisslərinə təsir edir, marağını artırır, diqqətini cəlb edir, fikrin məzmununu yaxşı dərk etməyə yardımçı olur. Dinləyicilər natiqin nitqindən, mühazirələrindən ona görə razılıq edirlər ki, onun danışığı aydın, başa düşülən və məzmunludur. Bu nitq həm də güclü məntiq, tutarlı söz, ifadə, cümlələrdən ibarətdir. Həmçinin də ifadəlidir, təsirlidir və emosionaldır. Emosionallıq haqqında onu da söyləyək ki, nitqdə ifadəlilik, emosionallıq müxtəlif vasitələrin yardımı ilə əmələ gəlir. Burayabir neçə anlayışlar daxildir. Bunlar: intonasiya (melodiya, temp, tembr, vurğu, pauza, ritm, səsin gücü, səsin diapazonu), leksik vahidlər: sinonim və antonimlər, frazeoloji birləşmələr, atalar sözü, zərbi-məsəllər, məcazi mənalı sözlər, birləşmələr, təkrarlar, ritorik fiqurlar, emosional nidalar və sairədir. Sözlərin əsas mənasına əlavə rəng, çalarlıq verən bu ifadəlilik vasitələrinin yardımı ilə natiq ən incə, xırda mətləbləri belə dinləyicilərə çatdıra bilir. Bu cür intonasiya ilə zəngin olan nitq də dinləyicilər tərəfindən maraqla dinlənilir və onlar bundan xüsusi zövq alınır.

İntonasiya eyni zamanda həm danışıq, həm də oxu prosesi ilə bilavasitə əlaqədar olan ən xarakterik tələffüz hadisəsi hesab edilir. Ünsiyyət zamanı danışan məqsədinə uyğun şəkildə nitqinə müxtəlif səs tərtibatı verə bilir. Başqa sözlə desək, danışıq prosesində təfəkkür fəaliyyətinin nəticəsi olan nitq rəngarəng intonasiya çalarına, boyalığına malik olur.

İntonasiyanın sintaktik funksiyası ingilis dilçiləri olan H.E.Palmer, E.Armstronq və İ.Uard, M.Şubiyer, M.Halıdey, Peter Roach tərəfindən tədqiq olunub. H.E.Palmerə və digərlərinə görə,

tabesizlik əlaqəsi ilə formalaşan cümlələr düşən tonla ifadə edilir. M.Şubigerə görə, qalxan tonla danışılan cümlələri tabeli, düşən tonla danışılan cümlələri isə tabesiz mürəkkəb cümlələr hesab etmək daha məntiqi olardı [3, s.135].

Антипова Алла Михайловна "Система английской речевой интонации" kitabında eyd edir ki: "M.Halidey özünün intonasiya sisteminin əsasında qrammatik vahid olan cümləni (clause) qoyur. M.Halidey görə, intonasiya vahidləri qrammatik kateqoriyaları lazımı şəklə salır və onları ifadə edir. M.Hallidey intonasiya sistemində üç anlayış təqdim edir: Tonallıq, tonacity, ton. M.Halideyə görə, tonallıq cümlələr arasında səddi işarə edir, göstərir. Tonacity cümlənin məna mərkəzini nəzərə çarpdırır. Ton isə iki yerə ayrılır. Əsas tonlar və ikinci dərəcəli tonlar. Əsas tonlara terminal tonlar, ikinci dərəcəli tonlar isə terminal tonlardan əvvəl olan sahədə yəni şkalada baş verən tonal dəyişmələr nəzərdə tutulur" [6, s.14].

Peter Rouç intonasiyanın qrammatik funksiyasına dair belə bir misal nümunəsi verir.

a. 'Those who 'sold quickly / made a ˌprofit.

b. 'Those who sold / ´quickly ´made a ˌ profit.

Peter Rouça görə, bu cümlə yaranış formasında ikimənalıdır, bu iki məna-lılıq yalnız intonasiyanın müxtəliflənməsi ilə aradan qaldırıla bilər. Belə ki, ton vahidinin yerinin müxtəlifliyi bu cümlənin iki müxtəlif formada deyilməsinə səbəb ola bilər.

Birinci cümlə a. profit was made by those who sold quicklv.

İkinci cümlə isə b. profit was made quickly by those who sold mənasını verir [5, s.195].

Ton vahidinin cümlədə yeri dinləyiciyə qrammatik quruluşu siqnal edə bilər. Məsələn:

a. The Con´servatives who like the proposal / are ˌpleased.

b. The Conˇservatives / who like the proposal / are ˌpleased.

Bu cümlələrdə sintaqmatik bölgü məhdudlaşdırıcı və qeyri-məhdudlaşdırıcı təyin budaq cümlələri fərqləndirir. Birinci cümlənin sintaqmatik bölgüsü bəzi Mühafizəkarların təkliflə razılaşdığını, ikinci cümlənin sintaqmatik bölgüsü isə bütün Mühafiəkarların təkliflə razılaşdığını nəzərdə tutur [5, s.196].

Hər bir insanın nitqini təşkil edən sözlər, söz birləşmələri və cümlələrin rəngarəng intonasiya çaları və deyiliş tərzi olur. İntonasiyadan bəhs edərkən, adətən, sintaktik quruluşların, xüsusilə də cümlələrin deyilişi və tələffüzü nəzərdə tutulur. Dildəki sözlərin səslənmə tərzi, intonasiya çalarları nitqin sintaksisi, sintaktik quruluşların tələffüzü ilə daha çox əlaqədardır. Hər bir cümlədə intonasiya olur. Cümlənin növləri, yəni əmr, nida, nəqli ə sual xarakterli olması intonasiyaların vasitəsilə öyrənilə bilər.Cümlələrin növləri bir - birindən intonasiyanın köməkliyi ilə seçilir.

Cümlələrdə olan ara sözlər, xitablar, modallar, ədatlar da intonasiyanın yaradılmasına, cümlələrin daha da emosional və intonasiyalı deyilməsinə kömək edir. Şübhəsizdir ki, hər bir dildə işlənən ara sözlər, modallar, ədatlar və intonasiya cümlələrdə modallığın ifadə olunmasına xidmət göstərir. Məqsəddən və vəziyyətdən asılı olaraq işlənən hər bir cümlə, şübhəsiz ki, müəyyən intonasiya strukturu və çaları ilə səciyyələnir.

"Bir sıra ara sözlər vardır ki, onlar əsasən cümlənin əvvəlində işlədilir. Bu cür ara sözlərin şəxsi münasibət etməkdən çox ani fikirləşmək üçün əsas fikri formalaşdırmaq üçün vaxt əldə etmək məqsədi ilə işlədilir. Bu növ ara sözlər ingilis dilində giriş ifadələri, yaxud temrorayzələr (speech introduction or temporisers) adlanır" [1, s.226].

Məsələn:"Well: let me see; er: you see".

Vaxt əldə məqsədi ilə işlədilən ara sözlər əsasən qalxan tonla, yaxud neytral tonla tələffüz edilir. Məsələn: How many rooms in the house? Let me >see/ ˌone/ ˌtwo/ ˌthree/ ˌfour/ ˌfive ˌYes, | five rooms. ˌWell| what's the ˌmatter with you Mr.Walker?

Tərəddüd xarakterli reaksiyalarda ara sözlər əsasən orta neytral tonla tələffüz edilir. Məsələn: 'Is there anything to your ta'ste on the ˌmenu? Oh, ˌyes/all 'kinds of ˌthings.

Cümlənin əvvəlində işlənən ara sözlərinin akustik parametrləri və tonal səviyyəsi aşağı olur. Ara sözlər normal, bəzən də zəif vurğu ilə səciyyələnir. Ara sözlər əsasən iti templə tələffüz olunur. Ara sözlərdə tonun hərəkəti əsasən qalxan istiqamətində olur.

"Yazılı nitqdə bir informasiya kanalı mətnin yazılı forması olduğu halda canlı danışıqda iki və üç informasiya kanalı fəaliyyət göstərir: seqment fonemlərlə, yəni səslərdən ibarət olan sözlərlə verilən informasiya; supraseqment vahidlərlə, yəni melodiya, cümlə vurğusu, tonlarla və s., verilən informasiya; jestlərlə verilən informasiya" [2, s.7].

Xarici dilçilikdə intonasiya melodiya ilə eyniləşdirilir. Dwight Bolinger "Cümlə vurğusu və melodiyanı bir-birindən ayıraraq, onları ayrıca fonetik-fonoloji hadisə kimi izah edir" [4, s. 230].

Yazılı nitqdə cümlələrdə fikri, intonasiyanı və emosiyanı bildirmək üçün durğu işarələrindən istifadə olunur.Cümlələrin sonunda sual, nöqtə, nida işarələri qoyulur. Nöqtə qoyulmuş nəqli cümlələr də intonasiya zəif olur. Əmr cümlələrində sonda nöqtə qoyulur. Lakin nəqli cümlələrdən fərqli olaraq əmr cümlələrinə əmri vurğulamaq üçün yüksək intonasiydan istifadə olunur. Sual cümləsi və nida cümləsi də yüksək səs tonu ilə tələffüz olunur. Ancaq bildiyimiz kimi bunların sonunda fərqli durğu işarələri qoyulur. Belə ki, sual cümlələrin sonunda sual, nida cümlələrinin sonunda isə nida işarəsi qoyulur. Bu durğu işarələrindən daha çox isə intonasiya əsasdır. Məsələn, sual cümlələrinə aid intonasiya elə bir yüksək əhəmiyyət daşıyır ki, çox halda o, sual cümləsini əmələ gətirən yeganə vasitə olur. Buradakı intonasiya ən çox məntiqi vurğu ilə bağlıdır. Sual cümlələrində sözlərin sırası ya bəzən dəyişilərək, ya da bəzən də dəyişilməyərək tələffüz olunur. Sual intonasiyası cümlədə müəyyən sözün, daha dəqiq məntiqi vurğulu sözün yüksək tonla deyilməsi ilə özünü biruzə verir.Sual intonasiyası ilə yaranan sual cümlələrində məntiqi vurğu xəbərin yanında işlənən sözün üzərinə düşür. Həmin söz yüksək intonasiya ilə deyilərək nəzərə çatdırılmağa çalışılır.Bu cür cümlələrdə xəbərin son hecası nisbətən uzadılaraq tələffüz olunur ki, bu uzanma da özü - özlüyündə heç bir formal əlamət olmadan sual intonasiyasını əmələ gətirir.

Nida cümlələrində intonasiya təkcə səs tonunun qalxması və enməsi ilə yox, səsin müxtəlif, fərqli rənglər və çalarlara görə dəyişməsi ilə də xarakterizə olunur.Səsdə olan bu cür rəngarənglik birlikdə nida intonasiyasını yaradır.Nida cümlələrindəki intonasiya nitqə xüsusi gözəl ahəng, bəzən isə tamamilə yeni bir məzmun gətirir. Eyni cür bir cümləni və ya ifadəni intonasiyanın yardımı ilə fərqli məzmunlarda işlətmək mümkündür. Müxtəlif intonasiya ilə söylənmiş eyni bir cümlə və ya eyni bir ifadə dinləyiciyə qarşı da müxtəlif təsirlər bağışlayır.

Əmr cümləsinin formal əlaməti xəbərin əmr şəklində işlənməsidir və həmin cümlələrin əmr intonasiyası ilə deyilməsidir.

Həmcins üzvlü cümlələrin də özünəməxsus intonasiya çalarları olur. Əgər həmcins üzvlü cümlələrin arasında bağlayıcı olmursa, bu zaman tərkibindəki sözlərdən və ya cümlələrdən sonuncusundan başqa, digərləri sadalama intonasiyası ilə deyilir.Sonuncu həmcins cümlə üzvündən əvvəl nisbətən az fasilə edilir və səsin tembri dəyişir, bir qədər yüksəlir. Həmin bu söz bir növ sanki sadalanmanın qurtarmağını xəbər verir və buna görə də ucadan və güclü vurğu ilə tələffüz olunur. Həmcins cümlədə işlənən amma, ancaq və lakin, amma, ancaq bağlayıcıları ilə bağlanan həmcins üzvlər isə qarşılaşdırma - ziddiyyət intonasiya ilə tələffüz olunur. Ümumiyyətlə, sadalayıcı intonasiya dinləyicinin hissinə təsir edir, sadalanan əşya və onlarda hadisələrə qarşı diqqəti daha çox yönəltmək məqsədini daşıyır.

Xitablar da cümlədə yüksək intonasiya ilə deyilir. Ünsiyyət zamanı kommunikativ əlaqəni yaradan başlıca vasitələrdən biri xitablardır. Məlum olduğu kimi xitablar cümlədə müraciət olunanı bildir. Demək olar ki, bütün dillərin qrammatikasında xitablar vardır. Xitablar cümlələrin əvvəlində, ortasında və sonunda işlənə bilir. Cümlənin əvvəlində işlənən xitablar çağırış mənası bildirir, qüvvətli vurğu və intonasiya ilə deyilir. Bu cür xitablar cümlənin digər üzvlərindən yüksək fasilə ilə ayrılır.Xitablar ayrıca bir sintaqm təşkil edir və fərqli tonlarla tələffüz edilir. Məsələn:

ˌBoys, |ˊstop ˌtalking. My 'dear ˌfriend, |you 'think you can ˌtrifle with me. 'Boys and ˌgengirls,| I want to 'talk to you of a very im'portant ˌmatter.

Elçin Orucov yazır ki "İntonasiya cümlənin əsas əlamətlərindən olan predikativliklə qarşılıqlı şəkildə əlaqədardır. Bu əlaqəni danışıq dili nümunələri əsasında daha dəqiq müşahidə etmək mümkündür. Belə ki, intonasiya formal surətdə göstərilməyən predikativliyin əvəzləyicisi kimi çıxış edir, müxtəlif leksik seqmentlərə, söz birləşmələrinə məlumat bildirmə imkanı verir" [6,s.45].

Cümlələrin intonasiya ilə deyilməsi insanın psixologiyası, əhval ruhiyyəsi ilə də əlaqədardır. Yüksək əhal ruhiyyədə olan insan nitqində cümlələri xüsusi yüksək, şən intonasiya ilə səsləndirir, ancaq pis əhal - ruhiyyədə olan insanın nitqi zəif olur, zəif, kədərli tonla danışır.

Danışıq və xüsusən oxuda özünü göstərən ümumi bir qüsur səslənən cümlələrdə, fikirlərdə intonasiyaca kasıblıqdır. İntonasiyada kasiblıq dedikdə, danışıq, xüsusən oxuda müəyyən məzmun, müxtəlif emosional vəziyyətlərin, yəni alicənablıq, ağrı, abır, bədbəxtlik, əsəbilik, əzab, ələm, qəzəb, qeyz, qeyrət, qayğı, qüssə, zövq, etinasızlıq, inam, iftixar, iztirab, yəqinlik, qəhərlənmək, dəhşət, vahimə, diksinmə, öyünmə, fəxretmə, qərarsızlıq, acizlik, vüqar, iddia, yaxşılıq, yamanlıq və sairə kimi hislərin cümlə daxilində uyğun informasiya çaları ilə verilə bilməməsi nəzərdə tutulur. Bəzən natiqin nitqində intonasiya çalarları zəif nəzərə çarpır. Buna görə də dinlədiyimiz bir çox natiqin nitqində ifadə etdiyi cümlələrində sual, nida, əmr intonasiyası, müxtəlif növ vurğular, pauzaları və sairəni demək olar ki, hiss etmirik. Bu cür intonasiyası zəif olan insanlar çox vaxt bədii mətni ifadəli oxumaqdan çəkinir və açıq-açığına boyun qaçırırlar.

Lev Rafailoviç Zinder yazır ki, "Eyni mətni hərbir artist müxtəlif cür oxuyur… lakin fərqli oxunuşlar heç də mətnin qavranılması üçün əhəmiyyətsiz deyildir. Eyni mətnin fərqli intonasiyailə tələffüz edilməsi onun oxucular tərəfindən fərqli qavranılmasından asılıdır. Eyni mətni müxtəlif intonasiya ilə tələffüz etmək mümkündür" [7, s. 110].

İntonasiya ilə bağlı olan qüsurlar danışıq və oxunun keyfiyyətini aşağı salır, nitqin təsir gücünü azaldır, və başa düşülməsini , qavranılmasını çətinləşdirir. İntonasiyası ümumi dil hadisəsidir. İntonasiyanı tələffüzün dörd elementi birləşdirir. Bu dörd element: fasilə, vurğu, melodiya və tempdir. Bütün hərəkətlərdə olduu kimi nitq də başlanğıca (hərəkətin doğması), davama (hərəkətin inkişafı və müəyyən istiqamətə yönəlməsi) və sona çatmasına (hərəkətin kəsilməsi) qadirdir. Canlı nitqdə hər zaman müəyyən bir hərəkət, yəni surət, güc, fasilə özünü biruzə verir. Bunlar da öz növbəsində intonasiyanın yuxarıda qeyd etdiyimiz dörd elementi ilə bağlıdır.

ƏDƏBİYYAT

1. Axundov A., Babayev S., Zeynalov F., İngilis və Azərbaycan dillərində vurğunun ritmik - melodik xüsusiyyətləri. Bakı, 1996. 252 səh;
2. D. Bolinger Intonation. Harmondsworth: Penguin, 1972, 463 p;
3. Dickushina O. English phonetics. M., 1965, 204 p;
4. Orucov E. İngilis və Azərbaycan dillərində sadə geniş cümlələrin intonasiya strukturu. Bakı, Şirvannəşr. 2007. 100 səh;
5. Peter Roach. English phonetics and phonology. Cambridge University Press. 2000, 231 p;
6. Антипова А.М. Система английской речевой интонации. М., 1974, 131 с;
7. Л.Р. Зиндер Общая фонетика. М.: Высшая школа, 1979, 268 s.

ОТНОШЕНИЕ ИНТОНАЦИИ В СООТВЕТСТВИИ С ТИПАМИ КОММУНИКАТИВНЫЙ ПРЕДЛОЖЕНИЙ

АННОТАЦИЯ

Речь должна быть интонационно насыщенной и приятной. Нормы интонации следует ожидать в речи. Интонация обеспечивает правильную группировку предложений. Правильно построенная речь для интонации всегда привлекает внимание. Интонация - это коммуникативный инструмент, обладающий большой силой в разговоре. Выражение предложений с интонацией также связано с психологией человека и настроением. Насыщенная интонацией речь также слушается с интересом слушателями, и им это нравится.

ATTİTUDE OF İNTONATİON ACCORDİNG TO COMMUNİCATİVE SENTENCE TYPES

SUMMARY

The speech should be intonationally rich and pleasant. Intonation norms should be expected in the speech. Intonation ensures proper sentence grouping. Properly constructed speech for intonation always attracts attention. Intonation is a communicative tool that has great power in conversation. Expression of sentences with intonation is also associated with human psychology and mood. Intonation-rich speech is also listened to with interest by listeners, and they enjoy it

İNGİLİS DİLİNDƏ İNKARLIQ KATEQORİYASININ KOMPLEKS TƏHLİLİ

Gülər Cəfərli
ADU-nun II kurs magistrantı
guler.jafarli@gmail.com

Açar sözlər:İngilis dili, inkarlıq, qrammatika, prefiks.
Ключевые слова: английский язык, отрицание, грамматика, префикс.
Key words: the English language, negation, grammar, prefix.

Müasir dünyada ingilis dilinin əhəmiyyəti bu gün olduqca böyükdür. Ən son, bizim üçün xarici bir dil idi və bu gün beynəlxalq bir dildir. Buna görə də indi dünyanın bütün ölkələrində İngilis dilinə böyük əhəmiyyət verilir. Bu gün uşaqlar bunu məktəbəqədər yaşda öyrənməyə başlayırlar.

İngilis dilində ən çox yayılmış sözlərdən bəziləri inkarlıq bildirir. Bu sözlər təsdiqdə olan bir ifadənin əksini ifadə edir. İngilis dilində olan inkarlıq kateqoriyası geniş bir sistem təşkil edir. Belə ki, buraya şəkilçi, hissəcik və əsas nitq hissələri aid edilir.

İngilis dilində inkarlıq kateqoriyasının kompleks təhlili sahəsində bir neçə alimlərin, o cümlədən də S.Muxtarovanın, S.Ağayevanın, Oruc Musayev, Fəxrətdin Veysəlli, R.Məmmədovanın və b. elmi əsərlərində və kitablarında kifayət qədər təhlillərə, araşdırmalara rast gəlmək mümkündür.

İngilis dilində inkarlıq kateqoriyası böyük tədqiqat əhəmiyyətli bir mövzudur. Dildə inkar məzmun və formanın yəni cümlə strukturunun və onun ifadə etdiyi fikrin planında ümumi dilçiliyin problemlərindən biridir. Qrammatik inkarlıq kateqoriyası elə bir sintaktik kateqoriyadır ki, cümlənin iki üzvü arasında həm sintaktik əlaqə, həm də xüsusi qrammatik vasitələrin köməyi ilə ifadə olunur.

İnkarlıq həmişə inkar vasitələri ilə düzəlmir, həmçinin o implist şəkildə yaxud digər dil vasitələri ilə düzəlir. Əslində inkarlıq dildə həm leksik, həm də qrammatik, o cümlədən sintaktik vasitələrlə ifadə olunur. Odur ki bunu, leksik qrammatik kateqoriya adlandırmaq düzgün olur. İnkarlıq hələ qədim dövrlərdən formal məntiqin, sonralar isə dilçiliyin tədqiqat obyekti olmuşdur. İnkarın qədim dövrlərdən öyrənilməsinə baxmayaraq hələdə öyrənilməyən və həm də həllini tapmayan məsələləri qalmaqdadır [1;s.18].

İsimlər, İngilis də daxil olmaqla, əksər dillərdə sözlərin ən böyük sinifini təşkil edir. İsim bir əşyaya (kitaba), insana (şəxsə), heyvana (pişiyə), bir yerə (məkana), keyfiyyətə (yumşaqlığa), bir fikrə (ədalətə) aid bir sözdür.

İsim kimi qeyri-müəyyən əvəzliklər də inkarlıq kateqoriyası bildirə bilir. Qeyri-müəyyən əvəzliklər:

anybody (heç kim)	everybody (hamı)	nobody (heç kim)	somebody (kimsə)
anyone (hər kəs)	everyone (hər kəs)	no one (heç kim)	someone (kimsə)
anything (hər şey)	everything (bir şey)	nothing (heç nə)	something (bir şey)

Qeyri-müəyyən əvəzliklərdən istifadə edərək insanları və ya əşyaları dəqiq və kim olduqlarını söyləmədən ifadə edirik. **Məsələn:**

I opened the door but there was **no one** at home *(Qapını açdım, amma evdə heç kim yox idi.).*

Qrammatik inkarlıq kateqoriyasını “not” və “no” ədatları yaradır. Not (no) şəklində olan İngilis dilinin inkarlığı, başqa vasitələrlə (sözönü və kökarxası, sözarxası leksik şəkilçilərlə), bizcə, Azərbaycan dilinə nisbətən daha sadə şəkildə ifadə olunur. İnkarlıq kateqoriyası demək olar ki, bu çox nadir hallarda modallığı və semantik məqamların ötürülməsinə xidmət edir. Lakin istisnalar da vardır.

İngilis dilində “no”, “not” və “never” ilə inkarlıq verilə bilir. Bu inkarlıq eksplisit adlanır. Yəni açıq ifadə formasıdır.

Biz tərcümə nöqteyi-nəzərindən baxsaq görərik ki, ingilis dilində çox az sayda olan ikili inkarlıq hadisələri də maraqlıdır. Məsələn, not until dövriyyəsi. Bundan demək olar ki, hər addımbaşı, müxtəlif kontekstlərdə və müxtəlif variantlarda istifadə olunur:

It was not until.*(Bu qədər deyildi.)*

Never zərfi inkar quruluşunda, mənasında olsa da təsdiq feillərlə işlənir. Never zərfi daha çox işlənən zərfdir.

I have **never** heard about it. (Bu barədə **heç** eşitməmişəm.)

She has **never** visited New York. (O **heç** Nyu-Yorka səfər etməyib.)

I will **never** forget it. (**Heç vaxt** unutmaram.)

Digər sabit birləşmə ikili inkarlıqladır – not unlike. Bu da çox tez-tez işlədilir və inkarlıq burada daha mürəkkəb məna kəsb edir. No-nu təyin etmək səyimiz bunlardır: possessing no great dissimilarity from, but not neccesarily possessing similarity to something. There is an undertone of uncertainty, meaning that it's slightly less positive than saying “like” [4;s.60].

İnkar prefikslə yaradılan sözlər dilin lüğət tərkibinin əsas hissəsini təşkil edir. Bu sözlərin anlam səviyyəsi də çox sadədir. Beləliklə, inkar prefikslər lüğəti təşkil edən söz tapmaq və beyin fırtınası alətləri kimi fəaliyyət göstərmək üçün əlaqəli sözlərlə əl-ələ getmək deməkdir.

Bir prefiks bir növ affiksdir. Affiks, bir sözün özü olmasa da, bir sözlə, ya da bir sözün bazası və ya kökü ilə əlaqəli bir məna ilə bir törəmə meydana gətirən bir elementdir. Dilçilər bəzən inkar prefiksini mahiyyətcə üç növ affiksə ayırırlar. Bunlar belədir: başlanğıcda qoşulmuş prefiks, ortada yerləşdirilmiş infiks, sonda gələn şəkilçilər suffiks.

İngilis dilinin ən məşhur inkar prefiksləri -anti,-non,-re, -pre, -sub, -un-dir. Qrammatik inkar prefiksinin öz adında belə pre sözü vardır. Bu da inkar yaradan prefiksdir. Mənası əvvəl deməkdir. Bir prefiks bir və ya daha çox şəkilçi ilə birlikdə istifadə edilə bilər. Sadə bir misal, aktivləşdirmə feilinə -re inkar prefiksi əlavə edilmişdirsə mənası yenidən aktivləşdirmə deməkdir. Bu zaman inkar prefikslərin önəmi və rolunu aydın görmək mümkündür [3;s.25].

İnkarlıq elementləri sözün mənasını dəyişdirir. Məna dəyişikliyi ciddi formada nəzərə çarpır. Leksik inkarlıq inkarlığın məna baxımından kəskinliyini də göstərdiyindən onun xüsusiyyətlərini də cümlə daxilində və ya adi şəkildə görmək olar.

İnkar cəhətləri üzə çıxarmaq üçün dialektik məntiqə əsaslanmaq lazımdır. Müasir linqvistik ədəbiyyatlarda müxtəlif dil xüsusiyyətləri verilmişdir ki, bu da mahiyyətcə leksik, morfoloji, sintaktik və söz düzəltmə səviyyələrində olan inkarlığın araşdırılması vəhdət şəklində həyata keçirilmişdir. Müasir ingilis dilində inkarlıq sahəsi aşağıdakı tərkib hissələrin sistemi kimi anılır:

1) “not” ədatı;

2) “no” əvəzliyi;

3) inkar əvəzlikləri və zərflər (nobody, no one, nothing, nowhere, neither, hardly, rarely və s.);

4) privativ frazeoloji vahidlər (be in someone's bad book, close one's eyes to something, get one's marching orders, go back on one's word, turn a deaf ear to something, dig one's own grave və s.);

5) inkar mənalı prefiks və suffikslər (a-, un-, non-, im-, ir-, il-, -less və s.);

6) privativ fellər (reject, refuse, fail, lack, object və s.)

D.J.Fodor, A.J.Fodor, M.F.Garrett inkarın dörd fərqli ifadə formasını müəyyənləşdirirlər, başqa formada, onlara görə inkar semanın ifadəsi dörd fərqli leksik formada təqdim olunur [2;s.52]:

1) İnkarlıq müstəqil inkar morfem olan "not" vasitəsi ilə eksplisit, yəni vasitəsiz şəkildə ifadə olunur;

2) İnkarlıq asılı morfem in-, un-, im-, dis-, de- və s. vasitəsilə reallaşır ki, bunu müəlliflər morfoloji inkarlıq adlandırırlar;

3) İnkarlıq implisit inkar morfemlər (any, much, give a damn, doubt, deny, fail və s.) vasitəsilə ifadə olunur ki, bu zaman inkarlıq vasitəli yolla təqdim edilir;

4) İnkarlıq sadəcə mənasında inkar sema daşıyan, heç bir inkar morfemi olmayan, inkarlığın ifadəsi üçün sintaktik mühit əmələ gətirə bilməyən bir qrup söz vasitəsilə ifadə olunur. Məsələn, bachelor- a man has not ever been married, subay- evli olmayan adam, kill- cause to become not alive, öldürmək - yaşamağı davam etdirməməyə səbəb olmaq.

ƏDƏBİYYAT

1. Dahl O. (2010). Typology of negation. In L. R. Horn (Ed.), The expression of negation (pp. 9–38). Berlin: De Gruyter Mouton.
2. Horn L. A natural history of negation. Chicago: University of Chicago Press. Reprinted in 2001 by CSLI Publications, Stanford, CA.
3. Muxtarova S. İngilis dilində inkarlıq kateqoriyasının leksik və morfoloji ifadə vasitələri // Filologiya məsələləri / Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu, 2012, №7, s.60-65.
4. Məmmədova R. İngilis dilində prefikslərin rolu //Filologiya məsələləri / Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu, 2014, №5, s.21-25.

İNGİLİS DİLİNDƏ İNKARLIQ KATEQORİYASININ KOMPLEKS TƏHLİLİ

XÜLASƏ

Bu araşdırmada İngilis dilində inkarlıq kateqoriyası təhlil olunmuşdur. Belə ki, İngilis dilinin linquvistik xüsusiyyətləri, söz yaratma prosesi və bu prosesdəki rolu sayəsində inkarlıq kateqoriyası hərtərəfli şəkildə tədqiq edilmişdir. İngilis dilində inkarlıq kateqoriyası araşdırılan zaman prefikslər, inkarlıq vasitələri, leksik inkarlıq təhlil edilmişdir. İnkarlıq linqvistik kateqoriya kimi digər dil kateqoriyaları içərisində özünəməxsus yerə malikdir. İnkarlıq bir sözün əksini bildirən qrammatik əməliyyatdır. Təsdiq forma əsas iddianın doğruluğunu və ya həqiqətini ifadə edir. İnkar bir forma əsas təsdiqin uydurma olduğunu ifadə edir. İngilis dilində inkarlıq kateqoriyası prefiks, zərf, isim, əvəzlik və s. ilə yaranır.

КОМПЛЕКСНЫЙ АНАЛИЗ КАТЕГОРИИ ОТРИЦАНИЯ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ.

АННОТАЦИЯ

В этом исследовании была проанализирована категория отрицания в английском языке. Таким образом, категория отрицания была тщательно изучена в связи с языковыми особенностями английского языка, процессом словообразования и его ролью в этом процессе. При изучении категории отрицания в английском языке анализировались префиксы, средства отрицания, лексическое отрицание. Отрицание как лингвистическая

категория занимает особое место среди других языковых категорий. Отрицание - это грамматическая операция, которая означает противоположность слова. Утвердительная форма выражает правдивость или правдивость основного утверждения. Отрицание означает, что главной чертой формы является вымысел. В английском языке категория отрицания возникает с префиксом, наречием, существительным, местоимением и т.д.

COMPREHENSIVE ANALYSIS OF THE NEGATION CATEGORY IN ENGLISH

SUMMARY

The category of negation in English language is analyzed in this article. Thus, the category of negation has been thoroughly studied as well as the linguistic features of English, the process of word formation and its role in this process. When studying the category of negation in English, prefixes, means of negation, lexical negation were analyzed. Negation has a special place among other language categories, such as the linguistic category. Negation form is a grammatical operation that means the opposite of a word. The affirmative form expresses the veracity or truth of the main claim. A form of negation means that the main assertion is fabricated. In English, the category of negation is expressed by adverb, noun, pronoun etc.

İNGİLİS DİLİNDƏ HECA FORMALAŞMASI İLƏ BAĞLI NƏZƏRİYYƏLƏR

Səbinə Həsənli
ADU-nun II kurs magistrantı
sebinehesenli40@gmail.com

Açar sözlər: heca, nəzəriyyə, dil, tələffüz, səs.
Ключевые слова: слог, теория, язык, произношение, звук.
Key words: syllable, theory, language, pronunciation, sound.

Dilin ən kiçik prosodik, danışığın ən kiçik tələffüz vahidi olan heca fonetikanın ən aktual və mübahisəli məsələlərindən biri olaraq qalmaqdadır. Bu günə qədər hecanın mahiyyəti, funksiyaları, hecanın fonetik təbiəti və quruluşu, danışıq aktının hecalara bölünməsi, heca və digər dil vahidlərinin (heca və morfem, heca və söz, heca və cümlə) nisbəti məsələləri öz həllini tapmamışdır.

Tələffüz zamanı sözün asanlıqla bölünən hissələrinə heca deyilir. Adətən sait səslər heca yaradan səslər olur. Sait hərflər mənsub olduğu hecanın növündən asılı olaraq müxtəlif cür oxunur.

Heca hər bir dilin mühüm vahidlərindən biridir. Dünyada elə bir dil yoxdur ki, bu dildə danışıq aktı hecalara bölünməsin. Bir çox insanlar heca bölgüsünü intuitiv şəkildə aparabilir. Lakin bu problemlə bağlı bir sıra məsələlər hələ də sual doğurur. Hər bir fonetik söz hecalardan, hecalar isə səslərdən ibarət olur. Hecalar sözdənkənar mövcud ola bilməz, onlar yalnız fonetik sözlərin tərkib hissəsi kimi çıxış edir və ayrılıqda heç bir məna kəsb etmir. Təsadüfi deyil ki, L.V.Bondarko hecanı "xüsusi tələffüz vahidi" adlandırmışdır [4, səh.123].

Heca bir və ya bir neçə səsdən ibarət ola bilir. Lakin bununla belə, heca səslərin kombinasiyasından ibarət deyil. Heca tərkibində səslər hər bir dilin özünəməxsus fonotaktik qaydalarına əsasən əlaqəyə girir və heca strukturunu yaradırlar. Hecadan kənar səslərin belə əlaqəsi mövcud ola bilməz.

Ferdinand de Sössür nitq axının asanlıqla səslərə deyil,bilavasitə səslərdən ibarət olan hecalara bölünməsini qeyd edir. Belə ki, hətta ən rəvan templi danışıq aktında sözlər bilavasitə səslərə deyil, hecalara bölünür. Ə.Dəmirçizadə hecanı fonetikanın kiçik vahidi adlandırsa da, bir sıra xüsusiyyətlərinə görə onu ən mühüm vahid kimi səciyyələndirir. O, hecanı hər şeydən əvvəl, nitqin fonetik zəncirində ən çox yer tutan həlqəcik adlandırır [1, səh 84].

Heca problemi haqqında dilçilikdə bir-birinə zidd olan müxtəlif fikir vəmülahizələr, nəzəriyyələr mövcuddur. Beləki, bir sıra alimlər,məsələn, V.Humboldt, A.A.Potebnya, Q.Pankoçelli-Kalsia və başqaları hətta hecanın bir fonetik vahid kimi mövcudluğunu inkar etmişdilər. Digər alimlər isə heca probleminə fizioloji, prosodik,akustik, sonor, perseptiv və digər nöqteyi-nəzərdən yanaşmışdılar.

Hecanın yaranma mexanizmini açmağa yönəlmiş və eləcə də geniş yayılmış "ekspirator" (nəfəsvermə), "sonorluq", "əzələ gərginliyi", "imploziya-eksploziya" və "gövsü ucalıq" nəzəriyyələr şərh edilir.

Ekspirator nəzəriyyəsi. Bu nəzəriyyə hecanı bir nəfəsvermə zamanı tələffüz edilən səs birləşməsi hesab edir. Bu nəzəriyə çoxlu tənqidə məruz qalıb, hətta bəzən rədd edilmişdir. Lakin Amerika alimi Stetsonun fəaliyyəti nəticəsində yenidən dirçəlmişdir. O, heca haqqında bu sadə prinsipi elə inandırıcı şəkildə təsdiq etmişdir ki, dünya dilçiləri ona etiraz etmirlər. Stetson heca tərkibində saitin olmasını labüd hesab edir. Hecanın samitlə başlaması və ya samitlə bitməsi məsələnin ikinci tərəfidir. Sözlər arasında sərhəd kimi nəfəs vermənin ən zəif olduğu an götürülür. Ekspirator nəzəriyyəsi müxtəlif tənqidlərə məruz qalmışdır. Aşkar olunmuşdur ki, bir nəfəsvermə təkanı ilə bir neçə heca tələffüz etmək olar.

Hecanın sonor nəzəriyyəsi.Bu nəzəriyyənin əsasını O.Yespersen qoymuşdur. O.Yespersen sonorluluğun on pillədən ibarət olan şkalasını təyin etmişdir.

M.V.Panov 1926-cı ildə nəşr etdirdiyi "Fonetikaya dair oxu kitabı" adlı əsərində akustik meyara əsaslanır. O,belə hesab edir ki, heca daha çox səslənənin az səslənənlə birləşməsidir. O.Yespersen heca tərkibi üçün saitin varlığını nəzərə almır. Bu iki nəzəriyyənin arasında barışdırıcı mövqe tutanlar da vardır. Məs, almandilçisi E. Siversbeləhesabedirki, StetsonlaYespersenbir- biriniinkaretmir.

Əzələ gərginliyi nəzəriyyəsi. Bu nəzəriyyənin ən görkəmli nümayəndəsi L.V.Şerbadır. Fransa alimi L.Rudşvə M.Qrimman, A.Abele tərəfindən əsası qoyulmuş əzələ gərginliyi nəzəriyyəsini L.Şerbadaha da inkişaf etdirmişdir. Bu nəzəriyyə hecanı bir əzələ gərginləşməsi zamanı tələffüz edilən fonetik vahid hesab edir. Hər bir əzələ gərginliyi impulsu üç hissədən ibarətdir: gərginliyin gücləmnəsi, ən yüksək nöqtəsi və əzələnin zəifləməsi. Bu nəzəriyyədə də inandırıcı cəhətlər vardır. Əsasən, fizioloji cəhətə əsaslanan əzələ gərginliyi nəzəriyyəsinə görə vurğunun da hecalanmada rolu vardır [2, səh 21].

İmploziya-eksploziya nəzəriyyəsi. Bu nəzəriyyə müxtəlif artikulyasiyalar, dəqiq desək, nitq zamanı müşahidə olunan birləşmə və ayrılmalara əsaslanır. Birləşmə - imploziya, ayrılma - eksploziyadır. Bu nəzəriyyə barəsində F. de Sössür yazırdı:"Səs zəncirində imploziyadan eksploziyaya keçid zamanı xüsusi effekt yaranır ki, bu da heca sərhədinin göstəricisidir" [6, səh.92].

Sonralar imploziya/eksploziya nəzəriyyəsi əzələ gərginliyi nəzəriyyəsində inkişaf etdirilmişdir (M.Qrammon, L.V.Şerba və başqaları). Bu nəzəriyyəyə görə, nitq axını səs sırasının ardıcıl gərginləşməsi və boşalması vasitəsilə tələffüz olunur. Nitq axınının gərginliklə başlayan və boşalma iləbitən hissəsi heca adlanır. Onun zirvəsində (başqa sözlə mərkəzində) uzadıla bilən və hecayaradıcı adlanan səs yerləşir.

XX əsrdə heca ilə bağlı digər fikirlər, nəzəriyyələr də irəli sürülmüşdür. Məsələn; N.İ.Jinkinin"ucalıq"nəzəriyyəsi, A.L.Traxterovun"tonal"nəzəriyyəsi, çex fonetisti B.Hala, rumin fonetisti A.Rosettinin nəzəriyyələri, R.Stetsonun"mühərrik" nəzəriyyəsi və s. Lakin bütün bu nəzəriyyələr ya mövcud olanların əsasında yaradılıb, onlara bənzəyir, yaxud da bu nəzəriyyələrin sintezindən ibarətdir.

Nəfəsvermə təkanı adlandırılan nəzəriyyənin tərəfdarları (Q.Suit) hesabedirlər ki, heca kompleks vahid olaraq nitq zamanı əmələ gələn nəfəsvermətəkanına uyğundur. Bu nəzəriyyəyə uyğun olaraq, sözdə olan hecalarınsayı nəfəsvermə təkanlarının sayına bərabərdir. Lakin bu nəzəriyyə dilinfaktlarında hər zaman öz təsdiqini tapmır. Məsələn, ingilis sözü *session[seʃn]* bir nəfəsvermə təkanı ilə tələffüz olunsa da, iki hecadan ibarətdir. Məşhur ingilis fonetisti D.Counsun dəstəklədiyi sonorluluq nəzəriyyəsinə əsasən hesab olunur ki, hecanın zirvəsindəki daha sonor fonemlərinətrafında olan az sonor fonemlərin qruplaşması heca yaradır. Bu nəzəriyyəyəgörə geniş samitlər daha yüksək sonorluluq səyiyyəsinə malikdirlər. Sonor samitlər ən kiçik sonorluluq səviyyəsinə malikdirlər, dar samitlər isəsəviyyəyə görə ortada yerləşirlər. Beləliklə, heca küylü-partlayışlı, frikativ,cingiltili və kar samitlərin ən yüksək sonorluluq səviyyəsinə maliksamitlərin və sonantların ətrafında qruplaşması ilə yaranır. Məsələn: *table,pupil* və s.

ƏDƏBİYYAT

1. Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. N4, 2009
2. Cəlilov F.A. Azərbaycan dilinin morfonologiyası. Bakı, "Maarif", 1988, 275 s
3. S.Babayev, M. Qarayeva. İngilis dilinin fonetikası. Bakı, Elm və Təhsil, 2009, 316 s
4. Yadigar F.Y. (Veysəlli) Fonetika və Fonologiya məsələləri. Bakı; "Maarif", 1993, 191s
5. Алекперов А.К. Фонетика // Грамматика азербайджанского языка. Баку, Элм, 1971,415 с

6. Князев С.В., ПожарицкаяС.К. Современный русский литературный язык. Фонетика, орфоэпия, графика, орфография. М.: академический проект. 2012, 320 с
7. Bailey Ch. Evidence for variable syllabic boundaries in English. The melody of language,Baltimore, 1980, 175 p

İNGİLİS DİLİNDƏ HECA FORMALAŞMASI İLƏ BAĞLI NƏZƏRİYYƏLƏR

XÜLASƏ

Məqalədə heca, onun mahiyyəti və heca haqqında nəzəriyyələrdən bəhs edilmişdir. İlk öncə heca nədir, heca necə yaranır və hecaya müxtəlif alimlərin verdiyi tərifl ərdən bəhs edildi. Yuxarıda deyilənlər göstərir ki, dilin kiçik prosodik, danışığın isə ən kiçik tələffüz vahidi və sözün bir hissəsi hecadır.

Eyni zamanda heca haqqında yaradılan O.Yespersenin “Sonorluq”,L.Rudş və M.Qrimman, A.Abele tərəfindən əsası qoyulmuş “əzələ gərginliyi” nəzəriyyələri və L.Şerba, F.de Sössür və digər alimlərin fikir bildirib inkişaf etdirdiyi “İmploziya-eksploziya” ,“ekspirator” və “ucalıq” kimi nəzəriyyələrə toxunuldu.

Heca haqqında deyilən fikirləri ümumiləşdirərək hecanın sözdən ayrılıqda mövcud olmadığını deyə bilərik. Heca sözün daxilində mövcud olur və öz funksiyalarını söz daxilində yerinə yetirir.

ТЕОРИИ ФОРМИРОВАНИЯ СЛОГА В АНГЛИЙСКОМ

АННОТАЦИЯ

В статье обсуждается слог, его сущность и теории о слоге. Прежде всего, мы говорили о том, что такое слог, как слог формируется, и определения, данные ему различными учеными. Вышесказанное показывает, что язык является небольшим просодическим, а речь - наименьшей единицей произношения, а часть слова - слогом.

В то же время комментировали «Sonority» О. Есперсена о слоге, теории «мышечного напряжения» Л.Рудша и М.Гриммана, основанные А.Абелем, и «Имплозию», разработанные Л.Шербой, Ф.де Соссюром и другими учеными. Были затронуты такие теории, как «экспозиция», «экспиратор» и «высота».

Обобщая идеи о слоге, мы можем сказать, что слог не существует в отрыве от слова. Слог существует в слове и выполняет свои функции в слове.

THEORIES OF SYLLABLE FORMATION IN ENGLISH

SUMMARY

The article discusses the syllable, its essence and theories about syllables. First of all, we talked about what a syllable is, how a syllable is formed, and the definitions given to it by various scholars. The above shows that the small prosodic part of the language, the smallest unit of pronunciation and part of a word is the syllable.

At the same time, O.Yespersen's "Sonority" about the syllable, L.Rudsch and M.Grimman's theories of "muscle tension" founded by A.Abele, and Implosion developed by L.Sherba, F.de Saussure and other scientists commented on it. Theories such as "exposition", "expirator" and "height" were touched upon.

Summarizing the ideas about the syllable, we can say that the syllable does not exist in isolation from the word. The syllable exists within the word and performs its functions within the word.

AZƏRBAYCAN TƏHSİLI TARİXİNDƏ GENDERİN ROLU

Sevinc Şeydayeva
Xəzər Universitetinin II kurs magistrantı
sevinc.sheydayeva@khazar.org
Elmi rəhbər: professor Hamlet İsaxanlı

Açar sözlər: gender, təhsil, təhsildə gender, tarix, Molla Nəsrəddin Jurnalı, Sevil pyesi.
Ключевые слова: пол, образование, пол в образовании, история, журнал Молла Насреддина, пьеса Севиль.
Key words: gender, education, gender in education, history, Molla Nasreddin Magazine, Sevil's play.

Təhsil sistemində qadın-kişi bərabərliyini təmin etmək, hər şeydən əvvəl, təməl bir anlayış dəyişikliyini tələb etməkdədir. Qadınlar arasında oxuyub-yaza bilməməyi tamamilə ortadan qaldırmaq, peşə təhsilinə, elm və texnologiyaya çatmalarını təmin etmək və təhsilin azad potensialını hər iki cinsin lehinə istifadə etmək lazımdır. Təhsil siyasətinin, müəllimlərin, məktəbdəki həyatın, təhsil materiallarının və təhsil mühitlərinin yanı sıra, ana-ataların və daha geniş cəmiyyətin də bu mövzuda həssaslığının yüksəldilməsini ehtiva edən köklü dəyişikliklər gərəkməkdədir. Bunun üçün əvvəlcə təhsil sistemində yaşanan bütün problemlərə qarşı həssaslıq inkişaf etdirmək və ictimaiyyət yaratmaq lazımdır.

Gender nədir?

Bioloji fərqlər əsasında müəyyənləşdirilən cinsdən fərqli olaraq, gender (ona həmçinin sosial cins deyilir) kişi və qadınların ictimai münasibətlər çərçivəsində (məsələn, ailədə, məktəbdə, iş kollektivində) formalaşan rol və vəzifələrini əhatə edir. Bu rollar və vəzifələr konkret cəmiyyətdə mövcud olan "kişi" və "qadın" sosial kategoriyalarının mahiyyətini təşkil edir. Digər mühüm social klassifikasiyalarla bərabər (ictimai sinif, irq, etnik qrup və sair), gender insanların cəmiyyətdəki mövqeyini müəyyənləşdirən əsas amillərdən biridir.

İnsanların inkişafı onların cins və ya gender mənsubiyyətinə əsasən məhdudlaşdırılmamalıdır. Gender bərabərliyi qadınların və kişilərin, oğlanların və qızların bərabər hüquqları, vəzifələri və imkanları deməkdir. Ancaq bu, fərdlərin cəmiyyətdə fəal rol oynaması və cəmiyyətlə uyğun yaşamaq hüququnu bilmək və istifadə etmək bacarığı ilə sıx bağlıdır. Təhsil başqa hüquqları bilmək və istifadə etmək üçün çox vacib olan haqqlardan biridir. Bu fikir və yanaşmaya əsaslanaraq, bu dissertasiya işində əsasən cinsiyyət və təhsil anlayışlarına diqqət yetirilir. Bu anlayışlardan, Azərbaycandakı gender bərabərliyi əsasında qadınların və kişilərin təhsil vəziyyəti, təhsilinin fərdi və ictimai əks olunması üçün bir vəziyyət təsbit edilmişdir(edilir). Bu məqsədlə, təhsil hüququ və təhsilin əhəmiyyəti fərdi və sosialdır.

Burada qadınların sosial vəziyyəti və təhsil səviyyəsinin tapıntıları, qadınların siyasi və iş həyatında rolu və müəyyən edilmiş problemləri həll etmək üçün səylər müzakirə olunur.

"Bir kişiyə təhsil verirsinizsə, bir ağıllı insan yetişdirirsiniz, bir qadına təhsil verirsinizsə, ağıllı bir nəsil yetişdirirsiniz" Brigham Young

Bu cümlədəki məna hal hazırda ölkəmizdə aktuallığını qoruyur.Lakin əslində qadın və kişinin rolları karyera və ya təhsil baxımından eyni olmaqla yanaşı,həmçinin ailədə də uşaq tərbiyə edərkən eyni olmalıdır. Təəssüflər olsun ki,cəmiyyətimizdə yaranmış stereotiplər bu mülahizənin baş tutmasına imkan vermir. Məsələnin həlli üçün ilk növbədə təhsildən başlamaq lazımdır. Bu tədqiqat işi də təhsil sahəsində təlimə, müəllimə və şagirdə təsir göstərən stereotipləri ortaya çıxarmağı hədəfləmişdir.

21-ci əsrin əvvəllərindən bəri qadınların cəmiyyətdə və təhsildəki rolunun gücləndirilməsi üçün önəmli addımlar atılmağa başlamışdır. Buna baxmayaraq, Qadınların siyasətdə və

iqtisadiyyatda rolu hələ də həmkarları ilə nisbətdə çox aşağıdır, buna səbəb qızların təhsilinin əksikliyidir. Təhsil gender bərabərliyi və qadınların rolunun gücləndirilməsi üçün ən əsas prioritetdir, amma bugün dünyada milyonlarla qadının təhsil əlçatmaz olaraq qalır (Menon-Sen, 2005). Qadınların təhsilsizliyi təkcə onların öz həyatlarına mənfi təsir göstərmir, həmçinin, uşaqlarının və ölkənin iqtisadi inkişafına da ziyan vurur. (Hill & King, 1993; Klasen, 2003) Tədqiqat təhsilsiz qadınların daha çox dünyaya uşaq gətirməsini, onların ölümünü, çox aşağı səviyyəli tərbiyəni, aşağı qazanc potensialını, ailədə sözükeçərliyinin az olmasını göstərir. Qadın təhsilli olduqda isə, uşaqlarına daha yaxşı tərbiyə verə bilməsini və təhsilsiz qadınlara nisbətən daha az xəstəlik hallarının ortaya çıxması müşahidə olunur (Floro & Wolf, 1990; Hill & King, 1993; Nussbaum, 2000; Brighouse & Unterhalter, 2002; Klasen, 2003; Chaabouci, 2006).

Azərbaycan Təhsil Tarixindən söz açdıqda, Çar Rusiyası dövründən başlayaraq danışmaq lazımdır. Ümumən təhsil tariximizi 3 və ya 4 hissəyə bölə bilərik: Sovetdən əvvəl, Sovet dövrü və Sovetdən sonrakı dövr (və 21-ci əsr – bu günümüz).

Hər bir dövrə məxsus məşhur yazıçı və şairlərimiz də olmuşdur ki, onların sayəsində bu gün bir sıra tarixi faktlardan xəbərdar oluruq və mədəniyyətimiz d vam edir. Tarixə nəzər salsaq görərik ki, Qadınların rolu kişiləri rolundan heç də az olmamışdır. Sadəcə tarix kişi fəaliyyətləri üzərində yazılmışdırki, bu datarixdə qadınların rolunu bir xeyli diqqətdən kənar qoyur. Bu mövzuda da gender məsələsini əsas nöqtə kimi ortaya qoymağımızın səbəbi tarixə kişi aspektindən daha çox qadın aspektini də göz önünə gətirmək və məlumatlanmaqdır.

Evdən kənarda təhsil almaq qadağası 20-ci əsrin əvvəllərində Azərbaycan ailələrinin əksəriyyətində qızlara şamil edilirdi. O dövrdə yalnız bəzi ziyalı ailələrində qızların təhsilinə icazə verilirdi. Xalqımızın böyük maarifçiləri, məşhur yazıçıları və ictimai xadimləri M. F. Axundov, Y. V. Çəmənzəminli, Ə. Haqverdiyev, Ə. Ağayev, C. Məmmədquluzadə, H. Cavanşir, S. Axundzadə, Ş. Əfəndiyeva, N. Şıxlinskaya, H. Z. Tağıyev, M. Ə. Sabir, Ü. Hacıbəyov, C. Cabbarlı, Ö. F. Nemanzadə və başqaları Azərbaycanda qadın təhsilinin ictimai qadağalardan azad olması yolunda yorulmadan çalışmışlar. Üstündən 30-40 il keçdi. Tarixi miqyasda kifayət qədər kiçik vaxt ərzində Sovet siyasəti (kollektivləşmə, təhsil islahatları, sənayeləşmə, şəhər əhalisinin artımı, ailə, qadın və nikah sahəsində qəbul edilən qanunlar və aparılan ictimai kampaniyalar) və İkinci Dünya Müharibəsi şəraitində cəmiyyətdə əmək bölgüsünün dəyişməsi gender münasibətlərinə ciddi dəyişikliklər gətirdi. Qadınlara tətbiq olunan bir sıra qadağalar bu dəyişikliklərin nəticəsində aradan qaldırıldı: qadınlar və qızlar təhsil almaq imkanını qazandı, oğlan və qızların ictimai sahədə mütəmadi olaraq ünsiyyətdə olması üçün şərait yarandı, qadınların müəllimlik sahəsində ixtisaslaşıb işləməsi kütləvi hal aldı. Artıq 2012-ci ildə Azərbaycanda təhsil müəssisələrində oxuyanların 47%-ni qızlar təşkil etmiş, təhsil sahəsində çalışanların mütləq əksəriyyəti (68%) qadınlar olmuşdu.

20-ci əsrin əvvəllərində ilk azərbaycanlı qadın-həkimlər kəskin ictimai qinaqla üzləşirdi. 1922-ci ildə Baki Dövlət Universitetinin Tibb Fakultəsinin məzunları arasında yalnız iki qız, Adilə xanım Şaxtaxtinskaya və Ceyran xanım Sultanova var idi. Qadınların bu sahəyə daxil olması cəmiyyətdə güclü etirazlara səbəb olmuşdu. Qadının evdən kənarda işləməsi, həkimlik sahəsində çalışaraq hər iki cinsdən olan insanlarla ünsiyyətdə olması o dövrün "qadın" sosial kateqoriyasına aid edilən qadağa və vəzifələrə zidd idi. Qadınların mütəxəssis olaraq evdən kənar əmək fəaliyyətinə görə pul qazanması və ictimai həyatda söz sahibi olması ailədə və cəmiyyətdə oturuşmuş hakimiyyət bölgüsünü pozurdu. İllər keçdi və hal-hazırda səhiyyə sektoru Azərbaycanda qadınların ən çox çalışdığı sahələrin birinə çevrildi. 2011-ci ilin sonuna səhiyyə və sosial xidmətlər sektorunda qadınlar 77,6%, kişilər isə 22,4% təşkil edirdi5 . 2005-ci ildə Azərbaycan Milli İnsan İnkişafı Hesabatı üçün keçirilmiş sorğu nəticələrinə əsasən respondentlərin əksəriyyəti həkimliyi qadınlar üçün ən münasib ixtisaslardan biri sayır. Lakin ümumi səhiyyə sistemində azlıq təşkil edən kişi işçilər rəhbər vəzifələrdə çoxluq təşkil edirdi .

19-cu əsrdə Qafqazda ən çox avropalaşmış və həmin regionun mədəni paytaxtı hesab edilən şəhərlərdən biri Tibilisi idi. Qarabağdan, Gəncədən, Bakıdan olan azəri elit ailələri öz uşaqlarını Tibilisiyə ali təhsil almağa göndərirdilər. Sovet çevrilişindən əvvəl ailələr üçün ali təhsil və qadınların örtüksüz gəzməsi normal görünürdü. Amma Azərbaycan qadınlarının böyük çoxluğu (kənddə və şəhərin qıraq ərazilərində yaşayanlar) savadsız örtülü idilər. Amma Azərbaycanlı modernçilərə görə qadınlara aid olan bu faktor bütün cəmiyyəti geri salırdı. Rusiya və avropalı azad düşünürlərin dövründə qadın hüququ və onların təhsili ən vacib məsələlərdən birinə çevrilmişdir. Həmin dövrdə bolşevik azəri qadınları (qadın hərəkatının özəyini quranlar və aktivistlər) müasir müsəlman qızlar məktəbini bitirirdilər. Belə məktəblər Bakıda və Qafqazın digər bölgələrində XX əsrin ilk iki dekadasında yaradılırdı. 1911- 1912 ci illərdə Bakıda azəri qadınları tərəfindən dərc olunan Azərbaycan qadınına aid "İşıq" jurnalı fəaliyyət göstərirdi, habelə 1923-1937 ci illərdə bolşevik azəri qadını tərəfindən "Şərq qadını" jurnalı dərc edilirdi. Polonskinin "Tatarka" (Azəri qadını 1848) əsərində Azərbaycan qadınının gözəlliyi haqqında məlumat verilib. Tatar qadını dekorasiya kimi göstərilir, rəngli geyinir. Belə ki, tatar kişiləri qadınlara onların köləsi kimi davranır və onlara itaət etmədikdə heyvan kimi döyür. Onlar heç vaxt qadınlara hisslərini ifadə etmir və qadınlardan bunu soruşmurlar. Bu cür gündəlik müşahidələrə baxmayaraq bu regionun möhtəşəm sevgisi haqqında çoxlu əsərlər yazılıb: "Leyli və Məcnun", "Fərhad və Şirin" (Nizami Gəncəvi Azərbaycanın XI əsr yazıçısı).

Xarici ölkədə ilk ali təhsil alan qadın Şövkət Məmmədova olmuşdur. Onun Milanda peşəkar musiqi təhsili almasına maddi dəstəyi Hacı Zeynalabdin Tağıyev boynuna götürmüşdü. Azərbaycanın ilk maarifpərvər qadınlarından biri də Mina xanım Talışinskaya olub. Xanımların maariflənməsi yolunda çox fədakarlıq göstərmiş bu xanım, təəssüf ki, az yaşayıb. Musiqi təhsili almış ilk pianoçu qadınlardan biri Nəzirə Yaqubova olub. Gender bərabərsizliyinə müsəlman azəri mədəniyyəti ayrıca təsir göstərirdi. 1901-ci il oktyabrın 7-də Bakıda böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və maliyyə dəstəyi ilə müsəlman Şərqində ilk dünyəvi qız məktəbi yaradılıb. Heç şübhəsiz Bakıda qızlar liseyinin açılması ənənəvi müsəlman cəmiyyətinin içində inqilabi bir ideya idi. Buradakı daxili həyətdə tələbə qızlar sərbəst şəkildə gəzib-dolaşa bilərdilər. Həsən bəy Zərdabi ziyalı idi və Azərbaycan cəmiyyətinin müasirləşməsinə çalışırdı. O, müsəlman qızlar üçün məktəb açmaq təşəbbüsünü ilk dəfə irəli sürdü. Bakının neftxudalarından biri və şəhərin ən böyük xeyriyyəçisi Hacı Zeynalabdın Tağıyev inanırdı ki, təhsilli qız, təhsilli ana olacaq və övladlarına daha geniş imkanlar yaradacaq və onları gələcək həyata daha yaxşı hazırlaya biləcək. Tağıyevdən nümunə götürülərək başqa və daha kiçik qız məktəbləri açılırdı. 1915-ci ildə Bakıda artıq 5 qız məktəbi var idi. Qızlar məktəbi üçün binanın layihəçisi və inşaatçısı İosif Qoslavski (1865-1904) əslən, o zamanlar Rusiya İmperiyasının bir hissəsi olan Polşadan idi.

Molla Nəsrəddin jurnalı :

C.Məmmədquluzadə cəmiyyətin tərəqqisi, inkişafı, müəyyən məqsədlərə çatması üçün qadınlarla kişilər arasında hüquq bərabərliyinin olmasını zəruri sayır və deyird ki, oğlanları oxutmaq, xaricdə təhsil almaq, ixtisas sahibi olmaq məqsədilə xaricə göndəririksə, qızlarımıza da belə bir şərait yaratmalıyıq. Ədibə görə, "oğlanlar oxusa, qızlar savadsız qalsa, onda onlar evlənəndə bir-birini başa düşməzlər. Ona görə gərək oğlanlarımızı Avropa dərsinə göndərəndə qızlarımızı da qoyaq dərsə ki., heç olmasa Avropa elmindən, tərbiyəsindən barı yarımçıq da olsa, bir az oxusunlar və öyrənsinlər(2-ci cild, səh.246-247)

Sovet hakimiyyəti qurulduqdan sonra qadınlarla ideya-tərbiyə işlərinin aparılmasından danışan ədib yazırdı:" Azad edəndən sonra azad Şərq qadınını tərbiyə etmək, ona həqiq yol göstərmək, öz vəzifəsini bildirmək qadınlıq şərtlərini anlatmaq, analıq borcunu dərs vermək, övlad tərbiyəsinin nə olduğunu təlim etmək, ta ki, bəxti qara Şərq qadını gözünü açıb çıxsın

Şura əsrimizin geniş meydanına və cürətlə desin: mənim də bu dünyada yaşamağa haqqım var! Çünki indi dəxi mən azad Şərq qadınıyam! (3-cü cild, səh.550). Azərbaycan qadınının Sovet

çevrilişindən sonrakı vəziyyəti getdikcə yaxşılaşmağa başlamışdı. Məşhur yazıçılarımızın əsərlərində bu aydın şəkildə əks olunur. Xüsusilə də, Cəfər Cabbarlının "Sevil" və "Almaz" əsərlərində qadın ayağa qalxmağa çağırılr və bu əsərlərin həmin dövrdəki cəmiyyətə güclü təsiri olur. Cabbarlı Cəfər Qafar oğlu - azərbaycanlı dramaturq, şair və nasir, teatrşünas, kinoşünas, tərcüməçi, kinossenarist, jurnalist, aktyor, rejissor, əməkdar incəsənət xadimi. O, Azərbaycan dramaturgiyasında sosial realizmin banisi sayılır. Sevil pyesində Cabbarlı əsərin baş qəhrəmanı olan Sevil obrazı ilə Azərbaycan qadınının yüksəliş yolunu təsvir edir.

Mövzusu:

Əsərin baş qəhrəmanları Sevil başda olmaqla Balaş, Gülüş və Dilbər digər adı ilə isə Edilyadır. Əsərin əvvəllərində Sevil obrazı saf, evdar qadın obrazında təsvir olunur, o əri Balaş ilə qürur duyur. Gülüş obrazı isə bütün reallıqları görən, elmli bir qadındır. Eyni zamanda Balaşın bacısıdır. Başından çarşafı atan Gülüşü ətrafındakılar dəli adlandırır, Balaş isə Gülüşü bacısı kimi hesab etmirdi. Gülüş həmişə Sevili yazıq adlandırıb, qardaşı Balaşdan da nifrət edərdi. Balaş obrazı isə 1920-ci ildə, bolşevik çevrilişindən sonrakı dövrdə iş başına gətirilən bir kişidir. Artıq müasir mədəni həyata girən Balaş Sevildən utanır, onun arvadı kimi tanınmasını istəmirdi. Bir müddət keçir, Balaş evi tərk edir. Varlı həyat tərzini sevən Dilbər digər adı ilə Edilya ilə bir evdə yaşamağa başlayır. Sevil və Balaşın oğlu olan balaca Gündüzdə atası ilə yaşayır. Dilbər xanım isə evdə dayanmır, bütün günü gəzir. Balaşın get-gedə kasıblamasıda Dilbərin Balaşdan uzaqlaşmasına digər kişilər ilə yaxınlaşmasına səbəb olur. Gülüş isə bu vaxtda bağça müəlliməsi işləyir. Sevil artıq məsum, saf bir qadın deyildi. O Moskvada təhsil almış, " Azərbaycan qadınlığının azadlıq yolu" kitabının müəllifi olan Sevildir. Qadına, ən başlıca, iqtisadi azadlıq lazımdır". Uzun müddətdən sonra Sevili görən Gülüş onu tanımır. Kitabın sonu isə Balaşın Sevilə onu bağışlaması üçün yalvarması ilə başa çatır. Axırda Balaşı bağışlamayan Sevil Azərbaycan qadınını azadlığa çağırır.

Bu əsərdə Azərbaycan keçmişinin reallıqları əks olunur.Əsərdə Gülüş obrazının cəmiyyət tərəfindən qəbul edilməməsi, "Qadının başı bağlı olar" tipli stereotipin aydın göstəricisidir. Bundan əlavə, Sevilin də "qadın təhsili" ilə bağlı stereotipə qurban getməsi əsərdə təsvir olunur.

"Almaz" əsəri 1928-ci ildə yazılıb. Azərbaycan müsəlman qadınlarını üzə çıxarmaq məqsədli idi. Əsərdəki Almaz baş rolu sekulyarist ideologiyaya əsaslanır. Almaz təklif etmişdir ki, kənd məscidi qadın mərkəzinə çevrilməlidir. O düşünürdü ki, onun missiyası təkcə təhsil vermək deyil, həm də onlara qadın pozisiyasını ötürmək, onları daha sağlam olmağa çağırmaq, kənddə yeni ideologiyaya həvəsləndirmək idi. Sovet rəsmilərinin yaratdığı adətlərə və inamlara qarşı idi mübarizəsi. Amma əsas vurğulanan hissə qadınların mübarizəsi və dəyişimi ilə əlaqədar idi. 1930-cu il. Azərbaycanın uzaq dağ kəndi. Bu kəndə işləməyə gələn gənc müəllimə, idealist təfəkkürdə olan Almaz burada quruluşun inkişafı və möhkəmləndirilməsi yolunda qarşıya çıxan əngəllər və çətinliklərlə qarşılaşır. Kənddə eyni zamanda kollektivləşmə ilə əlaqədar sinfi mübarizə gedir. Belə bir təzadlı və çətin vaxtda kənddə fəaliyyətə başlayan, bir sıra mürəkkəb məsələlərlə üz-üzə qalan gənc müəllimənin keşməkeşli həyat yolu filmin əsas süjet xəttini təşkil edir.

Əsərdə Almazın qadınların təhsilli olması üçün nə qədər çalışması, əziyyət çəkməsi, cəmiyyətin ümumi fikrinə qarşı gəlməsi göstərilir. Eyni zamanda, təhsilli bir gənc qadının qarşılaşdığı mənfi münasibətlər qadın təhsili stereotipinin aydın nümunəsidir.

ƏDƏBİYYAT

1. Ə.Abasov,R.Mirzəzadə, Genderə Giriş, Bakı-2004
2. Menon-Sen, 2005.
3. Floro & Wolf, 1990;
4. Molla Nəsrəddin Jurnalı (2-ci cild)

5. Cəfər Cabbarlı, “Sevil”
6. Cəfər Cabbarlı “Almaz”

XÜLASƏ

Azərbaycanda təhsil sahəsində gender bərabərsizliyi son bir neçə il ərzində dəyişmişdir. Bu məqalədə təhsil tariximizdə qadınların öyrənmə çətinliyindən, onların təhsilinə qoyulan limitlərdən və oğlanların təhsilində gender bərabərsizliyi üzrə araşdırma və nəzəri perspektivlərdən danışılır. Uşaqlar və yeniyetmələr haqqında ədəbiyyatların əksəriyyəti oğlanlar və qızlar arasında performans fərqlərindən ibarətdir.

АННОТАЦИЯ

В последние десятилетия ситуация с гендерным неравенством в сфере образования значительно изменилась. В этой статье рассматриваются эмпирические исследования и теоретические перспективы гендерного неравенства в успеваемости и образовании от раннего детства до юности. Большая часть литературы о детях и подростках посвящена различиям в показателях между девочками и мальчиками.

SUMMARY

The terrain of gender inequalities in education has seen much change in recent decades. This article reviews the empirical research and theoretical perspectives on gender inequalities in educational performance and attainment from early childhood to young adulthood. Much of the literature on children and adolescents attends to performance differences between girls and boys.

MİRZƏ BAXIŞ NADİMİN ƏDƏBİ İRSİNİN TƏDQİQİ VƏ NƏŞRİ TARİXİ BARƏDƏ

Zinaida Nağıyeva,
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

Açar sözlər: Mirzə Baxış Nadim, Navahi, şair, satira , qəzəl.
Ключевые слова: Мирза Бахыш Надим, Наваги, поэт, сатира, газел.
Key words: Mirza Bahysh Nadim, Navakhi, poet, satire, gazel.

Giriş. XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Mirzə Baxış Nadim həyat və yaradıcılığı ən az öyrənilən sənətkarlarımızdandır. Ən böyük çatışmazlıq ondan ibarət olmuşdur ki, şairin əsərləri son dövrlərə qədər nəşr edilməmişdi.

Mirzə Baxış Nadimin həyatı barədə məlumatımız o qədər də çox deyil. Bilirik ki, o, 1780-ci ildə Navahi kəndində anadan olmuş, təhsilini orada almış, ərəb və fars dillərini öyrənmişdir. Uzun müddət doğulduğu kənddə mirzəlik etmiş, kəndlilərin, zəhmətkeşlərin mənafeyini müdafiə edən ziyalı kimi tanınmışdır. Sonralar Pirsaat kəndində mirablıq etmiş, Navahidə məktəb açaraq dərs demişdir. Uzun ömür yaşamış, 1878-ci ildə vəfat etmişdir.

Nadimin adına ilk dəfə tədqiqatçılardan Salman Mümtazın 1935-ci ildə nəşr etdirdiyi "El şairləri" kitabında rast gəlirik (1.s.96). Bu kitabda Mirzə Baxışın bir neçə şeirin verən S.Mümtaz onun həyat və yaradıcılığı barədə heç bir məlumat verməmişdir.

Sonrakı illərdə Nadim haqqında daha ətraflı məlumat verən akademik Feyzulla Qasımzadə olmuşdur. Onun "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" kitabında M.B.Nadimin həyat və yaradıcılığı barədə verdiyi məlumat xüsusilə diqqətəlayiqdir. Alim Nadimin doğum və ölüm tarixlərini dəqiqləşdirməyə təşəbbüs göstərmiş, bir neçə şeirini nəzərdən keçirərək onun XIX əsr ədəbiyyat tariximizdəki mövqeyini müəyyənləşdirməyə çalışmışdır. Nadimin "Murad xan", "Rəncbər Mahmud", "Haray" adlı şeirlərindən nümunə gətirən F. Qasımzadə haqlı olaraq göstərir ki, Azərbaycan xanlıqlarının çar Rusiyası tərəfindən işğalını, Gəncənin tutulmasını, Azərbaycan kəndlərinin İran ordusu əsgərləri tərəfindən talan edilməsini, yerli hakimlərin özbaşınalığını, çar məmurlarının rüşvətxorluğunu təsvir edən şair dövrünün istedadlı realist sənətkarlarından olmuşdur. Alim yazır: "Nadim əsərlərində biçinçilərin haqqını kəsən mülkədarları, kəndlini kotana qoşan zalım xanı şiddətli satira atəşinə tuturdu" (2, s.194). Tədqiqatçı Nadir Məmmədov "Azərbaycan ədəbiyyatı tarixi"nin 4-cü cildində nəşr edilmiş "Satirik üslub" oçerkində Mirzə Baxışı XIX əsrdə cəmiyyətdəki təbəqələr arasında mövcud olan ziddiyyətləri daha kəskin mövqedən təsvir edən sənətkar kimi təqdim edir: "Bəy-kəndli münasibətlərinin və ziddiyyətlərinin təsvirində M.B.Nadim daha kəskin mövqeyi ilə seçilir. Mahmud adlı qoca bir kəndliyə müraciətlə yazdığı şeirində, o, bəylərə kəndlilər arasındakı ziddiyyətlərə toxunur, bəylərin zülmkarlığını və özbaşınalığını açıb göstərir və hüququ tapdalanan təbəqələrin mənafeyini qızğın müdafiə edirdi" (3, s. 96).

Professor Kamran Məmmədov "XIX əsr Azərbaycan şeirində satira" adlı mpnoqrafiyasında Mirzə Baxış Nadimin satirik şeirləri barədə fikirlərini söyləmişdir (4, s.133).

Professor Mustafa Mustafayev 1976-cı ildə "Azərbaycan" jurnalında nəşr etdirdiyi "Mirzə Baxış Nadim" adlı məqaləsində şair haqqında nisbətən ətraflı məlumat vermiş, Canıbəylinin əlyazmasının köməyi ilə onun tərcümeyi-halını bərpa etməyə çalışmışdır (5, s.198). M.Mustafayev ilk dəfə olaraq şairin "Rəncbər Mahmud" adlı müxəmməsinin, "Murad xan" adlı qoşmasının və "Polkovnik İsmayıl bəyə" adlı mənzuməsinin mətnini tam şəkildə oxuculara təqdim etmişdir.

Mirzə Baxış Nadim əsərlərinin nəşri və tədqiqində, onun XIX əsr ədəbiyyat tariximizdəki mövqeyinin müəyyənləşdirilməsində filologiya üzrə elmlər doktorları Paşa Kərimov və Raqub Kərimovun fəaliyyətini xüsusi olaraq qeyd etmək istərdik. Şübhəsiz ki, onların bu sahədəki ən

böyük xidməti ilk dəfə olaraq şairin ədəbi irsini iki kitabda oxuculara təqddim etməkdən ibarət olmuşdur. Onların Nadimin seçilmiş şeirlər toplusunun birinci (2018) və ikinci (2020) kitablarına yazdıqları ön sözlər ciddi elmi araşdırmalardır. Təbii ki, şairin ədəbi irsi tam həcmdə əlyazmalardan oxunub nəzərdən keçirilməsəydi, onun yaradıcılığı haqqında həqiqi mənada elmi fikir söyləmək mümkün olmazdı. Bu ön sözlərdəki ən diqqətəlayaiq cəhətlərdən biri Mirzə Baxışın həyat və yaradıcılığının tədqiqində A.Canıbəylinin əsl rolunun göstərilməsindən ibarətdir. Tədqiqatçılar A.Canıbəylinin M.B.Nadimin həyat və yaradıcılığının araşdırılması sahəsində fəaliyyətini xüsusi qeyd etmiş, onun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan D-357/10327 şifrli əlyazmasını ətraflı nəzərdən keçirmişlər. P.Kərimov və R. Kərimov həmin əlyazma barədə yazırlar: "Yuxarıda adlarını qeyd etdiyimiz tədqiqatçılar da məhz mənbə kimi həmin inventar nömrəsi altında saxlanan əlyazmadan istifadə etmişlər. Və bu fakt da aşkar olunur ki, nə F. Qasımzadənin, nə də adlarını çəkdiyimiz digər tədqiqatçıların əlində Mirzə Baxış Nadimin başqa bir əsəri olmayıbdır. Bu əlyazma isə, öncə qeyd etdiyimiz kimi, Nadimin avtoqrafı deyil, onun üzündən köçürmədir. Əlyazmanın 54-cü səhifəsində əsərin üzünü köçürən, Nadim haqqında ilk söz deyən, onun doğum və ölüm tarixlərini müəyyənləşdirməyə, əsərlərini təhlil etməyə cəhd göstərən şəxsin kimliyini müəyyən edən belə bir qeyd vardır: Müəllim Ağakərim Canıbəyli, Salyan, 10 iyul, 1928" (6, s.7).

Qeyd edək ki, A.Canıbəylinin üzünü köçürdüyü 250 səhifədən ibarət əlyazma səhifə 1-dən səhifə 99-a qədər qara mürəkkəblə, səhifə 100-dən sonra isə karandaşla səhifələnmişdir. Səhifələnmə bəzən düzgün aparılmamış, ardıcıl səhifələr arasında boş vərəqlər qalmışdır. Səhifələrin əksəriyyəti tam doldurulmayıb, bəzi səhifələrdə bir, iki beyt və ya cümlə yazılmışdır. P.Kərimov və R.Kərimov belə hesab edirlər ki, C.Canıbəyli yarımçıq və ağ buraxılmış həmin səhifələrə şairin şeirlərini köçürməyi nəzərdə tutsa da, sonradan naməlum səbəbdən bunu həyata keçirə bilməmişdir (6, s.7). Onlar A.Canıbəyli barədə yazırlar: "Ağakərim Canıbəyli haqqında əlimizdə ətraflı məlumat olmasa da yazılarından məlum olur ki, o, ədəbiyyata, şeir sənətinə maraq göstərən bir şəxs olmuşdur. Onun Nadim haqqında söylədiklərini akademik F.Qasımzadənin təkrar etməsi bir daha təsdiq edir ki, Canıbəyli həm də istedadlı bir tədqiqatçı olmuşdur. Canıbəyli üzünü köçürdüyü topluya 54 səhifədən ibarət ön söz də yazmışdır. Bəzi mülahizələri şübhə doğursa da, ümumilikdə onun gəldiyi nəticələri düzgün hesab etmək olar" (6, s.8). A. Canıbəyli şairin həyatı barədə bildirir ki, o, əslən Şamaxılı olmuş, müəyyən səbəblərdən atası Molla Əsədulla ailəsi, bəzi qohumları ilə bərabər Nəvahiyə köçmüşlər. Nadim Salyan şəhərində "Beşdəli" məhəlləsində yaşayan Molla Məhəmməd Rza adlı şəxsin bacısı ilə evlənmiş, bir müddət Salyanda yaşamışdır. Sadə zəhmət adamı olan Nadim mirzəliklə bərabər əkinçilik və heyvandarlıqla da məşğul olmuşdur.

Daim zəhmətkeş insanlar içərisində olmasının, ən ağır günlərində onlara həyan çıxaraq öz gücü və imkanı daxilində problemlərini həll etməyə çalışmasının nəticəsi olaraq insanlar da onu sevmiş, ən çətin anlarda ona müraciət etmişlər. Camaatın ona olan ehtiramını yüksək qiymətləndirən Mirzə Baxış, əldə olan məlumata görə, dəfələrlə kəndlilərin mübahisəli torpaq məsələlərini həll etmək üçün günlərlə, aylarla Bakı, Salyan və Şamaxıda qalaraq məmurlarla görüşüb bu problemləri müsbət həll etməyə nail olmuşdur. A.Canıbəyli Nadimin müxtəlif şəxslərə yazdığı həcvlərdən danışarkən onları insanlara qarşı şəxsi qərəzliyə görə deyil, xalqın mənafeyini müdafiə etdiyinə görə yazıldığını vurğulanmışdır: "İnşa etdiyi həcvlərə gəldikdə kəndi şəxsi qərəz üçün degil, ümumiyyətlə, pək məqbul və ədibanə bir tərzdə fəqir və yoxsul kəndlilər ilə vicdansızcasına rəftar edən alçaqlara qarşı qızğın saldırışlardan və dəhşətli tənqidlərdən ibarət olmuşdur (7, s.59). Tədqiqatçılar Nadimin yaradıcılığında kəndlilərin mənafeyini müdafiə etdiyindən danışarkən daha çox onun "Murad xanı" qoşmasını və "Kərbəlayi" rədifli şeirini nümunə gətirirlər. Altı bənddən ibarət birinci qoşmada şair rəncbərlərin zəhmət haqqını verməyən, sadə zəhmət adamlarını ağır məqsədlərə düçar edən Murad xan, onun timsalında digər vicdansız istismarçıları satira atəşinə tutur, beşinci bənddə

“Biçinçi əhlinin olsa hikməti, çəkdirirlər səni darə, Murad xan” deyir. Nadim “Kərbəlayi” rədifli başqa bir şeirində də kəndlilərin mənafeyini müdafiə edir. P. Kərimov və R.Kərimov yazırlar: “Nadim bu şeiri Kərbəlayinin taxılını biçdirmək üçün Muğandan gətirdiyi biçinçilərin dilindən yazmışdır. Dörd bəndlik bu şeir biçinçilərin öz halal zəhmət haqlarını almaq üçün Kərbəlayiyə müraciətindən ibarətdir. Bu hadisədən bir qədər sonra Kərbəlayinin Nəvahiyə gəlib Nadimin Kərbəlayi Salman adlı yaxın dostunu həcv etməsi, şairi qəzəbləndirir və o, həmin şəxsin ünvanına “Kərbəlayi” rədifli başqa bir həcv yazır. Birinci həcvdən fərqli olaraq ikincidə Kərbəlayinin şəxsi keyfiyyətləri tənqid olunur” (6, s.14-15).

P.Kərimov və R.Kərimov Nadim əsərlərinin Əlyazmalar İnstitutunda aşkar etdikləri digər bir əlyazmasına əsaslanaraq A.Canıbəylinin və onun təsiri ilə başqa tədqiqatçıların söylədikləri bir müddəasına etiraz etmişlər. Canıbəyli yazır ki, Nadim dini mövzularla qeyd olmuş, mərsiyə, növhə, qəsidə yazmamışdır. Buna cavab olaraq tədqiqatçılar yazırlar: “Canıbəylinin bu fikri ilə razılaşmaq olmaz. Görünür o, Nadimin digər əsərlərindən, xüsusilə hal-hazırda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda B-4275/5900 şifri altında mühafizə olunan 354 səhifəlik əlyazmadan xəbərsizmiş. Mirzə Baxış Nadimin bu əlyazmasını bəzi xüsusiyyətlərinə görə avtoqraf nüsxə hesab etmək olar... Burada şairin müxtəlif janr və mövzularda yazdığı 100-dən artıq şeiri verilmişdir. Bu şeirlər içərisində onun dost və tanışlarına yazdığı mənzumələr xüsusi yer tutur... s.298-dən əlyazmanın son vərəqinə (səhifə 354-ə) kimi şairin dini mövzuda, əsasən, Kərbəla hadisəsinə həsr olunmuş şeirləri verilmişdir. Bu şeirlərdə məxsusi olaraq Əlini, Fatimeyi-Zəhranı, Zeynəbi, Hüseyni, Qasımi, Əliəsgəri, Həzrət Abbası və onların başına gətirilən müsibətləri təsvir etməsindən şairin şiə məzhəbinə mənsub olduğu aydın görünür” (6, s.20).

Nadimin 2018-ci ildə nəşr edilmiş seçilmiş əsərlərinin birinci cildində onun qəzəlləri, qoşma, müxəmməs, müstəzad, rübai, qitə, qəsidə, mənzumə, məzəmmətnamə və satirik şeirləri, dini şeirləri, məktubları, müşairələri, müxtəlif mövzulu şeirlərin hər biri ayrıca bir başlıq altında təqdim edilmişdir. Bu kitab Mirzə Baxışın yaradıcılıq diapazonunun, əsərlərinin janr və mövzu dairəsinin necə geniş olduğunu göstərməkdədir. Şairin qəzəlləri də xüsusi diqqət cəlb edir. Bu janrda yazdığı əsərlərdə, eləcə də bir sıra qoşma, müxəmməs, rübailərində Nadim lirik poeziyanın gözəl nümunələrini vermişdir.

Qeyd edək ki, filologiya üzrə fəlsəfə doktoru Nailə Mustafayeva Mirzə Baxışın müxəmməslərini ayrıca tədqiqata cəlb etmişdir. “Azərbaycan ədəbiyyatında müxəmməs janrı” adlı monoqrafiyasında tədqiqatçı Nadimin əsasən lirik-aşiqanə, satirik və tarixi mövzularda müxəmməslər yazdığını göstərmişdir. Monoqrafiyada şairin tarixi mövzulu müxəmməsləri barədə belə yazılıb: “Ola bilər ki, bədiilik, dilinin kamilliyi baxımından Mirzə Baxışın əsərləri sələflərinin mənzumələrindən geri qalır. Qeyd edək ki, şair tarixi mənzumələrində daha çox dialektizmlərə yol vermişdir. Fikirimizcə, Nadimin müxəmməs janrında yazdığı tarixi mənzumələrində onun əsasən gördüyü hadisələri əks etdirməsi və tarixi gerçəkliyə mümkün qədər sadiq qalmağa çalışması, hadisələri şərh edərkən vətənpərvərlik mövqeyindən çıxış etməsi, vətəninin, həmvətənlərinin halına acıması, işğalçılara qarşı barışmaz mövqe tutması bu əsərlərin ən əhəmiyyətli cəhətləridir” (8, s.286).

M.B.Nadimin seçilmiş əsərlərinin P.Kərimov və R.Kərimov tərəfindən tərtib edilmiş ikinci kitabına Əlyazmalar İnstitutunda saxlanan B-4275/5900 şifrli əlyazmadan götürülən şeirlər daxil edilmişdir. Qeyd etdiyimiz kimi, əvvəllər heç bir tədqiqatçının bu əlyazmadan xəbəri olmamışdır. Burada şairin müxtəlif janr və mövzularda yazdığı yüzdən artıq şeiri toplanmışdır. Buraya Nadimin lirik-aşiqanə qəzəlləri, mənzum məktubları, dini mövzulu şeirləri daxil edilibdir. Girişdə nəsrlə yazılmış dini mövzulu hissə xüsusilə diqqəti cəlb edir. Nadimi nasir kimi də səciyyələndirməyə imkan verən bu parçadan şairin ərəbcə dini mətnləri çox yaxşı bildiyi məlum olur.

Nəticə. XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mirzə Baxış Nadimin yaradıcılığı barədə F.Qasımzadə, M.Mustafayev, K.Məmmədov kimi tədqiqatçılar fikir bildirsələr də əsərlər toplusu çap edilmədiyindən indiyədək onun haqqında ətraflı elmi fikir söyləmək mümkün olmamışdır. Araşdırıcılar Nadimi əsasən satirik şair kimi təqdim etmişlər. 1928-ci ildə Mirzə Baxışın şeirlərini toplayaraq onlar haqqında mülahizələrini söyləmiş A.Canıbəylinin şairin əsərlərinin tədqiqatçısı kimi fəaliyyəti də sözün əsl mənasında dəyərləndirilməmişdir. Son zamanlarda filologiya üzrə elmlər doktorları Paşa Kərimov və Raqub Kərimovun Mirzə Baxışın şeirlərini iki kitab şəklində tərtib edərək nəşr etdirməsini şairin həyat və yaradıcılığının araşdırılması sahəsində irəliyə atılmış ciddi bir addım hesab edilməlidir. Onlar nəşrə hazırladıqları bu kitablara yazdıqları ön sözlərdə Mirzə Baxış Nadimin həyat və yaradıcılığının bir sıra naməlum məqamlarına toxunmuşlar. Haqqında danışdığımız kitablar Nadim irsinin gələcək tədqiqatçıları üçün dəyərli mənbə rolunu oynayacaqdır.

ƏDƏBİYYAT

1. Mümtaz Salman. El şairləri. Bakı: Azərnəşr, 1935.
2. Qasımzadə Feyzulla. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: “Maarif” nəşriyyatı, 1974.
3. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. Dördüncü cild. Bakı: “Elm”, 2011.
4. Məmmədov Kamran. XIX əsr Azərbaycan şeirində satira. Bakı: “Elm”, 1975.
5. Mustafayev M. Mirzə Baxış Nadim. “Azərbaycan” jurnalı, 1976, № 8.
6. Paşa Kərimov, Raqub Kərimov. Mirzə Baxış Nadim / Mirzə Baxış Nadim. Seçilmiş əsərləri. Bakı: “Alatoran”, 2018.
7. Mirzə Baxış Nadim. Şeirlər. Əlyazma. ƏYİ. Şifri: D-350/10327.
8. Mustafayeva Nailə. Azərbaycan ədəbiyyatında müxəmməs janrı. Bakı: “Elm və təhsil”, 2018.

MİRZƏ BAXIŞ NADİMİN ƏDƏBİ İRSİNİN TƏDQİQİ VƏ NƏŞRİ TARİXİ BARƏDƏ

XÜLASƏ

XIX əsr Azərbaycan ədəbiyyatının klassik və şifahi xalq ədəbiyyatı janrlarında yazıb-yaradan istedadlı nümayəndələrindən biri də Mirzə Baxış Nadim olmuşdur. O, 1780-ci ildə Navahi kəndində anadan olmuş, ilk təhsilini vətənində almış, ərəb və fars dillərini öyrənmiş, uzun müddət, doğulduğu kənddə mirzəlik etmiş, kəndlilərin, zəhmətkeşlərin mənafeyini müdafiə edən ziyalı kimi tanınmışdır. Sonralar Pirsaat kəndində mirablıq etmiş, Navahidə məktəb açaraq dərs demişdir. Uzun ömür yaşamış, 1878-ci ildə Navahidə vəfat etmişdir.

Mirzə Baxış Nadimin həyat və yaradıcılığı barədə bir sıra tədqiqatçılar, o cümlədən, Salman Mümtaz, Ağakərim Canıbəyli, Feyzulla Qasımzadə, Kamran Məmmədov, Mustafa Mustafayev və başqaları fikir söyləmiş, onu XIX əsr satirik poeziyamızın görkəmli nümayəndəsi kimi təqdim etmişlər. Qeyd etmək istərdik ki, S.Mümtaz istisna olunmaqla bu tədqiqatçılar M.B. Nadimin həyat və yaradıcılığı barədə yazarkən onun əsərlərini ilk dəfə toplayan salyanlı müəllim Ağakərim Canıbəylinin xidmətlərini lazımınca dəyərləndirməmişlər. Son illərə qədər şairin əsərlərinin nəşr edilməməsi onun yaradıcılığı barədə ciddi elmi fikir söyləməyə imkan vermirdi. Onun cəmi bir neçə şeiri XIX əsr Azərbaycan ədəbiyyatı antologiyalarında nəşr edilmişdi. Filologiya üzrə elmlər doktorları Paşa Kərimov və Raqub Kərimov bu çatışmazlığı ortadan götürmüş, Nadimin seçilmiş əsərlərini AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan əlyazmalardan istifadə etməklə 2018 və 2020-ci illərdə kitab halında nəşr etdirmişlər. Tədqiqatçılar bu kitablara yazdıqları ön sözdə Nadim irsinin toplanmasında A.Canıbəylinin xidmətlərini xüsusi olaraq qeyd etmiş, şairin əsərlərinin başqa bir avtoqraf nüsxəsi barədə də fikir söyləmişlər.

ОБ ИСТОРИИ ИССЛЕДОВАНИЯ И ИЗДАНИЯ ЛИТЕРАТУРНОГО НАСЛЕДИЯ МИРЗА БАХЫША НАДИМА

АННОТАЦИЯ

Мирза Бахыш Надим является одним из талантливых представителей азербайджанской поэзии XIX века. Он родился в 1780 году в селе Наваги. Образование получил в родном селе. Долгое время работал писарем. Всю жизнь помогал крестьянам, трудящимся, которые страдали от произвола местных правителей и царских чиновников. Умер в 1878 году.

О жизни и творчестве поэта писали такие исследователи, как Фейзулла Гасымзаде, Камран Мамедов, Мустафа Мустафаев и др. Самым большим недостатком в этом вопросе было то, что произведении Надима не были изданы. В последние годы доктора филологических наук Паша Керимов и Рагуб Керимов издали произведения М.Б.Надима в двух книгах. В предисловиях к этим книгам они более всесторонне анализировали поэтическое творчества поэта, его тематическую и жанровую разнообразность. Исследователи использовали два рукописных списка произведений Надим. Один из этих списков был переписан в 1928 году учителем из Сальяна Агакеримом Джаныбейли. Второй список по всей вероятности является автографом.

ON THE HISTORY OF THE STUDY AND PUBLICATION OF THE LITERARY HERITAGE OF MIRZA BAHYSH NADIM

SUMMARY

Mirza Bahysh Nadim is one of the most talented representatives of Azerbaijani poetry of the 19th century. He was born in 1780 in the village of Navagi. Educated in his native village. For a long time he worked as a clerk. All his life he helped peasants, working people who suffered from the arbitrariness of local rulers and tsarist officials. He died in 1878.

Such life writers as Feizulla Gasimzade, Kamran Mammadov, Mustafa Mustafayev and others wrote about the life and work of the poet.The biggest flaw in this matter was that the works of Nadim were not published. In recent years, doctors of philological sciences Pasha Karimov and Ragub Karimov published the works of M.B. Nadim in two books. In the preface to these books, they more comprehensively analyzed the poetry of the poet, his thematic and genre diversity. Researchers used two hand-written lists of Nadim's works. One of these lists was rewritten in 1928 by a teacher from Salyan, Agakerim Djanibeyli. The second list is most likely an autograph.

İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

MÜASİR HƏRBİ TƏHLÜKƏ VƏ TƏHDİD MƏNBƏLƏRİNİN DÖVLƏTLƏRARASI SİYASİ MÜNASİBƏTLƏR SİSTEMİNƏ TƏSİRİ

Coşqun Məmmədov, polkovnik - leytenant
Silahlı Qüvvələrin Hərbi Akademiyası
cosqun_memmedov_82@mail.ru

***Açar sözlər*:** hərbi təhlükə və təhdid, hərbi qarşıdurma, hərbi-siyasi maraqlar, qızğın silahlanma.
***Ключевые слова*:** военные опасности и угрозы, военное противостояние, военно-политические интересы, интенсивное вооружение.
***Keywords*:** military danger and threat, military confrontation, military and political interests, intense arming.

Giriş

Siyasi münasibətlər dövlətlərin və ya digər siyasi qurumların elə qarşılıqlı fəaliyyətlərinin nəticəsidir ki, tərəflərin öz mövcudluğu və inkişafı üçün zəruri və ya gələcək ehtiyaclarını ifadə edən milli maraqlarını reallaşdırmaq üçün yürütdükləri siyasətlə xarakterizə edilir. Hər bir dövlət yalnız öz bütövlüyünü və suverenliyini qorumağa deyil, onların daha da etirbarlı və təminatlı şəkildə irəliləməsinə şərait yaratmağa çalışır. Məhz siyasi münasibətlər sferasında ölkələrin milli-dövlət maraqları, partiyaların, siniflərin, sosial qrupların və cəmiyyətin digər siyasi qüvvələrinin siyasi mövqeləri formalaşır. Bu sahədə, həmçinin sosial münasibətlər sisteminin bütün digər ziddiyyətləri: iqtisadi, sosial, mənəvi, millətlərarası, dini və s. toplanır və status-kvonun hər an pozulmasını labüd edir. 2008-ci ilin avqustunda Rusiya-Gürcüstan münaqişəsi və 2016-cı ilin aprelində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində baş vermiş «Aprel savaşı» regionumuzda hərbi təhlükə və təhdid mənbələrinin destruktiv potensialının saxlanılması ilə əlaqələndirilir.

Məqalənin hazırlanması zamanı müqayisəli təhlil metodundan geniş istifadə edilib.

Hərbi təhlükə mənbəyi qismində tərəflərin eyni ehtiyat və xammal bazarlarına, məhsul satışına, müəyyən bölgələrin və okeanların zəngin torpaqlarlarına və təbii sərvətlərinə iqtisadi iddiaları ola bilər. Maliyyə və iqtisadi sahədə maraqların toqquşması və satış bazarları uğrunda mübarizənin nəticəsi olan iqtisadi, ticarət və maliyyə müharibələri güzəşt əldə edilmədiyi təqdirdə dövlətlər üçün hərbi təhlükə yaratmağa qadirdir. Mülkiyyət hüququ, ölkə iqtisadiyyatını idarə etmək və s. səbəbdən sosial qruplar, siniflər, siyasi partiyalar arasında kəskinləşən daxili iqtisadi ziddiyyətlər ölkənin mövcudluğu üçün heç də az təhlükə kəsb etmir.

Ötən əsrdə ABŞ-ın Şimalı və Cənubu arasında vətəndaş müharibəsinin mənbəyi qul əməyindən istifadə ilə bağlı kəskinləşən ziddiyyətlər idi. Yeni, daha mütərəqqi istehsal sisteminə keçidlə əlaqəli zəncilərin köləlikdən azad etmək şüarının arxasında dərin səbəblər olsa da, müharibənin əsas mənbəyi yenə də iqtisadi münasibətlər sahəsi idi.

Hərbi təhlükə mənbəyi mənəvi və ideoloji, etno-milli və dini münasibətlər sahəsində də ola bilər. Hərbi qarşıdurmaların ideoloji zəmində kəskin ziddiyyətlərə səbəb olduğu, müəyyən inancın təntənəsi və ya xalqların mənəvi mədəniyyətinin xilası naminə müharibələrin aparılmasına dair tarixdə çox nümunələr var. Məsələn, SSRİ üçün faşist Almaniyasının hücumundan əvvəl hərbi təhlükənin ciddi mənbələrindən biri kommunist və milli sosialist, faşist ideologiyaları arasında barışmaz ziddiyyətlər idi. Etnomilli və dini zəmində hərbi qarşıdurmalar hətta müasir tarixi inkişaf dövrü üçün də istisna deyil. Məsələn, İslam fundamentalizminin liderləri, sərt qanunları və qeyri-müsəlmanlara qarşı mübarizənin qəddar üsulları ilə öz ideologiyalarını qurmaq üçün çox vaxt

hərbi gücə güvənirlər. Beləliklə, barışmaz rəqiblər tərəfindən aparılan ideologiyaların mübarizəsi real hərbi təhlükə mənbəyi hesab edilir.

Hərbi təhlükə mənbələri ilk növbədə hərbi sahədə özünü göstərir. Dövlətin bu fəaliyyət sahəsi son dərəcə çoxşaxəlidir. Buraya:

- hərbi siyasətin subyektləri (dövlətlərin hərbi-siyasi və hərbi rəhbərliyi, ölkələrin silahlı qüvvələri və ya tərəflərin silahlı birləşmələri, müdafiə və hərbi təhlükəsizlik məsələlərinə cavabdeh olan qanunverici və icra hakimiyyəti orqanları) arasında dövlətlərarası və dövlətdaxili münasibətlər sahələri; hərbi-texniki əməkdaşlıq və hərbi təyinatlı məhsullar, hərbi texnika və silah istehsalı bazarları uğrunda mübarizə; hərbi elmi fəaliyyət; hərbi quruculuğun müxtəlif sahələri (silahlı qüvvələrin döyüş gücü, o cümlədən strateji dayaq qüvvələri, qoşunların (qüvvələrin) strateji qruplarının yerləşdirilməsi, tərkibi və döyüş hazırlığı); ölkənin müdafiəsinin təşkili ilə əlaqəli silahlı qüvvələrin və digər güc strukturlarının qarşılılı fəaliyyətidir.

Hərbi sahədə dövlətin və cəmiyyətin siyasi qüvvələrinin əsas hərbi-siyasi maraqları reallaşır. Hərbi təhlükəsizliyin daşıyıcıları olaraq, müxtəlif növ ziddiyyətlərdə tərəflərindən birini - hərbi təhlükə və təhdid mənbələrini təmsil edən dövlətlər burada qoşun birləşmələri, silah arsenalları, hərbi texnika və Silahlı Qüvvələrin əməli hərəkətləri şəklində real forma alır. Silah istehsalının kəskin şəkildə artması və ya səfərbərlik ehtiyatlarının açılması, qoşunların (qüvvələrin) döyüş hazırlığının artırılması, böyük qrupların manevrləri və ya təlimləri, dövlətin sərhədləri yaxınlığında qoşunların cəmləşməsi və s. - bütün bunlar onu göstərir ki, hərbi təhlükə reallaşır və qarşıduran tərəflər üçün birbaşa hərbi təhdidə çevrilir. Hərbi ziddiyyətdə tərəflərdən birinin üstünlüyü onu hərbi gücdən istifadəyə daha çox meyilli edir.

Bununla belə, üstün tərəf elə bir görüntü yaradır ki, guya hərbi gücdən istifadəyə önəm vermir. Lakin əsl həqiqətdə ziddiyyətli maraqları həll etmək üçün uzun və təsirsiz siyasi və diplomatik tədbirlərdən yararlanmaq müsbət nəticə vermir. Məhz bu nöqteyi-nəzərdən hərbi gücün artırılması və xüsusən bu prosesin ölkənin hərbi-siyasi rəhbərliyinin siyasi ənənəsi və təcavüzkar niyyəti ilə dəstəklənməsi onu hərbi təhlükə və təhdidin müstəqil mənbəyinə çevirə bilər.

Hərbi təhlükənin səbəblərini müəyyən edən ən mühüm mənbə **dövlətlərarası dərin və sərt ziddiyyətlər** hesab edilir. Belə ki, hər bir dövlət müxtəlif cür maraqlara malikdir və çox zaman onların maraqları digər dövlətlərin maraqları ilə ziddiyyət təşkil edir. Müxtəlif üsul və vasitələrin, o cümlədən hərbi vasitələrin köməyi ilə bir ziddiyyət həll edilir, digər ziddiyyət isə öz həllini gözləyir.

Hərbi təhlükənin digər mənbəyi **qızğın silahlanma,** mövcud silah sistemlərinin qisa müddətdə keyfiyyətli təkmilləşdirilməsi; dünyanın aparıcı dövlətlərində güclü orduların saxlanılması, ayrı-ayrı dövlətlərdə və onların qoşulduqları bloklarda yüksək döyüş hazırlığı səviyyəsinə malik hazırlıqlı silahlı qüvvə qruplaşmalarının mövcudluğu və s. hesab edilir.

Əksər inkişaf etmiş ölkələrdə dövlətlərarası münasibətlərin hərbi-güc vasitələri ilə həllinə tərəfdar olan **güclü militarist siyasi qüvvələrin** qalması müəyyən hərbi təhlükələr yaradır. Bəzi inkişaf etməkdə olan ölkələrdə hakimiyyət bu cür qüvvələrin əlindədir. Onlar ciddi cəhdlə KQS-in əldə edilməsini və bəzi dövlətlərlə öz problemlərini həll etmək məqsədilə həmin silahlardan istifadə etmək planlarını gizlətmirlər [1, s.36].

Hazırda dünya miqyasında cərəyan edən qlobal hərbi-siyasi proseslər də hər bir ölkə üçün hərbi təhlükəyə çevrilə bilər. Konkret olaraq hərbi texnikanın və silahların daha kütləvi tələfat yetirən növlərinin istehsalı və onların dünya ölkələrinin silahlı qüvvələrində daha geniş yer tutması, silahlanmaya meylin dünya miqyasında güclənməsi bu və ya digər bölgədə, bu və ya digər dövlətə qarşı real hərbi təhlükəyə çevrilə bilər. Bundan başqa, geosiyasi mübarizənin, böyük dövlətlərin öz geosiyasi maraqlarını təmin etmək üçün daha fəal şəkildə silahlı qüvvələrin tətbiqinə əl atmaları, terrorizmin, separatizmin genişlənməsi, terrorizmin qloballaşması, beynəlxalq məsələlərin həllində beynəlxalq normalara etinasızlıq göstərilməsi, informasiya müharibəsinin daha da radikallaşması, iqtisadi böhranın daha çox ölkələri öz ağuşuna alması,

böyük miqrasiya axını və s. məsələlər indi dövlətlərin çoxu üçün hərbi təhlükə yaratmaqdadır [2, s.201].

Hərbi təhlükə mənbələri cəmiyyətin digər sahələrində, məsələn, sosial münasibətlər, ətraf mühitin mühafizəsi (ətraf mühit) və informasiya təhlükəsizliyi sahələrində də ola bilər. Sosial sahədəki ziddiyyətlər həddindən artıq çox olanda silahlı qarşıdurma ilə nəticələnə və dövlətin bütövlüyünü təhdid edə bilər. Bundan əlavə, sosial ziddiyyətlər, bir qayda olaraq, daxili təhlükə mənbəyidir, çünki onlar əsasən müəyyən bir dövlətin daxildə sosial təbəqələr arasındakı münasibətləri əks etdirir və müvafiq hakimiyyət strukturları tərəfindən tənzimlənir.

Beləliklə, hərbi təhlükə mənbələrinin təsnifatı müxtəlif əsaslarla aparıla bilər. Yuxarıda göstərilən nümunələrdə onların təsnifatı üçün əsas cəmiyyətin həyat fəaliyyətinin məzmununun quruluşu, yəni hərbi təhlükə mənbələrinin mövcud ola biləcəyi ictimai münasibətlərin əsas sahələri göstərilmişdir. Bu yanaşma bizə silahlı qarşıdurmaya səbəb ola biləcək ziddiyyətlərin yaranma köklərini və mövcud mənbənin (siyasi, iqtisadi və s.) xarakterini müəyyən etməyə imkan verir.

Hərbi təhlükə mənbələri səbəb olduqları hərbi münaqişələrin miqyasına (yerli, regional, qlobal); hərəkət zamanına (daimi, uzun, dövri, epizodik, eyni vaxtda); təsir gücünə (güclü, orta, zəif); təsir istiqamətinə (xarici, daxili); dövlətə, onun daxili quruluşu və xarici mühitlə əlaqələrinə təsir xarakterinə (mövcudluq, inkişaf və sürətli tərəqqiyə mane olan təhlükə mənbələri; tərəfdaşlarla bərabər münasibətlərdə yarana biləcək risklər, ölkənin suverenliyinin pozulması, xarici aləmdən tam asılılığın yaradılması və s.); hərbi-siyasi münasibətlərin vəziyyətinə təsir üsullarına (birbaşa, dolayı təhlükə mənbələri, ümumi, mürəkkəb və qismən;) və s. görə təsnif edilir.

Çoxlu sayda əlamətlərin olması hərbi təhlükə mənbələrinin vahid təsnifat sistemini yaratmağı çətinləşdirir. Onların sistemdəki iyerarxik asılılığını müəyyənləşdirmək daha çətin məsələ hesab edilir. Bu iş xüsusi tədqiqat tələb edir. Burada, müəyyən dərəcədə bu problemin həllinə kömək edə biləcək bir sıra müddəalar söyləmək mümkündür:

1). İlk növbədə, hərbi təhlükə mənbələrinin təsnifatı ciddi şəkildə müəyyən edilmiş əsaslarla aparılmalıdır (məsələn, təsir miqyasına, ya da hərəkətin davamlılığına və ya hərəkətin gücünə və s.). Heç bir halda müxtəlif səbəblərə görə müəyyən edilmiş mənbələr bir sıraya qoymamalıdır, çünki bu, mənbələrin tapılması prosesinin çətinləşməsinə gətirə bilər.

2). Bundan əlavə, hər hansı bir hərbi təhlükə mənbəyi, bir qayda olaraq, çoxşaxəli bir xüsusiyyətə malikdir: məsələn, Rusiya Federasiyasının hərbi doktrinasında hərbi təhlükənin əsas mənbəyi kimi qeyd olunan - digər dövlətlərin Rusiya Federasiyasına və müttəfiqlərinə qarşı ərazi iddiaları həm xarici, həm yerli və ya regional (müəyyən şərtlərdən asılı olaraq) təhlükə mənbəyi, həm də uzunmüddətli və ya dövri bir fəaliyyət kimi təsvir edilə bilər. Belə yanaşma hərbi tədqiqatçını və ya politoloqu müəyyən edilmiş mənbəyi hərtərəfli qiymətləndirməyə və mümkün nəticələrin lokallaşdırılması üçün kompleks təkliflər hazırlamağa məcbur edə bilər.

3). Bundan əlavə, müxtəlif meyarlara görə müəyyənləşdirilmiş çoxlu sayda mənbənin hərtərəfli qiymətləndirilməsi əsasında onların arasından dövlətin varlığını daha çox təhdid edən və ya onun inkişafına mane olan mənbələri ayırd etmək olar. 2010 və 2014-cü illərin Hərbi doktrinasının müəllifləri də məhz bu cür addım atmış, Rusiya üçün əsas mövcud (real) və potensial hərbi təhlükə mənbələrini xarici və daxili mənbələrə ayırmışlar. Bununla belə, Rusiya kimi nəhəng bir dövlət üçün hərbi təhlükə və hərbi təhdid mənbələrinin müəyyən edilməsi zamanı Hərbi doktrina kimi fundamental bir konseptual hüquqi sənədin müəllifləri də qeyri-dəqiqliklərdən yayına bilməyiblər. Onlar potensial və mövcud hərbi təhlükələri bir sıraya qoymuş, hərbi təhlükə mənbələri ilə hərbi təhdid mənbələri arasında fərqi ayırd etməmişlər. Məhz bu səbəbdən 2014-cü ildə Rusiyanın Hərbi doktrinası dərc edildikdən sonra yenidən ekspertlər qrupu tərəfindən ciddi tənqidlərə məruz qalmışdır. Nəticədə, hərbi quruculuq prosesinin praktik təşkilatçıları və rəhbərləri, hətta ölkənin hərbi siyasətinə cavabdeh olanlar üçün işlərində prioritet seçmək çətindir.

Buna görə də hərbi təhlükə və təhdid mənbələrini daha dəqiq təsnifləşdirmək lazımdır. Bu problem bu gün elmdə də mübahisəli olaraq qalmaqdadır. Belə ki, milli təhlükəsizliyin təmin edilməsinin konseptual məsələləri arasında təhlükələrlə təhdidlərin nisbəti problemi xüsusi yer tutur [3, c.22].

Oxşar vəziyyətə Azərbaycan Respublikasının 2010-cü ildə qəbul edilmiş Hərbi doktrinasında rast gəlinir. Həmin doktrinanın 20-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təsir göstərən real və potensial təhdidlər qismində xarici və daxili hərbi və siyasi təhdidlər, habelə digər təhdidlər nəzərdə tutulur.

Əsas xarici hərbi və siyasi təhdidlərə aşağıdakılar daxil edilmişdir:

- Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması;
- Azərbaycan Respublikasının daxili işlərinə hər hansı mümkün kənar hərbi müdaxilə;
- Azərbaycan Respublikasının xarici hərbi asılılığa düşməsi;
- Azərbaycan Respublikasına qarşı qonşu dövlətlər tərəfindən ərazi iddialarının irəli sürülməsi;
- Azərbaycan Respublikasının daxili siyasi və sosial-iqtisadi vəziyyətinin gərginləşdirilməsinə, sabitliyin pozulmasına yönəldilmiş hər hansı fəaliyyət növləri, o cümlədən separatçı və dini-ekstremist hərəkatların dəstəklənməsi, digər dövlətlər tərəfindən Azərbaycan Respublikasının ərazisinə göndərilməsi üçün qanunsuz silahlı qrupların və terrorçuların hazırlanması;
- qonşu ölkələrin dövlətlərarası münaqişələrdə iştirakı və ya həmin ölkələrdə daxili münaqişələrin, hərbi əməliyyatların, silahlı qiyamların, yaxud hərbi və ya hərbi-siyasi qeyri-sabitliyin digər formalarının mövcudluğu;
- regional hərbi tarazlığın pozulması və müdafiə yetərliyi həddindən kənara çıxması, o cümlədən regionda və ya Azərbaycan Respublikasının dövlət sərhədlərinin və ərazi sularının bilavasitə yaxınlığında hərbi bazaların yaradılması, qoşun qruplaşmalarının cəmləşdirilməsi, silahların və digər hərbi iştirakın artırılması;
- Azərbaycan Respublikasının dövlət sərhədinin hərbi birləşmələr və silahlı dəstələr tərəfindən pozulması, sərhəd mübahisələri və ya münaqişələrinin kəskinləşməsi;
- ayrı-ayrı dövlətlərin, təşkilatların və terrorçu qrupların hərbi-siyasi iddiaları kontekstində nüvə və digər kütləvi qırğın silahı növlərinin, onların çatdırılma vasitələrinin və ən yeni hərbi istehsal texnologiyalarının yayılması.

Əsas daxili hərbi və siyasi təhdidlər aşağıdakılardır:

- daxili sabitliyin və ölkənin ərazi bütövlüyünün pozulmasına yönəldilmiş terrorçu, dini-ekstremist, millətçi-separatçı təşkilat və strukturların güc tətbiq etməklə həyata keçirdikləri qanunazidd fəaliyyət;
- konstitusiya quruluşu əleyhinə qəsdlər, dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkilati strukturunun dağıdılması və ictimai-siyasi sabitliyin pozulmasına yönəldilmiş cəhdlər;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılması cəhdləri;
- təxribat, terror aktları və digər qanunazidd əməlləri həyata keçirmək üçün istifadə oluna bilən silah-sursatın, partlayıcı maddələrin və digər vasitələrin Azərbaycan Respublikasının ərazisində qanunsuz toplanması və dövriyyəsi;
- Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təhdid yaradan mütəşəkkil cinayətkarlıq və digər qanunazidd fəaliyyət;
- hərbi əhəmiyyətli və mühüm dövlət obyektlərinə, kommunikasiya qurğularına və informasiya infrastrukturuna qarşı silahlı hücumlar və təxribatlar.

Digər təhdidlər aşağıdakılardır:

- təbii fəlakətlər və texnogen qəzalar;

- kütləvi şəkildə qeyri-qanuni miqrasiya;
- radioaktiv, kimyəvi və bioloji materialların qeyri-qanuni dövriyyəsi [4].

İctimai həyatın müxtəlif hadisələri və prosesləri, hətta təbii mühit (geosiyasi və ekoloji amillər) hərbi təhlükə mənbəyi kimi də xarakterizə edilə bilər. Lakin ilk öncə ictimai həyatdakı ziddiyyətlər nəzərə alınmalıdır. Məhz ictimai münasibətlərin subyektləri arasındakı real ziddiyyətlərin təhlili ölkənin hərbi təhlükəsizlik problemlərinin həllində tədqiqatçıları daha düzgün yolla addımlamağa sövq edir. Müharibə, silahlı münaqişə ziddiyyətlərin güc yolu ilə həll edilməsi prosesidir. Bu, ziddiyyətlərin mahiyyətini, onların yaranma səbəblərini öyrənməyə, tərəflərin maraqlarını, bu maraqları qorumaq üçün mümkün qüvvə, vasitə və metodları müəyyən etməyə məcbur edir. Deməli, hərbi-siyasi vəziyyətin daim izlənilməsinə, cari və uzunmüddətli milli-dövlət maraqlarının nəinki müasir dövr, eləcə də ehtimal olunan gələcək üçün, hətta düşmənlərin belə öyrənilməsinə ehtiyac duyulur.

4). Və nəhayət, ölkənin hərbi inkişaf sahəsində ən uyğun kursunu inkişaf etdirmək və xüsusilə, ölkənin Silahlı Qüvvələrinin uzunmüddətli dövrdə quruculuğu üçün əsas diqqəti dövlətin simasını müəyyən edən ictimai həyatın aparıcı sahələri hesab edilən siyasət, iqtisadiyyat və sosial sferada hərbi təhlükələrin öyrənilməsinə yönəldilməlidir.

Hərbi təhlükə mənbələrinin subordinasiyası təhlükələrin öz aralarındakı əlaqənin və asılılığın araşdırması əsasında müəyyən edilə bilər. Ölkənin mövcudluğu üçün iqtisadi münasibətlərdən irəli gələn hərbi təhlükə həlledici rol oynayırsa, onda buna səbəb olan hərbi təhlükə mənbəyi iyerarxik sistemdə müvafiq yerə qoyulmalıdır.

Bütün hərbi təhlükə mənbələri bir-biri ilə sıx bağlıdır və birlikdə hər bir ölkədə, cəmiyyətdə və dövlətlər arasında hərbi gərginlik vəziyyətini xarakterizə edir. Hərbi təhlükə mənbələrinin ətraflı təsnifatı yalnız elmi tədqiqatların aparılması, ölkənin hərbi-siyasi rəhbərliyi üçün metodlar və praktiki tövsiyələrin işləyib hazırlanması və müvafiq məlumat və analitik materialların hazırlanması ilə əhəmiyyət kəsb edir.

Bir ölkəyə hərbi təhlükələrin və hərbi təhdidlərin qiymətləndirilməsi meyarları nəzərdən keçirilərkən bir neçə vacib məqam nəzərə alınmalıdır. Artıq qeyd edildiyi kimi, bir ölkəyə hərbi təhlükə və hərbi təhdidlər dövlətlər, onların koalisiyaları, sosial qrupları və digər siyasi aktorları arasındakı münasibətlərdə real və ya proqnozlaşdırılan gələcək ziddiyyətlərin konkret təzahürləridir.

Hərbi təhlükələr və hərbi təhdidlər bir sıra meyarlara görə qiymətləndirilir: miqyas, zaman göstəriciləri, gərginlik dərəcəsi, təsir istiqaməti, mümkün nəticələr və s. Göstərilən meyarlar həm potensial hərbi təhlükələrin, həm də həqiqi hərbi təhdidlərin qiymətləndirilməsi üçün tətbiq olunur. Miqyas baxımından hərbi təhlükə çox fərqli ola bilər: qlobal (dünyanın aparıcı ölkələri (nüvə dövlətləri), regional (bir sıra bölgələrdə hərbi münaqişələrin yaranması təhlükəsi) və lokal (yerli) - yerli müharibələr və silahlı qarşıdurmalar. Hərbi təhlükənin miqyası qarşı duran tərəflərin hərbi potensialının spesifik kəmiyyət və keyfiyyət xüsusiyyətləri, hərbi münaqişənin mümkün olduğu ərazinin ölçüsü, hərbi-siyasi qarşıdurmada digər ölkələrin, siyasi qüvvələrin iştirak dərəcəsi ilə müəyyən edilir.

Məsələn, dünyada baş verən dəyişikliklərə baxmayaraq hələ də qalmaqda davam edən nüvə silahının mümkün istifadəsi ilə bağlı hərbi təhlükə qlobal təhdiddən başqa bir şey ola bilməz. Hətta ehtimal olunan düşmən nüvə vasitələrindən məhdud şəkildə istifadə etməyə çalışsa belə, münaqişənin böyük bir müharibəyə eskalasiyası çoxlu sayda ölkənin, o cümlədən qeyri-nüvə ölkələrinin iştirakı ilə mümkün ola bilər.

Belə bir müharibənin nəticələrini proqnozlaşdırmaq çətin deyil. Başqa sözlə, nüvə silahına sahib olan bir dövlət və ya koalisiya hərbi təhlükə mənbəyidirsə, o zaman hərbi münaqişə qarşısı alınmayacağı təqdirdə dünya nüvə müharibəsinə çevrilə, qlobal və ya ümumbəşəri xarakter ala bilər.

Regional hərbi təhlükələr dünyanın nisbətən böyük dövlətləri arasında və ya planetin ayrı-ayrı bölgələrindəki ölkələrin koalisiyaları arasında ziddiyyətlərdən qaynaqlanır. Bu təhlükə dünyanın müəyyən bölgələrində hərbi qarşıdurmaya səbəb ola bilər. Əhəmiyyətli hərbi qüvvələr buna cəlb edilə bilər. Bir qayda olaraq, regional miqyasda hərbi təhlükə, qarşı tərəflərə diplomatik, iqtisadi və hətta hərbi yardım göstərməklə bölgədəki gərginliyi qoruya bilən aparıcı dünya güclərinin maraqlarına təsir göstərir.

Zaman baxımından, hərbi təhlükənin qaldığı müddətin davamlılığını daimi, uzunsürən, dövri və epizodik olaraq təsnif etmək olar. Dövlət üçün daimi hərbi təhlükə qonşu dövlət (Türkiyə - Yunanıstan, Ermənistan – Azərbaycan və s.) ilə davam edən ərazi mübahisələrindən, ölkələrin daxilində etno-milli ziddiyyətlərdən (Gürcüstan-Osetiya münaqişəsi, İngiltərə - Olster, Yuqoslaviya düyünü) yarana bilər.

Uzunmüddətli hərbi təhlükə, bir qayda olaraq, iqtisadi xarakterli mübahisəli məsələlər üzrə dövlətlərarası münasibətlərin həll edilməmiş problemləri səbəbindən davam edir. Bəzilərinin qeyri-bərabər siyasi və ya çətin iqtisadi vəziyyəti, başqalarının isə kəskin şəkildə zənginləşməsi əsasında ölkə daxilində əhalinin müxtəlif sosial təbəqələri arasında kəskin ziddiyyətlərin mövcud olacağı təqdirdə vətəndaş müharibəsi təhlükəsi öz mövcudluğunu saxlayacaq. Bu cür potensial hərbi təhlükə postsovet məkanında Rusiya, Ukrayna, Ermənistan üçün də mövcuddur.

Daimi və uzunmüddətli davam edən hərbi təhlükə ilə yanaşı, epizodik və dövri hərbi təhlükələr də mövcuddur. Epizodik hərbi təhlükədən fərqli olaraq dövri hərbi təhlükə müxtəlif illər ərzində bir neçə dəfə təkraralanan hadisədir. Məsələn, Kuril adaları uğrunda XX əsrdə dövri olaraq baş vermiş rus-yapon ziddiyyətləri buna misal ola bilər.

Gərginlik dərəcəsinə görə hərbi təhlükələr cəmiyyətin, dövlətin həyatının bütün sahələrinə təsir edən və onun mövcudluğunun əsaslarını sarsıdan **total (ümumi)** hərbi təhlükə; **yüksək** - ölkə həyatının əsas sahələrinə təsir edən və dövlətdən öz təhlükəsizliyini təmin etmək üçün əhəmiyyətli dərəcədə səy tələb edən; **mülayim** və **zəif** kimi xarakterizə edilə bilər**.** Son ikisi, müvafiq olaraq, daha az sərt xüsusiyyətlərə malikdir və dövlətin onların cəmiyyətin inkişafına neqativ təsirlərinə qarşı hərtərəfli səylər tələb etmir.

Hərbi təhlükələri dövlətin və ya cəmiyyətin mühüm obyektlərinə təsir istiqamətlərinə uyğun olaraq fərqləndirmək olar. Nəzərə almaq lazımdır ki, bu cür fəalliyyətlərin həyata keçirilməsinə qarşıduran tərəflər səy göstərir. Bu, ölkənin iqtisadi sisteminin və ya siyasi quruluşunun dağıdılması, onun müdafiə qüdrətinin məhv edilməsi və ya ərazisinin qəsb edilməsi, xammal mənbələrinin ələ keçirilməsi təhlükəsi ola bilər.

Hərbi təhlükə mənbələrinin təsnif edilməsi, bu təhlükə və təhdidlərin meyarlarının müəyyənləşdirilməsi ölkənin hərbi təhlükəsizliyi problemlərinin öyrənilməsi üçün təkcə nəzəri əhəmiyyət kəsb etmir, eyni zamanda hərbi təhlükə və təhdidlərin proqnozlaşdırılması üçün ilkin parametrlərin, bu işin praktik icrası üçün metodiki göstərişlərin hazırlanmasına öz töhfəsini verir.

Hərbi təhlükə və təhdidlərin qiymətləndirilməsi özünü onların genezisini, hərbi-siyasi və strateji xarakterini təhlil edən yaradıcı bir prosesdir. Hərbi təhlükə və təhdidlərin xarakterini və onlara qarşı tədbirlərin istiqamətini müəyyənləşdirən aparıcı amillər arasında təhlükə və təhdid mənbəyi həlledici yer tutur. Milli təhlükəsizliyə təhdidlərin inkişaf etmiş təsnifatı qeyd edilən mənbələrin müxtəlifliyini göstərir və onlar arasında hərbi təhdidlər olduqca mühüm yer tutur.

Əslində bir ölkənin hərbi-siyasi rəhbərliyi öz maraqlarına yönəlmiş ziddiyyətləri aradan qaldırmaq məqsədilə güc metodundan istifadə edərək qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün hərbi güc tətbiq etmək niyyətində olduqdan sonra milli təhlükəsizliyə təhdid hərbi xarakter alır.

Milli təhlükəsizliyə təhlükə və təhdid mənbəyi beynəlxalq münasibətlərin (hərbi-siyasi münasibətlər) qarşılıqlı fəaliyyət göstərən subyektlərinin maraqlarının toqquşması nəticəsində yaranan ziddiyyətdir.

Eyni zamanda, beynəlxalq aləmdə qarşılıqlı fəaliyyət göstərən dövlət və ya qeyri-dövlət aktorları və onların koalisiyaları tərəfindən müəyyən edilə bilən uzunmüddətli strateji (rəqiblərin

geosiyasi maraqları), ortamüddətli və taktiki maraqları (məqsədləri) ayırmaq olduqca vacibdir. Milli təhlükəsizliyə təhlükə və təhdid mənbələri qarşılıqlı fəaliyyət göstərən subyektlərin daxili və xarici siyasətinin bütün aspektlərindəki daxili siyasi ziddiyyətlər nəticəsində meydana gələ bilər. Dünyanın aparıcı ölkələri və onların koalisiyaları, regional güclər və ya ayrı-ayrı dövlətlər qismində bir-birinə qarşı duran tərəflərin inkişaf səviyyəsi və geosiyasi rolu çox vaxt maraqların toqquşma miqyasını və onların yaratdığı ziddiyyətləri müəyyənləşdirir.

Milli təhlükəsizliyə təhdid mənbəyi kimi təbii və texnogen fəlakətlər də nəticələrin miqyasına görə dəyişə bilər. Müvafiq olaraq, milli təhlükəsizliyə təhlükə və təhdid mənbəyi onun qlobal, regional və ya lokal miqyasını əks etdirə bilər.

Aydındır ki, ərazinin zəbt edilməsinə, iqtisadiyyatın dağıdılmasına, milli sərvətlərin (təbii ehtiyatlar və digər maddi dəyərlər daxil olmaqla) ələ keçirilməsinə və mövcud dövlət hakimiyyətinin məhv edilməsinə yönəlmiş hərbi təhdidləri maraqların qarşıdurması adlandırmaq mümkündür. Bu zaman münaqişə tərəflərinin barışmazlığı və silahlı mübarizə vasitələrindən öz maraqlarının müdafiəsi üçün istifadə etmək əzmində olması diqqəti cəlb edir.

Nəticə

Beynəlxalq münasibətlər sistemi dövlətlər arasındakı hərbi-siyasi, sosial-iqtisadi və digər sosial fəaliyyət sahələrini əhatə edir və həmin sahələrdə meydana çıxan müxtəlif profilli problemləri tənzimləyir. Bu istiqamətdə dövlətlərin siyasi iradələrini əks etdirən hüquq normaları əsas tənzimləyici rol oynayır. Postsoyuq müharibə dövründə klassik zorakı qarşıdurmaların nadir hadisəyə çevrilməsi, daxili münaqişələrin və qeyri-dövlət aktorlarının rolunun artması müasir beynəlxalq münasibətlər sistemində hərbi təhlükə mənbələrinin destruktiv potensialını bir qədər də artırmış olur. Klassik hərbi təhlükə mənbələri zəifləsə də, öz varlığını saxlamaqdadır. Lakin dövlətdaxili və transmilli hərbi təhdid mənbələrinin rolunun artması qlobal və regional təhlükəsizliyi daha çox sarsıdır. Qloballaşma, «ikili standartlar», transmilli münasibətlər sisteminin geniş vüsət tapması və beynəlxalq hüquq normalarının yeni təhdidləri tənzimləməkdə acizliyi müasir hərbi tahlükə və təhdid mənbələrinə qarşı təsirli və obyektiv mübarizənin aparılmasına imkan verməyəcək.

ƏDƏBİYYAT

1. Quliyev B.Ş. Nəcəfov Z.N. Hərbi siyasət və hərbi təhlükəsizlik / Milli təhlükəsizlik və hərbi elmlər elmi – praktik jurnal 2017-ci il, cild 3, №1 s.32-38
2. *Ali Baş Komandan institutu*. *Süleymanov M.*S. Bakı: 2017. 504 s.
3. Основы национальной безопасности. Учебное пособие / М. Ф. Гацко. Издание Ногинского филиала РАНХ и ГС. - Ногинск: - 2014. - 130 с.
4. Azərbaycan Respublikasının Hərbi doktrinası. Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli 1029-IIIQR nömrəli Qərarı ilə təsdiq edilmişdir.

MÜASİR HƏRBİ TƏHLÜKƏ VƏ TƏHDİD MƏNBƏLƏRİNİN DÖVLƏTLƏRARASI SİYASİ MÜNASİBƏTLƏR SİSTEMİNƏ TƏSİRİ

XÜLASƏ

Məqalədə dövlətlərarası siyasi münasibətlər sisteminə hərbi təhlükə mənbələrinin təsiri, hərbi təhlükə və hərbi təhdid mənbələrinin müxtəlif meyarlara görə təsnifatı və hərbi təhdidlərin növləri araşdırılır. Diqqət mərkəzində hərbi təhlükə ilə hərbi təhdid anlayışları arasındakı məna fərqlərinin aydınlaşdırılması dayanır. Çünki bu problemə aydınlıq gətirmədən hərbi quruculuq prosesinin praktik təşkilatçıları və rəhbərləri, hətta ölkənin hərbi siyasətinin cavabdehləri üçün bu sahədə məqsədyönlü fəaliyyəti təmin etmək çətin olur.

ВЛИЯНИЕ ИСТОЧНИКОВ СОВРЕМЕННЫХ ВОЕННЫХ УГРОЗ И ВЫЗОВОВ НА СИСТЕМУ МЕЖДУНАРОДНЫХ ПОЛИТИЧЕСКИХ ОТНОШЕНИЙ

АННОТАЦИЯ

В статье рассматривается влияние источников военной угрозы на систему межгосударственных политических отношений, классифицируются источники военной угрозы и военных вызовов по различным критериям и видам военных угроз. Основное внимание уделяется выяснению различий в значении между понятиями военной угрозы и военных вызовов. Без прояснения этой проблемы практическим организаторам и руководителям формирования военного процесса, тем, кто отвечает за военную политику страны, трудно обеспечить целенаправленную деятельность в этой области.

INFLUENCE OF MODERN MILITARY THREATS AND CHALLENGES ON THE SYSTEM OF INTERNATIONAL POLITICAL RELATIONS

SUMMARY

The article considers the influence of sources of military threats on the system of interstate political relations, classifies the sources of military threats and military challenges by different criteria and types of threats. The main attention is paid to the clarification of differences between the concepts of military threats and military challenges. Without explaining this problem to the practical organizers and leaders of the formation of the military process, those who are responsible for the military policy of the country, it is difficult to ensure targeted activities in this area.

DÖVLƏTİN İNVESTİSİYA SİYASƏTİ VƏ ONUN ƏSAS İSTİQAMƏTLƏRİ

dos. Kutais Sarıyev
BDU-nun İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi
dos. Zöhrab Eyvazov
BDU-nun İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi

Açar sözlər: İnvestsiya potensialı, innovasiya yönümlü investisiyalar, investisiya riski, ərazi investisiyaları.
***Ключевые слова*:** Инвестиционный потенциал, инновационные инвестиции, инвестиционный риск, территориальные инвестиции.
***Keywords*:** Investment potential, innovative investments, investment risk, territorial investments.

Dövlətin investisiya siyasəti investisiyaların təhlükəsizliyinə yönəldilir ki, bu təhlükəsizlik, investisiyaların investisiya bazarında baş verən proseslərdən asılı olmamasını və gəlirin sabitliyini nəzərdə tutur.

Ölkəmizin iqtisadi təhlükəsizliyi və tərəqqisi xeyli dərəcədə neft sektoru ilə əlaqədardır və bu sahənin inkişafı xarici investisiya qoyuluşları ilə təmin edir. Neft bölməsində layihələrin reallaşdırılması üçün ayrılan böyük maliyyə qoyuluşları zəngin karbohidrogen resursları hasilatı hesabına ödəniləcəkdir. Təbbi ki, bu sahə daha çox investisiyaları geri qaytarmaq imkanındadır. Lakin təbii sərvətlərin hesabına əlverişli investisiya siyasəti yeritmək iddiası həmişə özünü doğrultmur. Buna mane olan əhəmiyyətli amillərə: investisiya bazarında və mütəxəssislər arasında arzuolunmaz səviyyəsi şəraitində xarici investisiyaların müvafiq imkanları tam gerçəkləşdirilmir.

İqtisadi siyasətin tərkib hissəsi kimi xarici investisiyaların cəlb edilməsi siyasəti daxili potensialı fəallaşdırılmalıdır. Bazar münasibətlərinin təşəkkülünün müxtəlif mərhələlərində bu potensialın gerçəkləşməsinə yanaşma müxtəlif olsa da, ümumi metodoloji yanaşma elementləri də yox deyildir. Xarici investisiyaların cəlb olunması sahəsində iqtisadi siyasətin əsas istiqamətləri aşağıdakı təxirəsalınmaz vəzifələrin həll edilməsinin zəruriliyindən asılı olmalıdır:

- Xarici investorlar üçün əsas hissəsi vergi rejiminin sabitliyi olan hüquqi və təşkilati şəraitin yaradılması;
- Kommersiya risklərinin azaldılmaz hesabına ölkənin nüfuzunun yüksəldilməsi;
- Potensial xarici investorların axtarılması və cəlb olunması üzrə təşkilatların funksiyalarının vahid dövlət orqanında toplanması və s.

İnvestisiuya siyasətində dövlətin üstünlük verəcəyi istiqmaətlər aşağıdakılardır:

- Xammalın daha dərindən emalı, aztullantılı və tullantısız texnologiyaların geniş tətbiqinə vəsait qoyuluşu;
- Yüksək texnoloji məhsul istehsalında v
- Müasir infrasturkturun inkişafında ölkənin rolunun artırılmasına investisiyaların cəlb edilməsi;
- Xidmət sahələrinin kompleks inkişafının investisiyalaşdırılması və s.

Sözü gedən istiqmaətlər milli iqtisadiyatda həyata keçirilən islahatların səmərəliliyindən, o cümlədən dövlətin investisiya siyasətinin əsaslandırma səviyyəsindən və təminatından asılı olaraq reallaşdırılacaqdır.

Milli iqtisadiyyatda xarici kapitalın cəlb olunması sahəsində dövlətin investisiya siyasətində rolu aşağıdakı əsas prinsip və istiqmaətlər üzrə reallaşdırılmalıdır:

İnvestisiya və innovasiya arasında nisbət xüsusi əhəmiyyətə malikdir. Bu, xüsusilə, iqtisadi inkişafın dövriliyi ilə şərtlənir. Innovasiya impulsu təbii və digər resurslardan qənaətlə istifadə üçün yeeni imkanlar açır. Əlbəttə, resursqoruma nə qədər aktual məsələ olasa da, bütün hallarda

investisiyaları innovasiyalara yönəltmək imkan xaricindədir. Buna edilən cəhdlərin reallığı isə məqsəd və vəsaitlərin müvafiqliyindən həlledici dərəcədə asılıdır.

Göründüyü kimi bazar iqtisadiyyatı şəraitinidə cəmiyyətin artmaqda olan sosial-iqtisadi tələbatının ödənilməsi mövcud istehsal potensialından tam və səmərəli istifadə edilməsi, ETT-nin nəaliyyətlərinin istehsala tətbiqi və bu kimi yeniliklər investisiya qoyuluşlarından asılıdır. Bu baxımdan, cəmiyyətin həyatında investisiya qoyuluşlarının əhəmiyyəti və rolu son dərəcə artmış olur. Ölkədə makroiqtisadi göstəricilərin yüksəldilməsi, ümummilli məhsulun strukturunda aparıcı sahələrin, xüsusilə strateji sahələrin rolunun və həmiyyətinin getdikcə artırılmasını tələb edir.

İnvestisiya siyasətinin səmərəliliyi qarşı tərəfin, yəni investisiya yönəldən dövlət xarici maliyyə institutlarının məqsədlərindən bilavasitə asılıdır. Investisiya siyasəti təbii ki, yığım normasına etinasız qala bilməz.

Azərbaycan sənayesinin coxsahəli olmasını nəzərə alaraq, burada struktur – investisiya siyasətinin aparıcı meyli, xammal – material resurslarının ən yeni texnika və texnologiya əsasında emal olunaraq, dünya standartlarına cavab verən yüksək keyfiyyətli, dünya bazarında rəqabətə tab gətirə bilən son hazır məhsul şəklində ixrac potensialını artırmağa istiqamətlənməlidir.

Əlbəttə, belə yanaşma təbii ehtiyatlardan istifadənin səmərəliliyi problemini xüsusilə aktuallaşdırır. Investisiya siyasəti həmin problemi həll etmək üçün ekoloji təmiz texnologiyaların tətbiqinə təkan verir.

Xarici investisiyaların milli iqtisadiyyatın inkişafında müsbət rolu xeyli dərəcədə investisiya siyasətinin sosial yönümündə təzahür edir. Xarici investisiyaların ölkəmizin təbii ehtiyatlarının istifadəsində iştirakının əsas istiqamətlərindən biri kimi əldə edilən mənfəətin əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, xalqın ümumi sərvətlərinin ədaətli bölgüsünə yönəldilməsinin təmin edilməsi olduğu fikri iilə razılaşmamaq mümkün deyildir.

İnvestisiya fəaliyyətini tənzimləmək üçün dövlət vergi və kredit dərəcələrinin, texniki-sanitar-gigiyenik normaların, arxitektur normaların dəyişdirilməsini həyata keçirir. Eyni zamanda investisiya ilə yığım arasında birbaşa əlaəqlər mövcuddur. Belə ki, əhalisinin gəliri az olan ölkələrdə məcmu gəlir əsasın əhalinin istehlak tələbini ödəmək üçün istifadə edildiyindən, onun çox az hissəsini investisiya kimi müəssisənin inkişafına yönəltmək mümkün olur. Məcmu gəlir tədricən artdıqca tələbin strukturu da dəyişir (Engel qanunu).

Gələcəkdə qeyri-neft sektorunun payının artırılması onun səmərəliliyini yüksəldə bilər. Bu məqsədlə aşağıdakılar tövsiyə olunur:

1. Xarici investisiyalarda emal sənayesinin, xüsusilə qeyri-neft sektorunun payının artırılması tədbirlərinin həyata keçirilməsi;
2. Qeyri-neft sektoruna investisiyaların cəlb edilməsini yaxşılaşdırmaq məqsədilə stimullaşdırıcı xarakterli hüquqi-iqtisadi mexanizmlərin tətbiqi;
3. Ölkə sənayesində əsas istehsal fondlarının yüksək fiziki və mənəvi köhnəlmə səviyyəsini nəzərə alaraq investisiya qoyuluşlarının texnoloji strukturunda mütərəqqi dəyişikliklərə nail olmaq istiqmaətində təsirli tədbirlər görülməlidir. Xarici investisiyalarda yeni texnika və texnologiyaları özündə əks etdirən investisiyalara daha çox üstünlük verilməlidir.

ƏDƏBİYYAT

1. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət Tənzimləməsinin əsasları. Metodik vəsait. Bakı: "İqtisad Universiteti" – 2011. 120 s.
2. Şəkərəliyeva Z.A. Keçid iqtisadiyyatında xarici investisiya qoyuluşunun zəruriliyi və onun nəzəri aspektləri. Bakı 2003.
3. İbrahimov F.M. Azərbyacan iqtisadiyyatına yönəldilən xarici investisiyalar və onun milli iqtisadiyyatının dirçəlməsində rolu. Bakı 2007.

4. Əliyev A.L. Azərbaycan sənayesində xarici və daxili investisiyalardan səmərəli istifadə problemləri. Bakı 2004.
5. Mahmudova X.C. Bazar iqtisadiuiyatına keçid dövründə Azərbaycan sənayesinə investisiya qoyuluşlarının əsas istiqamətləri. Bakı 2000.
6. Məmmədov İ.S. Azərbaycan sənayesində investisiya fəaliyyəti və onun təkmilləşdirilməsi. Bakı 2005.

XÜLASƏ

Məqalədə dövlətin investisiya siyasətinin əsas istiqmaətləri və onların prioritet sahələrə yönəldilməsi imkanları şərh olunur. Həminçinin regionların sosial-iqtisadi inkişafında investisiya qoyuluşlarını zəruri edən əsas cəhətlər izah olunur. Məqalənin sonunda bir sıra təklif və tövsiyyələr verilir.

АННОТАЦИЯ

В статье разъясняются основные направления государственной инвестиционной политики и возможности направления их в приоритетные направления. Также объясняются основные аспекты, требующие инвестиций в социально-экономическое развитие регионов. Ряд предложений и рекомендаций приведены в конце статьи.

SUMMARY

The article explains the main directions of public investment policy and the possibility of directing them in priority areas. Also explain the key aspects that require investment in the socio-economic development of regions. A number of suggestions and recommendations are given at the end of the article.

CİNAYƏT TÖRƏTMİŞ ŞƏXSLƏRİN SOSİAL HÜQUQİ VƏZİYYƏTİ

Sultanova Xədicə Sahib qızı
BDU-nun II kurs tələbəsi
sultanova.khadija@gmail.com

Açar sözlər: cinayət , məhbuslar , cəzaçəkmə müəssisəsi, insan hüquqlar
Key words: crime, prisoners , jail , human right
Ключевные слова: преступление, заключенных , тюремное заключение , права человека

Cəmiyyət dedikdə, iradəyə malik fərdlərin yığımı başa düşülür. Tarixi və sosioloji elmlər təsdiq etdiyi kimi, fərdlərin insan cəmiyyətində birləşməsi yalnız ümumi maraqlar əsasında baş verir. Ümumi mənafelərsiz cəmiyyət ağlasığmazdır. Cəmiyyətdə təkcə oxşar deyil, həm də bir-birinə əks mənafelərin mövcudluğu bu fikrə heç də zidd deyildir.

